**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# AZƏRBAYCAN BAYATILARI

**BAKI – 2022**

**AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.**

**LAYİHƏ RƏHBƏRİ: Muxtar KAZIMOĞLU (İMANOV)**
akademik

**TƏRTİB EDƏN: Ləman VAQİFQIZI (SÜLEYMANOVA)**
filologiya üzrə fəlsəfə doktoru, dos.

**REDAKTORU: Əfzələddin ƏSGƏR**
filologiya üzrə elmlər doktoru, prof.

**Azərbaycan bayatıları.** Bakı, Elm və təhsil, 2022, - 316 səh.

İSBN 978-9952-835-95-3

Kitaba bu günədək xalq arasından toplanmış və müxtəlif toplularda çap olunan bayatılar salınmışdır. Burada eləcə də, müxtəlif mərasimlərdə, məclislərdə və xalq həyatında icra olunan bayatılar verilmişdir.

folklor.az

A 4603000000 / N-098-2022 Qrifli nəşr

© Folklor İnstitutu, 2022

# ÖN SÖZ

Bayatı olduqca mütəhərrik janrdır. Bu janr beşik başında deyildiyi zaman layla olur, yaslarda söyləndiyi zaman ağıya dönür, toylarda oxunarkən mahnı adlanır və s. Demək olar ki, bütün bölgələrimizdə bayatı formasında oxunan mərasim nəğmələri mövcuddur: “Yaşıl yarpaq, qızılgül”, “Ay dönə-dönə”, “Tunqay Məlik”, “Yar bu meşənin odunu”, “Arazua xan boyuna” və s. Bayatının ifası bu mərasimlərdən asılıdır. Bayatı yaradıcılığının özəyi bu mərasimlərdir. Bu gün həmin mərasimlər keçirilmədiyi üçün orda oxunan bayatılar da unudulmaq üzrədir. Bu da tamamilə təbii haldır. Çunki mərasim özü yoxdursa, orada ifa edilən nəğmələr də yaddan çıxmağa məhkumdur. Azərbaycanın müxtəlif bölgələrində folklor toplamalarında olduğumuz zaman, eləcə də müxtəlif toplulara salınmış mərasim bayatılarını incələdiyimizdə eyni bayatının bir neçə mərasimdə ifa olunduğunu görürük. Biz də onları olduğu kimi kitaba saldıq. Həmin bayatılar bu gün həm də müstəqil bayatılar kimi xalq arasında dolaşır və bu müstəqil bayatılar da mərasimlərdən qopub gəlir. Yəni bayatının funksional olaraq yeri tapılmasa, bayatı havada qalır.

Arxaik təfəkkürdə sözruhları şad etmək mahiyyəti daşıyırdı. Toyda söylənən bayatıların simvolikasına baxdığımız zaman onların xoşbəxtliyə, murada, xeyir-bərəkətə həsr olunduğunu görürük. Bununla sanki məclis dualanır.

Toy mərasimlərində oxunan nəğmələrin əksəriyyəti oğlan və qız evindən olan qız-gəlinin üz-üzə dayanaraq oxuduqları bayatılardır. Onlar atışma və sataşma səviyyəsində söz yarışına girərdilər. Adətən, hər dəstədən bir qadın nəğmənin dörd misralı hissəsini (yəni bayatını) oxuyar, dəstənin qalan üzvləri isə xorla nəqarəti deyərdilər. Bu nəğmələr adlarına və ifa xüsusiyyətlərinə görə bölgələr üzrə dəyişir:

*Gülümeylər*. Dairəvi şəkildə düzülən qızların oxuduqları nəğmələrdir. Daha çox xına gecələrində oxunarmış.

*Yaləllilər*. Qız evini və oğlan evini təmsil edən qız-gəlin qarşı-qarşıya dayanar və oxuyardılar.

*Haxıştalar.* Qız evini və oğlan evini təmsil edən qız-gəlinin üz-üzə dayanar, xüsusi ritmlə (reçitativlə) oxuyardılar. Haxışta adlanan nəqarətlə sona çatan nəğmələrdir.

*Halaylar.* Üz-üzə və qarşı-qarşıya oxunan nəğmələrdir.

*Haylalar.* Azərbaycanda vaxtilə geniş yayılmış tənbur sənəti hal-hazırda yalnız Zaqatala-Balakən bölgəsində yaşayır. Bu bölgədə tənbura dambır, dambırla oxunan mahnılara isə hayla deyirlər. Haylalar həm solo, həm də deyişmə şəklində oxunur.

*Ağılar*ın bütün simvolikası ölünün ruhunu oxşamağa yönəlib. Yasda həyata keçirilən aktlar, həmçinin ağı demək ölünün ruhunu razı salmaq üçün icra edilir.

*Vəsfi-hal,* adətən, Novruz bayramında icra olunan mərasimlərdən biridir. Axır çərşənbə günü qız-gəlin bir yerə toplaşar, ilin onlar üçün necə keçəcəyini müəyyənləşdirmək üçün vəsfi-hal bayatıları deyərdilər. Onlar əvvəlcə ortaya su dolu bir qab qoyar, onun üstünə örtük salar, hər kəs də özünün bir əşyasını (üzük, sancaq, düymə və s.) həmin qaba atardı. Bir nəfər həmin qabın qarşısında əyləşər, bayatı deyə-deyə əlini örtüyün altından qaba salıb, əşyalardan birini çıxarardı. Deyilən bayatının məzmunu tutulan diləyə uyğun yozulardı.

Arxaik cəmiyyətdə mərasim magik funksiya daşıyırdı. Söz də mərasimin içində olduğu üçün təbii ki, bu funksiyadan yan keçmir. Məsələnin estetik hadisəyə çevrilməsi nisbətən sonrakı dövrlərə aiddir. Bayatının magik funksiyası hal-hazırda özünü daha çox vəsfi-hallarda qoruyub saxlaya bilmişdir.

Saya mərasimi ilə bağlı bayatılar kitabda "Sayaçı sözlər" başlığı altında verilmişdir. Heyvandarlıqla bağlı müxtəlif mərasimlərdə (döl, yun qırxımı, yaylağa köçmə, arana getmə və s.) ifa olunmuşdur. Bunlar ev heyvanlarına, mallara, daha çox qoyun və keçilərə həsr edilmişdir.

Azərbaycanda uşağın doğulması ilə bağlı silsilə mərasimlər başlayır; uşaq görməsi, uşağın və zahının qırxının tökülməsi, süd dişinin çıxması ilə bağlı hədiyin bişirilməsi, qırx tükünün qırxılması, oğlan uşaqlarının sünnət olunması və s. Bütün bu mərasimlərin keçirilməsi, orada icra olunan ritualların bolluğu

onu göstərir ki, xalqımız ailədə uşağın doğulmasına və yaxşı tərbiyə almasına nə qədər həssasdır. Uşağın yaxşı yetişməsində laylaların da əvəzsiz rolu vardır. Layla ana ilə uşaq arasında ilk ünsiyyət vasitəsidir. Layla övladla onun nəsil şəcərəsi, soykökü arasında bir bağ yaradır.

Laylalar böyük bir qismi bayatı şəklində söylənir, sonuna "balam, laylay", "gülüm, laylay", "körpəm, laylay" kimi nəqarətlər artırılır. Ötən əsrin 70-80-ci illərinə qədər Azərbaycanda beşik başında layla deməyən ana, nənə tapmaq, bəlkə, də, mümkün deyildi. Çox təəssüf ki, müasir dövrümüzdə layla söyləməyi bacaran qadınların sayı sürətlə azalmaqdadır. Ona görə də kitabda laylaların da verilməsini məqsədəuyğun hesab etdik.

Sonda onu da qeyd edək ki, kitab kütləvi nəşr prinsiplərinə uyğun hazırlanmışdır.

Fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova)

## BAYATILAR VƏ AĞILAR

1. Xırmanda şana qaldı,
Sancıldı şana qaldı,
Yarımın al dəsmalı,
Məndə nişana qaldı.

2. Al almanı at, oğlan,
Armud gətir, sat, oğlan.
Qonşu qızı yaxşıdı,
Al, yanında yat, oğlan.

3. Atım qaşqa-qaşbaqdı,
Yükü təhnə-tabaqdı,
Dilin tutulsun, xoruz,
Niyə dedin sabahdı.

4. Əzizinəm, Alınca,
Əl çatmazdı Alınca.
Üzülüb əldən getdim
Yar könlünü alınca.

5. Arazım kəm üstədi,
Axarı nəm üstədi,
Aşıq bir hava çalır
O da ki, qəm üstədi.

6. Bu dağda ilan olmaz,
Dərdimi bilən olmaz.
Dərd dərdə söykənəndə
Sevinən, gülən olmaz.

7. Ala yaylaqlar,
Çəmən-çala yaylaqlar,
Sən ki köçüb gedibsən
Viran qala yaylaqlar.

8. Getdiyin bir il oldu,
Xaraba bağ gül oldu,
Dedin ki, tez gələrəm,
Nə yalançı dil oldu?

9. Havışda hava bilmirəm,
Suyumu sova bilmirəm,
Başımda yüz qəza var,
Birini qova bilmirəm.

10. Bu gəlin saşdı gəlin,
Divardan aşdı gəlin.
Bu gəlinə nə gəldi,
Evindən qaşdı gəlin?

11. Paltarı boxça saxlar,
Boxçanı taxça saxlar.
Anam xəbərdar olsun,
Yar məni yaxşı saxlar.

12. Buz üstə,
Ürək yanar, buz istər,
Sənə ümid bağladım,
Sən də saldın üz üstə.

13. Bu taya qəlbi taya,
Kölgəsi düşüb çaya.
Qəfil öldün, ay oğlan,
Əməyin getdi zaya.

14. Dərvişlərdə tac olar,
Dərviş gözü ac olar,
Analar bala verməz,
Versə, naillac olar.

15. Yüz dənə,
Əlli dənə, yüz dənə,
O günə qoy od düşə,
Göz görməyə, üz dönə.

16. Arxalığın dizdən yar,
Gəl qapıda gizdən, yar.
Kimlər sənə nə dedi,
Ayaq kəsdin bizdən, yar.

17. Dərələr buz bağladı,
Yanı yarpız bağladı.
Gəldi bir naşı həkim,
Yarama buz bağladı.

18. Ayran ver ayransıza,
Qalmaz bu dövran sizə.
Biz də bir inək allıq,
Vermərik ayran sizə.

19. Naxçıvan düzən yerdi,
Xanımlar gəzən yerdi,
Əlini ver halallaşaq,
Bura əlüzən yerdi.

20. Əzizim, Araz məni,
Öldürdü Araz məni,
Çıxarın qəbrimdən,
Ovudun bir az məni.

21. Aşiqəm, qara balıq,
Ağ balıq, qara balıq,
Mən burdan gedər olsam,
Qoy qalsın xarabalıq.

22. Qoyun-quzu yanında,
Otlar düzü yanında,
Anam məni neyləyir,
Kiçik qızı yanında.

23. Mən aşıq, bu hay-haya,
El yatmaz bu hay-haya.
Heç bəndənin balası
Qalmasın hay-haya.

24. Yaralıyam, yatmanam,
Dərdi batman-batmanam,
Adın gələr dilimə,
Axşam-səhər yatmanam.

25. Əzizim, üzə düşdü,
Qara tel üzə düşdü,
Aləmə püşk atdılar,
Ayrılıq bizə düşdü.

26. Əzizim, gül tikənə,
Sarmaşıb gül tikənə,
Aləm gözün dikibdi
Mən gözümü dikənə.

27. Dağların daşı durmaz,
Sel gələr, başı durmaz.
Gözlərim gözün görsə,
Gözümün yaşı durmaz.

28. Bircə belə mumudum,
Su qoynunda qumudum.
Nə kimim var, nə kimsənəm,
Sənsən mənim umudum.

29. Gedirsən, yara deynən,
Telini dara deynən.
Əgər məni soruşsa,
Günümü qara deynən.

30. Araz deyiləm, daşam.
Qum deyiləm qaynaşam.
Apar zərgər yanına
Gör nə qiymətdə daşam!?

31. Gəmim dəryada qaldı,
İşim fəryada qaldı.
Ölməyimdən deyiləm,
Sevdiyim yada qaldı.

32. Bu dərədən xan gedər,
Açma yaram, qan gedər,
Həkim, təbib neyləsin
Əcəl gəlib can gedər.

33. Ələyəzin ucundan,
Bir nar aldım xurcundan.
Doğma oğul yad olub,
Yad qızının ucundan.

34. Bayatının arası,
Qələm qaşın qarası.
Bir gözəl yar sevmişəm,
Yox dərdimin çarası.

35. Ay batdı, qaş qaraldı,
Didəmdə yaş qaraldı.
Dərdimi deyə-deyə,
Dağ yandı, daş qaraldı.

36. Araz haşalı yandım,
Odu maşalı yandım.
Bu aləmə od düşdü,
Mən tamaşalı yandım.

37. Gəmi ollam, dolannam,
Araz ollam, bulannam.
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam.

38. Qəlyanın yana-yana,
Tütün qoy yana-yana.
Canıma od salmısan,
Qalmışam yana-yana.

39. Arazam, lilə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Mən burda bənd olmazdım,
Bir şirin dilə bəndəm.

40. Arazın Kür üstündən,
Gəmini vur üstündən.
Sən ki təbib deyilsən,
Yaramın dur üstündən.

41. Qəribəm, ağarar başım,
Yastığa damar yaşım.
Baş yastığa yenəndə,
Gəlsin qohum-qardaşım.

42. Dam üstə yatan oğlan,
Qan-tərə batan oğlan.
Nişanlını apardılar
Bixəbər yatan oğlan.

43. Bülbüləm, qəfəsdəyəm,
Gör necə həvəsdəyəm.
Yaralanmış quş təki
Ürəyimdən xəstəyəm.

44. Bu maral ayıq deyil,
Yatıb da ayıq deyil.
Yarını atıb gedən
Adına layiq deyil.

45. Araz kimi axıram,
Yandırıram, yaxıram.
Gözlərində gözüm var,
Həsrət ilə baxıram.

46. Ay doğdu, bəs deyilmi?
Qalaylı tas deyilmi?
Qızın ala gözləri
Oğlana bəs deyilmi?

47. Evləri Dərə kəndi,
Gümüşdən sinəbəndi.
Baxaram, yar görünməz
Yaxaram belə kəndi.

48. Dəsmal atdım söyüdə,
Söyüd onu böyüdə.
Dəsmal, səni saxlaram
Qara gözlü iyidə.

49. Vardı bir sözüm sənə,
Düşübdü gözüm sənə.
Pulum yoxdu qurban alım,
Qurbanam özüm sənə.

50. Bulaqda daş olaydım,
Daşla sirdaş olaydım.
Suya gedən qızlara
Hər gün yoldaş olaydım.

51. Arazın adaları,
Xoş gəlir sədaları.
Mənim canıma gəlsin
Yarımın qadaları.

52. Pəncərədə şüşəsən,
Sivişəsən, düşəsən.
Məni yardan ayıran,
Yaman dərdə düşəsən.

53. Ürəyimdə yara var,
Üstündə xal qara var.
Aç ürəyimin başını,
Gör yanmamış hara var?

54. Oğlan, adın bəydi, gəl,
Dərdin məni əydi, gəl.
Sənin sevdiyin yara
Düşmən əli dəydi, gəl.

55. Heyvalıqdan yolum var,
Anam qoymur gəlim, yar.
Demə ki, bivəfadı,
Sənə qurban olum, yar.

56. Əmim oğlu biçində,
Köynəyi tər içində.
Getdim tərin silməyə,
Qaldım tikan içində.

57. Bir yaralı qoçam mən,
Yaram qoymur qaçam mən.
Harda yaralı görsən,
Orda yara açam mən.

58. Çarqatlar, ağ çarqatlar,
Yel vurar, ucun qatlar.
Deməyin yar evlənib,
Cavanam, bağrım çatlar.

59. Boz atım boza-boza,
Boynunda qızıl qoza.
Asta yeri, çər dəymiş,
Sevgilim batdı toza.

60. Bu qaya qəlbi qaya,
Kölgəsi düşüb çaya.
Cəfa çəkdim, böyütdüm,
Əməyim getdi zaya.

61. Arxalığım səkkiz qat,
Dördün saxla, dördün sat.
Mən ki, sənə getmirəm,
Canın çıxsın yalqız yat.

62. Mən aşıq özgəsində,
Gözüm yox özgəsində.
Yarım ağaca dönə,
Uzanam kölgəsində.

63. Mən aşiqəm, xan dursun,
Xan əyləşsin, xan dursun.
Əyil, öpüm üzündən,
Buxağında qan dursun.

64. Əziziyəm, gül açar,
Gül açar, bülbül açar.
Qıfıllı qapıları,
Bir şirincə dil açar.

65. Əzizim, o da yaxar,
Qəlyanın oda yaxar.
Dost dostunun yolunda
Canını oda yaxar.

66. Mən aşığam ayına,
Bəndəm qaşın yayına.
Qorxuram kiprik çalam,
Üzündən göz yayına.

67. Aşığam, yaza dərdim,
Qanan yox, yaza dərdim.
Fəqir bir bülbül kimi
Qalıbdı yaza dərdim.

68. Dağlar başı boz-ala,
Duman gələr, toz ala.
Aç qapını, gir içəri,
Çoxca dərdim azala.

69. Ağ çuxa ağlı qalsın,
Boxçada bağlı qalsın.
Məndən başqa yar sevsən,
Ürəyin dağlı qalsın.

70. Xırmanda sarı taya,
Yel vurdu, tökdü çaya.
Cəfa çəkdim, yar sevdim,
Əməyim getdi zaya.

71. Məndilin bənək-bənək,
Ortası çarxı-fələk.
Qışımız birgə keçdi,
Yaza qoymadı fələk.

72. Getmə, gecədi, oğlan,
Ülkər ucadı, oğlan.
Deyirdin başın ağrır,
İndi necədi, oğlan?

73. Mən aşiqəm, sarısı,
Ay həsrətin sarısı.
Sən gül ol, çiçək ol,
Mən üstünün arısı.

74. Araz qırağı xamlar,
Araz qıfıllı damlar.
Yarım küsüb gedibdi,
Qaytarın, ay adamlar.

75. Araz qırağı çaşır,
Yel vurur, sızıldaşır.
Merət qızıl qolbağım,
Yar qolunda dolaşır.

76. Araz, Araz, xan Araz,
Kükrəyib qalxan Araz.
Yarım səndən keçəcək,
Astaca çalxan, Araz.

77. Əmimoğlu bizdən yar,
Get qapıda gizdən, yar.
Anam sənə nə dedi,
Ayaq götdün bizdən, yar?

78. Əmim oğlu, bizə gəl,
Qırmızı gey, təzə gəl.
Bir əlində şiş kabab,
Bir əlində məzə gəl.

79. Göydə buludam səni,
Yuyam, qurudam səni.
Öləm, gedəm məzara,
Bəlkə, unudam səni.

80. Dağları gəzib gəldim,
Daşları düzüb gəldim.
Çox axtardım, tapmadım,
Əlimi üzüb gəldim.

81. Arazım çağlar, axar,
Dörd yanı bağlar, axar.
Əlim suyuna çatmaz,
Sinəmi dağlar, axar.

82. Arazın körpüsü var,
Çaylaqda çırpısı var.
O ceyrana dəyməyin,
Südəmər körpəsi var.

83. Arazım dayanmadı,
Dağları oyammadı.
Sürünü qurd apardı,
Çobanı oyanmadı.

84. Qardaşım gəl, qalam, gəl,
Ərşə çıxıb nalam, gəl.
Düşübdü baş kərpicim,
Dağılıbdı qalam, gəl.

85. Damənimin çitin ver,
Parçalanma, bütün ver.
Ürəyim yanıqlıdı,
Mənə bir baş tütün ver.

86. Araz üstə nanəyəm,
Yel, əsmə, pərvanəyəm.
Üç ildi yarım gedib,
Həsrətdən divanəyəm.

87. Mən aşıq, naz, bəri gəl,
Yolunu az, bəri gəl.
Bir öpüş versən mənə,
Dünya qopmaz, bəri gəl.

88. Əzizim, nə dən bağlar,
Göy geymiş nədən bağlar.
Əkmə namərd zəmisin,
Nə bitər, nə dən bağlar.

89. Dağlar başı kağala,
Duman gələ, dağıla.
Yaram yaman yaradı,
İnanmıram sağala.

90. Dağların meh dumanı,
Düşübdü meh, dumanı.
Hamı gedənlər gəldi,
Bəs mənim Mehdim hanı?

91. Əsər, əsərsən, köylüm,
Səbrim kəsərsən, köylüm.
Anam, bacım deyil ki...
Kimdən küsərsən, köylüm?

92. Bu dağlarda qar qalmasın,
Ərisin qar, qalmasın.
Lal olsun mənim dilim,
Özgəyə yalvarmasın.

93. Başında dümağ şal var,
Üzündə qoşa xal var.
Gedirsən yar yanına,
Mənim dilimcə yalvar.

94. Kəkliyim, get ot gətir,
Yardan bir umut gətir.
O yar küsüb gedibdi,
Sən qolundan tut, gətir.

95. Dəyirmana dən oldu,
Gedən ora bənd oldu.
Balamı gözləməkdən
Gözlərimə qan oldu.

96. Bura mənim bağ yerim,
Bostan yerim, bağ yerim.
Fələk qamçı vurmaqdan
Heç qalmayıb sağ yerim.

97. Bağça bar üstə gələr,
Heyva nar üstə gələr.
Sevgililər mahnısı,
Hamısı yar üstə gələr.

98. Araz axar gilinən,
Dörd bir yanı gülünən.
Qismət olsa danışam,
Uzaq düşən elinən.

99. Araza gözüm düşüb,
Üstünə izim düşüb.
Suyuna qulaq asın,
Səsinə gözüm düşüb.

100. Mən aşıq, neynən alım,
Əlifi beynən alım.
Küsdürüb yola saldım,
Könlünü neynən alım?

101. Əzizinəm, şan bağlar,
Şən bağçalar, şən bağlar.
Açsan ürəyim başın,
Arı gəlib şan bağlar.

102. Mən aşıq, nə tərəzi,
Nə daş var, nə tərəzi.
Dədənin belin bükər
Oğlun natarazı.

103. Apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm ayrılıq yükü,
Yordu bu taylar məni.

104. Mən aşıq Ordubada,
Yol gedir Ordubada.
Sərkərdə qoçaq olsa,
Heç verməz ordu bada.

105. Naxçıvanda duzdumu,
Duz altında buzdumu?!
Gözəllər dəstə-dəstə,
Əllidimi, yüzdümü?!

106. Qara toyuq hindədi,
Yumurtası gündədi.
Qardaşımın yaylığı
Qızların cibindədi.

107. Mən aşıq, aralından,
Ox gəldi maralından.
Sənə dərman gərəksə,
Gəl istə yaralından.

108. Naxçıvandı bu yerlər,
Özgə candı bu yerlər.
Batabat tamaşadı,
Al-əlvandı bu yerlər.

109. Mən aşıq, nərdivana,
Ayaq qoy nərdivana.
Yar qədrini yar bilər,
Nə bilər hər divana?

110. Bir ay doğdu hindidən,
Yun darayıb, yun didən.
Ya mənim murazım ver,
Ya canım al indidən.

111. Bu dərənin söyüdü,
Mən gələndə göyüdü.
Oğlanda günah yoxdu,
Qıza verin öyüdü.

112. Kəkliyəm, dizi qanlı,
Topuğu, dizi qanlı.
Ölərəm məhlənizdə,
Edərəm sizi qanlı.

113. Həyətində mev gülü,
Badam gülü, mev gülü.
Əzəldən qonşu idik,
İndi olduq sevgili.

114. Ceyranam, mələrəm mən,
Dağ-daşı dələrəm mən.
Yüz il məzarda yatsam,
Çağırsan, gələrəm mən.

115. Sözümü sirdən desəm,
Sədəfdən, dürdən desəm.
Uçular İlanlı dağ,
Dərdimi birdən desəm.

116. Dağları yanar Araz,
Qış gələr, donar Araz.
Yoxsa mənim sözümü
Gün gələr danar Araz.

117. Araz axır çöllərə,
Səsi düşər ellərə.
Dərdimi gizli dedim,
Hardan düşdüm dillərə?

118. Arazım qurumasın,
Azmasın, qurumasın.
Səni məndən eyləyən
Ömründən yarımasın.

119. Arazım çağlar, axar,
Dörd yanı bağlar, axar.
Əlim suyuna çatmaz,
Sinəmi dağlar, axar.

120. Naxçıvanın duzu var,
Büllur kimi duzu var.
İki könül bir olsa,
Kimin ona sözü var.

121. Araz suyu sərindi,
Yaxın gəlmə, dərindi.
Ümid var yara çatam,
Deyir, Allah kərimdi.

122. Arazım ağlar qaldı,
Yerində dağlar qaldı.
Burda bir qərib öldü,
Anası ağlar qaldı.

123. Yeri-yeri, yaxın yar,
Sən yeri, mən baxım, yar,
Ayaqların incisə,
Sən gəl həna yaxım, yar.

124. Lay-layım sənə gəlsin,
Təbrizim həna gəlsin.
Ata qazanc gətirsin,
Balası cana gəlsin.

125. Əziziyəm, dağda qan,
Düyündə qan, dağda qan.
Ovçu vurub maralı,
Göl-göl olub dağda qan.

126. Dağlar çiskin olurmu?
Duman, çiskin olurmu?
Fürsət yox səni görüm,
Bundan pis gün olurmu?

127. Gəl atı oynatma, get,
Cilovun çeynətmə, get.
Onsuz da dərdim çoxdu,
Ürəyim göynətmə, get.

128. Əzizinəm, xan Araz,
Oymaqdan axan Araz.
Əlim əlinə çatmır,
Yaxından axan Araz.

129. Yaşıldı başın, ördək,
Qaradı qaşın, ördək.
Həmişə cüt gəzərdiz,
Hanı yoldaşın, ördək?

130. Ağ cuna ağlı qalsın,
Gözləri bağlı qalsın.
Səni məndən eliyənin
Sinəsi dağlı qalsın.

131. Gedirəm, yol uzundu,
Qoçaq olmaq lazımdı.
Sən gözəl, mən də gözəl,
Elçi nəyə lazımdı?

132. Yarımın ağ üzü var,
Qumraldan gözü var.
Baxıban gülümsədi,
Bilmirəm nə sözü var.

133. Bir qız gördüm aranda,
Yanağı qızaranda.
Oğlan murada çatar,
Toy edib, qız alanda.

134. O gələn yar özüdü,
Ləbi qumral gözüdü.
Bir baxdım, tanımadım,
Bir baxdım, yar özüdü.

135. İsdəkanım qanlıdı,
Əl vurma, dərmanlıdı.
Şəkidən bir qız sevmişəm,
Dedilər, anası Səlyanlıdı.

136. Dağ üzündə qaram mən,
Aranda budağam mən.
Get anana denən ki,
Ölməmişəm, sağam mən.

137. Aman, yol üstəyəm,
Tikanlı kol üstəyəm.
Əzrayıl, alma canımı,
Hələ murad üstəyəm.

138. Yeri, doxdur oğlan,
Xəbərın yoxdur, oğlan.
Nişanlın xəstə yatır,
Əlacı yoxdur, oğlan.

139. Dağ başında gül əkərəm,
Dibinə su tökərəm.
Sevgilim gələni görsəm,
Ayaqyalın qaçaram.

140. Dağ başında qala,
Qurbanam üzdə xala.
Yarıma qurban olum,
Nola bir gecə bizdə qala.

141. Sandıq üstə səməni,
Oğlan, incitmə məni.
Anam birdən gəlib görər,
Nə səni döyər, nə məni.

142. Qızılgülü əkərəm,
Dibinə su tökərəm.
Qardaşım olmayan günlərdə
Oturub göz yaşı tökərəm.

143. Dambır çalan beş barmax,
Beşi də qızıl qarmax.
Hər iyidin işi döyül,
Dostluğu başa vermax.

144. Reyhanı saçdım düzə,
Göyərib qalxdı üzə.
Ay reyhan boylu bacım,
Niyə gəlmirsən bizə?

145. Başa qoyan papaqdı,
Dünyamız yaşıl yarpaqdı.
Gəlin halallaşaq, bala,
Axırımız qara torpaqdı.

146. Usdul altı dörd ayaq,
Yarımı gördüm mən bayaq.
Yüyürdüm, çatmadım,
Qırılsın belə ayaq.

147. Usdul üsdə mağara[1],
Toyda çalınar nağara.
Oğlan qızı istəyir,
Yazıq qalıb füqara.

148. Yaylığın taxda-taxda,
Yuyub, sərmişəm otaqda.
Ağlayıb neyləyə bilərik?
Allah verməyən baxda.

149. Göy üzü damar-damar,
Gün olmayanda nur hardan damar?
Qurusun ermənilərin dili,
Doğransın damar-damar.

150. Yar əlində bölmədan[2],
Uzun boy, nazik bədən.
Arvad alırsan, yerlidən al,
Arvad olmaz gəlmədən.

151. Usdul üsdə çiçək,
Çin gətir, onu biçək.
Əlində dəstə gül,
Gülünnən özün göycək.

152. Oxu, bülbülüm, oxu,
İpəkdən yaylıq toxu.
Necə şirin olar
Yarla yatılan yuxu.

---

[1] Mağara – taxtanın, yaxud kartonun üstünə sarınmış tikiş sapı
[2] Bölmədan – nəlbəki

153. Uzun çinar qıyqacı,
Bir evdə cüt bacı.
Böyüyü yarım olsun,
Kiçiyi axirət bacım.

154. Yolum dağın içidi,
Girmə, bostan içidi.
Girəydim yar qoynuna,
Qoynu cənnət içidi.

155. Dəyirman üstü qavax[3],
Yarpağı tavax-tavax.
Gəl olum sənə qurban
Uzun boy, açıq qavax.

156. Birini sən danış, birini mən.
Kölgədə sən, gündə mən.
İldə gələr bir qurban
Qurbanın olum gündə mən.

157. Bağa girərəm sənsiz,
Gülü dərərəm sənsiz.
Bağda quzu mələsə,
Bil ki, o, mənəm sənsiz.

158. Armud ağacı burulur,
Dibinə su durulur.
Xalxın atası gələndə
Mənim boynum burulur.

159. Quşları cələdədi,
Tüfəngi tələdədi.
Qardaş adı çəkməyin,
İki qandağ[4] aradadı.

160. Zülfün kimi ilan olmaz,
Dərdimi bilən olmaz.
Özüm deyib, özüm ağlaram,
Göz yaşımı silən olmaz.

161. Göydə göyərçin ağlar,
Yuvada laçın ağlar.
Qardaş yadıma düşəndə
Başımda saçım ağlar.

162. Dağların qarı mənəm,
Gün düşsə, ərimərəm.
Qəbrimi güneydə qaz,
Cavanam, çürümərəm.

163. Əlimdə ələmim var,
Qızıldan qələmim var.
Yaxına gələmmirəm,
Uzaqdan salamım var.

164. Dəyirmanın püsgünə,
Çaxmağına, tüsgünə.
Özüm öldüm qurtardım,
Balalarım qaldı pis günə.

165. Quş olub uçdum, gəl,
Dost bağına düşdüm, gəl.
Yaxşı gündə yad yaxşı,
Yaman günə düşdüm, gəl.

166. Qəribəm bu vətəndə.
Qərib bülbül ötəndə.
Qəriblik yaman olur,
Baş yastığa yetəndə.

[3] Qavax – balqabaq
[4] Qandağ – xəndək

167. Əzizim, gülə-gülə.
Gül əkdim gülə-gülə.
Düşmənlər evim yıxdı,
Üzümə gülə-gülə.

168. Əzizim, bu daməni,
Xançəl al, buda məni.
Gör nə günə qalmışam,
Tanımır bu da məni.

169. Ay oğlan, nuxalısan?
Gözləri yuxulusan.
Minibsən kəhər atı,
Qorxuram yıxılasan.

170. Qara atın kəkili,
Qabağına tökülü.
Gəlmişik aparmağa,
Kimdi qızın vəkili?

171. Bu gəlin, nazlı gəlin,
Söhbəti duzlu gəlin.
Arzum budu olasan
Oğullu-qızlı, gəlin.

172. Gedirəm, gedən olsa,
Bir xəbər bilən olsa.
Yazıb məktub göndərrəm,
Oxuya bilən olsa.

173. Usdul üsdə gəzərəm.
Usdula gül bəzərəm.
Özüm musurman qızı,
Urusfason gəzərəm.

174. Dağ dibində durmuşam,
Bığlarımı burmuşam.
Gedin, deyin yarıma,
Xalamgildə durmuşam.

175. Su gəlir qalxa-qalxa,
Tökülür bizim arxa.
Qonşudan bir qız sevmişəm,
Anamdan qorxa-qorxa.

176. Dağ dibində darvaza,
Əlimi qoydum namaza.
Sən ki məni almadın,
Niyə saldın ağıza?

177. Su gəlir, daşa dəydi,
Qələmim qaşa dəydi.
O günə qurban olum,
Baş gəlib başa dəydi.

178. Çayda balıq yan gedir,
Açma yaram, qan gedir.
Yüzü yüz söz desə,
Əcəl gəlib, can gedir.

179. Əzizim, axla məni,
Armudla, daxla məni.
Yarım gəlincə ölsəm,
Dərmanla, saxla məni.

180. Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Əzəl cavan öldüm,
Murad almadım doyunca.

181. “Gedibdi, asta” denən,
Sirrini dosta denən.
Xəbər alsa halımı,
Düşübdü xəstə denən.

182. Usdul üsdə barama.
Əl vurmayın yarama.
Bacım tutsun lampanı,
Yarım baxsın yarama.

183. Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mən ki, səni sevirəm
Neynirəm özgəsini?

184. Dərənin uzunu,
Çoban, qaytar quzunu.
Get, anana denən ki,
Mənə versin qızını.

185. Əzizinəm, bu dağnan,
Sallan, gəl bu dağnan.
Sənə yaxşı deməzdər,
Mən ölsəm bu dağınan.

186. Mən gedirəm, ağlama,
Özgəsinə bel bağlama.
Gedib yenə gələrəm,
Hər adama bel bağlama.

187. Qara atı nallaram,
Qarağaca bağlaram.
Balalarıma bir şey olsa,
Hönkür-hönkür ağlaram.

188. Məscidin ocağında,
Şam yanır bucağında.
Baş qoyub can verəydim,
Ax, qardaş, qucağında.

189. Məscidin həyrəməsi[5],
İçi dolu nar dənəsi.
O yandan qardaşım gəlir,
Bilmirəm nə verəsi?

190. Lampanı alışdırın,
Alışdırıb yaraşdırın.
Ciyarım[6] gəlibdi,
Ona nə yaraşdırım?

191. Gəlirdim Qaladan[7],
Qarpız aldım Taladan[8].
Mən nətəri doyum,
Səni kimi baladan?

192. Qolbağım qolumdadı,
Gözüm yar yolundadı.
Üç gündən bir gəlməsə,
Babalım boynundadı.

193. Ağ tumanı baxıya,
Üstünə gül şaxıya.
Əzrayıl özü gəlsə,
Gedərəm Şamaxıya.

[5] Həyrəməsi – dörd bir qırağı
[6] Ciyarım – burada doğmam anlamında işlədilib.
[7]Qala – Zaqatala rayonunda yer adı
[8]Tala – Zaqatala rayonunda kənd adı

194. Qocalar gedər Hacca,
Papağı qoyar uca.
Heç yaraşarmı,
Sən cavan, mən qoca?

195. Ağlaram, başdan ağlaram,
Kiprikdən-qaşdan ağlaram.
Elə cavan balam ölübdü,
Durub obaşdan ağlaram.

196. Bulaqda buz olaydım,
Dakqada duz olaydım.
Qonşudan qız gələndə
Evdə yalqız olaydım.

197. Ağ dəvə alçaq gedər,
Boynunda qolçaq[9] gedər.
Bu zamananın qızları
Ərə tumançaq[10] gedər.

198. Ağ alma hallanıbdı,
Budaqdan sallanıbdı.
Cəhil[11] bilib getmişəm,
Saqqalı çallanıbdı.

199. Ağ alma, qızıl alma.
Yollara düzül, alma.
Yar-yara sataşmasın,
Çürüsün qızıl alma.

200. Göydə ulduzlar üç keçdi,
Cavan ömrüm puç keçdi.
İstər say, istər hesab eylə,
Hansı günüm xoş keçdi?

201. Mən aşiq, qoşa dağlar,
Verib baş-başa dağlar.
Necəsən bir ah çəkim
Dönəsən daşa, dağlar.

202. Dağın başı kəkotu,
Oğlan, getmə, gəl otu.
Öpüş bizə qaydadı,
Çimdikləmə, dinc otu.

203. Qızıl üzük deyilmi?
Qızın nazik deyilmi?
Vermə xoryat[12] oğlana,
Qızın yazıq deyilmi?

204. Ağ cuna əsdirəndə,
Əsməzmi əsdirəndə?
Deyirlər, yar küsübdü,
Küsməzmi, küsməzmi?

205. Ağdan köynək olarmı?
Ağ bilərzik solarmı?
Sən orda dur, mən burda,
Ortada dostluq olarmı?

206. Oğlan adın Alıdı,
Boyun qarğıdalıdı.
Sən göndərən mehir üzük,
Barmağımın barıdı.

[9] Qolçaq – gəlincik
[10] Tumançaq – tumansız
[11] Cəhil – cavan

[12] Xoryat – pis, yaramaz

207. Şaftalıyam, kalam mən,
Dilim yoxdu, lalam mən.
Qonşudan qız sevmişəm,
Pulum yoxdu, alam mən.

208. Damın dalı darvaza,
Əl bağladım namaza,
Şəkiliyə pul borcluyam,
Qoy qalsın gələn yaza.

209. Arpa qoruğun başı,
Qızıl üzüyün qaşı.
Səni mənnən edənin,
Yansın ürəyinin başı.

210. Əzizim, gül üzünə,
Şeh düşüb gül üzünə.
Getmə, ay qız, gəl, otur.
Qoy baxım gül üzünə.

211. Yaylığım həşdi, hüşdü,
Bir ucu suya düşdü.
Heyif, mən yazan məktub,
Getdi, qədirbilməzə düşdü.

212. Bu dağların meşəsi,
Gözəldi bənövşəsi.
Könülsüz gedən qızın,
Ağlamaqdı peşəsi.

213. Əzizim, gül üşüdü,
Şeh düşdü, gül üşüdü,
Dilinə qurban olum,
Bu necə gülüş idi?

214. Mən aşiq, iri-iri,
Xalları iri-iri.
Məni yardan ayıran,
Odlansın diri-diri.

215. Kisə tikdim, dolmadı,
Suya saldım, solmadı.
Qazı, dilin qurusun,
Özüm deyən olmadı.

216. Mən aşıq, duz verəni,
Duz alıb, duz verəni.
Dünyada dili yansın,
Könülsüz qız verəni.

217. Kəhər atı bağlaram,
Pilləkənə bağlaram.
Yar atdanıb gedəndə,
Hönkür-hönkür ağlaram.

218. Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı, can verəndə gəl.

219. Aşıq-aşıq aşıqdı,
Süfrə dolu qaşıqdı.
Ay xala, mən neyləyim?
Oğlun mənə aşıqdı.

220. Kilimi yığdım yükə,
Səkkiz qat bükə-bükə.
İstədiyimə getməsəm,
Doğrannam tikə-tikə.

221. Su üstündə hənəyəm,
Əl vurma, pərvanəyəm.
Yarım səfərə gedib,
Dəliyəm, divanəyəm.

222. Süd üstə qaymaq gərək,
Qaymağı yığmaq gərək.
Bəzi-bəzi qızların,
Cilovun yığmaq gərək.

223. Əziziyəm, Səfərə,
Gedin deyin Cəfərə.
Mənim yarım xırdadı,
Göndərməsin səfərə.

224. Su ilanı olaydım,
Ləkdən-ləkə qonaydım.
Yarım əkən çəltiyin,
Sünbülü mən olaydım.

225. Oğlan, adın Əlidi,
Qolların düyməlidi,
Çox gəzib, çox dolanma,
Qızlar deyər, dəlidi.

226. Ağdamın yollarında,
Bənd oldum kollarında.
Bir cüt bazubənd olaydım,
Yarımın qollarında.

227. Şahdağına çıxarsan,
Axar suya baxarsan.
Məni görmək istəsən,
Cumakəndə[13] baxarsan.

228. Oğlan, adın Yaqubdu,
Gün dağlara doğubdu.
Verdiyin qızıl üzük,
Barmağımı boğubdu.

229. Oğlan, qoyun kimindi?
Sana gör neçə mindi?
Soruşmaq eyib deyil,
Siz sevən qız kimindi?

230. Qazanımın paxırı,
Oğlan, qaytar naxırı.
Sən mənimsən, mən sənin,
Budur sözün axırı.

231. Bizim bağda bir quş var,
Qanadında gümüş var.
Yarım getdi, gəlmədi,
Əlbət, burda bir iş var.

232. Kür qırağı sərindi,
Oğlan, girmə, dərindi.
Oğlanı dərdə salan,
Bir alagöz gəlindi.

233. Qar yağır külək kimi,
Qız gəlir ipək kimi.
Oğlannar daldan baxır,
Qudurmuş köpək kimi.

234. Aşiqəm, aranı yaz,
Ağ üzdə qaranı yaz.
Sifdə dəftər başına
Mən bəxtiqaranı yaz.

[13] Şəki rayounda kənd adı

235. Su səni, suda məni,
Saxlasın Xuda səni.
Bir öpüb, beş dişlərəm,
Şirin yuxuda səni.

236. Axşam olası vaxdı,
Bülbül qonası vaxdı.
Əsmə yel, yağma yağış,
Yarım gələsi vaxdı.

237. Qərənfil haça bənddi,
Sana gör neçə bənddi.
Düşəsən mən düşən dərdə,
Görərsən, neçə dərddi.

238. Yol uzunu gedirəm,
Bilmirəm nə edirəm?
Ay qız, sənin dərdinnən,
Baş götürüb gedirəm.

239. Saçın uzun hörməzlər,
Qönçə gülü dərməzlər.
Əyil, üzündən öpüm,
Xəlvət yerdi, görməzlər.

240. Gecələr yatan yerdə,
Can-cana qatan yerdə.
Ağ üzünnən öpəydim,
Sarmaşıb yatan yerdə.

241. Mən aşiqəm, üz kimi,
Göydəki ulduz kimi.
Ay qız, sinən cıxıbdır,
Qərzəkli qoz kimi.

242. Dağların başı yanar,
Damının daşı yanar,
Yar yadıma düşəndə,
Ürəyimin başı yanar.

243. Xəstəyəm, nar istərəm,
Allahdan yar istərəm.
İçimiz bir döşəkdə,
Döşəyi dar istərəm.

244. Məhlədə bitər söyüd,
Yarpağı gömgöy söyüd.
Kiçikcə yar sevmişəm,
Xudam, sən özün böyüt.

245. Dağların daşına bax,
Qumuna, daşına bax.
Yar məni xar eylədi,
Gözümün yaşına bax.

246. Ay qız, mənim payımsan,
Göy üzündə Ayımsan.
Mən səni çox istərəm,
Yaxşı mənim tayımsan.

247. Əziziyəm, kor olsun,
Qoy gözləri kor olsun.
Yarla aram yaxşıdı,
Ara vuran kor olsun.

248. Samavarı qaynadan,
Üstündə çaynik oynadan.
Əyil, üzundən öpüm,
Qaş altdan göz oynadan.

249. Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qardaşsız bacıların
Ürəyində yağ olmaz.

250. Oğlan, otur daş üstə,
Yumuru papaq baş üstə.
Oğlan deyər "bir öpüş",
Qız da deyər "baş üstə".

251. Qara buruqsaç oğlan,
Gəl, qapını aç, oğlan.
Əgər atam verməsə,
Məni götür qaç, oğlan.

252. Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər,
Hər dərdimə şərik ol,
Nə dərmanın var, göndər.

253. Bu dağlar, bölgəli dağlar,
Dibi kölgəli dağlar.
Burdan bir cavan getdi,
Sənnən sel gəli dağlar.

254. Balakən böyük kənddi,
Düyməsi qızıl bənddi.
Ölüm Allah əmridi,
Ayrılıq yaman dərddi.

255. Gəlinə bax, gəlinə,
Gəlin baxar ərinə.
Gəlinin nazik beli
Düşər oğlan əlinə.

256. Qarpızı bıçaqlaram,
Dörd yana saçaqlaram.
Yar yadıma düşəndə
Yastığı qucaqlaram.

257. Mən aşiq, desənə,
Limon soyum, yesənə.
Ürəyinə qurban olum,
Bir cüt mahnı desənə.

258. Pəncərə topal-topal,
Pəncərədən toz qopar.
Məni sənə verməsələr,
Gəl qobuya düş, apar.

259. Burdan bir atlı keçdi,
Atın nallatdı, keçdi.
"Gedim, gələrəm", – deyə
Məni aldatdı, keçdi.

260. Qızıl üzük laxladı,
Verdim, anam saxladı.
Əziz gün, əziz gecə,
Yar məni qucaqladı.

261. Buxarı qurum olur,
Yandıqca qurum olur.
Vətən yada düşəndə
Ürəyə zülüm olar.

262. Əmim oğlu Ziyada,
Məni vermirlər yada.
Bir at göndər, bir qamçı,
Gələmmirəm piyada.

263. Su axdı, doldu kəndə,
Axdı, töküldü bəndə.
Ürəyimə od düşdü
Yar boynunu bükəndə.

264. Qara-qara qazanlar,
Qara yazı yazanlar.
Cənnət üzü görməsin
Ərimi əsgər yazanlar.

265. Atımı yağladım,
Pilləkənə bağladım.
Bacım yadıma düşəndə
Hönkür-hönkür ağladım.

266. Göydəki sarı ulduz,
Xoş gəldin, kiçik baldız.
Get böyük bacına de,
Məni qoymasın yalqız.

267. Maskviçin yaşıldı,
Nə bərk gedən maşındı.
Məni bu dərdə salan
Sənin çatma qaşındı.

268. Köynəyi yaşıl oğlan,
Geymə, yaraşır, oğlan.
Keçmə qapımızdan,
Ciyim dalaşır, oğlan.

269. Su gəlir, arxa nə var,
Tökülür, çarxa nə var.
Özümçün qız sevmişəm,
Bilmirəm, xalxa nə var.

270. Alma atdım, nar gəldi,
Kətan köynək dar gəldi.
Qapıya kölgə düşdü,
Elə bildim yar gəldi.

271. Gecə keçdi xaraldan,
Sən gözəlsən maraldan.
Nə dərdim var, nə qəmim,
Sənsən məni saraldan.

272. Aşıq aşanda bilər,
Kür qarışanda bilər.
Dost dostun qədrini
Ayrı düşəndə bilər.

273. Su gəlir yarpızlığa,
Tökülür qarpızlığa.
Gördün işin fırıxdı,
Özünü vur arsızlığa.

274. Qırmızıdı kürkün, yar,
Çıx küçədə görkün, yar.
Sevdin, ala bilmədin,
Yerə girsin börkün, yar.

275. Mixək əkdim tasınan,
Yar sevdim ilxasınan.
Məni yardan ayıran,
Ömrün keçsin yasınan.

276. İncə çubuq üç oğlan,
Gəl, qapıdan keç, oğlan.
Topal sənə qız verməz,
Tut qolumnan qaç, oğlan.

277. Pəncərədə üzüm var,
Ana, sənə sözüm var.
İki əmiqızının
Kiçiyində gözüm var.

278. Əzizim, qız qalası,
Alınmaz qız qalası.
Oğul gəldi-gedərdi,
Anaya qız qalası.

279. İki oğlan yan-yana,
Su içdim yana-yana.
Qız, səni doğan ana
Mənə olsun qaynana.

280. Arazın gəmisinə,
Su verdim zəmisinə.
Heç iyidin balası,
Qalmasın əmisinə.

281. Uçitel, uçutel, povtari,
Yetmiş ilin kaftarı.
Qoltuğunda dəftəri.
Nemeslərin rəhbəri.

282. Arazın qırağıynan,
Gül biçdim orağıynan.
İtirmişəm yarımı,
Gəzirəm sorağıynan.

283. Corabın ağına bax,
Dəstələ, bağına bax.
Mən yadına düşəndə
Çaxılın dağına[14] bax.

[14] Şəki rayonunun Baş Göynük kəndində dağ

284. Haydı, əzəl vaxtlarım,
Bağda gəzər vaxtlarım,
Uşaq oldum, qanmadım,
Getdi gözəl vaxtlarım.

285. Gəl gedək Daşbulağa[15],
Suyu sərxoş bulağa.
Birini sən de, birini mən,
Tökək qan-yaş bulağa.

286. O yola yol olaydım,
Yola qurban olaydım.
Balalarım olan yerdə
Canım qurban olaydı.

287. Məhlədə Hacı baba,
Əynində yaşıl əba.
Bizi murada yetir,
Ya Şabalıd Şeyix baba.[16]

288. Tanrıdan dilədim,
Öldürsün səni.
Bu görən gözlərim,
Görməsin səni.

[15]Daşbulaq – Şəki rayonunda kənd
[16]Söyləyicinin dediyinə görə, bu bayatını Şəki rayonunun Baş Şabalıd kəndində yerləşən Şeyx baba pirini ziyarətə gələn balakənlilər oxuyardılar. Söyləyici onların bu tipli bayatılardan çox oxuduqlarını, amma qalanını xatırlaya bilmədiyini qeyd etdi.

289. Düşmənimi yarımasın,
Yarısa da, qarımasın.
Göy kölgədə oturub
Bağırdax sarımasın.[17]

290. Dağların başı yansın,
Od tutsun, döşü yansın.
Mən qarğış bilmərəm,
Külü-külfəti yansın.

291. Mən aşığam, bu daşa,
Bu qayaya, bu daşa.
Allah, Məhəmməd, Əli
Yazılıbdı bu daşa.

292. Əzizinəm, yana-yana,
Şölə ver yana-yana.
Göz gözdən kamın aldı,
Dil qaldı yana-yana.

293. Bişirim, aşım, səni,
Töküm, qan-yaşım, səni.
Götürüm hara qaçım,
Bəlalı başım, səni?

294. O tayın od işığı,
Oldum Zilal aşığı.
Gedibdi, gələcəkdi,
Evimizin yaraşığı.

295. Aşığam aşıqlara,
Zülfü dolaşıqlara.
Əlimə saz allam,
Qoşullam aşıqlara.

296. Dağlar ölənə qaldı,
Gülün dərənə qaldı.
Gül əkdik, gül dərmədik,
Xeyri görənə qaldı.

297. O tay bu taya baxar,
Arasınnan Kür axar.
Neçə analar-bacılar,
İşıqlıya kor baxar.

298. Qızılgüləm, qalxaram,
Tər bənövşə qoxlaram.
Eşitsəm itirdiklərim gəlir,
Xəstə olsam, qalxaram.

299. Yeri, yeri, çisginim, yeri,
Dumanım, çisginim, yeri.
Yaxşı günnərimiz getdi,
İndi yeri, pis günüm, yeri.

300. Fələk, fələk, dad, fələk,
Hurrey, fələk, şad fələk.
Bizə pişirdiyin plovdan
Bircə sən də dad, fələk.

301. Aşıq, yara yemişəm,
Halım yara, yemişəm.
Elə körpə balalarımız öldü,
Onda yara yemişəm.

302. Arxalığın aldırmışam,
Yaxalıq saldırmışam.
Elə ellərimiz dağıldı,
Onda ürəyimi aldırmışam.

---

[17]Bağırdax sarımasın – uşaq bələməsin

303. Göynən uçan quş qardaş,
Xançalı gümüş qardaş.
Saçım sənə üzəngi,
Gəl qapımnan düş, qardaş.

304. Qardaş demə, qan olar,
Yel əsər, füğan olar.
Qardaşlar gələn yollara
Bacılar qurban olar.

305. Qardaş, qardaş, can qardaş,
Canım qardaş, can qardaş.
Sən denən, ay bacı,
Mən deyim, can, qardaş.

306. Qardaşdar, ay qardaşdar,
Yağış yağar, qar başdar.
Cənazəm əyri gedər,
Yapışmasa qardaşdar!

307. Alçalar çiçəklədi,
Çiçəyi göyçəklədi.
Yatdığın yalan oldu,
Öldüyün gerçəklədi.

308. Getmə, boz atlı, getmə,
Yolun uzaxdı, getmə.
Ananın, bacının göz yaşı
Sənə duzaxdı, getmə.

309. Aşıq, illər ayrısı,
Bülbül güllər ayrısı.
Bir gününə dözməzdim
İndi oldum illər ayrısı.

310. Bağda üzüm ağacı,
Dəydi üzüm ağacı.
Bağa baltalı girdi,
Kəsdi bizim ağacı.

311. Aşıq, yara yemişəm,
Xalın yara, yemişəm.
İl uzunu, on iki ay
Aşıq, yara yemişəm.

312. Göynən gedən sonalar,
Bir-birini yan alar.
Qoy sənə qurban olsun
Bala itirmiş analar.

313. Ay laylay, belə laylay,
İlləllah belə laylay.
Heç bəndələr çalmasın,
Siz çaldınız belə laylay.

314. Maral meşəli yerdə,
Güllü, bənövşəli yerdə.
Vuran elə vurdu ki,
Qaldım döşəli yerdə.

315. Girişim budu,
Gülüm, dərişim budu.
Ağla, öldür özünü,
Axır gedişin budu.

316. Bağa su düşdü, neynim?
Bağ suyun işdi, neynim?
Aləmə pay paylandı
Mənə bu düşdü, neynim?

317. Çəkilə bax, çəkilə,
Çəkil yerə tökülə.
Qiyamət o gün qopar,
İyin evdən çəkilə.

318. Bağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirmə, qan ağlaram,
Yaman çağımdı mənim.

319. Dağlara çən düşdü,
Sünbülə dən düşdü.
Yar yada qaldı,
Ürəyimə od düşdü.

320. Əzizinəm, Ay doğdu,
Ay doğdu, aydın oldu.
Mübariz tək oğulu
Analar bir də doğdu.

321. Əziziyəm, bir də gəl,
Dolan yurdu, bir də gəl.
And verirəm Allaha,
Bizim evə bir də gəl.

322. Əziziyəm, Ağdamdı,
Tüstülənən Ağdamdı.
Yollara göz dikməkdən,
Gözlərimə ağ damdı.

323. Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə,
Can bu bədənnən oynar,
Yadıma sən düşəndə.

324. Göynən uçan quşa bax,
Qanadı sınmışa bax.
Aləmə yaz gəlibdi
Bizə gələn qışa bax.

325. Qardaş mənim gülümdü,
Gülümdü, bülbülümdü.
Ölsə, bacılar ölsün,
Qardaş ölmü zülümdü.

326. Oğul gəlsə, yaxşı olar,
Ata görsə, yaxşı olar.
Ata oğulun çiynində,
Gora getsə, yaxşı olar.

327. Gələn haradan gəldi?
Göydən, qaradan gəldi.
Göydə bulud yoxudu,
Bu sel haradan gəldi?

328. Bir ev tikdim dəyirmi,
Çubuqları iyirmi.
Töküb hara gedirsən?
Bu ev sənin döyülmü?

329. Alma könlüm, nar könlüm.
Heyva könlüm, nar könlüm.
Şaddıxnan işim yoxdu,
Ağlamaxnan var könlüm.

330. Mən aşığam, al mənnən,
Sarı mənnən, al mənnən.
Mən bu cana borcluyam,
Gəl bu canı al mənnən.

331. Qalanın yolu sərvan,
Torpağı gözə dərman.
Yardan bir kağız almışam,
Yarsı dərd, yarsı dərman.

332. Bostan əkdim xiyarsız,
Gülünü dərdim sənsiz.
Yatdım bir vayğa gördüm,
Oyandım ixtiyarsız.

333. Apardılar, qoydular,
Ağladılar, doydular.
Yar, sinənin üstünə,
Ağır daşlar qoydular.

334. Mən aşıq, yada qaldı,
Yada, yağıya qaldı.
Allah, tikdiyim evlər,
O da yağıya qaldı.

335. Mən aşıq, elə çatdı,
Elə gəlib, elə çatdı.
Mübarizin cəsədi
Gəlib elimizə çatdı.

336. Mən aşiq, qalasız,
Şəhər olmaz qalasız.
Ta mən gedirəm,
Siz də sağlıqla qalasız.

337. Mən aşığam, oyan, gül,
Oyan, bülbül, oyan, gül.
Tez açılıb, tez solan,
Bizi mağmın qoyan gül.

338. Xoş gəlmisən, yerin var,
Döşəyin var, yerin var.
Üç ildi yol küsüb,
Cənnətdə yerin var.

339. Mən aşıq, sən gəlincən,
Sənət verərəm, sən gəlincən.
Əzrayıl gəlsə, can verməyərəm,
Gözlərəm sən gəlincən.

340. Dilin kişmiş kimidi,
Cibə düşmüş kimidi.
Bir qız anasız olsa,
Gözdən düşmüş kimidi.

341. Əzizim, əkin olmaz,
Əkməsən, əkin olmaz.
Gedib Kəlbəcərə çıxmasam,
Ürəyim səkin olmaz.

342. Əzizim, xalı görüm,
İstərəm xalı görüm.
Oturaq biz yan-yana
Toxuyaq xalı, görüm.

343. Əzizim, andım, ana,
Şəkərim, qəndim, ana.
Ləblərində su gətir,
Alışdım, yandım, ana.

344. Dağlar dağı qoynunda,
Yağıb qarı qoynunda.
Məni elə dərdə qoydun ki,
Qaldım əli qoynunda.

345. Dağ başında yaşa mən,
Yendim, gəldim səsə mən.
Təzə yasdan çıxmışdım,
İndi batdım yasa mən.

346. Mən aşıq, gedər, gələr,
Dost-dosta gedər, gələr.
Demə, yollar bağlıdı,
Xəyalım gedər, gələr.

347. Ala kilim yükdədi,
Gözüm o gədikdədi.
Mən yarımı tanıdım,
Qabaqkı bölükdədi.

348. Mən gələndə yaz idi,
Çaylar dolu qaz idi.
İstədim məktub yazam,
Mürəkkəbim az idi.

349. Mən gələndə qış idi,
Çaylar dolu quş idi.
İstədim məktub yazam,
Barmaqlarım üşüdü.

350. Gəlin gəlir, yaman gəlir,
Gəlin gəlir, haçan gəlir?
Bir ülgüclə bir bıçaq,
Başları qırxan gəlir.

351. Gülüşün qanadlıdı,
Ləzzətlidi, dadlıdı,
Şit sözü danışmayın,
Hər sözün urvatlıdı.

352. Çaqqala bax, çaqqala,
Çək belini, toqqala.
Ayam elə dönübdü,
Qız gedir ağsaqqala.

353. Əzizim, yazana bax,
Dostluğu pozana bax.
İki mərdi aldadıb,
Bir qəbir qazana bax!

354. Əzizim, asta, haray,
Qohuma, dosta, haray.
Bir yanım köç üstündə,
Bir yanım yasda, haray.

355. Arxalığın qola sal,
Götür, qoldan-qola sal.
Çoxlu qonağın gəlib,
Gəl, onları yola sal.

356. Noxudu az verdilər,
Əlimə saz verdilər.
Düşdüm sağalmaz dərdə,
Dərmanım az verdilər.

357. Su gələr lilləndirər,
Bağları güllləndirər.
Dərdliyə söz deməyin,
Dərd onu dilləndirər.

358. Mən ölərəm, yad olaram,
Yaddan çıxıb yad olaram.
Qəbrim üstə tez-tez gəl,
Sən gələndə şad olaram.

359. Əzizinəm, ağ damar,
Qara damar, ağ damar.
Vətənə xain baxanın
Gözlərinə ağ damar.

360. Əziziyəm, hara gedim?
Bülbüləm, xara gedim.
Yar məni eşqə salıb,
Bilmirəm, hara gedim?

361. Çöllərdə bostan oldum,
Dillərdə dastan oldum.
Taleyim bəd gətirdi,
Aşnadan, dostdan oldum.

362. Çoban, qoyun kimindi?
Sana, gör neçə mindi?
Mənim sevdiyim sənsən,
Sənin sevdiyin kimdi?

363. Biçinçi bafa bağlar,
Biçdikcə bafa bağlar.
Yarın bivəfa olsa,
Kim ona vəfa bağlar?

364. Əziziyəm, üç ay var,
Üç ulduz var, üç ay var.
Könlüm səni arzular,
Görüşməyə üç ay var.

365. Əziziyəm, gözəl alma,
Yeməyə gözəl alma,
Əsil al, çirkin olsun,
Bədəsil gözəl alma.

366. Heyvalıqdır yolum, yar.
Sənə qurban olum, yar.
Demə ki, yar bivəfadı,
Anam qoymur gələm, yar.

367. Araba bizim olaydı,
Təkəri qızıl olaydı.
Girəydim yar qoynuna,
Gecələr uzun olaydı.

368. Qaladan endim ancaq,
Başıma sancdım sancaq.
Nə qız oldum, nə gəlin,
Odlara yandım ancaq.

369. Aşıq, qara buludlar,
Para-para buludlar.
Mənim dərdi-halımı,
Demir yara buludlar.

370. Əzizim, yan divarı,
Qalanın yan divarı,
Məməni sal ağzıma,
Ürəyim yandı barı.

371. Əziziyəm, sinəndə,
Sındı qəlbim sinəndə.
Tifiləm, al qoynuna,
Bəslə məni sinəndə.

372. Əzizim, çəmən yerdə,
Göy yerdə, çəmən yerdə.
Yara bir köynək oldum,
Soyunub çimən yerdə.

373. Bulaq başında duran,
Ay teştdə paltar yuyan.
Məhlənizə qoymurdun,
Qoynuna girdim, oyan.

374. Əziziyəm, xaçınnan,
Ağ bulud arasınnan,
Yara xonça bəzədim,
Şamamanın xasınnan.

375. Əzizinəm, gül açar,
Bülbül oxur, gül açar.
Bağa yadlar girəndə
Gül solar, bülbül qaçar.

376. Ağlın o başındadı,
Göz qaşın altındadı.
Sən xaini tez tanı,
Daş atsa, başındadı.

377. Deyirəm, vətən yaxşı,
Gül əkdim, bitən yaxşı.
Vətənim qərib qalıb,
Qalmaqdan ölmək yaxşı.

378. Eləmi, vətən yaxşıdı,
Köynəyi kətən yaxşıdı.
Gəzməyə qərib ellər,
Ölməyə vətən yaxşıdı.

379. Bartazın eli yaxşı,
Dağı, aranı yaxşı.
Bir zəvvarı yoxdusa,
Bəs onun nəyi yaxşı?

380. Koroğlu at belində,
Qılıncı qaldı əlində.
Nəbi, yoxsan elində,
Torpağın yad əlində.

381. Əzizinəm, gülən yaxşı,
Deyibən gülən yaxşı.
Xəlvəti söz saxlamaz,
O deyib-gülən yaxşı.

382. Torpaqda o gül bitər,
Gül də bülbülə bitər.
Qışda solan güllərim
Baharda bir də bitər.

383. Dünyanın özü yaxşı,
Aləmi, özü yaxşı.
Ədaləti yoxdusa,
Bəs onun nəyi yaxşı?

384. Əzizim, gəzə-gəzə,
Dolan, gəl gəzə-gəzə.
Düşmən məni yandırır,
Yurdumda gəzə-gəzə.

385. Əziziyəm, qarğadı,
Sağsağandı, qarğadı.
İşimiz düz gətirmir,
Bəlkə, fələk qarğadı?

386. Əzizim, yarası da,
Sağalmır yarası da.
İlan elə ilandı,
Ağı da, qarası da.

387. Əzizim, didərginəm,
Köçkünəm, didərginəm.
Taleyin hökmünə bax,
Yurdumda didərginəm.

388. Əzizinəm, varı dan,
Dövləti dan, varı dan.
Donuzu əzişdirməsən,
Heç çıxarmı darıdan?

389. Əzizim, düz yaxşıdı,
Əyridən düz yaxşıdı.
Biqeyrət oğuldansa,
Qeyrətli qız yaxşıdı.

390. Əzizim, bizə dəydi,
Daş atdın, dizə dəydi.
Düşmənlər dava saldı,
Xatası bizə dəydi.

391. Əziziyəm, qarlıdı,
Dağlar başı qarlıdı.
Xain dostdan, yoldaşdan
Düşmən etibarlıdı.

392. Əzizim, zamana dönüb,
Qaşlar kamana dönüb.
Yurdum yad əllərdədi,
Ürəyim qana dönüb.

393. Əzizinəm, dərdimi,
Gül becərən dərdimi?
Yurdumnan söhbət açdın,
Təzələdin dərdimi.

394. Əzizim, bənövşə ətri,
Xoşdur bənövşə ətri.
Yar yaxasın açanda
Duydum bənövşə ətri.

395. Əziziyəm, qana bax.
Axıb gedir, qana bax.
Vətənim yaralıdı,
Sinəsində qana bax.

396. Əziziyəm, xan oldu,
Sultan oldu, xan oldu.
Süfrəmdə çörək yeyən,
Özümə düşmən oldu.

397. Əziziyəm, əsirdi,
Külək çox sərt əsirdi.
Kimə dərdimi deyim?
Zəngilanım əsirdi.

398. Əzizim, qız balası,
Anamın qız balası.
Ana fəryad eyləyir,
Əsirdi qız balası.

399. Əzizinəm, quşam mən,
Qəfil dərdə tuşam mən.
Şuşasız, Kəlbəcərsiz,
Bir qanadsız quşam mən.

400. Əzizinəm, yaşamaz,
Qartal dağsız yaşamaz.
Mənim bu xəstə könlüm
Qarabağsız yaşamaz.

401. Aşıq, nişanlı qaldı,
Şöhrətli, şanlı qaldı.
Oğullar şəhid oldu,
Qızlar nişanlı qaldı.

402. Əzizim, o yananda,
Od tutub o yananda.
Gözüm səni axtarır,
Yuxudan oyananda.

403. Əzizim, qanı yerdə,
Axıbdır qanı yerdə.
İgidlərim, atlanın,
Qoymayaq qanı yerdə.

404. Əzizinəm, soydular,
Ermənilər soydular.
Dilbilməz körpələrin
Gözlərini oydular.

405. Əzizim, kəs aranı,
Doldur ver, kəs aranı.
Olursan, yaxşı dost ol,
Olmursan, kəs aranı.

406. Saralmışam, solmuşam,
Bulud kimi dolmuşam.
Nə atam var, nə anam,
Burda yetim qalmışam.

407. Mən aşıq, hanası var,
Qurulub, hanası var.
Görüşməyə yol vermir,
Əzazil anası var.

408. Mən aşıq, qavalı var,
Əlində qavalı var.
Get, bacına denən ki,
Dərdinnən havalı var.

409. Mən aşıq, gül dənədi,
Çəməndə gül dənədi.
Səni aldım, el dedi,
“Filankəs gül dənədi”.

410. Mən aşıq, dadoyludu,
Dad aman, dadoyludu.
Anana de ki, yarım
Əlinnən dadoyludu.

411. Mən aşıq, çin-çin olub,
Tellərin çin-çin olub.
Gözün ceyran gözüdü,
Əlin göyərçin olub.

412. Mən aşıq, xal-xal olub,
Bənizin xal-xal olub.
Hər gün bir dərd verirsən,
Ürəyim xal-xal olub.

413. Bulaqda kuzə qalıb,
Sınmır, təzə qalıb.
Əl-ayağım bağlıdı,
Umudum sizə qalıb.

414. Dağın daşı məl追di,
Gözün qaşı mələdi.
Ağlar qalsın düşmanı,
Balamı qana bələdi.

415. Gələr, gələr, ay gələr,
Deyirdim mən, toy gələr.
Qaramata düşmüşəm,
Vay dalınca vay gələr.

416. Qarabağda bağ qaldı,
Bostanımda tağ qaldı.
Nə gözümdə işıqlıq,
Nə könlümdə yağ qaldı.

417. Ay dağlar, qoşa dağlar,
Mənsiz ha yaşa, dağlar.
Qardaşımnan, bacımnan
Düşmüşəm haşa, dağlar.

418. Arazın üsdüynən gəl,
Altın qoy, üsdüynən gəl.
Yığ başının dəstəsin,
Özün də üsdüynən gəl.

419. Arazı ayırdılar,
Qumnan doyurdular.
Biz sizdən ayrılmazdıq,
Zülmünən ayırdılar.

420. Bağçamızda boyana,
Gül yastığa dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə, yarım oyana.

421. Getdi gülüm olara,
Oldu zülüm olara.
Vədəsiz bir yel əsdi,
Getdi gülüm olara.

422. Qızılgül həşəm oldu,
Dərmədim, həşəm oldu.
Sən gedənnən sonra
Ağlamaq peşəm oldu.

423. Qəribəm, yoxdu atam,
Qanadım yoxdu, qalxam.
Çıxam qəlbi dağlar başına,
Öz vətənimə doğru baxam.

424. Qardaşın kürən atı,
Meydana girən atı.
Heç bəndələr minməsin
Qardaşım minən atı.

425. Göyərçinəm, uçdum, gəl.
Dost bağına düşdüm, gəl.
Yaxşı günün qardaşı,
Yaman günüm düşdü, gəl.

426. Dağlar, sənə dağlar,
Göy geymiş gənə dağlar.
Tutaydım balalarımın qolunnan
Gedəydim sənə, dağlar.

427. Qardaşa deyin gəlsin,
Atnansa, yeyin gəlsin.
Deyin, bu gün gəlməsə,
Gəlsə də, bu gün gəlsin.

428. Evi tikdim düzə mən,
Kilim çəkdim üzə mən.
Çalışdım, vuruşdum, yığdım,
Onu da verdim sizə mən.

429. Bu qala qızıl qala,
Tikilmiş qızıl qala.
Sənin kimi qonağım ola,
İstərəm yüz il qala.

430. Qaladan yendirdilər,
Ağ donun geydirdilər.
Nə dərdim var, nə odum,
Məcburca öldürdülər.

431. Ox mənim, lələ mənim,
Ox bağrımı dələ mənim.
Yaman yerdə axşamladım,
Kimsəm yox gələ mənim.

432. Qəribsən, nə gəzərsən,
Bağrım başın əzərsən.
Tərgidib evini, eşiyini,
Bax burda nə gəzərsən?

433. O tayda quzu gördüm,
Tükün qırmızı gördüm.
Açın cənnət qapısın,
Sevdiyim qızı gördüm.

434. Bənövşəyəm, itərəm,
Kol dibində bitərəm.
Qeyri güllər gələndə,
Mən baş alıb itərəm.

435. Bənövşəyəm, çiçərəm,
Kol dibində bitərəm.
Balalarım gəlməsə,
Boynumu əyri tutaram.

436. Qərib öldü, götürun,
Dar küçədən ötürün.
Qəribin öldüsünü,
Anasına yetirın.

437. Aşıq, denən simi sarı,
Xalım, de sim sarı.
Başım cəllad əlində,
Gözüm gəzir Simsarı[18].

438. Şirvanın ağ alması,
Yeməyə ağ alması.
Qiyamətə qalıbdı,
Yaramızın sağalması.

439. Ağdamın ağacları,
Bar gətirməz başları.
Bizi yerimizdən eləyənin
Qırılsın qardaşları!

440. Mən aşıq, qala-qala,
Bürc hörülər qala-qala.
Urvatdan düşər qocalar,
Dünyada qala-qala.

441. Çıxaram Ağrı dağına,
Baxaram cənnət bağına.
Sığınaram imam torpağına,
Ölsəm də onnan ölərəm.

442. Gedərəm, yolum dağdı,
Dörd yanım güllü bağdı.
Çəkərəm Hacı Qaramanın qəhrin,
Necə ki, canım sağdı.

---

[18] Söyləyicinin adıdır.

443. Mən aşıq, qoşa dağlar,
Verməyin baş-başa, dağlar.
Yol verin, oğlum gəlsin,
Dönməyin daşa, dağlar.

444. Apar bazara məni,
Salma azara məni.
Aç belinnən qurşağı,
Salla məzara məni.

445. Qalanın yolları fərman,
Torpağı cana dərman.
Yardan bir kağız gəlib
Yarı dərd, yarı dərman.

446. Təbriz üstü güneydi,
Şüşələr dolu meydi.
Yardan bir kağız gəlib,
Tamam ərzi-gileydi.

447. Quşum uçdu çiləkdən,
Qolum düşdü biləkdən.
Mənimki belə düşüb
Çarxı dönmüş fələkdən.

448. Gəlibdi qonağımız,
Sənə qurban canımız.
Əhvalımı bilmək istəsən,
Bu da bizim əhvalımız.

449. Bu dağdan aşana,
Qanı çoşub gələnə.
Bəxtəvər o bacı-qardaşa
Halallaşıb ölənə.

450. Bu dağlar, kərəm dağlar,
Gülü yox dərəm, dağlar.
Rüzgar belə keçsə,
Ürəyim vərəm bağlar.

451. Xırda-xırda kələmlər,
Budur, gəlir sənəmlər.
Ana, fikir eyləmə,
Belə yerdə qalan vərəmlər.

452. Gəl gedək Başyurda,[19]
Ayaq yurda, baş yurda.
Gedən olsa, mənnən
Salam söylə Başyurda.

453. Mixək əkdim, dərd oldu,
Sözüm xana ərz oldu.
Əlimi elə üzdüm,
Ölüm mənə fərz oldu.

454. Əlində nar dilimi,
Tutubdu nar dilimi.
Götürdü üzünün pərdəsin,
Açdımı lal dilimi?

455. Əlində sini durur,
Ləngəridür, sini dur.
Sənə gələn qadanı
Mən alım, sən geri dur.

456. Ələkdə var barama,
Əl vurma yarama.
Bacım çırağı tutsun,
Anam baxsın yarama.

---

[19] Başyurd Kəlbəcər rayonunda yer adıdır.

457. Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy çəmən,
O da marala qaldı.

458. Gəlin, saşdı gəlin,
Gədikdən aşdı gəlin.
Yüz dövran eləyib,
Axırı puşdu gəlin.

459. Könlüm ana istəyir,
Yana-yana istəyir.
Bir mən olam, bir anam
Xəlvətxana istəyir.

460. Bu gələn el yoludu,
Qoy gəlsin, el yoludu.
Təpəm bulud oynağı,
Gözlərim sel yoludu.

461. Bu gələn yol oleydi,
Dörd yanı kol oleydi.
Öldüreydi bacısı ölənnər özünü,
Mənə də yol oleydi.

462. Bulağın başıynan,
Dibinin daşıynan.
Getdim bacı görməyə,
Gözümün yaşıynan.

463. Bağda bulum xəbəri,
Kimnən bilim xəbəri?
Kim kimə verə bilər
Belə zülüm xəbəri?

464. Ürəyimdə yara var,
Üstə xal-xal qara var.
Təbib gəlsin baxsın,
Bəlkə, ona çara var.

465. Aşıq, deynən Qarabağı,
Yovşandı Qarabağı.
Tehran cənnətə dönsə,
Yaddan çıxarmaz Qarabağı.

466. Barmağında üzügə,
Barmağı tər nazigə.
Elə günə düşmüşəm
Görən deyir yazığ a.

467. Əlində gəvən yandı,
Od tüşdü, gəvən yandı.
Qırılıb bacı-qardaşım,
Gör mənim haram yandı.

468. Bir yanar fanaram mən,
Alışıb yanaram mən.
Hər sözü demə,
Arifəm, qanaram mən.

469. Əlimdə nar bəzərəm,
Narı hamar bəzərəm.
Ölüb qəşəng bacılarım,
Onunçün xal gəzərəm.

470. Yaralandım yanımdan,
Quşlar doymaz qanımdan.
Elə günə qaldım ki,
Bezar oldum canımdan.

471. Kağız, səni ad eylərəm,
Poçta amanat eylərəm.
Gözlərəm, cavabın çıxmaz,
Gör nə qiyamət eylərəm.

472. Əynimdə çuxa mənim,
Qolumu sıxa mənim.
Görsəm ki, pis günündür,
Gözlərim çıxa mənim.

473. Qırmızıdı yastığımız,
Əl Qurana basdığımız.
Gəl oxunaq bacı-qardaş,
Baş tutmadı dostluğumuz.

474. Qızıl üzük saxladı,
Barmağımda laxladı.
Qurban olum anama,
Yarımı qonaq saxladı.

475. Dəlidağ dağ olaydı,
Dörd yanı bağ olaydı.
Mənim bu günümdə
Anam sağ olaydı.

476. Evlərinin dalı dalda,
Bulud oynar sağı, solda.
Məni yola salın gedim,
Bacımın gözü yolda.

477. Aşıq deyər, vay dərdim,
Vay dərmanım, vay dərdim.
Xalq gül əkdi, gül dərdi,
Mən gül əkdim, vay dərdim.

478. Aşıq deyənim yoxdu,
Al-yaşıl geyənim yoxdu.
Yüz il bir yana gedəm,
“Gəlmədi” deyənim yoxdu.

479. Göynən gedən qu məni,
Görən neynir bu məni?
Dəsmalın kəfən eylə,
Göz yaşınnan yu məni.

480. Aşıq de, şamda mələr,
Quzu da şamda mələr.
Buraya bir nər yıxılıb,
Bacasız damda mələr.

481. Sən mənim əmilərim,
Kövşəndə zəmilərim.
Kövşənə əli çinli girdi,
Göy biçdi zəmilərim.

482. Kababın gözəl dadı,
Yemə, gözəl dadı.
Heç sənnən ayrılmayaydım,
Sənin o gözəl dadın.

483. Dərya, sənnən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Didən doldu yaşınan,
Xəyalınnan kim keçdi?

484. Qızıl alma diyirləndi,
Gəldi yastığa dayandı.
Yastığının dibin basdım,
Qoynuna girməkdi qəsdim.

485. Ağdamın ağacları,
Bar gətirməz başları.
Səni mənnən eliyənin
Qırılsın qardaşları.

486. Göynən gedən alabaxta,
Qanadları taxta-taxta.
Səni mənnən eləyən
Qan qussun laxta-laxta.

487. Bağa girdim əzəldən,
Dəstə tutum xəzəldən.
Bilsəydim bivəfasan,
Bel bağlamazdım əzəldən.

488. Gülü dəstə bağlaram,
Yığıb, dəstə bağlaram.
Sən yadıma düşəndə,
Asta-asta ağlaram.

489. O qədər xəsdə mənəm,
Dərdi dərd üsdə mənəm.
Gözü qapı kölgəsində,
Qulağı səsdə mənəm.

490. Bu gələn yaz ayları,
Mən deyim, sən yaz ayları.
Yar on günə vaxt verib,
Sana, gəlsin tez ayları.

491. Əziziyəm, qızaranda,
Dan yeri qızaranda.
Qalsa da, qız qalsın,
Qalmasın oğlan Aranda.

492. Göyərçinim uçdu, gəl,
Dost bağına düşdü, gəl.
Yaxşı günün qardaşı,
Yaman günüm düşdü, gəl.

493. Gəlinlər girdi bağa,
Alnı dəydi yarpağa.
Xəbər verin anama,
Bacım gedib torpağa.

494. Ağ əllim, ağ biləklim,
Əli tərlan tüləklim.
Sərt qayadan yol eylər,
Mənim əfqan ürəklim.

495. Gözüm o gəlindədi,
Kəməri belindədi.
Söz deyir, söz eşitməm,
Umur öz əlindədi.

496. Ağzımın dadı bacım,
Könlümün şadı bacım.
Çağırram, tapmıram,
Tuturam yadı, bacım.

497. Şalım qara boyandı,
Ucu yerə dayandı.
Allahı çağırmaqdan
Ərşdə fələk oyandı.

498. Qoy məni el yusun,
El yusun, el götürsün.
Qəbrimi qardaş qazsın,
Çiyninə bel götürsün.

499. Aşıq, deyirəm, mənnən al,
Sənnən sənəd, mənnən al.
Mən bir dəmirçi dükanı,
Nə alırsan, mənnən al.

500. Əlimə saz verdilər,
Onqarın az verdilər.
Yaman çox əlləşmişdim,
Payımı az verdilər.

501. Ağlar sənə dağlar,
Göy geynib sənə dağlar.
Ərzəm yazılı qaldı,
Vermədim sənə, dağlar.

502. Bu yola yol saleydim,
Karvanın bol saleydim.
Bilsəydim ki, ayrılacaqsan,
Boynuna qol saleydim.

503. Aşıq, denən zirəsən,
Zəfəransan, zirəsən.
O günə qurban deyərəm,
Sən qapıdan girəsən.

504. Qızılgül əsdi,
Səbrimi kəsdi.
Sol gözüm sənə qurban,
Sağ gözüm mənə bəsdi.

505. Kəhər at oynamasın,
Çək cilovun, oynamasın.
Gedirsən, daldadan get,
Ürəyim oynamasın.

506. Araqçının günə qoy,
Günnən götür, günə qoy.
Məni sənə verməzlər,
Get evinə binə qoy.

507. Araqçının dardarı,
Gəl başımın sərdarı.
Sevdiyını almasan,
Öl, qəbirə gir, barı.

508. Pərli-pərli bulaqlar,
Lüləpərli[20] bulaqlar.
Bacım sənnən su istəyib,
Etibarlı bulaqlar.

509. Ay elə ud kimidi,
Göydə ulduz kimidi.
Aç yorğanını, girim yerinə,
Yorğanın buz kimidi.

510. Mən öldüm ağlamaqdan,
Arxa su bağlamaqdan.
Doxdurda dərman qalmadı,
Yarama bağlamaqdan.

511. Dəvələr qatar gedər,
Osarın satar, gedər.
Bacı da bacısını
Belə yerdə atar, gedər?

512. Gəncənin boz dağları,
Tutubdu toz dağları.
Mən pis gündəyəm,
A Fərmiteh dağları.

[20] Lüləpər – lilpar, gül adı

513. Bu dağlar aranı dağlar,
Kəsibdi aranı dağlar.
Bir cüt bacı itirmişəm,
Gəzim haranı, dağlar?

514. Əlində sazın nədi?
Söhbətin, sazın nədi?
Bacını tək qoyub gedirsən,
Bəs mənə sözun nədi?

515. Bu dağlar bizim dağlar,
Kölgəsi uzun dağlar.
Burda bacım gəzibdi,
Bir durum gəzim, dağlar.

516. Aman fələk, dad fələk,
Heç olma gəl şad, fələk.
Bizə verdiyin zəhərdən,
Bir özün də dad, fələk.

517. Fələyin dad əlinnən,
Əhli-bedad əlinnən.
Qaçdım da qurtarmadım,
Gənə tutdu əlimnən.

518. Bu dağlar qaralıdı,
Göylüdü, qaralıdı.
Yerişinnən tanıram,
Bizim dağ maralıdı.

519. Bulaq başı pıtıraq,
Döşək gətir, oturaq.
Birin sən de, birin mən,
Bəlkə, dərdi qutaraq.

520. Baba, mənə yaşıl al,
Hər nə alsan, yaşıl al.
Bir bağa bağban olmaz,
Suyu gövhər, yaşıl, al.

521. Mən aşiqəm, ay Mədət,
Ülkər Mədət, Ay mədət.
Dan ulduzu baş verdi,
Ayrılıqdı, ay mədət.

522. Mən aşıq, neynim sənə,
Düşübdü meylim sənə.
Mən dönsəm, üzün dönər,
Sən dönsən, neynim sənə?

523. Yazaram öz aramda,
Pozaram öz aramda.
Yazaram öz dərdimi
Süzgünəm öz aramda.

524. Yük üzündə pərdə mən,
Qəfil düşdüm dərdə mən.
İrahat evim vardı,
Necə yatım yerdə mən?

525. Aslanım hay, qalam hay,
Ərşə çıxdı nalam, hay.
Çəkildi baş kərpicim
Alınıbdı qalam, hay.

526. Arı şana, bu şana,
Arı qonmaz bu şana.
İyidə oğul gərək,
Qızdan olmaz nişana.

527. Kababa da, közə də,
Kabab yanar közə də.
Sənə də qurban olum,
Sən baxan gözə də.

528. Qardaş yolu pusaram,
Gec gələrsən, küsərəm.
Bağrım yandı, su gətir,
Bağrım yandı, susaram.

529. Anam, anam, öz anam,
Qoynu dolu köz anam.
Yad ağlar, yalan ağlar,
Məni ağlasın öz anam.

530. Aman, aman, amandı,
Yüküm arpa-samandı.
Qonşularım dünən öldü,
Bəyəm axır zamandı?

531. Leyli, götür başa düz,
Başdan götür, başa düz.
Qocalmışam həştad yaş,
Ağlım gəlmir başa düz.

532. Qatıra bax, qatıra,
Qatır ayaq götürə.
Əzrayıl, aman ver,
Balam gələ, yetirə.

533. Asta-asta ağlaram,
Xubrasda[21] ağlaram.
Götürərəm paltarını,
Toyda, yasda ağlaram.

534. Kəkilin iki yana,
Dara tök iki yana.
Əlim yansın bir yana,
Mən yanıram yeddi yana.

535. Gedirsən yolun olsun,
Ağ cuna donun olsun.
Balanı tököb gedibsən,
Cənnətdə yerin olsun.

536. Gəl, məni qurdalama,
İri kəs, xırdalama.
Yalovum səni qarsar,
Kösövüm qurdalama.

537. Qardaş, gəl, gərəyimsən,
Güzgümsən, darağımsan.
Balalarıma toy eliyirəm,
Yamanca gərəyimsən.

538. Sən nə bildin bu dili?
Dodaq söylər bu dili.
Bəlkə, sənin də dədən ölüb,
Onda öyrəndin bu dili?

539. Təndiri sən odladın,
Od salıb, sən odladın.
Ürəyim yaman yanmışdı,
Qalanını da sən odladın.

540. Ağ alma düzümünən,
Düz getmir düziminən.
Çağırdım, dedim ki,
Dur gedək biziminən.

[21] Xubrasda – düzgün

541. Bu görükən Savalandı,
Haqq deyə Savalandı.
Fələk mənə dağ çəkib,
Nə gedəndi, nə sağalandı.

542. Gəlin, gəlin, tər gəlin,
Yan yeri, ökər gəlin.
Balanı qoydun getdin,
Bunnan ol betər, gəlin.

543. Mən özüm ağlamazdım,
Gülərdim, ağlamazdım.
Sağ durduğun yerdə
Səni mən heç ağlamazdım.

544. Nənə qızın payıdı,
Gülüşüdü, payıdı.
Gələrəm də tapılmaz
Yüz üstə qayıdım.

545. Əzizinəm, bir də mən,
Doldur, içim bir də mən.
Cavanlıq gözəl şeydi,
Cavan olmaram bir də mən.

546. Əzizinəm, o güneylər,
Günəş doğmuş güneylər.
İki həsrət qovuşsa,
Bayramın o gün eylər.

547. Sənin şana barmağın,
Yonqar yona barmağın.
Xətti-xalın öpməmiş
Batdı qana barmağın.

548. Bu dərə dərin dərə,
Suları sərin dərə.
İstədim burda bir bağ salım,
Balalarım gələ, gülün dərə.

549. Ağacda laçın ağlar,
Laçın neyçün ağlar?
Qardaşı ölmüş bacılar,
Açar saçın, ağlar.

550. Arazın üsdü cəngəl,
Altı qum, üsdü cəngəl.
Gətir kəndimizi, Cəbrayılı,
Özün də üsdüncən gəl.

551. Gedəsən, gəlməyəsən,
İlqar ver, gəlməyəsən.
Bu gediş ki, səndədi,
Qorxuram ki, gəlməyəsən.

552. Ələklər, ay ələklər,
Çirməli bağ biləklər.
Gedin düşmana deyin,
Hasil oldu diləklər.

553. Məhşərə bax, məhşərə,
Mən xeyirə, sən şərə.
Mənimlə yoldaşımın görüşməyi,
Qalıb axır məhşərə.

554. Araz arxa dolandı,
İpək çarxa dolandı.
Hökümət verən evdə
Qorxa-qorxa dolandı.

555. Yolun yarısında,
Ağ köynək qarısında.
Məni vuran bədnəzər elə vurdu,
Qaldım yolun yarısında.

556. Gedən, getmə, dayan, dur,
Sirrim sənə əyandı.
Gəlişin yaman gülə bənzəyir,
Gedişin necə yamandı.

557. Araz, Araz, xan Araz,
Soltan Araz, xan Araz.
Sən havax yatdın qaravatda
Demədim, can Araz.

558. Gözlərimin biri sən,
Arazısan, Kürüsən.
Mən yoruldum, sən yorulmadın?
Anan qurban, kiri sən.

559. İndi belə deməmişdim,
Qəm-qüssə yeməmişdim.
Dedim, ölsək, bir ölək,
Ayrılıq deməmişdim.

560. Gəlmişəm, görəm səni,
Qucam, öpəm səni.
Açarım yox, qıfılım yox,
Qəbrini açam, görəm səni.

561. Atdanan bir-bir düşər,
Yaş gözdən bir-bir düşər.
Sənnən keçirdiyim günnər
Yadıma bir-bir düşər.

562. Əlimnən qəlyan çalma,
Mey çalanda azan çalma.
Xalxa oğul, qız qaldı,
Sənə qalan azandı, çalma.

563. Gecələr, ha gecələr,
Molla dərsin gec elər.
Səni gözləyən gözlərim
Nə yatar, nə dincələr.

564. Kəkilin iki yana,
Dara, tök iki yana.
Aləm yansa, bir yana
Mən yandım yeddi yana.

565. Kəklik daşa çıxıbdı,
Səkib daşa çıxıbdı.
Yaman çox əziyyət çəkirəm,
Əlim boşa çıxıbdı.

566. Yükü qurdum düzünə,
Kilim verdim üzünə.
Əlimdə saxlıya bilmədim,
Qaytardım verdim özünə.

567. Dağlarda lala, nərgiz,
Bitibdi lala, nərgiz.
Onsuz da qoyub gedib,
Tək-tənha qalıb nərgiz.

568. Əzizinəm, gülüncən.
Gülüncən, bülbülüncən.
Sənə nənən bir layla çalar,
Öz ananın dilincən.

569. Axan çaylar axmasın,
Quş qanadın çaxmasın.
Fələk bir iş işləsin,
Düşmən bəri baxmasın.

570. Qaladan biri gəlir,
Gözümün nuru gəlir.
Bu arxı kim arıtdıyıb?
Suyu nə duru gəlir.

571. Gedərəm, ölkə, sənnən,
Qorxuram yol kəsənnən.
Dedim, nənə, gəl halallaşaq,
Ayrıldım bəlkə, sənnən.

572. Qırmızı iynə sapı,
O görükən bizim qapı.
Yarı yardan eləyən
Dilənsin qapı-qapı.

573. Açın, açın, mən gəldim,
Qapılar açın, mən gəldim.
Məxmər döşək, gül yastıq
Arasını açın, mən gəldim.

574. Su gəlir, yamandı,
Suyun üzü samandı.
Aaz, qınama məni,
Sevgi dərdi yamandı.

575. Gedən, getmə, məni də apar,
Gedərsən, qiyamət qopar.
Tökərəm qan-yaşımı,
Dalıncan sellər axar.

576. Dağlarda gəzənim yox,
Ağ geyib, bəzənim yox.
On bir il türmədə qalmışam,
"Gəlmədi" deyənim yox.

577. Gün getdi batan yerə,
Mələklər yatan yerə.
Canımı nişana qoydum
Yar oxun atan yerə.

578. Atdanmışam, düşmərəm,
Aşnam yoxdu, düşmərəm.
Gör necə yad olmuşam,
Heç yadlara düşmərəm.

579. Ceyrannar düzə gəldi,
Otladı, düzə gəldi.
Allah bir iş işlədi,
Ayrılıq bizə gəldi.

580. Çayda balıq yan gedər,
Gah əylənər, gah gedər.
Heç dindirmə məni,
Açma yaram, qan gedər.

581. Baxça, barın deyiləm,
Heyva, narın deyiləm.
Çox kəbinə gül olma[22],
Vallah, yarın deyiləm.

582. Mənə dəymə, yesirəm,
Yarpaq kimi əsirəm.
Evinizdə bir cüt qız,
Xırdasınnan kəsirəm.

---

[22] Kəbinə gül olma – kəbinə arxayın olma

583. Əzizim, birdə-birdə,
Xeyir var bu səbirdə.
Gəl ikimiz bir ölək,
Gəl olaq bir qəbirdə.

584. Gözlərin yedi məni,
Qurd oldu, yedi məni.
Bir namərdə sirr verdim,
Aləmə dedi məni.

585. Bağda bitər kələmlər,
Suyu verən ərənlər.
Cavan oğlu, qızı ölən
Elə tezcə vərəmlər.

586. Bir at mindim, başı yox,
Bir çay keçdim, daşı yox.
Burda bir qərib ölüb,
Yanında qardaşı yox.

587. Yaralıyam, yazığam,
Yaram ağır, yazığam.
Siz olun Allah pənahında,
Mənə dəymə, mən yazığam.

588. Aşıq, o başdan ağlar,
Kiprikdən, qaşdan ağlar.
Belə igidi ölən,
Durar obaşdan, ağlar.

589. Kababa da, közə də,
Kabab altdan közə də.
Qurban olum, ay Fatma,
Sənə də, səni görən gözə də.

590. Gedərəm, yolum dağdı,
Dörd yanım güllü bağdı.
Çəkərəm sən çəkən qəhri,
Neçə ki canım sağdı.

591.Ayrıldıq yalan-yalan,
Həsrəti canda qalan.
Ayrılsın, qovuşmasın
Bizi vətənnən ayrı salan.

592. Mən aşıq, dərdə zalım,
Düşübdü dərdə zalım.
Sənnən dərman gəlməsə,
Mənim dərdim azalırmı, ay zalım?

593. Aşıq, yara kimin var?
Bayğu yara kimin var?
Belə dağ, belə düyün,
Belə yara kimin var?

594. Bülbüllər uçdu bağa,
Qondu budaq-budağa.
Dünyada bir canım var,
Olsun yara sadağa.

595. Bu qala, yastı qala,
El gedər, yastı qala.
Ellər, el gedib, qala qalıb,
Qala qalıb pasdı qala.

596. Bu əpbək, nəzər əpbək,
Day kimi təzər əpbək.
Bura Çilgəz[23] deyiblər,
Burda nə gəzər əpbək?

[23] Çilgəz Laçınla Kəlbəcərin arasında olan dağdır.

597. Bu dağa yol salaydım,
Karvanın bol salaydım.
Bilsəydim ayrılıqdı,
Boynuna qol salardım.

598. Yazım,
Nə qışımdı, nə yazım.
Fələk başımı elə qatıb,
Heç bilmirəm, nə yazım?!

599. Yatmışam, oyanmışam,
Qəmlərə boyanmışam.
Daş olsaydım, ərirdim,
Torpağam, dayanmışam.

600. Əzizinəm, ay ata,
Oğlun ölür, ay ata.
Başım cəllad əlində,
Sözüm keçmir, ay ata!

601. Əziziyəm, nəyi qala?
Ocaq yana, nəyi qala?
Mərd ölər, adı qalar,
Namərdin nəyi qala?

602. Əzizinəm, belə yaz,
Qələm götür, belə yaz.
Sınıq könlüm şad olmaz,
Yüz də gəlsə, belə yaz.

603. Qəribəm, yoxdu arxam,
Qanadım yoxdu, qalxam.
Çıxam qəlbi dağlar başına,
Vətənə doğru baxam.

604. Əzizinəm, kim saya,
Sayıl borcunu kim saya?
Min atını, sür dövranını,
Dünya qalmaz kimsaya!

605. Əzizinəm, keçdi mənnən,
Yay-oxu keçdi mənnən.
Yaxşılara körpü düşdüm,
Yamannar da keçdi mənnən.

606. Əzizinəm, novat, hey!
Çarx dolanır, novat hey!
Ölübdü yaxşı yoldaşdarım,
Mənə gəlir novat, hey!

607. Apardı hallar səni,
Hallar, xəyallar səni.
Öpdü, bağrına basdı,
Yovşannı yallar səni.

608. Çəpər çəkili qaldı,
Bostan əkili qaldı.
Vuran elə vurdu,
Hamısı tökülü qaldı.

609. Bağda gülə nə gəldi?
Açdı, gülə nə gəldi?
Bizim gülü şaxta vurdu,
Sizin gülə nə gəldi?

610. Əzizim, qarabağlıdı,
Sinəm çalın-çarpaz dağlıdı.
Nə gedən var, nə gələn,
Qarabağın yolları bağlıdı.

611. Dağlara binə gəlləm,
Gedirəm, yenə gəlləm.
Bir daha vətənə qayıtsam,
İmana, dinə gəlləm.

612. Evimdə-eşiyimdə,
Dolanım keşiyində.
Düşmən, balan can versin,
Balamın beşiyində.

613. Ayağım yalın idi,
Tikanım qalın idi.
Heç ölmək istəmədim,
Cəlladım zalım idi.

614. Ay elə sökülmüşəm,
Xəzantək tökülmüşəm.
Toy paltarı istədim,
Kəfənə bükülmüşəm.

615. Araz gəlir qatı-qatı,
Üsdən sür gəl, Qəmər atı.
Ayə, ay Keyxalının camaatı,
Mənim anam amanatı.

616. O taydan əl eyləmə,
Bağrımı qan eyləmə.
Sən mənimsən, mən sənin,
Özgə xəyal eyləmə.

617. Əyilsin başın, dağlar,
Tökülsün daşın, dağlar.
Mənim beş qardaşım ölüb,
Sənin də ölsün qardaşın, dağlar.

618. Göy üzü damar-damar,
Göydən yerə nur damar.
Qəlbim o qədər nazik olub ki,
Sən sındırsan, kim yamar?

619. Əziziyəm, bircə səni,
Can yeri, bir də səni.
O qədər ölüm yedim,
Axtarıb görəydim bir də səni.

620. Aşıq, yarada nə var?
Halın yarada nə var?
Yaradanım yar olsa,
Belə yarada nə var?

621. Yelləncəkdə əylənim,
Xumarlanım, güllənim.
Növbə mənə çatıbdı,
Bir kıl vurum yellənim.

622. O gülün birin üzəydik,
Saçlarıma düzəydik.
Qardaşımızın toyunda
Dərə aşağa, dərə yuxarı süzəydik.

623. Dağda quzu mələyər,
Quzu əmər, mələyər.
Balası itən ana,
Quzu deyə mələyər.

624. Qardaşın adı gəlsin,
Saralsın, adı gəlsin.
Nə qədər qəriblik çəksəm,
Bircə övladım gəlsin.

625. Dağların dumanı var,
Çiskini, dumanı var.
Nə qədər ömür sürsəm,
Birinə gümanım var.

626. Axşamüstü dan üzü,
Şamlar yanar dan üzü.
Könlümə qardaş düşsə,
O da gələr dan üzü.

627. Səni görüm xoş yaşa,
Götürgünən, xoş yaşa.
Fələk sənə taleh yazsın,
Ömrünün sonunacan xoş yaşa.

628. Bu dağdan,
Çiskin, gəl get bu dağdan.
Bir quzu itirmişəm,
O da olub bu dağdan.

629. Anam, otur yanımda,
Bacım, otur yanımda.
Birin sən de, birin mən,
Dərd qalmasın canımda.

630. Dağdan aşdı, dedilər,
Tora düşdü, dedilər.
O, fələyin toruna
Yamanca duşdü, dedilər.

631. Fələk, mənə baxdılar,
Qan ağladı, baxdılar.
Bəxtlilər bəxtin götürdü,
Fələk yazdı, bəxt olar.

632. Gəlinə bax, gəlinə,
Əlin vurub belinə.
Gəlinə bir şey deməmiş,
Gedib çıxır evinə.

633. Dağda duman yeri var,
Duman, güman yeri var.
Bacı qardaşdan küsüb,
Onun güman yeri var.

634. Qızılgül vağam oldu[24],
Dərmədim, vağam oldu.
Təbiətim elə gətirdi,
Çobanım ağam oldu.

635. Qəmli qəmin ağlayar,
Qəmsiz özün dağlayar.
Qəmli nə qədər xoşbəxt olsa,
Öz qəmini ağlayar.

636. Dağlardan aşdım, gəldim,
Çölləri dolaşdım, gəldim.
Dəryam elə qərq olub,
Fikrim çaşdı, gəldim.

637. Əzizim, ağlamazdım,
Gülərdim, ağlamazdım.
Bilsəydim vəfan budu,
Sənə bel bağlamazdım.

638. Qardaş, gəl qonağım ol,
Döndər gəl, qonağım ol.
Əgər sən arzulasan,
Yeddi il gəl, qonağım ol.

[24] Vağam oldu – soldu, köhnəldi

639. Axşamüstü, dan üzü,
Quşlar uçar dan üzü.
Sənə bir səda göndərrəm,
O da çatar dan üzü.

640. Getdi, yarısı qaldı,
Gün getdi, yarısı qaldı.
Elə qəhri-qəza olub
Günümün yarısı qaldı.

641. Ömür sənnən, gün sənnən,
Gəl, keçməz gün sənnən.
Ömrüm gedib, günüm gedib,
Günüm keçib gün sənnən.

642. Dağlardan aşdı, dedi,
Dilə dolaşdı, dedi.
Dilim sərfəsiz oldu,
Əlimnən qaçdı, dedi.

643. Boz atı bağlamışdım,
Yağlayıb, bağlamışdım.
Qardaş gedənnən sonra
Ürəymi dağlamışdım.

644. Dünyam, sənnən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Nə qədər fikirli gəzdim,
Qəlbimnən gör kim keçdi?

645.Mən əzizim, gülöyşə dərdi,
Yüklənib lökə[25] dərdi.
Nər çəkməz, maya çəkməz
Bu yetimin yekə dərdin.

646. Məni anam ağlasın,
Cannan yannan ağlasın.
Verməsin qohuma,
Təkcə anam ağlasın.

647. Apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yükü,
Bala, yordu bu taylar məni.

648. Ay doğdu, axtalandı,
Doğduqca axtalandı.
Gözlədim, gəlmədin,
Qəbrim üstü taxtalandı.

649. Bu yol gəlir Çaxmaqdan,
Su yorulmaz axmaqdan.
Gözümdə qara qalmadı,
Yollarına baxmaqdan.

650. Gəncədən gəl, Gəncədən,
Atın yesin yoncadan.
Məni vuran elə vurdu,
Belim sındı incədən.

651. Ana, məni az ağla,
Çox bilirsən, az ağla.
Al əlinə qələm, dəftərini,
Mən deyim, sən yaz, ağla.

652. Göynən gedən sonalar,
Biri-birini yan alar.
Dursun gəlsin yanıma
Oğlu ölən analar.

[25] Lök – dəvə

653. Dərədə mal məl668di,
Yalqızdı, mal mələdi.
Mənim dərdim yaman çoxdu,
Mənə bir yol bələdi.

654. Mən aşiq, dəvə damı,
Tikdirdim dəvə damı.
Nə çöldə səyyar oldum,
Nə evdə ev adamı.

655. Maral o üzdə varmı?
Otlar, o üzdə varmı?
Yaman oğlannar itirmişəm,
Görün o üzdə varmı?

656. El getdi, binə qaldı,
Binə nə günə qaldı?
Mənim balalarımnan görüşməyim,
Qiyamət günə qaldı.

657. Göydə buludam səni,
Sərəm, qurudam səni.
Öləm, qəbrə girəm,
Onda unudam səni.

658. Bu yola yolmu gedər?
Karvanı bolmu gedər?
Kəsər duşmannar yolu
Görən yanına yolmu gedər?

659. Gedirdim o düzlərnən,
Kəsdin salamı bizlərnən?
Bilsəydim ayrılıq olacaq,
Öpərdim gözlərinnən.

660. Mən öldüm ağlamaqdan,
Ağa göy bağlamaqdan.
Gözümdə yaş qalmadı,
Bu qədər ağlamaqdan.

661. Mən aşıq, gündə mənim.
Boynumda var kündə mənim.
Burnumnan gəldi, töküldü
Gördüyüm gün də mənim.

662. Gələnə bax, gələnə,
Dağdan aşıb gələnə.
Elə xoşum gəlir ki,
Halallaşıb ölənə.

663. Yerim uca saldılar,
Aparıb uca saldılar.
Ölməyə könlüm yoxudu,
Məni gücə saldılar.

664. Anam, anam, öz anam,
Qoynu dolu köz anam.
Bir günümə dözmürdün,
İndi illər boyu döz, anam.

665. Bu yol Cavada gedər,
Aşar, Cavada gedər.
Uçub könlümün quşu,
Gör nə havada gedər.

666. Mən öldüm, anam qaldı,
Oduma yanan qaldı.
Nə bu dünyadan kam aldım,
Nə bir nişanam qaldı.

667. Qan olar,
Eləsən, füqan olar.
Balalarım gələn yola
Anası qurban olar.

668. Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl.
Mən səni çox arzuladım,
Barı can verəndə gəl.

669. Mən aşıq, yermi ola?
Qaşın üstə telmi ola?
Qəriblikdən yaman bezmişəm,
Gör yanında yermi ola?

670. Qurban olum boyuna,
Ellər gəlsin toyuna.
Bir hava çaldırgınan,
Anan girsin oyuna.

671. Samalyot göydədi,
Qanadları yerdədi.
Ay Xudavəndi Haqq Allah,
Balalarım qərib yerdədi.

672. Bulaq bulağa gəlsin,
Çay da bulağa gəlsin.
Çıx o qəlbi dağ başına,
Səsin qulağa gəlsin.

673. Bulağın başı sənsən,
Dibinin daşı sənsən.
Dünya gözələ dönsə,
Hamsının başı sənsən.

674. Bu dərədən yol düşdü,
Budaq sındı, qol düşdü.
Kəsildi bizim yollar,
Qeyri yerdən yol düşdü.

675. Bağca məndə, bar məndə,
Heyva məndə, nar məndə.
Qoynum ətdar dükanıdı,
Hər nə desən, var məndə.

676. Köynəyin gülü yansın,
Od tutsun, gülü yansın,
Səni mənnən ayıranın,
Ağzında dili yansın.

677. Dağlarda qar səsi var,
Yağıbdı, qar səsi var.
Atlar ifcin nallanıb,
Yenə səfər səsi var.

678. Gəlin, gəlin, saçlı gəlin,
Gədikdən aşdı gəlin.
Gəlinin yığdığı düyünü,
Kimlər açdı, gəlin?

679. Evlərim Maşatdadı,
Tikilmiş, Maşatdadı.
İstərəm, duram yanına gələm,
Qollarım daş altdadı.

680. Qəribəm, ağrılı başım,
Yastığa damır qanlı yaşım.
Çıxarlar boylanarlar,
Deyər, gəlir qardaşın.

681. Dağların lalasıynan,
Gül əkdim piyalasıynan.
Məni niyə atdın getdin
Yanımın iki balasıynan?

682. Dağlar, qoşa dağlar,
Nə veribsən baş-başa, dağlar?
Səni qoyduq yendik,
Min il, yüz il yaşa, dağlar!

683. Əli, Vəli eşqinə,
Murtuza Əli eşqinə.
Buna bir haray verin,
İmam Hüseyn eşqinə.

684. Bu xəbər nə xəbərdi?
Yenə yaram qabar-qabardı.
Bir yanı köçüb gedib,
Bir yanı bixəbərdi.

685. Xəbəri qarğadan al,
Qırıldar, qarğadan al.
Qarğadan da almasan,
Bir atı yorğadan al.

686. Mən aşıq, hər aylar,
Hər ulduzlar, hər aylar.
Başım cəllad əlində,
Dilim qardaş haraylar.

687. Ay gəlin, çaya gəl,
Çaya, çimənə gəl.
Məndə bir din-iman qoymadın,
Sən də bir din-imana gəl.

688. Bağçalar olmasın barsız,
Heyvalar olmasın narsız.
Belə mən təki gözəl
Olmasın yarsız.

689. Qəbrimi qazarlar qatı,
Üstündə bəzərlər atı.
Axır məhşər qiyamatı
Ölüncə dönmərəm sənnən.

690. Başında ağ şalı var.
Ağ şalın göy xalı var.
Belə bu gedən qızın,
Yarıma oxşarı var.

691. Qızıl üzük firuzə,
Gedin deyin xoruza.
Bu gecə banlamasın,
Yar gələcəkdi bizə.

692. Bu gələn haralıdı?
Dağların maralıdı.
Əyil, üzünnən öpüm,
Ürəyim yaralıdı.

693. Araza isti deyəllər.
Suyuna tüstü deyəllər.
Aranda qalana
Sarfa uddu deyəllər.

694. Arğalı[26] harda mələr?
Urumda, Şamda mələr.
Bir yaxasız köynək geyib,
Bir bacasız damda mələr.

[26] Arğalı – ölü

695. Öyün ağzı hayana?
Bağın ağzı bayana.
Əzrayıl ova çıxıb,
Səni vurar, gəl buyana.

696. Ay kəkilli bəsər oğlan,
Yel vurar, əsər, oğlan.
Qız eşqinə düşmə,
Bədnəzər səni kəsər, oğlan.

697. Ağ dəvə düzdə qaldı,
Yükü Tərbizdə qaldı.
Mənə dərman tapılmadı,
Dərmanım kimdə qaldı?

698. Bağın virana qalsın,
Gülün dərənə qalsın.
Biz ki xeyrin görmədik,
Xeyri görənə qalsın.

699. Mən aşıq, qorsalama,
Oxuyub dərs alana.
Özüm qurban, atım peşkəş
O balkonda yer salana.

700. Əziziyəm, keçdi mənnən,
Ox dəydi, keçdi mənnən.
Mərdlərə körpü oldum,
Namərdlər keçdi mənnən.

701. Ağlama, naçar, ağlama,
Gündü, keçər, ağlama.
Qapını bağlıyan Allah
Bir gün açar, ağlama.

702. Əziziyəm, Qarabağda,
Mən dağda, qız aranda,
Qalsa da, oğlan qalsın,
Qalmasın qız aranda.

703. Qəlyanı bayaq çəkdim,
Bayaq doldurdum, bayaq çəkdim,
Bu dünyanı bivəfa gördüm,
Əl qoydum, ayaq çəkdim.

704. Qəlyanı çəkənə ver,
Doldur, çəkənə ver,
Bu dərdi mən çəkə bilmirəm,
Dərdini çəkənə ver.

705. Evimizin dalında bel durub,
Bel söykənib, bel durub.
Qırmızı buxaq içində
Bir qırmızı tel durub.

706. Məni apar bazara,
Saldın məni azara.
Aç belinin qurşağın,
Salla məni məzara.

707. Apardı boz at məni,
Saxladı sayat məni.
Bir elim, obam olseydı,
Axdarıb tapar məni.

708. Bu dərdin əllisinnən,
Yüzünnən, əllisinnən.
Bu dərdə çarə yoxdu,
Soruşdum əllisinnən.

709. Arxalığın qola sal,
Qoldan götü, qola sal.
Atan-anan yaman qocalıb,
Gəl özün yola sal.

710. Mən səni Leyli gördüm,
Leyli, gileyli gördüm.
Gedirəm səni görməyə,
Torpaqdan öylü görürəm.

711. Köynəyin ağ saxlaram,
Yuduqcan ağ saxlaram.
Bir də qayıdıb gəlsən,
Yüz il qonaq saxlaram.

712. Əzrayıl bostançıdı,
Aləmə dastançıdı.
Dəymişi qoyub, kal kəsir,
Nə yaman bostançıdı.

713. Çəkməmi çəkmədilər,
Çək dedim, çəkmədilər.
Düşmüşəm dərin quyuya
Qolumnan çəkmədilər.

714. Maral meşəli yerdə,
Gülü döşəli yerdə.
Məni vuran elə vurdu,
Qaldım döşəli yerdə.

715. Bağımda badamım var,
Yeməyə adamım var.
Gəl yanımda dur, qardaş,
Desinnər, adamım var.

716. Tayada belim yanır,
Uzatdım, əlim yanır.
Dədə, nənə deməkdən,
Ağzımda dilim yanır.

717. Yaralı bir qoçam mən,
Qovan yoxdu, qaçam mən.
Gəlmişəm elə, kimsə yoxdu,
Bu dərdimi açam mən.

718. Dağları gəzəmmərəm,
Daşdarın əzəmmərəm.
Ürəyim yaralıdı,
Bu dərdə dözəmmərəm.

719. O tayda ağlaşırlar,
Saç-saça bağlaşırlar.
Qoyman, zalım uşağı,
"Nənə" deyib ağlaşırlar.

720. Qardaş, qardaş, adı qardaş,
Ağzımın dadı qardaş.
Gəzərəm, tapmaram,
Yadlara demərəm qardaş.

721. Qardaş, qardaş, a qardaş,
Sallan, gir bağa, qardaş.
Qoyunum yox, qurban kəsəm,
Canım sadağa, qardaş.

722. Mən aşıq, Həsən gəl,
Gülü bağdan kəsən, gəl.
Mən gözlədim, gəlmədin,
Ya mən gəlim, ya sən gəl.

723. Mən aşıq budağınan,
El gedər bu dağınan.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

724. Mən aşıq, bağda dara,
Zülfünü çək, bağda dara.
Bülbülü güldən ayrı
Çəkdilər bağda dara.

725. Mən aşıq, oyan gül,
Oyan, bülbül, oyan, gül.
Tez açıldın, tez soldun,
Məni mağmın qoyan gül.

726. Mən aşıq, hələ vardı,
Bağban bağda hələ vardı.
Əlimi üzməmişəm sənnən,
Ümidim hələ vardı.

727. Aşıq, mən görəndimi?
Halın mən görəndimi?
Qurban olum sənə, qardaş,
aç üzün,
Görüm mən görəndimi?

728. Qardaş demə, qan olar,
Yel əsər, fiğan olar.
Qardaş gəzən yerlərə,
Bacılar qurban olar.

729. Bacılar bacısıyam,
Şirinlər acısıyam.
Kimin qardaşı ölüb,
Mən onun bacısıyam.

730. Gülü əkdim divara,
Divar onu suvara.
Yazı sənnən yazladım,
Qışı qaldım avara.

731. Qalam vay,
Əsgəran vay, qalam vay,
Qırılıbdı qoşunum,
Qalmayıbdı qalam, vay.

732. Xoruzun ban səsinə,
Ayıldım dan səsinə.
Çoxlu xəstə yataydın,
Can deyəydim səsinə.

733. Dəvə otlar gəllahı[27],
Otladıqca gəllahı.
Üstünü Əzrayıl alanda
Çağırardın Allahı.

734. Aşıq, mən görəndimi?
Halın mən görəndimi?
Aç üzunun pərdəsin,
Görüm, mən görəndimi?

735. Boz atın oynağandır,
Çək başın, oynağandır.
Gəlin girək meydana,
Görək, kim oynağandır?

736. Kərgədan, ay kərgədan,
Yoxdu məni örgədən.
Sənə kimlər qarğadı,
Vaxtsız çıxdın cərgədən?

---

[27] Gəllahı – düzəngahı

737. Bilmədik yaz olduğun,
Güllər pərvaz olduğun.
Nə sən bildin, nə biz bildik,
Ömrünun az olduğun.

738. Mən həmayıl deyiləm,
Ağlı zayıl deyiləm.
Qoy ölsün ölməlilər,
Sənə qıyan deyiləm.

739. Eləmi, yaxşı meylər,
Yaxşı söz, yaxşı meylər.
Qonşunu bədnam edən
Ozünə yaxşımı eylər?

740. Qədəkçinin çörəyi,
Evi saxlar dirəyi.
Dizinin üstündədi,
Nanəcibin çörəyi.

741. Mən aşıq, dalda sına,
Qonşunu dalda sına.
Müxənnətə güvənib,
Sığınma daldasına.

742. Əzizim, dağda qalar,
Dərd üstə dağ da qalar.
Xəyalım ərşi gəzər,
Urəyim dağda qalar.

743. Yar meyli xəlvətdəydi,
Dərd, qəmi xəlvət əydi.
Yalanım xoşa gəldi,
Düz sözüm qəlbə dəydi.

744. Eləmi, üzə düşməz,
Birçəyin üzə düşməz.
Sirr var, hamıya bəlli,
Fitnə var, üzə düşməz.

745. Mən aşığam, dal-dala,
Qaç özünü daldala.
Cüt iyid ordu basar,
Əgər dursa dal-dala.

746. Eləmi, səngəridi,
Gün qarı ləng əridi.
Çox bilib, az danışmaq
İyidin ləngəridi.

747. Ovçu, maralı qoyma,
Gözü qaralı qoyma.
Canım sənə sadağa,
Oldür, yaralı qoyma.

748. Əzizinəm, dur burdan,
İnci burdan, dürr burdan.
Məclisdə yerin tanı,
Deməsinlər, dur burdan.

749. Dağlar, varlı dağlar,
Axar-baxarlı dağlar.
Olməyəydim, görəydim,
Sizi, a qarlı dağlar.

750. Bu dağdan qaya getdi,
Üz tutdu, çaya getdi.
Məni sənnən ayırdı,
Günnərim zaya getdi.

751. Əzizim, hara ceyran?
Gözləri qara ceyran.
Ayıq gəz, ayıq dolan,
Düşərsən dara, ceyran.

752. Mən aşıq, qara olmaz,
Ağ olmaz, qara olmaz.
Eldən ayrı düşənin,
Dərdinə çara olmaz.

753. Budaqdan bar ələndi,
Dağlardan qar ələndi.
Ömrümün çağı getdi,
Başıma qar ələndi.

754. Cantəpə mənim olsun,
Yurdum, məskənim olsun.
Mənim odum, ürəyim,
Düşmənə qənim olsun.

755. Qocalıq, binəvalıq,
Yoxdu daha ucalıq.
Mən səni axtarıram,
Harda qaldın, cavanlıq?

756. Dağ başı, qala yeri,
Gəz, dolan qala yeri.
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.

757. Yarım mənim oluncan,
Yada qənim oluncan.
Ömrümə Günəş doğar,
Vətən mənim oluncan.

758. Kəndimizin dağları,
Çiçək açıb bağları.
Heç kəs döndərə bilməz,
Ötüb keçən çağları.

759. Qardaşım qaladadı,
Payi-piyadadı.
Qır qalanın bürcünü,
Gör bacın haradadı?

760. Şəklimi qara çəkin,
Daşa, divara çəkin.
Elimnən doydum desəm,
Bədənnən dara çəkin.

761. "Ax", "of" deyib ağlaram,
Qəm də yeyib ağlaram.
İllərdir qəriblikdə,
Vətən deyib ağlaram.

762. Bir günüm ildi, neylim?
İşim müşküldü, neylim?
Əlim Vətənə çatmır,
Ürək üzüldü, neylim?!

763. Eləmi, fənar gedər,
Od tutub, yanar gedər.
Dar günümdə namərd dost,
Sıpıxıb kənar gedər.

764. Mən aşığam, qar gedə,
Yazda sına tar, gedə.
Bitə nərgiz, bənövşə,
Gəlib burdan yar gedə.

765. Otlaq qoruq qalıbdı,
Kolda moruq qalıbdı.
Ellər köçüb yurdundan,
Boynuburuq qalıbdı.

766. Qartal göydə süzər hey,
Öz-özünə gəzər hey.
Varlı baxıb kasıba,
Ağızını büzər hey.

767. Bu ilmə, nə ilmədi,
Toxuyanı bilmədi.
Vətənnən ayrı düşdük,
Heç üzümüz gülmədi.

768. Bu dağlar, qəlbi dağlar,
İncitməz, qəlbi dağlar.
Haqsızlığın sitəmi,
Üstündə qəlbi dağlar.

769. Dumanlı dağ olaydım,
Çiçəkli bağ olaydım.
Görəydim Vətəni mən,
Ölməyib sağ olaydım.

770. Qamətim yaya döndü,
Göz yaşım çaya döndü.
İtirdim gül Vətəni,
Ümidim zaya döndü.

771. Əziziyəm, ay mələr,
Bulud mələr, ay mələr.
Vətənnən ayrı düşən,
Vətən deyib, hey mələr.

772. Tüfəngdə qoşa güllə,
Açılar boşa güllə.
Girginən daş dalına,
Qoy dəysin daşa güllə.

773. Arxın suyun sel əydi,
Üzdə teli yel əydi.
Qürbətdən qazancım var,
Saç ağartdı, bel əydi.

774. Ana getsə, nar qalar,
Arvad ölsə, ər qalar.
Yad ellərdə qəribi,
Dərd üstünnən dərd alar.

775. Eləmi, daşlı dağlar,
Qayalı, daşlı dağlar.
Ayrılığa dözürsən?
Ürəyin daşlı, dağlar.

776. Eləmi, boz dağları,
Basıbdı toz dağları.
Yadıma düşər, ağlar,
Qəribin öz dağları.

777. Sorağım dosta gedər,
Dolanar, dosta gedər.
Dünya necə dünyadır?
Sağ gələn xəstə gedər.

778. Ayrılıq yalan, yalan,
Omrümə saldı talan.
Ayrılsın, dili yansın,
Bizə ayrılıq salan.

779. Əzizim, hey ağlaram,
Dərdimə dərd bağlaram.
Qürbət cənnət olsa da,
Vətən deyib ağlaram.

780. Əzizim, iraq mənəm,
Bu yanan çıraq mənəm.
Qul tək əllərə düşdüm,
Vətəndən iraq mənəm.

781. Əzizim, yaş ağacı,
Kəsməzlər yaş ağacı.
Sən ki düşmənə qaldın,
Töksün qan-yaş ağacı.

782. Qapıdan biri gəlir,
Gözünün nuru gəlir.
Bu arxı kim düzəldib?
Suyu dupduru gəlir.

783. Eləmi, bulaq sənnən,
Düşmüşəm uzaq sənnən.
Sən düşmən əlindəsən,
Mən isə uzaq səndən.

784. Əzizinəm, qıy bağlar,
Qıy bağçalar, qıy bağlar.
Nərgizdən köynək geyib,
Bənövşədən qıy bağlar.

785. Bu qaya, qəlbi qaya,
Kölgəsi düşdü çaya.
Zulumnan bar yetirdim,
Əməyim getdi zaya.

786. Eləmi, kimə gedim?
Kimim var, kimə gedim?
Dərdlərim həddən aşıb,
Dərmana kimə gedim?!

787. Qəriblər yavaş olu,
Yeri qara daş olu.
Hərdən danışıb gülsə,
Yenə gözü yaş olu.

788. Qərib, elə bir də gəl,
Qayıt, elə bir də gəl.
Könlüm qalıbdı səndə,
Qayıt, elə bir də gəl.

789. Bu gələn el olaydı,
Saçı tel-tel olaydı.
Basaydım bağrıma mən,
Göz yaşım sel olaydı.

790. Gədikdən çıxa qardaş,
Əynində çuxa qardaş,
Tez gördüm, gec tanıdım,
Gözlərim çıxa, qardaş.

791. Bu dağlarda ot bitər,
Yağış yağar, ot bitər,
Ellər dağdan köçəndə
Yurdlarında ot bitər.

792. Qəriblik yaman olu,
Sovrulub saman olu,
Əğyara bel bağlama,
Axırın yaman olu.

793. Mən aşıq, dərin oldu,
Dərmədik, dərin oldu.
Qürbətdə ömür sürdük,
Aramız sərin oldu.

794. Əzizinəm, qar yağar,
Boran eylər, qar yağar.
Eli əldən gedənin,
Ürəyinə qar yağar.

795. Eləmi, qara bağlar,
Dərdlilər qara bağlar.
Eldən ayrı düşənin,
Ürəyi yara bağlar.

796. Qəribəm, yoxdu arxam,
Qıy vuram, göyə qalxam.
Çıxam dağlar başına,
Vətənə doğru baxam.

797. Mən aşığam, gözüm yox,
Ocağım yox, közüm yox.
Qırılıb sazın simi,
Deməyə də sözüm yox.

798. Ağam gəl, ay ağam gəl,
Ölməmişəm, sağam gəl.
Çiynimdə qəhər yükü,
Qapımda dustağam, gəl.

799. Eləmi, ağa qaynım,
Sallan gəl bağa, qaynım.
Qoçum yox, qurban kəsəm,
Canım sadağa, qaynım.

800. Əzizinəm, düz mənəm,
Gülü bağdan üzmənəm.
Dərdə, qəmə dözmüşəm,
Ayrılığa dözmənəm.

801. Əzizim, dolu gözlər,
Dağ başın dolu gözlər.
Məndə iman qoymadı,
Səndəki dolu gözlər.

802. Əzizim, meydana var,
Min atın, meydana var.
Mən özüm ney çalanam,
Bilmirəm neydə nə var?!

803. Əzizinəm, qoy qala,
Doldur qəlyan, qoy qala.
Sözün ötməyən yerdə,
Ürəyində qoy qala.

804. Əzizinəm, dustağam,
Nə sayrıyam, nə sağam.
Eşqinin kəməndinnən,
Çıxammaram, dustağam.

805. Əzizinəm, burda mən,
Qalmışam darda mən.
Heç etibar görmədim,
Bu bivəfa yarda mən.

806. Eləmi, şadarası,
Xəlbiri, şadarası.
Qaynanıynan gəlinin,
Heç olmaz şad arası.

807. Eləmi, başa çalı,
Çalmanı başa çalı.
Yemə namərd çörəyin,
Axırda başa çalı.

808. Eləmi, dən düşdü,
Qoyma, yerə dən düşdü.
Həsrətini çəkməkdən,
Saqqalıma dən düşdü.

809. Eləmi, az adamda,
Qulam da, azadam da.
Dostluq hamıda olar,
Etibar az adamda.

810. Eləmi, ta İrağa,
Yol gedər ta İrağa.
Dost dostun qədrin bilməz,
Düşməsə ta irağa.

811. Eləmi, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan kam aldım.
Nə dərdə yanan qaldı.

812. Eləmi, nələr oldu,
Ürəyim dələr oldu.
Ağlıma gəlməyən iş,
Başıma gələr oldu.

813. Qardaş, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Düşdüm qəm dəryasına,
Üzgüçüynən tor göndər.

814. Qardaş, azala dərdim,
Dönüb xəzələ dərdim.
Sənnən ələc olmasa,
Hardan azala dərdim?!

815. Qardaş gəlir ellərdən,
Başa sancıb güllərdən.
Qardaşı Allah saxlasın,
Yaxşı-yaman dillərdən.

816. Bulaq olub bulannam,
Dörd bir yanı dolannam.
Yönüm Vətənə düşsə,
Dağ başına dolannam.

817. İşim düşdü divana,
Axır gəldim mən cana.
Heç vaxt sən bel bağlama,
Nə mollaya, nə xana.

818. Yatıbsan, oyan, dağlar,
Al-yaşıla boyan, dağlar.
Bura zülmətxanadı,
Necədi o yan, dağlar?

819. Tənha qalasız, dağlar,
Gülsüz, lalasız dağlar.
Yamanca həsrət qaldıq,
Ana, balasız dağlar.

820. Aşıq, yolun çaş gələr,
Gözlərinnən yaş gələr.
Yoxsul yağış gözləyər,
Göydən yerə daş gələr.

821. Dağlarda qar, qış gələr,
Könlümə qar, qış gələr.
Sonsuzun şirin sözü
Hamıya qarğış gələr.

822. Dumandı, başın dağlar,
Bilinmir yaşın, dağlar.
Mən qəribliyə düşdüm,
Sökülsün daşın, dağlar.

823. Kababçıyam, şişim yox,
Qocalmışam dişim yox.
Bu dünyada kef çəkək,
O dünyaynan işim yox.

824. Dağdan bir qaya düşdü,
El-oba vaya düşdü.
Tarda toyuq bannadı,
O da mollaya düşdü.

825. Eləmi, yanana yan,
Düşən bir yanana yan.
Nə yanırsan boş yerə,
Səninçün yanana yan.

826. Eləmi, yan gözəlim,
Alış, bir yan, gözəlim.
Mən çox yandım, sən necə?
Sən də bir yan, gözəlim.

827. Aşıq deyər, o yar da,
Bayqu oldu o yar da.
Çox yar gördüm, ötürdüm,
Gözüm qaldı o yarda.

828. Eləmi, ay qanan yar,
Eşq atəşin qanan yar.
Çox aradım cahanda,
Tapmadım bir qanan yar.

829. Eləmi, nə düyündü?
Sinəm düyün-düyündü.
Nə vaxt səni görsəm,
O günü toy-düyündü.

830. Aşıq deyər, sən yara,
Bu dərdimə sən yara.
Malım, dövlətim yoxdu,
Nə verəydim, sən yara.

831. Eləmi, sən gülümsən,
Süsənimsən, gülümsən.
Dünya mənə bəs deyil,
Baharımsan, gülümsən.

832. Aşıq deyər, o yanan,
Bax, bu yatan, oyanan.
Axır muradsız qalar,
Gec yuxudan oyanan.

833. Mən aşiqəm, bu daşdan,
Bu qayadan, bu daşdan,
Nə atam var, nə anam,
Zühur oldum bu daşdan.

834. Əzizim, ha var, ha var,
Ölürəm havar-havar.
Biz köçürük dünyadan,
Bu dünya ha var, ha var.

835. Yox, əzizim, halalam,
Sənsən gülüm, halalam.
Yadlara haram olsam,
Sənin üçün halalam.

836. Aşıq sevər qara qaş,
Sürmə sevməz qara qaş.
Qadına yaraşıqdır,
Uzun hörük, qara qaş.

837. Aşıq deyir, görəndə,
Yana baxma görəndə.
Canıma od qalanır,
Səni məlul görəndə.

838. Ustad deyər qocaya,
Hörmət etdin qocaya.
Gəl döşünə döymə sən,
Dur, cavab ver qocaya.

839. A söhbətim, a sazım,
Yolunda qaldı gözüm.
Dağ da olsa dayanmaz,
Nə cür dayanım özüm?

840. Aşıq, sazın çal indi,
Köklə sazın, çal indi.
Bəmin də öz yeri var,
Zildə oxu, çal indi.

841. Oğul, dərdim oyandı,
Canım oda yandı.
Yadlar nə bilir bunu?
Halım sizə əyandı.

842. Əzizim, soyuq bulaq,
Çökək yurd, Soyuqbulaq.
Kərəmə dayaq oldu,
Gülləli, Soyuqbulaq.

843. Ana həsrətdi canım,
Ata həsrətdi canım.
İndi Vətən itirdim,
Üzü həsrətli canım.

844. Əzizinəm, yaralı,
Yar qadasın yar alı.
Öldür canım qurtarsın,
Məni qoyma yaralı.

845. Eləmi, ana torpaq,
Qurbanam sana, torpaq.
Yer üzündə sülh olsun,
Boyanma qana, torpaq.

846. Əzizinəm, bu dağlar,
Məskənimdi bu dağlar.
El üstündən köçəndə,
Məlul qalar bu dağlar.

847. Əzizinəm, yaxşı de,
Ağır otur, yaxşı de.
Yüz namussuz dostdan
Mərd düşmənə yaxşı de.

848. Eləmi, Bəryabada,
Yol gedər Bəryabada.
Vətən düşmən əlində,
Ömrünü verdin bada.

849. Qohum-qardaş qul imiş,
Hamısı pula qul imiş.
Hardan biləydim ki, mən,
Axır günüm bu imiş.

850. Dərdə düşdüm, bilən yox,
Göz yaşımı silən yox.
Hamı təskinlik verir,
Çarəsini bilən yox.

851. Qışda yazıq, Dəlməli,
Soyuq, sazaq Dəlməli.
Bircə yay gəzməlisən,
Binəsi az Dəlməli.

852. Quzu, güney dərəsi,
Yaz, yay kefdi dərəsi,
İyidlərin bərəsi,
Yağıya qaldı bərəsi.

853. Ey umudum, Qazandüşən,
Zirvəsi duman, çən.
Qaytar qoyun, quzunu,
Aparar yağı düşmən.

854. Bax bura Yalvanadı,
Qarşısında Vanadı.
Həsrətdən qovruluram,
İşlərim fənadı.

855. Bu dərə çınqıllıdı,
İçi dolu fındıqlıdı.
Yolum sizə düşərmi?
Ürəyim çınqıllıdı.

856. Bu bulaq, Şəkər bulaq,
Möhnətim çəkər bulaq.
Mən sənə qonaq gəlsəm,
Yoluma su səpər bulaq.

857. Oylağımız Əyrisu,
Bulaqları qeyri su.
İçsəm, səni içərəm,
İstəmirəm qeyri su.

858. Ey səfalı Cantəpə,
Qurban sənə, can təpə.
Ellər binəsi idin,
İndi alış, yan təpə.

859. A Murğuzum, Murğuzum,
Sinəsi qoyun-quzum.
Çox uzaqlarda qaldım,
Gələ bilmirəm özüm.

860. Eləmi, Daşbulaq,
Dərələrdən aş, bulaq.
Biz sənnən ayrıldıq,
Qaldı gözdə yaş, bulaq.

861. Çətin dərə Acnabad,
Gözəlləri sağ Nabad.
Səndə kimlər yaylayır?
Çəkirsənmi ah, Nabad?

862. Bu dərə Cöyüzlüdü,
Maralllı, cüyürlüdü.
Ovun bərədə qaldı,
Ovçular zəncirlidi.

863. Elimin adı Göyçə,
Ağzımın dadı Göyçə.
Mənnən üz döndərəsən,
Tutaram yası, Göyçə.

864. Gözdən çaya, gözləyir,
Darda maya gözləyir.
Perik düşüb obası,
Bezib, aya, gözləyir.

865. Bu dərə Yağlı dərə,
Ətirli, yağlı dərə,
Köçümüz yasaq olub,
Yolumuz bağlı, dərə.

866. El bulağı Noyludu,
Sakini nə soyludu?
İstərəm içəm sənnən,
Ayağım buxovludu.

867. Çıxdım Yalvanaya mən,
Baxdım sola, sağa mən.
Gözüm kəndi görmədi,
Düşdüm yaman hala mən.

868. Mən aşıq, Ağbulağa.
Yol gedir Ağbulağa.
Düşmənə girov qalan,
Ağla sən Ağbulağa.

869. Dağlar başı Tikdaşdı,
Çalmalıya yoldaşdı.
İstədim ayıram sizi,
Dedi: "Onnar qardaşdı".

870. Eləmi, Arxac çaya,
Otları qaxac qaya.
Gəl, harayla məni,
Qoltuqda qoltuq qaya.

871. Yaylağım Soyuqbulaq,
Yığnağım Soyuqbulaq.
Ürəyim ol, gözüm ol,
Oylağım Soyuqbulaq.

872. Əzizinəm, Çökək yurd,
İyidlərə söykək yurd.
Səni alan düşmənin
Daş başına tökək, yurd.

873. Yaylağımız, Çalmalı,
Otlar orda el malı.
Düzündə, yamacında,
Otlar indi yad malı.

874. Əzizinəm, a Vətən,
Sağ gözümsən, a Vətən.
Qərib səni arzular,
Hey çağırar, a Vətən.

875. Əzizinəm, yaş indi,
Gözdə yanar yaş indi.
Yadıma Vətən düşdü,
Axacaqdı yaş indi.

876. Əzizinəm, ana torpaq,
Qurbanam sənə, torpaq.
Qəriblikdə ölsəm də,
Borcluyam sənə, torpaq.

877. Ay mənim fağır balam,
Qul balam, sağır balam.
Dönəlgən yaman oldu,
Yasdığın ağır, balam.

878. Fələk quşum apardı,
Ağlım, huşum apardı.
Özgədən biri getdi,
Mənnən beşin apardı.

879. Sözümüz o yan oldu,
Səfərin o yan oldu.
Nə bir dərdim bilindi,
Nə sinim əyan oldu.

880. Müşküm vay, ənbərim vay,
Çalış vay, çəmbərim vay.
Bacı-qardaş yığılıb,
Bir oyan, Qəmbərim vay.

881. Küçədən xonça gedir,
İçində nimçə gedir.
Aləmin gülü getsə,
Bizimki qönçə gedir.

882. Mən aşiq, yasəməni,
Açıbdı yasəməni.
Fələyə neyləmişdim?
Batırdı yasa məni.

883. Eləmi, yaman bala,
Olmasın yaman, bala.
Rəvamı, yarım ölə,
Yerində yaman qala?

884. Eləmi, baxar, ağlar,
Ulduzlar çaxar, ağlar.
Ölünü özün ağla,
Yadlar baxar, ağlar.

885. Dəryada zəmim qaldı,
Biçmədim, zəmim qaldı.
Arzun gözündə qalsın,
Necə ki mənim qaldı.

886. Dərdə düşən mənəm, mən,
Zülmə dözən mənəm, mən.
Qəni itgili canım,
Ağı deyən mənəm mən.

887. Görünürmü o dağlar,
O zirvələr, o dağlar?
Səndə gəzən iyidi,
Oğul deyib ağlarlar.

888. Çəmənlər, ay çəmənlər,
Gəzənlər, ay gəzənlər.
Qoç iyidin köçübdü,
Ağlayın, ay gəzənlər.

889. Dağların lalasıyam,
Dərdlərin bəlasıyam.
İtirdiyim iyidi,
Haradan tapasıyam?

890. Eləmi, ağlaram mən,
Ürəyim dağlaram mən.
Ağ günüm qara gəldi,
Yas tutub ağlaram mən.

891. Bu gülləri dər indi,
Qəbir üstə sər indi.
Dindirmə mən qəribi,
Yaram yaman dərindi.

892. Eləmi, gözüm ağlar,
Ocağım, közüm ağlar.
Hər dağlara baxanda,
Çəkilmir gözüm, ağlar.

893. Niyə qaldım darda mən,
Boranda mən, qarda mən.
Ağlamaq peşəm oldu,
Aranda mən, dağda mən.

894. Fələk məni dağladı,
Yollarımı dağladı.
Uçdu tülək tərlanım,
Qəm sinəmi dağladı.

895. Əzizim, bəlan budu,
Dərdin bu, bəlan budu.
Bəla görməyən canım,
Çək indi, bəlan budu.

896. Dağlar, otun qurusun,
Bağlar, tutun qurusun.
Əlim əldən üzüldü,
Matın-mutun qurusun.

897. Eləmi, qanan dağlar,
Ürəkdən yanan dağlar.
Anama xəbər olsun,
Öz oğlu yaman ağlar.

898. Mən aşıq, yağı gəlməz,
Dolanar, dağı gəlməz.
Bir bala itirmişəm,
Səsi-sorağı gəlməz.

899. Yaşım üzümdə qaldı,
Axdı, gözümdə qaldı.
Hər nə dilək dilədim,
Hamsı gözümdə qaldı.

900. Ey fələk, nə fələksən,
Sən ki, ərşə dirəksən.
Yıxdın atam evini,
Sən nəyimə gərəksən?

901. Tufan qopar, el ağlar,
Çaylar daşar, sel ağlar.
Qəriblikdə ölənin,
Yasın tutar, el ağlar.

902. Gözləri ağlar qoydun,
Qolları bağlar qoydun.
Evin dağılsın, düşmən,
Sinəmi dağlar qoydun.

903. Bu dağlara çən düşdü,
Yel əsdi, duman düşdü,
Balamı öldürdülər,
Canıma talan düşdü.

904. Əzizinəm, ay qardaş,
Qaşı-gözü yay qardaş.
Olür, bacılar ölsün,
Deməsinnər, vay, qardaş.

905. Eləmi, dili azar,
Bülbül azar, dil azar.
Qardaşı ölən bacının,
Ağlı gedər, dili azar.

906. Qəlbim qara qazandı,
Dilim ərzə yazandı.
Fələyə bel bağlama,
Fələk nizam pozandı.

907. Fələyin ay əlinnən,
Heç düşmür yay əlinnən.
Öləydim, qurtaraydım,
Dünyada vay əlinnən.

908. Bu dünya, fani dünya,
Qarğaram səni, dünya.
Uddun ata-anamı,
Göz dikdin mənə, dünya.

909. Ay ana, təzə qaldı,
Bu dərdim sənə qaldı.
Almışdım toy paltarı,
Geymədim, təzə qaldı.

910. Əzizinəm, qana mən,
Boyanmışam qana mən.
Acal macal vermədi,
Bircə dedim: “Asta mən!”

911. Eləmi, anam ağlasın,
Qıymazdım, anam ağlasın.
Oğul bayatı yazsın,
Oxusun, anam ağlasın.

912. Murov sənnən, Murov sənnən,
Getməz qar, qırov sənnən.
Yüz il ovçuluq elədim,
Heç almadım bir ov sənnən.

913. Əzizim, bir dinarım,
Bir axça, bir dinarım.
Amandı, əsmə külək,
Salarsan, birdi narım.

914. Mən aşıq, od qala,
Buxarıya od qala.
Canıma bir od vurdun,
Qiyamətə od qala.

915. Ürəyimdə yara var,
Üstə xal var, qara var.
Aç ürəyim, yar bağrım,
Gör yanmamış hara var?

916. Dağların təzə qarı,
Qar yağır, təzə qarı.
Arvadı pis olanın,
Saqqalı tez ağarı.

917. Əzizim nə tərəzi,
Nə daş var, nə tərəzi.
İyidi kor eliyər,
Arvadın natarazı.

918. Əzizim, dağlar məni,
Acı söz dağlar məni.
Mən burda qərib ölləm,
Kim yas tutub ağlar məni?

919. Aşıq, uca dağların,
Ulu, qoca dağların.
Üstünnən karvan keçib,
Neçə xoca dağların.

920. Aşıq, dağdan gələr,
Meyvəli bağdan gələr.
Bütün çayın axını,
Uca dağlardan gələr.

921. Bizim dağın ucası,
Dağların ən qocası.
Göstərirdi hər yeri,
İşıqlının şiş tacı.

922. Dağların adına bax,
Buz bulaq, dadına bax.
İşıqlı, ya Salvartı,
Əriməz qarına bax.

923. Dağların qarı hanı?
Başının sarı hanı?
Dağlarda gəzən gözəl,
Sormadı yarın hanı?

924. Əzizim, çeşmə haray,
Gözümnən getmə, haray.
Əldən çıxıb bulaqlar,
Gəzirəm, çeşmə haray.

925. Dağların qocasına,
Çıxasan ucasına.
Otları dərman dağın,
Heyvanın qocasına.

926.Əzizim bizim dağlar,
Dibi buz bulaq dağlar.
Dağda yaylaq eləyən,
Aranda qalıb ağlar.

927. Aşıq, elimə gülmə,
Köçkün halıma gülmə.
Gələndə rəvanə gəl,
Qəribəm, mənə gülmə.

928. Aşıq, eldən aralı,
Şana teldən aralı.
Qəriblik başın pozdu,
Düşdü yardan aralı.

929. Əzizim, əkəm bağı,
Əl gəlmir əkəm bağı.
Bir oğlum şəhid oldu,
Sinəmə çəkdi dağı.

930. Əzizim, gəzmə bağı,
Gəzəndə əzmə bağı.
Mən ölüb gedər olsam,
Sinəmnən getməz dağı.

931. Əzizinəm, bağına,
Girrəm yadlar bağına.
Hər dərdə dözən olsam,
Dözmərəm oğul dağına.

932. Əzizinəm, oğluma,
Namə yazdım oğluma.
Namə ona yetincə,
Özüm yetəm oğluma.

933. Əzizim, çeşmə hanı?
Suların çeşmə xanı.
Ürəyim, ay ürəyim,
Bəs burda çeşmə hanı?

934. Əzizim, yanar günə,
Qalmasın yanar günə.
Oğlum mənnən ayrılıb,
Qoyublar yanar günə.

935. Mən aşıq, oyan gül,
Dərdə, qəmə boyan, gül.
Tez açıldın, tez soldun,
Məni pərşuş qoyan gül.

936. Gecələr, ha gecələr,
Molla dərsin hecələr.
Mən sənsiz dözsəm də,
Anam mənsiz necələr?

937. Qızılgül oyum-oyum,
Dərim, sinəmə qoyum.
Yağış yağar, yer doymaz,
Mən sənnən necə doyum?

938. Arazın üstü çən,
Altı qumdu, üstü çən.
İtən qardaşı götü,
Gəl özün də üstəcən.

939. Yolun ağına bax,
Gülün yarpağına bax.
Sən məni qoydun getdin,
Ürəyimin dağına bax.

940. Qoyun quzu yanında,
Otlar quzu yanında.
O adamın dərdi olmaz,
Oğlu-qızı yanında.

941. Altımda boz at gedərəm,
Üstündə boz at gedərəm.
Sənə nişan qoyublar,
Mən də saldat gedərəm.

942. Bu dünyada qalan yoxdu,
Qol boynuma salan yoxdu.
Öldürür bacım öldürsün,
Qanım onnan alan yoxdu.

943. Baxtı kəm,
Baxtı kəm, bağmanı kəm.
Mən fələyə neynədim?
Fələk mənə baxdı kəm.

944. El getdi, binə qaldı,
Binə nə günə qaldı?
Sənnən mənim görüşüm,
Qiyamət günə qaldı.

945. Layla dedim adıma,
Əli çatsın dadına.
Əli dadma yetəndə,
Məni də sal yadına.

946. Maralam, düzə gəlləm,
Otarram, düzə gəlləm.
Yüz il qürbətdə qalsam,
Qutarsam, sizə gəlləm.

947. Qızılgül dən-dən oldu,
Dərmədim, dən-dən oldu.
Mən sənnən ayrılalı,
Ayrılmaq peşəm oldu.

948. Mən aşıq, sənə dağlar,
Sənəd ver mənə, dağlar.
Yüklədilər qəm karvanın,
Yolladılar sənə, dağlar.

949. Mən aşıq, qarğamışa,
Qar yağıb Qarğamışa.
Yüz min duaçı neyləsin?
Bir fələk qarğamışa.

950. Dağda duman oldumu?
Qaşda kaman oldumu?
İtirmişəm balamı,
Onu görən oldumu?

951. Araz deyiləm, aşam mən,
Gedib Kürə qovuşam mən.
Apar zərgər yanına,
Gör, qiyamət daşam mən.

952. Aman fələk, dad, fələk,
Heç olmadım şad, fələk,
Ev bizim, övlad bizim,
Burda gəzir yad, fələk.

953. Dağlar aşıb gələnin,
Qanı coşub gələnin.
Xoş o kəsin halına,
Halallaşıb ölənin.

954. Maral, yerin şam olsun,
Otla, yerin şam olsun.
Birin sən de, birin mən,
Gün gəlsin, axşam olsun.

955. Əlində şüşə qələm,
Bənzər gümüşə qələm.
Ölə, qala fələyi,
Əlinnən düşə qələm.

956. Quşum uçdu fələkdən,
Qolum sındı biləkdən.
Mənimki belə gəldi,
Çarxı dönmüş fələkdən.

957. Burdan bir maya getdi,
Sallandı, çaya getdi.
Çoxlu zəhmət çəkmişdim,
Əməyim zaya getdi.

958. Axşam üzü, dan üzü,
Quşlar oxur dan üzü.
Necəsən, bir sada çəkəm?
Sənə gələ dan üzü.

959. Aşıq, gülə nə gəldi?
Bülbül, gülə nə gəldi?
Bizim gülü xar vurdu,
Sizin gülə nə gəldi?

960. Aşıq, saza nə gəldi?
Simə, saza nə gəldi?
Fələk mənnən göz əydi,
Bilmirəm, sizə nə gəldi?

961. Gecələr gecə keçdi,
Bilmirəm necə keçdi.
Mənimki ah-vayınan,
Səninki necə keçdi?

962. Dağı o dağa verrəm,
Dağa qadağa verrəm.
Eşitsəm bacım gəlib,
Gözüm sadağa verrəm.

963. Dərdim çoxdu, yatmanam,
Dərdi batman-batmanam.
Sən dərdimi, ay bala,
Heç dərtdərə qatmanam.

964. Yaralıyam yanımnan,
Quşlar doymaz qanımnan.
Fələk bir iş işləyib,
Əl üzmüşəm canımnan.

965. Bu qəbri qazan ağlar,
Daşları düzən ağlar.
Üstünə daş tökdülər,
Əlini üzən ağlar.

966. Dağları gəzəmmənəm,
Əhdim var, bəzənmənəm.
Yuvasız quşlar kimi,
Sərgərdan gəzən mənəm.

967. Apardılar gülümü,
Eylədilər zülümü.
Nə qoydular ağlıyam,
Nə kəsdilər dilimi.

968. Mənim dərdim uludu,
Uludan da uludu.
Dərdimi kimə desəm,
Dərddi dərdin unudu.

969. Bu maral ayıq deyil,
Yatıbdı, ayıq deyil.
Sənin cavan ölməyin,
Adına layiq deyil.

970. Daşdı canım,
Dərd gəldi, çaşdı canım.
Öz dərdim özüm çəkim,
Desinnər, daşdı canım.

971. Tut ağacı deyiləm,
Hər gələnə əyiləm.
Əyil üzünnən öpüm,
Mən özgəsi deyiləm.

972. Gəncədə şirin nə var?
Yeməyə şirin nə var?
Gəzəsən bu dünyanı,
Baladan şirin nə var?

973. Bu dərədən köş gedər,
Ağca maya boş gedər.
O qızı mənə versələr,
Allaha da xoş gedər.

974. Bu dağda maralım var,
Ovçuyam, yarağım var.
Nə gecə yuxum gəlir,
Nə gündüz qərarım var.

975. Dəryada sicim gördüm,
Çəkdikcə ucun gördüm.
Mən sənnən ayrılmazdım,
Fələyin gücün gördüm.

976. Bu gün hava yaxşıdı,
Dərdə dava yaxşıdı.
Qalarsan, qonağımsan,
Getsən, hava yaxşıdı.

977. Yol yoldaşı olmaram,
Gəl desələr, gəlmərəm.
Desələr, Əzrayıl ölür,
Dərman olsa, vermərəm.

978. Aşıq, qovuşa məni,
Saznan qovuşa məni.
Bir ayrılıq, bir ölüm,
Qoymaz qovuşa məni.

979. Aşıq, gendə düşübdü,
Gəlib gendə düşübdü.
Səni görənnən bəri,
Könlüm sənə düşübdü.

980. Aşıq, məni bu gündə,
Kaş ki, məni bu gündə.
Nə dost görsün, nə düşmən,
Yenə məni bu gündə.

981. Armud ağacı haça,
Əlim dolaşdı saça.
Oğul ona deyirəm,
Sevdiyin ala, qaça.

982. Mən aşıq, dağa sarı,
Üz tutdum dağa sarı.
Tutaydım yar əlinnən,
Çıxaydım dağa sarı.

983. Bu qala, alma qala,
Yığ boşqaba, alma qala.
Özün sevdin, özün dedin,
Niyə saldın qalmaqala?

984. Durdum getdim suya mən,
Suya oxudum dua mən.
Qaranquşca olmadım,
Damda tikəm yuva mən.

985. Mən aşıq, gül məkanda,
Gül əkdim, gül məkanda.
Düşməni gördüm, güldüm,
Mən handa, gülmək handa?

986. Mən aşıq, yarımgilə,
Qar yağıb yarımgilə.
Tanrı səbəb salaydı,
Gedəydim yarımgilə.

987. Mən aşıq, ölkə sənnən,
Qorxmuram yolkəsənnən.
Dağlar quzeyli könlüm,
Heç getməz kölgə sənnən.

988. Mən aşığam, şam bağlar,
Şam bağçalar, şam bağlar.
Könlüm elə virandı,
Arı gəlsə, şan bağlar.

989. Araz axır qol üstə,
Xoş günüm var sol üstə.
İstərəm yetəm yara,
Yağı durub yol üstə.

990. Mən aşıq, yan divarı,
Otağın yan divarı.
Getmisən, tezcə qayıt,
Ciyarım yandı barı.

991. Mən aşığam, o xannan,
O sultannan, o xannan.
Bir dəstə gül olaydım,
Asılaydım yaxannan.

992. Bülbülü bağda gördüm,
Gülü budaqda gördüm.
Öldü bülbül, soldu gül,
Onu pis çağda gördüm.

993. Əzizim, oyanasan,
Qızılgülə boyanasan.
Mənə yarımnan xəbər,
Sən mənnən o yanasan.

994. Getmə mənnən, amandı,
Ayrılıq nə yamandı?
Rəhm eylə, mən yazığa,
De ki, naşı cavandı.

995. Bənövşəyəm, qalxaram,
Qızılgüldən qorxaram.
Desələr balam gəlir,
Xəstə olsam, qalxaram.

996. Qəribəm, ağrır başım,
Yastığa damır yaşım.
Desələr qardaşın gəlir,
Yastıqdan qalxar başım.

997. Kövşəndə bafam qaldı,
Biçmədim, bafam qaldı.
Çox əlləşdim, vuruşdum,
Özümə cafam qaldı.

998. Qalanın bürcü mənəm,
Dilbilməz gürcü mənəm.
Baş qoy dizim üstə,
Öz ananam, inciməněm.

999. Çıraq, sənə yağ sallam,
Piltə sallam, yağ sallam.
Gözlədim qardaş gəlməz,
Gözlərimə ağ sallam.

1000. Gedərəm, gedən olsa,
Halım ərz edən olsa.
Bir məktub göndərrəm,
Yanınıza gedən olsa.

1001. Qardaş demə, qan olar,
Yel əsər, fəğan olar.
Qardaş gələn yollara,
Bacılar qurban olar.

1002. Əzizim, nələr keçər,
Ahular mələr keçər.
Oğulsuz olannarın,
Ürəyinnən nələr keçər?

1003. Aşağıdan gəlirəm,
Donum ağdı, məliləm.
Bir yaxşıca yer salın,
Azarladım ölürəm.

1004. Fələyin səsi gəlir,
Yatır, yuxusu gəlir.
Balamın uzaq yerlərdən,
Əmisi, dayısı gəlir.

1005. Mən getdim, dağlar qaldı,
Ürəyim ağlar qaldı.
Sənnən mənim aramda,
Gör necə dağlar qaldı?

1006. Əziziyəm, Diri dağı,
Duman, gəl bürü dağı.
Ölüm Allah əmridi,
Zülümdü diri dağı.

1007. Bülbül bağda səs eylər,
Gül ona həvəs eylər.
Bizim bağın bülbülü,
Özgə bağda səs eylər.

1008. Duman dağı tutubdu,
Çiskin bağı tutubdu.
İstərəm duram gələm,
Yolu yağı tutubdu.

1009. Dağda dolu durubdu,
Dolu boynun burubdu.
Mən doludan qorxuram,
Dolu məni vurubdu.

1010. Bu gələn el yoludu,
Qoy gəlsin, el yoludu.
Təpəm bulud oylağı,
Gözlərim sel yoludu.

1011. Göydə bulud mərd oynar,
Mərd dolanar, mərd oynar.
Gəlib qapıdan girsən,
Ürəyimdə dərd oynar.

1012. Mən həmayıl olaram,
Qəmə qayıl olaram.
Qayıl olmam özümə,
Sənə qayıl olaram.

1013. Qardaş, qardaş, can qardaş,
Sultan qardaş, xan qardaş.
Sən qapıdan girəsən,
Bacın deyə, can qardaş.

1014. Gəncədən bal almışam,
Şannarın az almışam.
Canım bir dərdə düşüb,
Dərmanın az almışam.

1015. Bostan əkdim xiyarsız,
Şirin cana qıyarsız?
Yatdım, yuxuda gördüm,
Ayıldım ixtiyarsız.

1016. Gəlirdim Kür yaxası,
Oğlan mənə baxası.
Bənövşədən köynəyi,
Qızılgüldən yaxası.

1017. Dağları keçdim, gəldim,
Daşları düzdüm, gəldim.
Səni vəfasız gördüm,
Əlimi üzdüm, gəldim.

1018. Dağların göy çəməni,
Göyərər göy çəməni.
Ya axtarıb taparam,
Ya vurar ovçu məni.

1019. Söyüd ağacı, dərdin alım,
Dibini böyüt, dərdin alım.
Gözümü sənə dikmişəm,
Ölmə, böyü, dərdin alım.

1020. Əziz balam, neynim?
Dərdim çoxdu, neynim?
İstədim ki, çox yazım,
Qələm yazmır, neynim?

1021. Göydə qara buludlar,
Tala-tala buludlar.
Mənim ərzi-halımı,
Yetir yara, buludlar.

1022. Mən səni el bilirdim,
Başımda tel bilirdim.
Uca dağlar başında,
Bulanmaz göl bilirdim.

1023. Qolumda qabarım var,
Sızıldar, qabarım var.
Başına gələnnərdən,
Mənim nə xəbərim var?!

1024. Mən aşığam, yaz bağda,
Bülbül bağda, yaz bağda.
Yara mehman olaydım,
Qış otaqda, yaz bağda.

1025. Aşıq, haramı dağlar,
Təbib yaramı bağlar.
Könül istəyir, əl çatmır,
Kəsib aranı dağlar.

1026. Dərya bulandı yenə,
Coşdu, bulandı yenə.
Dərya xəyallı könlüm,
Qəmə bulandı yenə.

1027. Mən aşığam, gülən az,
Bülbül eylər gülə naz.
Fələk bir iş işlədi,
Ağlayan çox, gülən az.

1028. Dərya, sənnən kim keçdi?
Kim dolandı, kim keçdi?
Dərya xəyallı könlüm,
Xəyalınnan kim keçdi?

1029. Qardaş, gəl, gərəyimsən,
Hürümsən, mələyimsən.
Həm könlüm istəyir,
Həm də ki, gərəyimsən.

1030. Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Əl dəymiş dəsmalda,
Gün görməmiş qar göndər.

1031. Dərya, sənnən üzmərəm,
Boylanaram, üzmərəm.
Əlimi sənnən üzsəm,
Meylimi sənnən üzmərəm.

1032. Apardı tatar məni,
Qul eylər, satar məni.
Vəfalı yarım olsa,
Axtarar, tapar məni.

1033. Bir dərd məni dəng eylər,
Vurar başa, səng eylər.
Dərd ki, adam öldürməz,
Soldurar, bədrəng eylər.

1034. Dağlarda biyan olmaz,
Əkməsən, biyan olmaz.
Yüz il əynə getsən,
Gəlmədi deyən olmaz.

1035. Mən aşıq, balam barı,
Bal arı, balam barı.
Alçalsın qəlbi dağlar,
Görünsün balam, barı.

1036. Daşkəsənnən daş götür,
Xumar gözdən yaş götür.
And verirəm Allaha,
Bu yastıqdan baş götür.

1037. Mən aşıq, qala-qala,
Bürc hörülər qala-qala.
Urvatdan düşdü qoca,
Bu dünyada qala-qala.

1038. Mən aşıq, boran dağlar,
Ay boynunu buran dağlar.
Sizi bivəfa gördüm,
Şamili vuran ağlar.

1039. Mən aşıq, boynu buruq,
Maral otlar boynu buruq.
Getdin gedər-gəlməzə,
Bizi qoydun boynu buruq.

1040. Mən aşıq, alışanda,
Şam yanar alışanda.
Cəsəddə can titrər,
Göz-gözlə alışanda.

1041. Bağımızda quş durmaz,
Yaz əylənər, qış durmaz.
Oğlannar and içsə də,
Qız qoynunda dinc durmaz.

1042. Qərib öldü, götürün,
Dar küçədən ötürün.
Qəribi anasına,
Tezliklə yetirin.

1043. Qardaşım, gəl, qalam, gəl,
Ərşə çıxıb nalam, gəl.
Uçubdu baş kərpicim,
Dağılıbdı qalam, gəl.

1044. Ayrılıq yaman-yaman,
Evlərə düşsün talan.
Ayrılsın, qovuşmasın,
Bizə ayrılıq salan.

1045. Balamın balasın allam,
Balamın qadasın allam.
Balamı mənə versələr,
Şuşanın qalasın allam.

1046. Koroğluyam, tərxanam,
Budu gəlir barxanam.
Şəyirddən ustam qaçır,
Bağlı qalıb barxanam.

1047. O tayda qaz ağlaşır,
Simləri saz ağlaşır.
Ağlasın anam, bacım,
Yadlar da az ağlaşır.

1048. Çıxdım, yazılar gördüm,
Qoyun-quzular gördüm.
Anasınnan ayrılmış,
Körpə quzular gördüm.

1049. Qardaşlarım, qoşa gəl,
Qarlı dağlar aşa, gəl.
Eşitsən, bacın ölüb,
Ağlaşa-ağlaşa gəl.

1050. Dağ başı dolu gözlər,
Qar yağar, dolu gözlər.
Məndə can qoymadı,
Səndəki dolu gözlər.

1051. Əzizim, bağrı qara,
Yeməyə bağrıqara.
Lalədən gözəl gül olmaz,
Onun da bağrı qara.

1052. Dağların təpəl qarı,
Əriməz təpəl qarı.
Əsər Uştəpə yeli,
Üstümə səpər qarı.

1053. Dağ başı dolu gözlər,
Qar yağar, dolu gözlər.
Hayıf mənim gözlərim,
Bivəfa yolu gözlər.

1054. Evlərin bağ ağzında,
Tikili bağ ağzında.
Tüleyi-tərlan gördüm,
Bir qara zağ ağzında.

1055. Balam bal kimi olmaz,
Yağı bal kimi olmaz.
Duram sattığa qoyam,
Qeyri mal kimi olmaz.

1056. Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar.
Qəriblikdə ölənin,
Qəbrini qazan ağlar.

1057. Qəriblik asta-asta,
Eyləyib məni xəstə.
Urəyim qərib dağlıdı,
Əritdim asta-asta.

1058. Quzu-quzu, gəl quzum,
Dil-dodağı qırmızım.
Duman gəldi, itirdim,
Duman qaçdı gəl, quzum.

1059. Əzizim, bir də, bir də,
Kim olar mən səbirdə?
Öləndə birgə ölək,
Qoysunnar bir qəbirdə.

1060. Suyu kəsmə, bağ yandı,
Bostan yandı, tağ yandı.
Haray-haray salmaqdan,
Görən, neçə dağ yandı?

1061. Ay dağlar, aram-aram,
Bu dərdə yoxdu çaram.
Yüz min təbib də gəlsə,
Sağalmaz mənim yaram.

1062. Vardı bir diləyim,
Əriyib, qalmayıb ürəyim.
Hər bir yana baxmışam,
Yoxdu arxam, köməyim.

1063. Dağların başıynan,
Dibinin daşıynan.
Qardaşa məktub yazdım,
Gözlərimin yaşıynan.

1064. Su gəldi, hava doldu,
Töküldü nova, doldu.
Hamıya nobat olmasa,
Xanıma nobat oldu.

1065. Əmimgilin bağı var,
Bağının yarpağı var.
Getmirəm əmimgilə,
Aralıqda yağı var.

1066. Qaşları qara qardaş,
Tellərin dara, qardaş.
Getmə, bir xəbər alım,
Mənzilin hara, qardaş?

1067. Suya gedən ikidi,
Saçı maral tüküdü.
Allah məni su eylə,
Su qızların yüküdü.

1068. Dağlar dağımdı mənim,
Gül yarpağımdı mənim.
Dindirmə, qan ağlaram,
Yaman çağımdı mənim.

1069. Dəvələr qatar gedər,
Hil-mixəyın satar, gedər.
Oğullar namərd olub,
Anasın atar gedər.

1070. Sarı köynəyi üzlərəm,
Dərdi canımda gizlərəm.
Oğlan, qayıt mənə sarı,
Yeddi il yol gözlərəm.

1071. Arazın qıraqları,
Soyuqdu bulaqları.
Çağırdım, hay vermədi,
Tutuldu qulaqları.

1072. Köynəyin ağa dönsün,
Yusunnar, ağa dönsün.
Qardaş qapımda dursun,
Ürəyim dağa dönsün.

1073. Dağlara köz ələnsin,
Qar yağsın, köz ələnsin.
Nə gözüm səni görsün,
Nə dərdim təzələnsin.

1074. Mən aşıq, oxu tülyan,
Yay gətir, oxu tülyan.
Özün yetir, Bənimağa,
Bir Yasin oxu tülyan.

1075. Yaylığın alına bax,
Qırağının xalına bax.
Aç ürəyim başını,
Ürəyimin xalına bax.

1076. Göynən uçan hacılar,
Bir-birini acılar.
Qoy sənə qurban olsun,
Qardaşı ölən bacılar.

1077. Bağınızda ağ alma,
Böyrü çürük, ağ alma.
Səni kimlər qarğıdı,
Sən bu dərddən sağalma.

1078. Gəl gedək, qarı qışlağa,
Yönü bəri qışlağa.
Gedib balamı tapmasam,
Sallam qanı qışlağa.

1079. Dəyirmana dən gələ,
Üyütdükcə dən gələ.
Mənim cavan qardaşım,
Getdi düşdü əngələ.

1080. Aşıq, yazana qaldı,
Xalın yazana qaldı.
Ülkər yana sallandı,
Görən yaza nə qaldı?

1081. Qəbrim qazallar qatı,
Üstündə bəzəllər atı.
Ölsəm, dönmərəm sənnən,
Axır məhşər qiyamatı.

1082. Aşıq, yay günü burda,
Xalın yay günü burda.
Ollam qəbrinə çəpər,
Qallam yay günü burda.

1083. Araz elə göy çalar,
Ləpə vurar, göy çalar.
Qardaş-bacısı ölənnər,
Qara geyər, göy çalar.

1084. Sal yana,
Dara telin, sal yana.
Necəsən, qoyam gedəm?
Qalasan yana-yana.

1085. Əzizim, çeşmə gəzmə,
Aranda çeşmə gəzmə.
Ayağın dağa düşsə,
Bulaq gəz, çeşmə gəzmə.

1086. Əzizim, çeşmə suyu,
Bulanmaz çeşmə suyu.
Çınqıllıda yaya qalar,
Qarların buzlu suyu.

1087. Əzizim, oğul gərək,
Arxanda oğul gərək.
Ata belin bükəndə,
Qulluğa oğul gərək.

1088. Aşıq, eylər harayı,
Qırılıb telin harayı.
Aşıq, aranda qalma,
Keçmiş yurdun harayı.

1089. Əziziyəm, Diri dağı,
Duman, gəl bürü dağı.
Ölünü torpaq örtər,
Yamandı diri dağı.

1090. Bu dağlar, yasdı dağlar,
El gəldi, basdı dağlar.
Uç ay toylu-bayramlı,
Doqquz ay yasdı dağlar.

1091. Maral o düzdə varmı?
Otlar o düzdə varmı?
İtirmişəm balamı,
Bizdə yox, sizdə varmı?

1092. Tüfəngini yana sal,
Doldur için, yana sal.
Gördün Əzrayıl gəlir,
Özünü bir yana sal.

1093. Atlanan atdan oldu,
Atdan, muraddan oldu.
Mən ki, namərd deyildim,
Namərdlik atdan oldu.

1094. Bu dərədə ordu var,
Ordu köçub, yurdu var.
Bu dərədən qorxuram,
Adam yeyən qurdu var.

1095. Qəlyanı sər qoyallar,
Çəkəllər, sər qoyallar.
Dərdi çəkə bilməyənin,
Adın yasər qoyallar.

1096. O tayda ağlaşallar,
Saç-saça bağlaşallar.
Qəriblikdə ölənə,
Yığılıb ağlaşallar.

1097. Bu qaya, qəlbi qaya,
Kölgəsi düşər çaya.
Özünü yetir, a qardaş,
Adda çayı bu taya.

1098. Evləri çay keçəndə,
Düşübdü çay keçəndə.
Sənə qarğış qarğaram,
Günüm ah-vay keçəndə.

1099. Sənəyimi götürrəm,
Özümü suya yetirrəm.
Gözlərəm, sən gəlməsən,
Durub köksüm ötürrəm.

1100. Dağlar, otun qurusun,
Suyun, otun qurusun.
Sənin də mənim kimi,
Matın-qutun qurusun.

1101. Dağlar, yerin gəyəndimi?
Yağıbdı, gəyəndimi?
De görüm, bu qara yer,
Mərmər sinəni bəyəndimi?

1102. Qayada barmağım var,
Tutubdu barmağım var.
Qardaşımnan ötəri,
Sənə yalvarmağım var.

1103. Dağlarda maral azdı,
Ovçu çox, maral azdı.
Ağlama, maral gözlü,
Ölmərəm, yaram azdı.

1104. Gəl, bu gün getmə bizdən,
Qar yağar, olar dizdən.
Gədiklər gürgə bağlar,
Səni yad elər bizdən.

1105. Avçıyam, av eylərəm,
Çaxmağa qav eylərəm.
Gəlin bacım ölməsə,
Mən sizi hav eylərəm.

1106. Kəlağayı dizim üstə,
Qatla qoy dizim üstə.
Desələr, balan gəlir,
Muştuluq gözüm üstə.

1107. Bağları var düzümnən,
İçi dolu üzümnən,
Səni ürəyim istər,
Gəl, gedək bizimnən.

1108. Qəlyan damaqda durdu,
Çəkdi, damaqda durdu.
Cannar alıb göz tökən,
Gəldi qabaqda durdu.

1109. O tayda yatan oğlan,
Köynəyi kətan oğlan.
Sənin bacın ölübdü,
Bixəbər yatan oğlan.

1110. Əlimə saz verdilər,
Sazı nasaz verdilər.
Dolu evimnən, ay bala,
Payımı az verdilər.

1111. Gedən, getmə, işim var,
Zərgərdə gümüşüm var.
Ağzı bağlı otaqda,
Dili dağlı quşum var.

1112. Ləyəndə, ha ləyəndə,
Ləyən boynun əyəndə.
Özüm vadar oluram,
Bu sözləri deyəndə.

1113. Mən aşıq, qəlbi yerdə,
Su durmaz qəlbi yerdə.
Gedirsənsə, dur gedək,
Getmirsən, qal bu yerdə.

1114. Sən getdiyin bir il oldu,
Becərdiyin güllər soldu.
Vədə verdin, gəlmədin,
Nə yalançı dil oldu.

1115. Aşıq, sayad elləri,
Qəlbim sayad elləri.
Çək ağzımı, ört üzümü,
Sonra oyat elləri.

1116. Aşıq, sənəm səsinə,
Səs ver sənəm səsinə.
Elə həvəsim gəlir,
Öz kimsənəm səsinə.

1117. Aşıq, ellərdə qaldı,
Ceyran çöllərdə qaldı.
Mənim yaralı balam,
Öldü, ellərdə qaldı.

1118. Əlimdə nar bəzərəm,
Narı hamar bəzərəm.
Gözləyərəm, gəlməsən,
Yüz il də xar gəzərəm.

1119. Quzu mələyən olar,
Duza gələyən olar.
Yetimə bel bağlama,
Yetim öləyən olar.

1120. Qaşın ola bilmərəm,
Gözün ola bilmərəm.
Sən yiyəsiz ölmüsən,
Könlün ala bilmərəm.

1121. Dağların lalasıynan,
Gül biçdim arasıynan.
Xanım anam ölübdü,
Gəlincə balasıynan.

1122. Aşıq, haralı gedər,
Könlü qaralı gedər.
Qiyamət günə kimi,
Cannan yaramı gedər?

1123. Şaftalıyam, kalam mən,
Dilim yoxdu, lalam mən.
Can vermək lazımdımı?
Verəm, səni alam mən.

1124. Kəklik daşa dağıldı,
Səkdi, daşa dağıldı.
Vuran elə vurdu ki,
Qanım daşa dağıldı.

1125. Kəkliyin o xəyalı,
Eləmə o xəyalı.
Getmişəm, qayıdacam,
Eləmə o xəyalı.

1126. Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Aramıza dağ düşdü,
Olduq biz yaman ayrı.

1127. Dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərd bilən özü gələcək,
Dərd bilməsə, demə, gəl.

1128. Almanı alma, gəlin,
Al, yerə salma, gəlin.
Şələ ağır şələdi,
Çiyninə alma, gəlin.

1129. Ovu qovdum, gətirdim,
Mənzilinə yetirdim.
Sən gəldin, yol bağlandı,
Mən balamı itirdim.

1130. Ay elə, tək-tək bağla,
Gün elə, tək-tək bağla.
Qırx atı bircə mıxa.
Sən elə tək-tək bağla.

1131. Daşa qala,
Qar yağdı daşa qala.
Mülk Süleyman mülküdü,
Burda kim başa qala?

1132. Dəryalar adalandı,
Adalar badalandı.
Dedim, dərdim azalır,
Ta da ziyadalandı.

1133. Dumannı dağlarım var,
Çiçəkli bağlarım var.
Fələk, gəl dəymə mənə,
Dalımca ağlarım var.

1134. Qənimətdi,
Kölgəsi qənimətdi.
Bir gözüm səni gördü,
Bir də görsə, qənimətdi.

1135. Mən aşıq, diyarbadiyar,
Xalın diyarbadiyar.
Məni səlih daşında,
Atdılar diyarbadiyar.

1136. Bu Araz axar, gedər,
Dəhnəni yıxar, gedər.
Dünya elə dünyadı.
Hər gələn baxar, gedər.

1137. Əziziyəm, ləkə var,
Belin götür, ləkə var.
Ay doğub gündüz kimi,
Ay üzündə ləkə var.

1138. Ay doğdu alastannan,
Gül doğdü gülüstannan.
Bir şamama dərmişəm,
Dərilməz hər bostannan.

1139. Mən aşıq, hey dərdimi,
Bu gələn hey dərdimi.
Kaş ki, anam sağ olaydı,
Çəkəydi hey dərdimi.

1140. Dağda biyan varmı ola?
Gülə ziyan varmı ola?
Qəribin pis günündə,
Yazıq deyən varmı ola?!

1141. Ay haramı-haramı,
İncidirlər yaramı.
Nə qoymurlar ağlayım,
Nə vermirlər balamı.

1142. Çaxmax çəkdim, qav yandı,
Suyun çəkdim, nav yandı.
Qəribin bir ahınnan,
Yetmiş iki dağ yandı.

1143. Dəyirman üstü mamır,
Qırqovul ətin qavır.
Səni mənnən eyliyən,
Ya gürcüdü, ya gavır.

1144. Əzizim, sənə qalsın,
Sənət ver, sənə qalsın.
Bu can məndə qərar tapmır,
Göndərim, sənə qalsın.

1145. Əzizim, badamçalar,
Zülflərin badam çalar.
Qadağan eylə, zülfün,
Qayıdar adam çalar.

1146. Dolayıda bulağam,
Bağrı zolaq-zolağam.
Balam gedən yollara,
Həmişə göz-qulağam.

1147. Evləri var dağ üstən,
Bülbül ötər bağ üstən.
Bu nə qaydadı səndə,
Dağ vurursan dağ üstən.

1148. Dəyirman üstə bəndəm,
Həm şəkərəm, həm qəndəm.
Elçiləri sən göndər,
Mən bircə himə bəndəm.

1149. Əzizim, İncəbelə,
Gün düşüb İncəbelə.
Qulpun sınsın, ay səhəng,
Minmisən incə belə.

1150. Ay qız, yaxan yuxarı,
Düymən, yaxan yuxarı.
Mənim gözüm səndədi,
Sən də bir bax yuxarı.

1151. Əziziyəm, qananım,
Anlayanım, qananım.
Qurbanıyam ölüncə,
Bu dünyada qananın.

1152. Aşıq, olub yara göz,
Tərlan dikər sara göz.
Ağlım başımnan aldı,
Səndəki cüt qara göz.

1153. Mən aşıq, qala-qala,
Dağ üstə qala-qala.
Yar yolunda can üzdüm,
İntizar qala-qala.

1154. Mən aşığam, bir ay var,
Bir ulduz var, bir ay var.
Gündə gördüyüm yarı,
Görməyimə bir ay var.

1155. Bu dağlar qar məkanı,
Sar gəlsə, var məkanı.
Alçalsın uca dağlar,
Görünsün yar məkanı.

1156. Mən aşıq, bu çağlara,
Bülbül qonur bağlara.
Qayıtmasan bəriyə,
Ovçu sallam dağlara.

1157. Mən aşıq, yasəməni,
Üzübsən yasəməni.
Qanrılıb geri baxdın,
Batırdın yasa məni.

1158. Sözün varsa, asta de,
Sirrin olsa, dosta de.
Gözləyirəm, gəlməyir,
Deyin, yarım xəstədi.

1159. Mən aşığam, narınca,
Gül əkdim kənarınca.
Sonam sallandı gəldi,
Laçın da bir yanınca.

1160. Əzizim, dağ gəzirəm,
Bülbüləm, bağ gəzirəm.
Quru qəfəsəm, durur,
Görən deyir, sağ gəzirəm.

1161. Çaylar adalar kimi,
Quruyur odalar kimi.
Sənə mən şəhid oldum,
İmamzadalar kimi.

1162. Xəstəmin halı yoxdu,
Qalxmağa qolu yoxdu.
Bir yol var, kəndə gedir,
Bu kəndin yolu yoxdu.

1163. Ceyranım düzə ceyran,
Olubdu üzə heyran.
Naşı ovçu ürküdüb,
Dağılıb düzə ceyran.

1164. Bu yol Kaşana gedir,
Aşar, Kaşana gedir.
Qərıblikdə ölənin,
Börkü nişana gedir.

1165. Əzizim, Fərəndizə,
Kəkliyin, fərən düzə.
Sənin kəkliyin ölsün,
Dağılsın fərən düzə.

1166. Qarşımızda qara yaz,
Qara bayram, qara yaz.
Günümüz belə keçsə,
Qələm götür, qara yaz.

1167. Şam yanır, yağda ərir,
Qar yağır, dağda ərir.
Mən düşən dərdə düşsə,
Mum olar, dağ da ərir.

1168. Dağ başınnan yar aşar,
Yar dolanar, yar aşar.
Qaş altdan göz eyləmək,
Bircə sənə yaraşar.

1169. Yel əsəndə gül incir,
Bülbül incir, gül incir.
Yad bağban, girmə bura,
Yarpaq düşər, gül incir.

1170. Laylamın adı qardaş,
Ağzımın dadı qardaş.
Sənnən mənə qardaş olmaz,
Tutaram yadı qardaş.

1171. Saç qara kömürdəndi,
Gün geçər, ömürdəndi.
Sənə dil öyrədənin,
Ürəyi dəmirdəndi.

1172. Apardılar, qoydular,
Ağladılar, doydular.
Ağca sinəm üstünə,
Bir qara daş qoydular.

1173. Apardı hallar səni,
Hallar, xəyallar səni.
Öpdü, basdı bağrına,
Yovşanlı yollar səni.

1174. Oba köçdü çaxmaqdan,
Sular doymur axmaqdan.
Gözlərimə qan damdı,
Vətən yoluna baxmaqdan.

1175. Əzizim, mərd hasarı,
Çəkmişəm mərd hasarı.
Namərd belimnən vurdu,
Süründüm mərdə sarı.

1176. Əzizim, günə düşdüm,
Kölgədən günə düşdüm.
Fələk, nə iş eylədin?
Sən deyən günə düşdüm.

1177. Mən getdim, anam qaldı,
Dərdimə yanan qaldı.
Nə dünyadan tam gördüm,
Nə də nişanam qaldı.

1178. Tikanlıq qalın imiş,
Ayağım yalın imiş.
Gedək fələyə yalvaraq,
Fələk nə zalım imiş.

1179. Ağlaram, bilən olmaz,
Göz yaşım silən olmaz.
Ay bəxtsiz, ah çəkmə,
Haraya gələn olmaz.

1180. Əziziyəm, gözədə,
Qoyun otlar gözədə.
Sənə də qurban olum,
Sən gördüyün gözə də.

1181. Mən aşığam budağa,
Bülbül qonar budağa.
Aşığam, dolan bağı,
Gəz bağı, dolan bağı.

1182. Bir buynuzlu qoçam mən,
Qovan yoxdu, qaçam mən.
Sinəm dəftər-kitabdı,
Oxuyan yox, açam mən.

1183. Ölürəm, üstümə gəl,
Yanıram, tüstümə gəl.
Dərdinnən xəstəyəm mən,
Loğmansan, üstümə gəl.

1184. Əzrayıl üz görübdü,
Meydanı düz görübdü.
Gedir, yenə qayıdır,
Bizi yalqız görübdü.

1185. Aşığam, yüz gün ağlar,
Qaş-gözü süzgün ağlar.
Yarınnan ayrı düşən,
Bir gün yox, yüz gün ağlar.

1186. Obada xəsdə mənəm,
Dərdi dərd üsdə mənəm.
Gözləri yol yorğunu,
Qulağı səsdə mənəm.

1187. Ayağım yalınıydı,
Tikanım qalınıydı.
Heç ölmək istəmirdim,
Cəlladım zalımıydı.

1188. Mən aşığam, arzular,
Dağlar duman arzular.
Mənim bu qaçqın könlüm,
Tez-tez vətən arzular.

1189. Qardaş, qardaş, ay qardaş,
Qaşın ucu yay qardaş.
Kaş ki, bacın öləydi,
Deməyəydi, vay, qardaş.

1190. Aşığam, qarğa verər,
Qarıldar, qarğa verər.
Qaçqınlıqda ölənin,
Xəbərin qarğa verər.

1191. Aşığam, belə qandı,
Didəm bax, belə qandı.
Baş yastıqda, göz yolda,
Get yara belə qandır.

1192. Aşığam, nərdivana,
Ayaq bas nərdivana.
Sənin dərdin mən billəm,
Nə bilir hər divana?

1193. Bağçada xəzələ bax,
O duran gözələ bax.
Öz yarını itirib,
Divanə gəzənə bax.

1194. Əzizim, tikən gülə,
Sarmaşır tikən gülə.
Heç kəs gözün tikməsin,
Mən gözüm tikən gülə.

1195. Aşığam, qara gözlər,
Qara qaş, qara gözlər.
Yıxıbdı dədəm evin,
Səndəki qara gözlər.

1196. Bağça, barı neynərsən?
Heyva, narı neynərsən?
Özün qaçdın qurtardın,
Mən yazığı neynərsən?

1197. Oğlan, adın Həmiddi,
Dağlara gün dəyibdi.
Sən verən qızıl üzük,
İndidən qəfləyibdi.

1198. Oğlan, adın Mürşüddü,
Dağlara gün düşübdü.
Sən verən qızıl üzük,
Barmağımdan düşübdü.

1199. Təndir düşüb ilməyə,
Bu sözü nə var bilməyə.
Şiralı sakqal qoydurub,
Nabatı görməyə.

1200. Məktub, səni ad eylərəm,
Poşta əmanət eylərəm.
Gedib yara çatmasan,
Bil ki qiyamət eylərəm.

1201. Mixək əkdim ləyəndə,
Mixək boynun əyəndə.
On iki qurban deyərdim,
Oğlum, sən gələndə.

1202. Sənə dağlar,
Gün düşə sənə, dağlar.
Tutaydım dost-əqrəba əlindən,
Çıxaydım sənə, dağlar.

1203. Sənə meylim,
Düşübdü sənə meylim.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, sənə neylim?

1204. Paşa dağlar,
Veribdi baş-başa dağlar.
Sən ki bizə zulum eylədin,
Səni dönəsən daşa, dağlar.

1205. Əzizim, neyniyim,
Bu dərdə dözüm, neyniyim?
Ah çəksəm, aləm yanar,
Çəkmirəm özüm, neyniyim?

1206. Qardaş mənim gülümdü,
Gülümdü, bülbülümdü.
Hər dərdə dözmək olar,
Qardaş ölmü zülümdü.

1207. Balam atlı getsin,
Qollu qanadlı getsin.
Balam böyüsün,
Əsgərə atlı getsin.

1208. Aşıq, başına bağlar,
Şalın başına bağlar.
Bülbül ölüb, gül solub,
Kül başına, bağlar.

1209. Dağlar başı zağ-zağ əsər,
Dolduqca zağ-zağ əsər.
Hər sən yadıma düşəndə,
Ürəyimin başı zağ-zağ əsər.

1210. Qapıda durmaqdan öldüm,
Boynumu burmaqdan öldüm.
Ayağımı şaxta kəsdi,
Götürüb qoymaqdan öldüm.

1211. Yarın əsməsin allam,
Sulardan səsin allam.
Namaz qıldığı yerdə,
Axça kisəsin allam.

1212. Papirosun eşqindəyəm,
Od düşüb, eşqindəyəm.
El bilir, aləm bilir,
Mən sənin eşqindəyəm.

1213. Əl çalar, ay, əl çalar,
Qırmızı çalar alçalar.
Meyidimi gennən aparın,
Düşmən görər, əl çalar.

1214. Ay oğlan, haralısan?
Sən Gəncə maralısan.
Sənsiz səbrim tutmur,
Səbrimin qəralısan.

1215. Bağa girdim üzümə,
Tikan batdı dizimə.
Əyildim çıxarmağa,
Sən göründün gözümə.

1216. Su gələr axmaz ilən,
Qayalar yurtmaz ilən.
İstəkli yardan doymaq olmaz,
Bir dəfə baxmaq ilən.

1217. Xəyallar, ay xəyallar,
Ələ gəlməz xəyallar.
Yar, səni öldürəllər,
Məni mağmın qoyallar.

1218. Çaytikanam, barsızam,
Qaratikanam, yarsızam.
Altı ildi evdən çıxdım,
Yeddi aydı yarsızam.

1219. Papirosum yana-yana,
Od düşüb şirin cana.
Səni qoyub gedərəm,
Qalarsan yana-yana.

1220. Aşığam, sən gələnə,
Səni and verirəm sən gələnə.
Əzrayıla can verməərəm,
Saxlaram sən gələnə.

1221. Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Ovçu, qolun sınsın,
Maral vurduğun yerdə.

1222. Analar, yanar ağlar,
Gününü sanar, ağlar.
Dönər göy göyərçinə,
Budaqlara qonar, ağlar.

1223. Aşığam, üz görən yerə,
Salxımı düzüm yerə.
Elə götürün, elə qoyun,
Dəyməsin üzüm yerə.

1224. Vurubdu aylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yükü,
Əyibdi taylar məni.

1225. Bu dərədən yol düşdü,
Budaq sındı, qol düşdü.
Qəbrimi yol üstdən qazın,
Bəlkə, qardaş yolu düşdü.

1226. Kişmiş kimidi,
Ciblərə düşmüş kimidi.
Qardaşı ölən bacılar,
Gözdən düşmüş kimidi.

1227. Qoy mən özüm ağlayım,
Dərdə dözüm ağlayım.
Nə gözüm səni görsün,
Səni deyim ağlayım.

1228. Başda xəyal olarmı?
Yemiş kal olarmı?
Qardaşı ölən bacının,
Dili lal olarmı?

1229. Ay doğdu peşman-peşman,
Gün oldu ona düşman.
Elə ağlayıb, elə kiriginən,
Nə dost bilsin, nə düşman.

1230. Qardaş deyim adına,
Allah çatsın dadına.
Məktubu yazanda,
Bacını da sal yadına.

1231. Aşıq, su deyib ağlar,
Bülbül su deyib ağlar.
Dəryada bir gül bitibdi,
O da su deyib ağlar.

1232. Aman fələk, dad fələk,
Olma səni şad, fələk.
Mən içdiyim zəhərdən,
Bir az özün dad, fələk.

1233. Ocağa buz bağlaram,
Kösövlərin düz qalaram.
Qardaş yadıma düşəndə
Yıxılmağa az qalaram.

1234. Yetiməm, yetən yerdə,
Gül əkdim, bitən yerdə.
Gülümə şahmar dadandı,
Hasilə yetən yerdə.

1235. Bağçalar, barınalar,
Heyvalar, narıncılar.
Qardaş gələn yolları,
Basıbdı barıncılar.

1236. Mən aşıq, öz arasmda,
Yazılmış öz aramda.
Bir pənahlı sözüm var,
Sənnən gəl öz aramda.

1237. Baxça məndə, bar məndə,
Heyva məndə, nar məndə.
Könlüm dərdlər dükanı,
Hər nə desən, var məndə.

1238. Gəl oturginən yanımda,
Dərdim çoxdu canımda.
Birini sən denən, birini mən,
Dərd qalmasın canımda.

1239. Bağda gəzən mənəm,
Əhdim var, bəzənmərəm.
Ürəyim vərəmlidi,
Bu dərdə dözənmərəm.

1240. Qoyun gəlir quzusuynan,
Ayağının tozuynan.
Sən getdin, gəlmədin,
Anan ağlar qızıynan.

1241. Qarağan qalın oldu,
Ayağım yalın oldu.
Fələyə çox yalvardım,
Əzrayıl zalım oldu.

1242. Oba köçdü, binə qaldı,
Məhəmməd dinə qaldı.
Mənim sənnən görüşməyim,
Qiyamət günə qaldı.

1243. Su içində fanaram,
Əl vurmayın, yanaram.
Qaş altdan göz oynatma,
Mən him ilə qanaram.

1244. Burda yaralı çoxdu,
Göylu, qaralı çoxdu.
Bostanın dolu döymüş,
Tağı yaralı çoxdu.

1245. Sən mənim gərəyimsən,
İncimsən, gərəyimsən.
Gəl bu gündə harayıma,
Gör, mənim gərəyimsən.

1246. Əzizim, gül inciməz,
Şeh düşsə, gül inciməz.
Sənin bir kəlmə sözündən,
Heç bir qəlb inciməz.

1247. Su qırağı sarımsaq,
Kətan köynək, canım sağ.
Analar qız bəsləyir,
Aparır hər qurumsaq.

1248. Aftafa bizim olaydı,
Lüləyi qızıl olaydı.
Olaydım sənnən bir otaqda,
Gecələr uzun olaydı.

1249. Təbriz üstü Marağa,
Telin gəlməz darağa.
Bir balaca yer tutdum,
Göndərdilər irağa.

1250. Ay doğdu bircə barmaq,
Sinəmə keçdi qarmaq.
Eləsinə gedərəm,
Sənə qalar yalvarmaq.

1251. Sənə fələk eylədi,
Oxu lələk eylədi.
Girdi güllü bağına,
Ələk-vələk eylədi.

1252. Ürəyimdə yara var,
Üstə xal-xal qara var.
Aç kürəyimin başın,
Gör yanmamış hara var?

1253. Bu arxı kim qazıbdı?
İçinə dilbər yazıbdı.
Dilbərin oğlu ölsun,
Məni pisə yazıbdı.

1254. Qolbağım qolundadı,
Gözüm yar yolundadı.
Dünən yola salmışam,
Bu gün gözüm yoldadı.

1255. Nanəni doğradılar,
Yaylığa bağladılar.
Mən səni istəmirdim,
Boynuma bağladılar.

1256. Zirzəmi ay dərində,
Yerin salın dərində.
Bir dəstə gül olaydım,
İstəkli yar əlində.

1257. Huşdurmaz, ay huşdurmaz,
Pəncərədə quş durmaz.
Hamının yarı dinc dursa,
Mənim yarım dinc durmaz.

1258. Əzizinəm, sizə gəlləm,
Enişi enib sizə gəlləm.
On il qazamat çəksəm,
Qutarsam, sizə gəlləm.

1259. Bu dağlar, sənə dağlar,
Baxdıqca sənə dağlar.
Tutaydım balalarımın qolundan
Gəzəydim səni, dağlar.

1260. Nazlı yarım, ağlama,
Qoltuğunda bağlama.
Gedərəm, gec gələrəm,
Düşmənə bel bağlama.

1261. İndi gəldim onlardan,
Ətəyi dolu narnan.
Yarımın yarı ölsün,
Qurtarım intizardan.

1262. Boxçanı biçən ölsün,
Biçib tikən ölsün.
Mən sənə göz dikmişəm,
Sənə göz dikən ölsün.

1263. Bu dərənin uzunu,
Çoban, qaytar quzunu.
Almışam bəy qızını,
Çəkəmmirəm nazını.

1264. Kür qırağı sərindi,
Oğlan, girmə, dərindi.
Oğlanı dərdə salan,
Bir alagöz gəlindi.

1265. Qoyun gəlir quzu ilə,
Ayağının tozu ilə.
Qardaş məni yad eylər,
Yad qızının sözü ilə.

1266. Mən aşıq, o gün eylər,
Dərd ürəyi dügün eylər.
İki həsrət qovuşsa,
Bayramın o gün eylər.

1267. Bağa girişim budu,
Gülü dərişim budu.
Əyil, üzünnən öpüm,
Axır görüşüm budu.

1268. Halay başı mən ollam,
Üzük qaşı mən ollam.
Qardaşımın toyunda,
Qarabaşı mən ollam.

1269. A qızlar, mama qızlar,
Yığılın dama, qızlar.
Nişannımız gəlibdi,
Qalın sabaha, qızlar.

1270. Açar açar üstündə,
Qızıl açar üstündə.
Mən bir oğlan görmüşəm,
Qəflitelin üsdündə.

1271. Sarı yaylıq butası,
Güllü gəbə ortası.
Yara vədə vermişəm,
Gələn bazar ertəsi.

1272. Bu dərədən keçən beş atdı,
Beşi də mənə daş atdı.
Mən yarımı tanıyıram,
Qabaqdakı boz atdı.

1273. Mən aşığam, bu gün eylər,
Xalın gəl bu gün eylər.
Gün-günnən dalaşar,
Düşmanın bu gün eylər.

1274. Bu bağda badam olmaz,
Əkməsəm, badam olmaz.
Gəlirsən, özün gəl,
Şəkildən adam olmaz.

1275. Oğlan, adın Şirin, gəl,
Yaxın suya, bürün, gəl.
Adını oğlan qoymusan,
Çəpər altdan sürün, gəl.

1276. Oğlan, adın Məhəmməd,
Qaşın arası cənnət.
Sevsən, ala bilməsən,
Cəbbəcəddinə nəhlət.

1277. Bağça bara bağlıdı,
Heyva nara bağlıdı.
Sağ olsun qohum-qardaş,
Qəlbim yara bağlıdı.

1278. Mancılıq quruldu,
Dibində su duruldu.
Hamının yarı gəldi,
Mənim boynum qırıldı.

1279. Mancılıq sarı çəkər,
Ah çəkər, sarı çəkər.
Tutar gümüş kəmərdən,
Özünə sarı çəkər.

1280. Mancılıq burma-burma,
Əllərim sarı xurma.
Hər nə alsan mənnən al,
Bu il mancılıq qurma.

1281. Qəriblik yaman olar,
Saralıb saman olar.
Qəribliyi mən gördüm,
Sən görsən yaman olar.

1282. Su gəlir lilə-lilə,
Yar gəlir gülə-gülə.
Əlində ipək dəsmal,
Tərini silə-silə.

1283. Su üzündə milçəyəm,
Əl vurma, kirimçiyəm.
Aləmə çirkin olsam,
Öz yarıma göyçəyəm.

1284. Su gəlir pəri-pəri,
Qapıların qoşa nəri.
Gələrdim yar yanına,
Çıxardım tərli-tərli.

1285. Çarlisdonum oymadı,
Gözlərim səndən doymadı.
Gəlirdim yar yanına,
Zalım anam qoymadı.

1286. Çarlisdonum boynuna,
Geyin, gedək toyuna.
Sən ki məni sevirsən,
Gəl çıx şəhərin oluna.

1287. Dərya boy verərmi,
Boylasam, boy verərmi?
Çıxsam bir hündürə,
Çağırsam, hay verərmi?

1288. Bağlar, səni aşaram,
Zaman gəlsə, çaşaram.
Elə bir qaynar qazanam,
Odunu az qoy, daşaram.

1289. Qardaşıyam, qardaşı,
Get Qara dağdan qar daşı.
Allaha da xoş gedə,
Bacılar görsə qardaşı.

1290. Dağların ağ alması,
Yeməyə var alması.
Vurar məhşərə gedər,
Yaranın sağalmazı.

1291. Ay oğlan, necə gəldin?
Qaranlıq gecə gəldin.
Sən gələn şəhər dağılsın,
Fənərsiz necə gəldin?

1292. Mənim yarım qonaqdı,
Yediyi qayğanaqdı.
Gedəndə küsdürmüşəm,
Gələndə beydamaqdı.

1293. Yarın ləhcəsin allam,
Sulardan səsin allam.
Namaz qıldığı yerdə
Axça kisəsin allam.

1294. Yar gedəndə yanaram,
On beş günü sanaram.
Gedəndə küsdürmüşəm,
Gələndə qarşılaram.

1295. Əzizinəm, qonaqlar,
Xoş gəlmisiz, qonaqlar.
Demə, babam qocadı,
Yüz sizin kimi qonaqlar.

1296. Mən aşıq, ayaq sudan,
Ağ sudan, ayaq sudan.
Camalın suda gördüm,
Çəkmədim ayaq sudan.

1297. Başımdan saçaq düşdü,
Bilmədim haçaq düşdü.
Tapılmadı dərmanım,
Loğmanım qaçaq düşdü.

1298. Mən aşıq, osan dağlar,
Qar başın basan dağlar.
Sənə gələnnər gedib,
Sən elə osan, dağlar.

1299. O tayda təkə otlar,
Təkə nə yekə otlar.
Sürüsünnən ayrılıb
Ah çəkə-çəkə otlar.

1300. Ovçuyam, ov deyiləm,
Çaxmağa qov deyiləm.
Ovçu, əlin qurusun,
Vurmalı ov deyiləm.

1301. Əzizim, murad ağlar,
Murad ver, murad ağlar.
Ellər murada yetdi,
Canım namurad ağlar.

1302. Qarşıdan Hürü gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim işlədi,
Su belə duru gəldi?

1303. Əzizim, gəlməyəsən,
Gələsən, gəlməyəsən.
Qorxuram yadlaşasan,
Gəlməyə-gəlməyə sən.

1304. Gedirəm elinizdən,
Düşmərəm dilinizdən.
Olaram bir yaşılbaş,
Uçaram gölünüzdən.

1305. Sinəm göz yatağıdı,
Eşqin öz yatağıdı.
Gözüm ilham çeşməsi,
Könlüm söz yatağıdı.

1306. Quş uçar, yenə gələr,
Çölə, çəmənə gələr.
O tayda yuva qurar,
Bu tayda dənə gələr.

1307. Bu göllər sona yeri,
Bu daşlar xına yeri.
Gədikdən aşır günəş,
Boyanır qana yeri.

1308. Quşum uçdu kələkdən,
Oxum sındı lələkdən.
Mən bunu kimdən görüm?
Çərxi sınmış fələkdən?

1309. Gözlə, bağdan gül itər,
Yaxana düz gülü tər.
Tər düşər gül yanağa,
Yandırmazmı gülü tər?

1310. Ömrümə pəlmə gəldi,
Çən gəldi, çəlmə gəldi.
İnsafsız qocalığa
Ha dedim, gəlmə, gəldi.

1311. Maral, yerin şam oldu,
Otlu yerin şam oldu.
Gözümü yola dikdim,
Gəlmədin, axşam oldu.

1312. Ata-ata gedibdi,
Yata-yata gedibdi.
Qurban olum qardaşa,
Extilata[28] gedibdi.

1313. Oğlan, adın Həsəndi,
Qılınc başı kəsəndi.
Düşmənə bel bağlama,
Düşmən zəncir kəsəndi.

1314. Oğlan, adın Əlidi,
Qolları düyməlidi.
Qurban olum qardaşa,
Səfərə getməlidi.

1315. Aman-aman oldu, gəl,
Halım yaman oldu, gəl.
Ayları vədə verdin,
İllər tamam oldu, gəl.

1316. Araz üstə yel əsir,
Qırağında gül əsir.
Küləkdən qanad alıb
Araz Kürə tələsir.

1317. Əziziyəm, ay qardaş,
Qaşın ucu yay, qardaş.
Kaş mən özüm öləydim,
Deməyəydim, vay, qardaş.

1318. Əziziyəm, vətəndə,
İgid gərək vətəndə.
Elin sözü bir olsa,
Yağı qoymaz vətəndə.

1319. Əyirplan göydədi,
Qanadları göydədi.
Qurban olum qardaşa,
Qardaş qərib yerdədi.

1320. O gələn bizə gəlir,
Hündürdən düzə gəlir.
Atamın cavan balası,
Geyinib bizə gəlir.

1321. Aşiqəm özüm sənə,
Dəyməsin gözüm sənə.
Qoçum yox qurban kəsim,
Mən qurban özüm sənə.

1322. Mən aşiqəm, saldı yar,
Dərdi mənnən aldı yar.
İki könül arzusu,
Qiyamətə qaldı yar.

1323. Siqaret yana-yana,
Od düşsün şirin cana.
Necəsən, qoyum gedim,
Qalasan yana-yana.

1324. Bakının yeli əsdi,
Qüssələr məni kəsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

[28] Extilat – söhbətləşmək

1325. Əzizim, səfa gəldin,
Xoş gəldin, səfa gəldin.
Nə mən öldüm qurtardım,
Nə sən insafa gəldin.

1326. Aşığam, köhnə dağı,
Gəzirəm köhnə dağı.
Təzədən bir dağ çəkdin,
Unutdum köhnə dağı.

1327. Əzizim, içmə, dostum,
Hər sudan içmə, dostum.
Uyma düşmən sözünə,
Dostundan keçmə, dostum.

1328. Əzizim, yüz il məni,
Xalçaya düz ilməni.
Dostum mənə yad olmaz,
Görməsə yüz il məni.

1329. Dağ başını qar alar,
Duman alar, qar alar.
İnsan azad olmasa,
Ömrü-günü qaralar.

1330. Yaxın qoyma qubarı,
Tükənməz etibarı.
Çox şeyi itirərsən,
İtirsən etibarı.

1331. Unutmaz vətən məni,
El deyib ötən məni.
Qürbətdə yol otuyam,
Tapdayar ötən məni.

1332. Gül üstündə yaş olum,
Ellərə sirdaş olum.
Qürbətdə şah olunca,
Vətənimdə daş olum.

1333. Əzizim, o da yaxşı,
Pərvanə oda yaxşı.
Yaman arvad, pis oğul
Olmaya, o da yaxşı.

1334. Zirvələr qara qaldı,
Vüsal bahara qaldı.
Quzeylər ağ geyindi,
Güneylər qara qaldı.

1335. Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Yıxdın atam evini,
Qapımı bağlar qoydun.

1336. Əzizinəm, açaram,
Gül tək işıq saçaram.
Ölüm ana da ola,
Ana yurddan qaçaram.

1337. Qarabağdan gəlirəm,
Yüküm yoxdu, zəliləm.
Bir döşək at, bir yastıq,
Əcəl gəlib, ölürəm.

1338. İsmət durduğu yerdə,
Boynun burduğu yerdə.
Namərd, əlin qurusun,
İsməti vurduğun yerdə.

1339. Əziziyəm, şam ağlar,
Piltə yanar, şam ağlar.
Qəribin qürbət eldə
Məzarında şam ağlar.

1340. Eləmi, ya saraylar,
Ürəyim yas haraylar.
Üstümə hücum çəkdi,
Pis günnər, yassar aylar.

1341. Əzizinəm, yüz dərdim,
Dərmansızdı yüz dərdim.
Ərəb gəldi, öc aldı,
Birkən artdı yüz dərdim.

1342. Anam, anam, öz anam,
Mənə pənah, göz anam.
Bir günümə dözmürdüm,
Ərəseymə döz, anam.

1343. Allah amanda dursun,
Yarım yuxudan dursun.
Ana, gülabı gətir,
Yarım telinə vursun.

1344. Qara at nalı neylər?
Qara qaş xalı neylər?
Sən kimi yarı olan
Dövləti, varı neylər?

1345. Küçədə xonça gedir,
İçində nimçə gedir.
Aləmin gülü getsə,
Bizimki qönçə gedir.

1346. Mən əzizəm, şonqara,
Şikar gəzər şonqara.
Cik-cik deyən sərçələr,
Neylər şahin-şonqara?

1347. Mən aşiqəm, başabaş,
Oxu dərsin başabaş.
Eşqinnən səməndərəm,
Oda yandım başabaş.

1348. Qızılgül açılanda,
Açılıb saçılanda.
Yarımdan ayrılardım,
Hər sabah açılanda.

1349. Əziziyəm, gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Xəzəl olsa gül bağda.

1350. Araz arxa dolanır,
İpək çarxa dolanır.
Könlüm yarın başına,
Qorxa-qorxa dolanır.

1351. Qış gəldi, qar gəlmədi,
Dağlara bar gəlmədi.
Dərdinnən xəstə düşdüm,
El gəldi, yar gəlmədi.

1352. Payın qazanda dursun,
Ərzin yazanda dursun.
Açılmaz qəmli könlüm,
Yüz min sazanda[29] dursun.

[29] Sazanda – saz çalan

1353. Mən bu yola bələdəm,
Kim deyir nabələdəm?
Necəsən bir ah çəkəm,
Dağı-daşı mələdəm.

1354. Bağlara çən düşübdü,
Başıma dən düşübdü.
Tanrı, məni quş eylər,
Yada vətən düşübdü.

1355. O tayda ana ağlar,
Baxar bu taya, ağlar.
Qorxuram bu nalədən,
Od tutub yana dağlar.

1356. Əzizim, sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
El-oba bizə qaldı.

1357. Mən aşiqəm, gül gülə,
Bülbül gülə, gül gülə.
Yar telinə gül taxıb,
Calaq olub gül gülə.

1358. Bir kiçicik quş idim,
Budağa qonmuş idim.
Niyə uçurdun məni?
Mən sənin olmuş idim.

1359. Eləmi, düşən yeri,
Atılıb düşən yeri.
Göz yaşım oda dönüb,
Yandırır düşən yeri.

1360. Mən aşiqəm, al inci,
Gey qəddinə al, inci.
Dosta xəyanət olmaz,
Qurma mənə al, İnci.

1361. Mən aşiqəm, ay ağa,
Piltə yanar a yağa.
Mərd sözün üzə deyər,
Heç yapışmaz ayağa.

1362. Araz axar gilinən,
Dörd bir yanı gülinən.
Qismət olsa danışam,
Uzaq düşən elinən.

1363. Əzizim, suda yandı,
Sel gəldi, su dayandı.
Eşq oduna su tökdüm,
Alışdı, su da yandı.

1364. Mən aşiq, qoşa dağlar,
Çatıb baş-başa dağlar.
Sizdə oğul itirdim,
Dönəsiz daşa, dağlar.

1365. Çiçəklər hala gəldi,
Arılar bala gəldi.
Nə günah elədim ki,
Başıma bəla gəldi?

1366. Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Hələ sağam, ağlaram,
Ölsəm, torpağım ağlar.

1367. Atın qoşuna gəlsin,
Nalla, qoşuna gəlsin.
Qaçqın başına gələn
Kafir başına gəlsin.

1368. Başıma baş bağlaram,
Yuyaram, yaş bağlaram.
Gözlərəm, vətən qayıtmasa,
Bağrıma daş bağlaram.

1369. Apardılar gülümü,
Eylədilər zülümü.
Nə qoydular danışım,
Nə kəsdilər dilimi.

1370. Qarabağda talan var,
Zülfün üzə salan var.
Sən getdin, çox əyləndin,
Gözü yolda qalan var.

1371. Evləri günortadan,
Tikilib günortadan.
Dərdinə şərik ollam,
Bölərəm tən ortadan.

1372. Maralı vay, dağı vay,
Maral otlar dağı, vay.
Özün qaçdın qurtardın,
Mənə çəkdin dağı, vay.

1373. Məni gördü yan verdi,
Yaş kirpiyə san verdi.
Neçə yorğan-döşəkli
Quru yerdə can verdi.

1374. Qardaş deməm, qan olar,
Yel əsər, fəğan olar.
Qardaş gələn yollara
Bacılar qurban olar.

1375. Könlüm bir fəğan ağlar,
Yel əsər, Muğan ağlar.
Dindirmə, min dərdim var,
Hərdən bir fəğan ağlar.

1376. Bu nara qəlbi nara,
Çəkiblər qəlbi nara.
Diliynən dost olanın
Qayıt bir qəlbin ara.

1377. Gözlərim neyçün ağlar?
Uçurub quşun ağlar.
Vurulan qəflə mənimdi,
Kiradan[30] neyçün ağlar?

1378. Canımın azarı var,
Ağrıyır, azarı var.
Aşığın şan bağrına
Qonmamış az arı var.

1379. Araz üstü xan bağlar,
Duman gəlsə, çən bağlar.
Könlüm elə virandı,
Arı gəlsə, şan bağlar.

1380. Dağda boran oldumu?
Yağdı, boran oldumu?
Çoxlu girov itirdik,
Onu görən oldumu?

---

[30] Kiradan – kirə verən

1381. Yandım-yandım, su varmı?
Xəstə sudan doyarmı?
Gedək gavıra yalvarax,
Görək girovları qoyarmı?

1382. Qanqal nə qalınmış,
Ayağım da yalınmış.
Gedək gavıra yalvarax,
Gavır nə zalımmış.

1383. Məni vurdu ilannar,
Tanıyannar, bilənnər.
Ovsunçu kar etmədi,
Haray, ovsun bilənnər.

1384. Aslanım, hay aslanım,
Qapını kəsim, yasdanım.
Dünya çiçəklənən yerdə,
Dolu döydü bosdanım.

1385. Gedərəm, yolum dağdı,
Dörd yanım güllü bağdı.
Çəkərəm vətən qəhrin,
Necə ki canım sağdı.

1386. Dərya, sənnən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Güney xəyallı könlüm,
Xəyalınnan kim keçdi?

1387. Gəldi burdan bad keşdi,
Bad əyləndi, bad keşdi.
Fələk, gəl isbat eylə,
Hansı günüm şad keçdi?

1388. Qəlbidə qurdum taya,
Kölgəsi düşdü çaya.
Bizi belə eliyən
Nə gün görsün, nə vaya.

1389. Bağçadan gül qırallar,
Yava[31] gəzmə, duyallar.
Kəsəllər dal-qabağın,
Görən necə qıyallar?

1390. Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Xəzəl ollam, tökülləm
Viranə bağlar kimi.

1391. Götürün ağ yelkəni,
Gözüm görsün gələni,
Ya rəbb, görən neylələr,
Qaçqınlıqda öləni?

1392. Ölürəm, yaram nədi?
Ölümə çaram nədi?
Xuda vermiş bir dərddi,
Çəkirəm, çaram nədi?

1393. Ürəyim aldı vərəm,
Açıqda deyil, görəm.
Nə yastığım silkinir,
Nə yetir fərzim, öləm.

1394. Qəribəm, ağrır başım,
Yastığa damar yaşım.
Desələr vətənə qayıdırsan,
Yastıqdan qalxar başım.

---

[31] Yava – açıq-aydın

1395. Tüfəngini qola sal,
Götür sağdan sola sal.
Gördün qənim üstün gəlir,
Sən də özünü kola sal.

1396. Sumaxda yaxşı su var,
İçməyə yaxşı su var.
Dərddən, qəmdən, hicrandan,
Qaçqında yaxşısı var.

1397. Ay dağlar, yasdı dağlar,
El getdi basdı, dağlar.
Üç ay toy-bayramnan,
Doqquz ay yasdı dağlar.

1398. Gəl məni qoyub getmə,
Nar kimi soyub getmə.
Boynumu çiynim üstə,
Burulu qoyub getmə.

1399. Mən aşiq, yüz məzarı,
Şannan bal üzməz arı.
İtirmişəm qəbrini,
Gəzirəm yüz məzarı.

1400. Bizə fələk eləyib,
Qurub kələk eləyib.
Girib güllü bağçama,
Lələk-lələk eləyib.

1401. Gəlişin yaza bənzər,
Boyun şahbaza bənzər.
Qayıtsan vətən sarı,
Qış günün yaza bənzər.

1402. Yandım-yandım,
bişdim mən,
Qəm çayına düşdüm mən.
Kabab odnan bişər,
Odsuz-zadsız bişdim mən.

1403. Yandım sənəm oduna,
Səlbi-sənəm oduna.
Yana-yana kül oldum,
Öz kimsənəm oduna.

1404. Fələyin çarxı dönsün,
Su gəlsin, arxı dönsün.
Bizi belə eliyən fələyin,
Dəhnədən arxı dönsün.

1405. Araz ada qaytarar,
Yuyar, ada qaytarar.
Qurban kəs, sadağa ver,
Qurban qada qaytarar.

1406. Məni vurdu talx ilan.
Başını götür, qalx, ilan.
Bizə fələk eliyib,
Nə işin var xalxınan?

1407. Bağında badamçalar,
Yeməyə badamçalar.
Zülfünə qadağa qoy,
Dolanar, adam çalar.

1408. Qəbirstan bir kənd oldu,
Dörd yanı gülbənd oldu.
Hər yana gedən gəldi,
Ora gedən bənd oldu.

1409. Qarlı dağlar aşaram,
Duman gəlsə, çaşaram.
Mən bir qaynar qazanam,
Ağzım açma, coşaram.

1410. Qarlı dağlar aşaram,
Duman gəlsə, çaşaram.
Sinəm qaynar qazandı,
Odu vurma, daşaram.

1411. Əlimə saz verdilər.
Yonqarın az verdilər.
Dərdimi çox elədilər,
Dərmanın az verdilər.

1412. Dağların qarı mənəm,
Yağıbdı, qarı mənəm.
Fərhad Şirin qanlısı,
O köpək qarı mənəm.

1413. Mən aşığam, dərd, ağıl,
Qoymaz başda dərd ağıl.
Mehman irazı olmasa,
Xana yıxıl, dər-dağıl.

1414. Mən aşıq, ay qabağı,
Buluddu ay qabağı.
Gülməz namərdin üzü,
Açılmaz qaş-qabağı.

1415. Gəncənin hey Ağdamı,
Tikilib hey Ağdamı.
Qoy ölən rəqib olsun,
Sən elə hey ağ damı.

1416. Otağında birə var,
Məni dişlər, birə var.
Rusdamı-Zal olsan da,
Fələk səni bir ovar.

1417. Otağı dərd arxalı,
Döşənmiş dərd arxalı.
Qaçqın bir ev tikibdi,
Qəm evli, qəm arxalı.

1418. Ay mənim inci könlüm,
İnci, zarıncı könlüm.
Səni fələk vurubdu,
Nə küs, nə inci, könlüm.

1419. Alma versəm, almazsan?
Sən almasız qalmazsan.
Hansı bağın gülüsən
İylədikcə solmazsan?

1420. Dincələm, ha dincələm,
Dərdim atam, dincələm.
Əynim, başım, boğazım,
Qoymaz yatam, dincələm.

1421. Oba köçdü çaxmaqdan,
Sular doymur axmaqdan.
Gözlərimə qan damdı,
Vətən yoluna baxmaqdan.

1422. O görünən Ağdamdı,
Qara damdı, ağ damdı.
Yar yoluna baxmaqdan
Gözlərimə qan damdı.

1423. Bağında şirin nə var?
Yeməyə şirin nə var?
Cahanı gəşt eləsən,
Baladan şirin nə var?

1424. Aman, məni dərd əydi,
Namərd güldü, mərd əydi.
Könlümün şüşəsinə
Çarx hərləndi, pər dəydi.

1425. Qəm könlüm, qəhər könlüm,
Yediyi zəhər könlüm.
Vurublar, şüşəsi sınıb,
Vurana şəhər könlüm.

1426. Mən aşıq, gül məkanda,
Gül bitər gül məkanda.
Düşməni gördüm, güldüm
Mən handa, gülmək handa?

1427. Mən aşığam, ha səni,
Haqq saxlasın ha səni.
Xəstə könlü nar istər,
Mənim könlüm ha səni.

1428. Qardaş mənim məliyim,
Cibimdə iynəliyim.
Köçəndə köçüm qardaş,
Düşəndə kölgəliyim.

1429. Əyilsin başın, dağlar,
Tökülsün daşın, dağlar.
Sənin də mənim kimi,
Ölsün qardaşın, dağlar.

1430. Qardaşım birdi mənim,
Gözümə nurdu mənim.
Ölləm, üstümə gəlmir,
Ovqatım kürdü mənim.

1431. Qızılgül bağam oldu,[32]
Dərmədim, vağam oldu.[33]
Fələk bir iş işlədi,
Nökərim ağam oldu.

1432. Bu yerlər gəyən[34] yerlər,
Gül boynun əyən yerlər.
Əyilsin, anan öpsün,
Ayağın dəyən yerlər.

1433. Mən aşığam, kür kəlam,
Səni kəssin kür kəlam.
Nə soyuğa tabım var,
Nə pulum var, kürk alam.

1434. Dərya bulandı yenə,
Daşdı, bulandı yenə.
Vətən yadıma düşdü,
Halım dolandı genə.

1435. Gün getdi dağ başına,
Örtmüsən ağ başına.
Könlü şamama istəyən
Dolanar tağ başına.

1436. Çıxdım qaya başına,
Baxdım tayın-tuşuna.
O qızı mənə versələr,
Sallam üzük qaşına.

---

[32]Bağam oldu – yetişdi, pardaxlandı
[33] Vağam oldu – soldu, viran oldu
[34] Gəyən – geniş düzənlik

1437. Narıncı qoydum başa,
Qaynadı döndü daşa.
Yurdda qalan deyildim,
Töhməti qoydum başa.

1438. Asmalı ağır gərək,
İçində bağır gərək.
Eldən elə gedənin
Sanbalı ağır gərək.

1439. Ay kəklik, asta kəklik,
Quyruğu dəstə kəklik.
Tutam qəfəsə salam,
Yollayam dosta, kəklik.

1440. Əzizim, dağda qanı,
Qan gördüm dağdağanı.
Ovçu balasın vurdı,
Göl oldu dağda qanı.

1441. Aşiqəm, od adamı,
Cənnətin od adamı.
Yandırsa, yar yandırar,
Yandırmaz od adamı.

1442. Ox-yayım təzə yaydı,
Kamandı, təzə yaydı.
Yarım daldan çıxanda
Deyirlər, təzə Aydı.

1443. Aşiqəm mən, ay dursun.
Ülkər dursun, Ay dursun.
Öləndə qəbrim üsdə
O zülflərin yay dursun.

1444. Dərd belə canda olur.
Cəsəddə, canda olur.
Yar gəlib seyr etməyə,
Açmışam canda yolu.

1445. Aşiqəm, hər günahı,
İşləmə hər günahı.
Üzüm haqqda, dil duada,
Çəkərəm hər gün ahı.

1446. Əzizim, üzdə danar,
Əllidə, yüzdə danar.
Məhəbbət gözdə olar,
Görməsə, üz də danar.

1447. Aşiqəm, yüzdə dönər.
Əllidə, yüzdə dönər.
Məhəbbət gözdə olar,
Yar baxar, göz də dönər.

1448. Əzizim, tikan gülə,
Sarmaşır tikan gülə.
Heç kəs gözün dikməsin,
Mən gözüm dikən gülə.

1449. Aşiqəm, mən ac arı,
Yuyulmamış acarı.
Hər kim yara pis desə,
Dilin vursun ac arı.

1450. Aşiqəm, yüz gün ağlar,
Qaş-gözü süzgün ağlar.
Yarınnan ayrı düşən
Bir gün yox, yüz gün ağlar.

1451. Aşiqəm, çimən[35] yerdə,
Gül bitər çimən yerdə.
Yara köynək olaydım,
Soyunub çimən yerdə.

1452. Aşiqəm, qara gözlər,
Qara qaş, qara gözlər.
Yıxıb dədəm evini,
Səndəki qara gözlər.

1453. Aşiqəm, qara dağı,
Gəncənin qara dağı.
Sinəmin üstə çəkdir,
Əlif tək qara dağı.

1454. Mən aşiq, təzə nəm var.
Təşnəm var, təzə nəm var.
Öpülübsənmi, a sevgilim?
Üzündə təzə nəm var.

1455. Aşiqəm, nərdivana,
Ayaq bas nərdivana.
Sənin dərdin mən billəm,
Nə bilir hər divana?

1456. Aşiqəm, ağ daşı,
Ağ düyüsü, ağ daşı.
Namərd öldü, iş oldu,
Təki desinnər ağ daşı.

1457. Aşiqəm, o diyara,
Yol gedir o diyara.
Zülfünü kəmənd elə,
Məni çək o diyara.

1458. Aşiqəm, bir damara,
Nəştər vur bir damara.
Məni zülfün vurubdu,
Sən vurma bir də yara.

1459. Aşiqəm, yara məndə,
Dərd məndə, yara məndə.
Cəfa çəkib yetmədim,
Sevgili yara mən də.

1460. Aşiqəm, dərdi yara,
Xəstənin dərdi yara.
Billah, cana doymuşam,
Demərəm dərdi yara.

1461. Aşiqəm mən, qara yaz,
Bülbül oxur, qara yaz.
Əlinə al qələmi,
Ağ üstünə qara yaz.

1462. Mən aşiqəm, bir az gül,
Bir az nərgiz, bir az gül.
Gül ki, sən çox gülmüsən,
Xətrim üçün bir az gül.

1463. Ağlayan yaş ağlayar,
Göz ilə qaş ağlayar.
Dərdli dərdin duysa,
Ciyəri daş ağlayar.

1464. Dağlar qar qucar yatar,
Sonanı sar qucar yatar.
Cəfanı bülbül çəkər,
Gülü xar qucar yatar.

---

[35] Çimən – çəmən

1465. Çəpərlər aşaram,
Qızılgülə dolaşaram.
Sevdiyim o gözəl qızı,
Ordan götürüb qaçaram.

1466. Aşiqəm, gül əsəndə,
Danışıb güləsən də.
Bülbülün bağrı çatlar,
Yel dəyib gül əsəndə.

1467. Mən aşiqəm, bir yerdə,
Bir göydədi, bir yerdə.
Haqq yaratdı, görmədi,
Mən görmüşəm bir yerdə.

1468. Ağlaram, bilən olmaz,
Göz yaşım silən olmaz.
Ay bəxtsiz, ah çəkmə,
Haraya gələn olmaz.

1469. Ağlaram, tellər ağlar,
Yaş töküb sellər ağlar.
Sənin dərdini duysa,
Ölkələr, ellər ağlar.

1470. Aşiq deyər, nə qaldı?
Nə qaydadı, nə qaldı?
Mərd igiddən şan-şöhrət,
Bəs namərddən nə qaldı?

1471. Əziziyəm, dan üzü,
Bülbül oxur dan üzü.
İstərəm bir ah çəkəm,
Sənə çata dan üzü.

1472. Bu yerdə gülən olsa,
Tərimi silən olsa.
Qardaşlıq yaxşı şeydi,
Qədrini bilən olsa.

1473. Aşiq gözə gəlməsin,
Maral düzə gəlməsin.
Göydəki qara buludlar,
Heç vaxt bizə gəlməsin.

1474. Mən aşiq sənə, dağlar,
Sən and ver sənə dağlar.
Can məndə qərar tutmaz,
Göndərim sənə, dağlar.

1475. Əziziyəm, gözədə,
Qoyun otlar gözədə[36].
Sənə də qurban olum,
Sən gördüyün gözə də.

1476. Gəlin, diləkli gəlin,
Ceyran ürəkli gəlin.
Xəmir çoxdu, çörək yap,
Ay şir biləkli gəlin.

1477. Dur ayağa, qız gəlin,
Tellərini düz, gəlin.
Toyçulara gəl yaxın,
Düş ortaya süz, gəlin.

1478. Qardaşım içimnən gəlir,
Çöldən, biçinnən gəlir.
Əlində bir dəstə gül,
Bəylər içinnən gəlir.

[36] Gözədə – yamacda

1479. Kəmər bağla belinə,
Şərvət verim əlinə.
Sən gəlinim olanda
Xına qoyum telinə.

1480. Aşiqəm, çəkən dərdi,
Çəkdikcə çəkən dərdi.
Yüz dəvə çəkə bilməz
Bir canım çəkən dərdi.

1481. Aşiqəm, handa mələr,
Urumda, Şamda mələr.
Yaxasız köynək geyən
Bacasız damda mələr.

1482. Səyyad tək duraram mən,
Boynumu buraram mən.
Harda bir tərlan görsəm,
Ona tor quraram mən.

1483. Aşiqəm mən, yaman at,
Çəkib oxun yaman at.
İnsanı tez qocaldar
Yaman arvad, yaman at.

1484. El köçdü, binə qaldı.
İmana, dinə qaldı.
Mənim sənnən görüşüm
Qiyamət günə qaldı.

1485. Əzizim, dağ yeridi,
Sinəmdə dağ yeridi.
Adam var, toz tərpətməz,
Adam var, dağ yeridi.

1486. Mən aşiqəm, yasa bax,
Qara geymiş, yasa bax.
Fələyə bir can borcluyam,
Ya bu gündü, ya sabah.

1487. Mən aşiq, çəkər canım,
Gəl qırma bekar canım.
Nə vaxtadək dərdini
İnsafsız, çəkər canım?

1488. Kəkliyin alasına,
Dən səpin balasına.
Mən dostuma qurban,
Dostum da öz balasına.

1489. Qoy yağan yağış olsun,
Qar yağsın, yer qış olsun.
Canın qızılca töksün,
Yeri bənəviş olsun.

1490. Əzizim, bu damaqda,
Şah qalmaz bu damaqda.
Sarvan lök axtarmaqda,
Lök qanqal budamaqda.

1491. Qəbrimi qazdılar qatı,
Üstündə bəzəllər atı.
Axır məhşər qiyamatı,
Oluncan gözlərəm səni.

1492. Dərya bulandı yenə,
Daşdı, bulandı yenə.
Xəyalımdan nə keçdi?
Halım dolandı yenə.

1493. Dərə-təpə biləmmi?
Kabab yapa biləmmi?
Axtarıram sorağnan,
Görüm tapa biləmmi?

1494. Dağlar başı tütündü,
Kimin bağrı bütündü?
Gedirsən, gəl halallaşaq,
Dünya ölüm-itimdi.

1495. Araz olub bulansam,
Uca dağlar dolansam,
Yarı görəm, taparam,
Sayıl olub dilənsəm?

1496. Gedərəm, Gilan, sənə,
Tanıyan, bilən sənə.
Qarışqalar yol eylər,
Dolanar ilan sənə.

1497. Dərvişəm, kəşkülüm var,
Hər güldən beş gülüm var.
Fələk, gəl isbat eylə,
İşimdə müşkülüm var.

1498. Gəl məni fağır ağla,
Fağır qoy, fağır ağla.
İşim müşkül olanda,
Adımı çağır, ağla.

1499. Aşıq, irza sənindi,
Halım irza sənindi.
Saxlasan, qulun ollam,
Qovsan, irza sənindi.

1500. Aşıq, dərdə nə bağlar?
Gümüş gərdənə[37] bağlar.
Gedək dərdli yanına,
Görək dərdə nə bağlar?

1501. Ağlar, babacan ağlar,
Yükü qabacan[38] ağlar.
Eşidər nənəm, gələr,
Elcən, obacan ağlar.

1502. Ceyranlı çöllərim var,
Ördəkli göllərim var.
Çox da yazıq ağlama,
Bir qamığ[39] ellərim var.

1503. Mən də bağa gəlmişəm,
Yağa-yağa gəlmişəm.
Götürmüşəm dərdimi,
Ağlamağa gəlmişəm.

1504. İtkiliyəm, itkili,
Gözüm yollar tutqulu.
Kim axtarar, kim tapar?
Sənin kimi itkini.

1505. Obada xəsdə mənəm,
Dərdi dərd üsdə mənəm.
Gözləri yol yorğunu,
Qulağı səsdə mənəm.

1506. Bostan əkdim xiyarsız,
Onu dərmədim sənsiz.
Yatdım yuxuda gördüm,
Oyandım ixtiyarsız.

---

[37] Gərdənə – belə
[38] Qabacan – çoxlu
[39] Qamığ – çoxlu

1507. Əzizim aldandı, öldü,
Odlara yandı, öldü.
Ağac əyildi, sındı,
İgid utandı, öldü.

1508. Ay doğar, batmaz, gedər,
Dost dosta atmaz, gedər.
Ana baladan ayrı
Dincəlib yatmaz, gedər.

1509. Bu gələn qazdı, bala,
Ördəkdi, qazdı, bala.
Bivədə gələn qonağa
Hələ bu da azdı, bala.

1510. Aşiq gedər hər yana,
Sözün deyər mərdana.
İgidə ürək verər
Bəd ayaqda mərd ana.

1511. Sular gələr, göl dolar,
Şaxta vurar, gül solar.
Mərd igidin balası
Özü kimi mərd olar.

1512. Çay axdı, ada saldı,
Coşdu sel, səda saldı.
Allah bizi unutdu,
Əzrayıl yada saldı.

1513. Papağını yan qoyub,
İçinə biyan qoyub.
Suya gedən qızların
Ürəyinə qan qoyub.

1514. Əzizim, qala yeri,
Yurd yeri, qala yeri.
O günü qiyamət olar
El köçə, qala yeri.

1515. Əynindəki tor kisə,
Məni verdilər pisə.
Qəbul elə, dəli könlüm,
Bir tikə zəhər isə.

1516. Dağıstanda dağam mən,
Aranda dustağam mən.
Nə qəm çəkirsən, qardaş,
Ölməmişəm, sağam mən.

1517. Bu dünya arsızındı,
İmansız, qırsızındı.
Bir gözəl ceyran gördüm,
O da bir nursuzundu.

1518. Bu gələn sudumu?
Ləki dolu sudumu?
Etibarlı balanın
Etibarı budumu?

1519. Mən öldüm çiçəkdən,
Üzümü qoru milçəkdən.
Yad ağlar, yalan ağlar,
Anam ağlar gerçəkdən.

1520. Bu dağlar lalalı dağlar,
Güllü-bənövşəli dağlar.
Üstündə düşman gəzir,
A başı bəlalı dağlar.

1521. Qoyun otlar, düzə gələr,
Otladıqca düzə gələr.
Yamandı qəriblik, ay balam,
Axırı vətənə, düzə gələr.

1522. Səməndin yeri qala,
Alınmaz yeri qala.
Yaxşı gözəl sevmisən,
Gözünün yeri qala.

1523. Oğlum gəlir dolaydan,
Donun biçin daraydan.
Köynəyi xas qırmızı,
Qurşağı Kərbalaydan.

1524. Oğlum gəlir yoxuşdan,
Zəngiləri gümüşdən.
Ona xonça bəzərəm
İçi dolu xuruşdan.

1525. Yük üstə kilim yandı,
Od aldı, kilim yandı.
Qardaş, qardaş deməkdən
Ağzımda dilim yandı.

1526. O tayda mal mələdi,
Dili yox, lal mələdi.
İtirdim vətənimi,
Mənə də bir yol mələdi.

1527. Qalada fərmanım var,
Qəlbidə xırmanım var.
Gəl aç yaramın üstün,
Əlində fərmanım var.

1528. Mənə elli deyillər,
Şana telli deyillər.
İtirdim vətənimi,
Qərib elli deyillər.

1529. Maral, dağdan belə gəl,
Dolan, dağdan belə gəl.
Qorxuram ova çıxan
Səni vurar, belə gəl.

1530. Ördəyəm, gölünüzdən,
Ceyranam, çölünüzdən.
Yaşılbaş sona olub,
Çıxaram gölünüzdən.

1531. Ələkdə var barama,
Sim yeridi yarama.
Anam tutsun çırağı,
Yarım baxsın yarama.

1532. Dağların başı qara,
Dibi göy, başı qara.
Bir qız məni oxladı,
Gözü göy, başı qara.

1533. Ay məni şaxta vurdu,
Şaxta nə vaxta vurdu?
Məni fələk vurmuşdu,
Utanmaz xalx da vurdu.

1534. Bostan əkili qaldı,
Əkdim, əkili qaldı.
Fələk bir iş görübdü,
Evim tökülü qaldı.

1535. Yeri, yeri dur, dağlar.
Olum sənə qul, dağlar.
Yarım səfərə gedib,
Dur yolun gözlə, dağlar.

1536. Kasıb, dindiyin qandı.
Dinmə, dindiyin qandı.
Varlı gəlsə, qan bağlar,
Kasıb dindiyin qandı.

1537. Qarşıdakı nə qandı?
Nə qovğadı, nə qandı?
Hamı getdi, qurtardı,
Ta yerində nə qaldı?

1538. Fələyi dindirəydim,
Dindirib bildirəydim.
Mənə qələm çalanın,
Qələmin sındıraydım.

1539. Fələk mənnən bad keçdi,
Bad əylədi, bad keçdi.
Gəl aç ürəyimin başın,
Gör xəyalımnan nə keçdi.

1540. Ələklər, ha ələklər,
Çirmənib ağ biləklər.
Fələk bir iş eyləyib,
Hasil olub diləklər.

1541. Dağlarda qırov qaldı,
Qar düşdü, qırov qaldı.
Hamının gedəni gəldi,
Mənimki girov qaldı.

1542. Dağların daşı mənəm,
Dibinin daşı mənəm.
Hər kəs qərib ölsə,
Onun yoldaşı mənəm.

1543. Qaladan yendirdilər,
Zil qara geydirdilər.
Suçum yox, günahım yox,
Zulumnan öldürdülər.

1544. Saralan göz, solan göz,
Ağlayan göz, dolan göz.
Dünyadan əl götürsün,
Əzizinnən olan göz.

1545. Qalanın bürcü mənəm,
Dil bilməz gürcü mənəm.
Baş qoyub dizin üstə,
Can verəm, incimərəm.

1546. Əzrayıl, sən eşikdə,
Nə durmusan keşikdə?
Balan da mənim təkin
Ağlar qalsın beşikdə.

1547. Kəmər belə yaxşıdı,
Burma belə yaxşıdı.
Əlbət mən deyən ola,
Mənə belə yaxşıdı.

1548. Dağlar, maralın ollam!
Səbri-qərarın ollam!
Sağ böyründə yer elə,
Mən də oralın ollam!

1549. Yazığam öz günümə,
Fağıram öz günümə.
Əgər fələk əlimə düşsə,
Salaram öz günümə.

1550. Ağam, gəl ha, ağam, gəl!
Ölməmişəm, sağam, gəl.
Qürbətdə qolu bağlı,
Yolunda dustağam, gəl.

1551. Ay, nəyimə gərəksən?
Gün, nəyimə gərəksən?
Dərdindən oldum xəstə,
Tay nəyimə gərəksən?

1552. Ölürəm ağlamaqdan,
Dərd-yara bağlamaqdan.
Bağda xəzəl qalmadı,
Yarama bağlamaqdan.

1553. Yaralıyam, yazığam,
Açma yaram, yazığam.
Mən ölsəm, sənə qurban,
Sən ölmə, mən yazığam.

1554. Quşlar hava bağladı,
Uçdu, hava bağladı.
Mənnən uçan quşlar,
Tamam yuva bağladı.

1555. Təpədə dəvə damı,
Tikilib dəvə damı.
Nə çoban oldum, haqq aldım,
Nə oldum ev adamı.

1556. Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy çəmən,
Xeyrin görənə qaldı.

1557. Əlinə cam götümüş,
Kəm yemiş, kəm götümüş.
Heç gör varmı bizim kimi
Düşmanını kam görmüş?

1558. Qurbanam gözlərinə,
Müştağam sözlərinə.
Yalvarram ilanlara,
Dəyməsin gözlərinə.

1559. Yaylığın gülü yansın,
Od tutsun, gülü yansın.
Səni mənnən ayıranın
Ağzında dili yansın.

1560. Gözlərim ağlağandı,
Yaş verib ağlağandı.
Birin sən de, birin mən,
Görək kim ağlağandı?

1561. Bizim yerdə qış durmaz,
Qış əylənməz, qış durmaz.
Andıra qalmış dilim
Öyrənibdi, dinc durmaz.

1562. Gedəydim yaylaqlara,
Baxaydım oylaqlara.
Zəhrimarı qataydım
Siz yeyən qaymaqlara.

1563. Ceyran, çölə gedirsən,
Ördək, gölə gedirsən.
Bizdən də salam-dua,
Bizim elə gedirsən.

1564. Mənim əvəndə[40] başım,
Tanrıya bəndə başım.
O kəndi boş qoyubdu,
Gəlib bu kəndə başım.

1565. Köynəyin maf[41] kimidi,
Geymisən, maf kimidi.
Əri ölən arvadlar,
Qalaysız qab kimidi.

1566. Bu dərədən köş gedir,
Qaşqa maydan boş gedir.
Səni mənə versələr,
Allaha da xoş gedir.

1567. Apardı hallar səni,
Hallar, xəyallar səni.
Öpdü basdı bağrına
Yovşanlı yallar səni.

1568. Burdan bir qoşun getdi,
Qoşun nə üçün getdi?
Xalxlardan təkcə-təkcə,
Bizdən bir qoşun getdi.

1569. Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Əl dəyməmiş bağçadan
Kəsilməmiş nar göndər.

1570. Mənim adım Yetərdi,
Kol dibində bitərdi.
Urvan mənnən olmasa,
İt qanınnan betərdi.

1571. Əzizinəm, qar başlar,
Yağış kəsər, qar başlar.
Ölsə, bacılar ölsün,
Ölməsin heç qardaşlar.

1572. Tütünüm qurtarıbdı,
Çəkmişəm qurtarıbdı.
Nə deyim, nə danışım?
Tay sözüm qurtarıbdı.

1573. Aşıq kamana çalır,
Halın kamana çalır.
Yüz tümənə çalmayan,
Bir torba samana çalır.

1574. Halay, alışannarım!
Halı pərişannarım.
Qəssabın qoyunu kimi
Qırğına düşənnərim.

1575. Gülü gülüstan üstünə,
Gün doğdu bostan üstünə.
Gedin deyin o çaqqala,
Gəlməsin aslan üstünə.

1576. Maral, dağdan belə gəl,
Dolan, dağdan belə gəl.
Oğul ölmək göz tökər,
Qardaş ölmək bel əyər.

40 Əvəndə – bəlalı
41 Maf – parça növü

1577. Karvan kəndə düşübdü,
Aşıf kəndə düşübdü.
Fələk bir iş işləyib,
Dilim bəndə düşübdü.

1578. Bu gün hava yaxşıdı,
Dərdə dəva yaxşıdı.
Əl tutmaq Əlidən qalıb,
Hava yetmək[42] yaxşıdı.

1579. Cidadan yol ayrıldı,
Ağ üzdən tel ayrıldı.
Fələk bir iş işlədi,
Canımnan can ayrıldı.

1580. Bu dağlar, xasa dağlar,
Ot gəlib basa dağlar.
Dibinnən ellər köçüb,
Batıbdı yasa dağlar.

1581. Gəl məni sözünnən gör,
Kababı közünnən gör.
Məni öz gözünnən görmə,
Yarımın gözünnən gör.

1582. Ay dana-dana dartadı,
Dindirmə, dərdim artadı.
Mən sənə dedim, dur gedək,
Sən yenə dedin, ertədi.

1583. Mən aşiqəm, Ay gəlin,
Ülkər gəlin, ay gəlin.
Qardaşımın toyunda,
Nazik yuxa yay, gəlin.

1584. İgid gərək atlana,
Atın minə, atlana.
Mərd odur ki döyüşdə,
Hər yaraya qatlana.

1585. Əzizim, qəm oyanı,
El yatar, qəm oyanı.
Dəryalar oya bilməz,
Yoxsulda qəm oyanı.

1586. Əldə açar ağlaram,
Gündü, keçər, ağlaram.
Bu qapını bağlayan
Özü açar, ağlaram.

1587. Yaylığım yelənnidi,
Ucları qələnnidi.
Şuşa-Şuşa deməkdən
Ürəyim vərəmlidi.

1588. Əzizinəm, gülə mən,
Bülbülə mən, gülə mən.
Quran gətir, and içim,
Təkcə sənnən gülənəm.

1589. Dağların başına bax,
Qar yağıb qaşına bax.
Gec tapdıq, tez ayrıldıq,
Fələyin işinə bax.

1590. Aşıq, elə yaxşıdı,
Kəmər belə yaxşıdı.
İlahidən gəlmiş işdi,
Bəlkə, belə yaxşıdı.

---

[42] Hava yetmək – haraya çatmaq

1591. Əsgəran vay, qalam vay
Əsgəranda qalan vay.
Basılıbdı dünyamız,
Alınıbdı qalam, vay.

1592. Dağdan aşıb gələnin,
Qanı coşub gələnin.
Xoş halına o kəslərin
Öz torpağında ölənin.

1593. Əzizinəm, yüz qandı,
Əlli qandı, yüz qandı.
Kəbə yıxmaq bir evdi,
Könül yıxmaq yüz qandı.

1594. Yağaram yağış kimi,
Bitərəm qamış kimi.
Səni konlüm istəyir
Təzə çıxmış yemiş kimi.

1595. Gözlərinə ay demərəm,
Kipriyinə yay demərəm.
Qardaş, sən ölsən,
Dilim quruyar, "vay" demərəm.

1596. Bağında şirin nə var?
Yeməyə şirin nə var?
Dünya namərdə dönsə,
Anadan şirin nə var?

1597. Belə ağlamaq olmaz,
Gülə bel bağlamaq olmaz.
Tülək tərlan əvəzinə
Cürə bağlamaq olmaz.

1598. Su üzündə qalmışam,
Su gedibdi, qalmışam.
Fələk bir iş işləyib,
Özüm də mat qalmışam.

1599. Gələn bulağa gəlsin,
Çaya, bulağa gəlsin.
Gəlsin anan ağlasın,
Səsi qulağa gəlsin.

1600. Ağlama, dərtli, ağlama.
Hava sərtdi, ağlama.
Dərtlilər bağrı yararsan,
Çox da dərtli ağlama.

1601. Dərdimin əllisinnən,
Yüzünnən, əllisinnən.
Bu dərdə çara yoxdu,
Soruşmuşam əllisinnən.

1602. Aşıq, dərdə nə bağlar,
Zülfün gərdana bağlar.
Gedək dərdli yanına,
Görək dərdə nə bağlar?

1603. Mən aşığam, dağlara,
Duman gəlsə dağlara.
Yüz qoyun qurbanım var,
Elim getsə dağlara.

1604. Yeri, daldadan yeri,
Ləbi bal dadan, yeri.
Dodaqları xam şəkər,
Dili bal dadan, yeri.

1605. Maşın gəlir Batumdan,
Tunel keçir altından.
Maşında bir qız sevdim,
Adı çıxdı yadımdan.

1606. Arxalıq abı gərək,
Yar-yarın babı gərək.
Yarı çirkin olanın
Dərya qədər tabı gərək.

1607. Qaranquşam, qalxaram,
Qanadlarım çalxaram.
Desələr yarın gəlib,
Xəstə olsam, qalxaram.

1608. Aynanın dalı qara,
Söykənmişəm divara.
Söz verdin, geri durdun
Beilqar, üzüqara.

1609. Ana, gəl, gərəyimsən,
Hürümsən, mələyimsən.
Səni könlümüz istəyir,
Həmi də gərəyimsən.

1610. Anam-anam, öz anam,
Qoynu dolu köz anam.
Sənə bir dağ vurmuşam,
Qiyamətə döz, anam.

1611. Gün çıxdı, dağa düşdü,
Şögəsi bağa düşdü.
Sənin bu müşkül işin
Nə yaman çağa düşdü.

1612. Bir quş gələr Ağdaşdan,
Xəbər verər qardaşdan.
Qardaş bacıdan doysa,
Bacı doymaz qardaşdan.

1613. Gəldi, haradan gəldi?
Göydən, qaradan gəldi.
Oturmuşduq şad ikən,
Bu sel haradan gəldi?

1614. Gəlibdi yaralılar,
Göylülər, qaralılar.
Ağlasın dərdi olannar,
Dinşəsin yaralılar.

1615. Ağcabədi duz dağı,
Ceyran gəzər düz dağı.
Qıya baxdın, yan keçdin,
Çəkdin mənə düz dağı.

1616. Mən aşıq, Ağcabədi,
Ağ nədi, ağca nədi?
Yolunda baş verərəm,
Pul nədi, axça nədi?

1617. Vurubdu talxa məni,
Göstərmə xalxa məni.
Getməz gözüm acısı,
Min gölə çalxa məni.

1618. Dərdim ocaq-ocaqdı,
Halım necə olacaqdı?
Bala itirən analar
Yanıb kül olacaqdı.

1619. Ləzgidən qoşun keçdi,
Bilmədim neyçün keçdi.
Ellərdən təkcə-təkcə,
Bizdən bir qoşun keçdi.

1620. Qırmızı bitər gördüm,
Yan verib ötər gördüm.
Dirinin diri dərdin
Ölüdən betər gördüm.

1621. O tayda qarğılıqlar,
Suda oynar balıqlar.
Nə belə istək olsun,
Nə belə ayrılıqlar.

1622. Şüşədən başmaq olmaz,
Geyinsən, qaçmaq olmaz.
Hər iş Allah işidi,
Qəzadan qaçmaq olmaz.

1623. Mən aşığam, dil azar,
Bülbül azar, dil azar.
Cavan övlad itirənin
Ağlı çaşar, dili azar.

1624. Hay-hayına düşdüm mən,
Qəm çayına düşdüm mən.
Əzrayıl ova çıxdı,
İlk payına düşdüm mən.

1625. Mən bir ana istərəm,
Yana-yan istərəm.
Sirri-sözümü deməyə
Xəlvətxana istərəm.

1626. Bacı, bacım deyilsən,
Başda tacım deyilsən.
Xəstəmi durquzmadın,
Daha bacım deyilsən.

1627. Mən aşığam, qansıza,
Yolsuza, ərkansıza.
Tanrı heç kimin işin
Salmasın vicdansıza.

1628. Səni görən ağlasın,
Zülfün hörən ağlasın.
İndi görən tanımaz,
Əzəl görən ağlasın.

1629. Göydə qar havası var,
Yağış, qar havası var.
Anaynan balanın
Ayrılıq davası var.

1630. Bu dərə balıxlıdı,
Öküzlər alıxlıdı[43].
Mən o oğlana getmərəm,
Ayağı çarıxlıdı.

1631. Mən aşıq, ulduzunnan,
Ayınnan, ulduzunnan.
Dərd çəkməkdən keçərəm
İynənin ulduzunnan.

[43] Alıx – palan əvəzinə at, öküz, və s. heyvanların belinə çəkilən çul, keçə

1632. Gedərəm, oturmaram,
Bu cəbri götürmərəm.
Versələr dünya malın,
Sənnən əl götürmərəm.

1633. Barmaxcılım laxladı,
Verdim, anam saxladı.
Anama qurban olum,
Yarımı qonaq saxladı.

1634. Bülbülüncə, gülüncə,
Bülbül oxur, gül incə.
Sənə bir layla deyim
Öz ananın dilincə.

1635. Bülbülüm lalə olubdu,
Gülüm xəndan olubdu.
Hər səhər ötən bülbül
Bu səhər lal olubdu.

1636. Apar bazara məni,
Saldın azara məni.
Aç belinin qurşağın,
Salla məzara məni.

1637. Köynəyin müjə-müjə,
Geymişəm müjə-müjə.
On iki şam yandıraram
Sən bizə gələn gejə.

1638. Axşamın şöynüsünə[44],
Şeh düşüb şöynüsünə.
Yandırram gözün yağın,
Sən gəlsən şöynüşünə.

1639. Atasızam, atasız,
Heç qul olmaz xatasız.
Biz fələyə neylədik,
Bizi qoydu atasız.

1640. Əzizim, ana yeri,
Atdan düş, ana yeri.
Yüz vəfalı yar olsa,
Heç verməz ana yeri.

1641. Qardaşıma qoç qurban,
Qoç qurban, quzu qurban.
Qardaşımın bir telinə
Namərdin yüzü qurban.

1642. Əzizinəm, arxasızdı,
Su gəldi, arxa sızdı.
Təpə gördüm, arxalıdı,
Dağ gördüm, arxasızdı.

1643. Əzizinəm, dərd əkmişik,
Budaqdan dər dəymişik.
Özüm dərd əhliyəm,
Bilirəm dərd əkmişik.

1644. Dağda duman belə gəl,
Qaşda kaman belə gəl.
Əzrayıl ova çıxıb
Səni vurar, belə gəl.

1645. Ovçular ov tutmasın,
Ovlasın, ov tutmasın.
Səni vuran ovçunun
Qolları yay tutmasın.

[44] Şöynü – şər qarışan vaxtı

1646. Qardaş gəlsə, yaxşı olar,
Bacı görsə, yaxşı olar.
Bacılar ölümün istəmir,
Qardaş gəlsə, yaxşı olar.

1647. Canımnan, cəsədimnən,
Bir qətrə kəs ətimnən.
Kəssələr, yenə doymaram
Vətənin həsrətinnən.

1648. Əziziyəm, mənnən al,
Mənnən istə, mənnən al.
Bəndə müvəqqəti şeydi,
Mətləbini xudadan al.

1649. Çıxaram ün dağlara,
Bağrı bütün dağlara.
Öz vətənimə qayıtsam,
Salaram ün dağlara.

1650. Mən aşıq, vətənim yox,
Bir qulam, satanım yox.
Düşmüşəm qərib ölkəyə,
Qolumnan tutanım yox.

1651. Bu dağın o üzündə,
Qoyun otlar düzündə.
Mən yarımı tanıyıram
Qara xal var üzündə.

1652. Bulaq üstü toz olar,
Üstü dolu qız olar.
Nə deyirsən qıza de,
Gəlin hüllükbaz olar.

1653. Bulaq üstü pıtraq,
Döşək gətir, oturaq.
Birin sən de, birin mən,
Bəlkə, sözü qurtaraq.

1654. Göynən gedən quba qazlar,
Laçın vurar, tükün tozlar,
Kəlbəcərdəki qızlar,
Mənim sizdə nəyim qaldı?

1655. Əsmə, Gəncəm, əsmə,
Əsərəm iki səncə.
Dumanım dumanınca,
Çiskinim iki səncə.

1656. Nazlara bax, nazlara,
Yem tökürəm qazlara,
Qazlar yeyir doyunca
Kağız yazıram qızlara.

1657. O qızın məməsin yeyim,
Sındırım, giləsin yeyim.
Ağzım şirin olmasa,
Gözünün giləsin yeyim.

1658. Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı, can verəndə gəl.

1659. Ay elə sökülmüşəm,
Xəzan tək tökülmüşəm.
Toy paltarı istədim,
Kəfənə bükülmüşəm.

1660. Əziziyəm, qar gəlir,
Boran gəlir, qar gəlir.
Qapı-baca açıqdı,
Giley mənə ar gəlir.

1661. O taydan Bəhrəm gedir,
Əlində dəhrəm gedir.
Balasından xoşum gəlir,
Anasından zəhləm gedir.

1662. Boyatının zilinnən,
Çağır gəlsin zilinnən.
Mən dağdan qar göndərim,
Sən dərginən gülünnən.

1663. Kəlbəcərin ağacları,
Bar vermir başları.
Bizi yurdumuzdan eləyənin
Qırılsın qardaşları.

1664. Qızılgül qəhər oldu,
Biçmədən qəhər oldu.
Allah, bir loxma çörək,
Bax, bizə zəhər oldu.

1665. Bostanda tağım yandı,
Əl vurma, yarpağım yandı.
Mən qərib olannan,
Bütün əndamım yandı.

1666. Lələyəm, bu başdan mən,
Yemərəm hər aşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

1667. Kəkliyin sərti getdi,
Mənə dərd əkdi, getdi.
Odunu, alovunu,
Üstümə tökdü, getdi.

1668. Fələk, sənin dad əlinnən,
Dadı-bedad əlinnən.
Mən sənə neyləmişdim,
Çəkirəm dad əlinnən.

1669. Gülü dəstə bağlaram,
Dərib dəstə bağlaram.
Salaram balamı yadıma,
Asta-asta ağlaram.

1670. Yoruldum, yolda qaldım,
Susadım, çöldə qaldım.
Nə dünyadan pay aldım,
Nə yarı yolda qaldım.

1671. Alıbdı bu dərd məni,
Doğrayır bənd-bənd məni.
Balamı əlimnən alıb,
Gəzdirib kənd-kənd məni.

1672. Dağları qar alıbdı,
Yağıbdı, qar alıbdı.
Bir dağın kənarında
Bir budaq saralıbdı.

1673. Gedən boz atdı,
Getmə, yolun uzaxdı.
Özün yaxşı oğlansan,
Heyif ki, ağlın azdı.

1674. Əzizim, nar dilini,
Tutubdu nar dilini.
Öləni yar ağlasın,
Yar bilər yar dilini.

1675. Yük üstündə güllü xonça,
Kim dindirə, kim aça.
O yara qurban olum,
Dindirə, qəlbimi aça.

1676. Hərsin-hərsin, ay nənə,
Gülün dərsin, ay nənə.
Qapıda duran oğlana
Yazığın gəlsin, ay nənə.

1677. Gəncədən bir əz bəri,
Tikilmiş bir əz bəri.
Könlümün istəklisi,
Dilimin bir əzbəri.

1678. Bucağında,
Od yanar ocağında.
Baş qoyum dizin üstə,
Can verim qucağında.

1679. Qardaşım qaladadı,
Yolu Kərbəladadı.
Gözlədim, qardaş gəlmədi,
Əlbət başı bir bəladadı.

1680. Ay dolanır, batmaz,
Dərdli gecə yatmaz.
Sənin kimi cananı
Xudam bir də yaratmaz.

1681. Əziziyəm, xal-xala,
Qara bağrım xal-xala.
Qorxuram cavan öləm,
Sevdiyimi xalx ala.

1682. Əzizinəm, yar dağı,
Külüng ilə yar dağı.
Getməz cannan acısı,
İllah ki, yar dağı.

1683. Əzizim, yolum budu.
Dərd budu, zulum budu.
Mən ağlaram, yar gülər,
Ölümlü günüm budu.

1684. Aşiqəm, dili şirin,
Kəkliyin dili şirin.
Məni yarım dindirsin
Şəkərdən dili şirin.

1685. Əzizim, dinməz, ağlar.
Döşəyim dinməz, ağlar.
Dedim, dost, himmət eylə,
Danışmaz, dinməz, ağlar.

1686. Əzizim, gül yanağa,
Ağ buxaq, gül yanağa.
Fələk də həsrət qoydu,
Yar deyə, gülyanağa.

1687. Mən aşiq, göz dərmanı,
Təbibi göz dərmanı.
Yarıma canım qurban,
Yüz il də gözlər məni.

1688. Əzizinəm, bir də qan,
Oxu dərsin, bir də qan.
Bu yaralı gözlərim,
Bir yaş tökər, bir də qan.

1689. Əzizim, bala qaçdı,
Çeşminnən bala qaçdı.
Bulud tikən yuvadan
On iki bala qaçdı.

1690. Eləmi, arxa gəlsin,
Su axsın, arxa gəlsin.
Mən təkəm, düşmənim çox,
Köməyə arxa gəlsin.

1691. Əzizinəm, gül sənə,
Bülbül sənə, gül sənə.
Yarım, dağdan qar mənə,
Mən arandan gül sənə.

1692. Bənövşəyəm, tütərəm,
Kol dibində bitərəm.
Gözətlərəm gəlməzsən,
Dizin-dizin gedərəm.

1693. Şıxım mənəm, şıxım mən.
Şıxın kolun yıxım mən.
Girdim dostun bağına,
Nə dərmişəm, çıxım mən?

1694. Qondaran[45] dikdabandı,
Yerə qoyma, amandı.
Sevəsən, almayasan,
Görəsən nə yamandı.

1695. Göndərmişəm bir kisə,
Qorxuram bağrı bişə.
Sən özün bir iş işlə,
Yar üstə kölgə düşə.

1696. Dəvə, dəvə, ya dəvə.
Karvan keçər, ya dəvə.
İstərəm duram gedəm,
Evim oxşar yad evə.

1697. Nazbalış baş altdadı,
Qara göz qaş altdadı.
İstəyirəm duram gələm,
Qollarım daş altdadı.

1698. Vətən ağlar,
Köynəyi kətan ağlar.
Dağ çəkdi elə düşmən,
Anam, ah vətən, ağlar.

1699. Vətəndə,
İgid gərək vətəndə.
Elin sözü bir olsa,
Yağı qalmaz vətəndə.

1700. Əzizim, gərdəyimə,
Girmədim gərdəyimə.
Vətən mənə tapşırıb,
Düşmənə boyun əymə.

1701. Bişirim, aşım, səni,
Töküm göz yaşım, səni.
Hara götürüm qaçım
Bəlalı başım, səni.

[45] Qondara – ayaqqabı

1702. Bayram bayramın olsun,
Ellər heyranın olsun.
Gedirsən, get, tez qayıt,
Xalan qurbanın olsun.

1703. Oturdum cecim üstə,
Çəkməsi dizim üstə.
Eşitsəm ki, gəlirsən,
Muştuluq gözüm üstə.

1704. Qonşu qızı, bizə gəl,
Qırmızı gey, bizə gəl.
Məhlədən yol yox isə,
Bağdan hərrən bizə gəl.

1705. Ay yolnan gedən bəndə,
Bir heyva gördüm səndə.
Heyva kimi saraldım,
Heç könlüm yoxdu səndə.

1706. Bu ayrılıq nədəndi?
Günüm qəmdi, kədərdi.
Nazın üzübdü məni,
Bu naz etmək nədəndi?

1707. Ağız, kimin qızısan,
Almadan qırmızısan.
Dədən-nənən bəsləmiş,
Axır yenə bizimsən.

1708. Ay oğlan, arxınan gəl,
Çiməni çarxınan gəl.
Mən səninəm, sən mənim,
Danışma, xalxınan gəl.

1709. O taydan od atdılar.
Dəsmalını tutdular.
On iki mixək, bir darçın
Yara sovqat tutdular.

1710. Aftafanı götdü yar,
Gör hayana getdi yar?
Oba tünlük, boy alçaq,
Aralıqdan itdi yar.

1711. Getdiyin Məşəd olsun,
Sürmə çək, qəşəng olsun.
Sən ki mənə əl çaldın,
Ürəyin nə gülsün, nə şad olsun.

1712. Dağlarda ahım qaldı,
Həsrətim, ahım qaldı.
Yurd adlı, Vətən adlı,
Sultanım, şahım qaldı.

1713. Əzizim, nə uzaqdı,
O dağlar nə uzaqdı.
Yurd həsrəti çəkməkdən,
Saçlarıma qar yağdı.

1714. Güneylər, a güneylər,
Gün düşər, ey güneylər.
İki həsrət bir-birin görəndə
Bayramın o gün eylər.

1715. Əzizinəm, odu keçdi,
Odu qoy, odu keçdi.
Gözlərin açıq olsun, ay Yaxşı,
Su sonalar odu, keçdi.

1716. Ay bu gələn kim ola?
Kim bilir ki, kim ola?
Açın qapını gəlsin,
Bəlkə, bir həkim ola.

1717. Qaranquşam, qaranquş,
Qanadım ayrış-ayrış.
Məni vuran bəy oğlu
Qan qussun ovuş-ovuş.

1718. Gəmim dəryada qaldı,
Sındı, dəryada qaldı.
Ölməyimə yanmıram,
Heyif, yar yada qaldı.

1719. Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Qız gözümün qarası,
Oğul ürək başıdı.

1720. Sinəmin yarası var,
İçində yarası var.
Al xəncəri, yar sinəmi,
Gör yanmayan harası var?

1721. Arxalığın narışdı,
Boyun bircə qarışdı.
Mən burdayam, sən orda,
Bilmirəm, bu nə sıfarışdı.

1722. Papirosun qəşəngi var,
Çəkməyə qəşəngi var.
Mən dedim, sən olasan,
Səndən də qəşəngi var.

1723. Haray, məni vurdu qəm,
Oturdu qəm, durdu qəm.
Şad ikən otduğum yerdə
Açdı qapını, girdi qəm.

1724. Bu dağı qaçan mən,
Qovan yoxdu qaçam mən.
Sinəm dərdlər dükanı,
Oxuyan yox, açam mən.

1725. O da sən,
Saldın məni oda sən.
Gülzarı bəyənmədin,
O qara torpaq, o da sən.

1726. Əzizim, dayanmışam,
Düm göyə boyanmışam.
Daş olsaydım ərirdim,
Torpağam, dayanmışam.

1727. Ay qız, adın Mirvarı,
Danışmırsan, gül barı.
Evimizə gəlmirsən,
Qonşumuza gəl barı.

1728. Ay qız, adın Yaməni,
Sıxmalıyam məməni.
Sıxarsan, incidərsən,
Oyadaram nənəmi.

1729. Bu dağlar asan dağlar,
Sünbülü süsən dağlar.
Üstündən ağır elin köçüb,
Sən elə osan, dağlar.

1730. Qızaran dan yeridi.
Qarabağ xan yeridi.
İki döşün arası,
Yamanca can yeridi.

1731. Ay bu gələn vaxtdı,
Ay su gələn arxdı.
Dur, çıxaq balkona,
Yar gələn vaxtdı.

1732. Köynəyi sarı canım,
Çalıbdı arı canım.
Sən gedəndən bəri
Qalmayıb yarı canım.

1733.Yük üstə kilim yandı,
Od tutdu, kilim yandı.
Səni mən diləməkdən,
Ağzımda dilim yandı.

1734.Traktorun təkəri,
Sındırım, yeyim şəkəri.
İlahidən qismətdi,
Oğlan qızın nökəri.

1735. Samavarın səsinnən,
Ölürəm yar həvəsinnən.
Əl-aman eylərəm
O yarın gül nəfəsinnən.

1736. Gəl məni dindir, oğlan,
Üzümü güldür, oğlan.
Təqsirim olsa, oğlan,
Vur məni öldür, oğlan.

1737. Dedim Əli adına,
Əli yetsin dadına.
Əli, Əli deyəndə
Məni də sal yadına.

1738. Aşıq, elə bir də gəl,
Siyah telə bir də gəl.
Əgər bizdən incisən,
Bizim elə bir də gəl.

1739. Gəlişin yaza bənzər,
Boyun şahmara bənzər,
Eşitdim qızım gəlib,
Qış günüm yaza bənzər.

1740. Eləmi, ay Murova,
Murov düşüb qırova.
Hər dərdə dərman bulsam,
Bu dərdə yoxdu dava.

1741. Bu oba, uzun oba,
Gəl yurda düzül oba.
Azalannar çoxaldı,
Azaldı bizim oba.

1742. Əzizim, Göyçə mənim,
Zəngəzur, Göyçə mənim.
Sağalmayan dərdimdi
Zəngəzur, Göyçə mənim.

1743. Əzizim, ipək yolu,
Çin yolu, ipək yolu.
Bu yol vətənə gedir,
Döşənib öpək yolu.

1744. Buxarı qurum oldu,
Yandıqca qurum oldu.
Vətəndən ayrı düşdük,
Bizə bir zülüm oldu.

1745. Dağların inci mənəm,
Yada yabançı mənəm.
Baş qoyub dizin üstə,
Can versəm, incimərəm.

1746. Mən aşıq, bayat məni,
Ad versən, say at məni.
Baş qoyub dizin üstə,
Çox yatsam, oyat məni.

1747. Su gələr, ellər gələr,
Dağlardan sellər gələr.
Vəfalı dostun olsa,
Dağları dələr gələr.

1748. Mən aşıq, sən gələnə,
Sənət ver, sən gələnə.
Nə qədər ağır olsa,
Gözlərəm sən gələnə.

1749. Mən aşıq, yuxudadı,
Xumar göz yuxudadı.
Qəm yemə, dəli könlüm,
Mətləb verən xudadı.

1750. Bu arxı kim qazıbdı?
Üstə kimlər gəzibdi?
Heç kəsdə günah yoxdu,
Yazan belə yazıbdı.

1751. Çəpər çəpər oldu, gəl,
Çəpərə quşlar qondu,gəl.
Vədəsiz gedən oğlan,
Vədən tamam oldu, gəl.

1752. Pəncərədən baxma, qız,
Başına gül taxma, qız.
Hər sevirəm deyənə,
Sən su kimi axma, qız.

1753. Eləmi, Ərzuruma,
Yol gedir Ərzuruma.
Fələk bir dərd veribdi,
Biz dözdük hər zuluma.

1754. İyitlər handa düşər,
And içər, anda düşər.
Özümü öldürərəm,
Üstünə qan da düşər.

1755. Yağış yağır ellərə,
Duman düşər çöllərə.
Ay bala, tez yayıldı
Vay xəbərin ellərə.

1756. Əzizim, sarı qardaş,
Qəlbimin yarı qardaş.
Aç belinin toqqasın,
Cənazəmə sarı, qardaş.

1757. Yetiməm, atam yoxdu,
Bir quşam, butam yoxdu.
Düşmüşəm qəm gölünə,
Qolumnan tutan yoxdu.

1758. Sən məni ağlar qoydun,
Sinəmi dağlar qoydun.
Yıxdın atam evini,
Qapısın bağlar qoydun.

1759. Yaylığın ağ yeləni,
Gözüm görmür gələni.
Kim yuyar, kim götürər,
Qərib yerdə öləni?

1760. Əzizinəm, bağ salam,
Bağban olub bağ salam.
Viranə bağlar görüb,
İstəmirəm bağ salam.

1761. Ata bax ey, ağ ata,
Ağ at qan-tərə bata.
Balamı aldı fələk,
Kim qovlaya, kim çata?

1762. Oğlannar girib bağa,
Çiyni dəyər yarpağa.
Oğlannarda nə qaydadı,
Vaxtsız gedər torpağa.

1763. Eşq oduna qalannam,
Yar, başına dolannam.
Vətənnən ayrı düşsəm,
Viran olub talannam.

1764. Qəribəm, yoxdu arxam,
Qanadım yoxdu qalxam.
Çıxam qəlbi dağlara,
Bir vətən sarı baxam.

1765. Zərliyəm, zərd olmuşam,
Qüssədən dərd olmuşam.
Qürbətə gələn günnən,
Biyan gərd olmuşam.

1766. Dolannam, düzə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Qərib, qürbət ölkədən
Qurtulsam, sizə gəlləm.

1767. Əzizim, dağı getməz,
Ayağın dağı getməz.
Düşmən etdiyi zülmün
Sinəmnən dağı getməz.

1768. Nə yatmısan, oyan, gül,
Bu yan bağça, o yan gül.
Mən qəribəm, rəhm eylə,
Bülbülünnən doyan gül.

1769. Eləmi, halın, dağlar,
Düzəlsin halın, dağlar.
Sənnən imdad istərəm,
Nədi xəyalın, dağlar?!

1770. Əzizim, dağlar məni,
Yağar qar, bağlar məni.
Toysuz, xınasız ölsəm,
El-oba ağlar məni.

1771. Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Gözlərim yol gözləyir,
Səndə duman yeri var.

1772. Qəbirstanlıq kənd oldu,
Gedən orda bənd oldu.
Yığdığım yada qaldı
Bizə yaman dərd oldu.

1773. Əzizinəm, yad ollam,
Yaddan çıxıb yad ollam.
Tez-tez qəbrim üstə gəl,
Sən gələndə şad ollam.

1774. Əzizim, anam gəlsin,
Yanıma sonam gəlsin.
Əlini yarama qoy,
Halıma yanan gəlsin.

1775. Məni anam ağlasın,
Qursun bardaş, ağlasın.
Yığılsın elim-günüm,
Bütün dağ-daş ağlasın.

1776. Əzizim, ağlar məni,
Həftələr, aylar məni.
Elə dərdə düşmüşəm
Ağlasın çaylar məni.

1777. Əzizim, il gecələr,
Dağılar kül gecələr.
Balam getdi, gəlmədi,
Ağlaram il gecələr.

1778. Göyər, bostanım, göyər,
Su gələr, bəndə dəyər.
Yetim oldu köşüyüm,
Hər yetən onu döyər.

1779. Xəstən mən, ay xəstən mən,
Bağçada gül dəstən mən.
Sən elə bir çiçəksən,
Hər görəndə məstəm mən.

1780. Əlimdə ələkdi,
Fələk, işin kələkdi.
Qardaşa can yandırın,
Yaman günə gərəkdi.

1781. Maral çıxar təpəyə,
Özün yıxar təpəyə.
Oba sahibsiz qalsa,
Donuz çıxar təpəyə.

1782. Gəzirəm düz dağları,
Bağlayıb buz dağları.
Hər kəsə şirin olar,
Öz yeri, öz dağları.

1783. Bir vecsiz daşdı dünya,
Çürük ağacdı dünya.
Kimə deyim dərdimi?
Tamam qan-yaşdı dünya.

1784. Gül əkdim dəsdə-dəsdə,
Kim olar mən həvəsdə.
Ayrılığa tabım yox,
Necə dözüm mən xəsdə?

1785. Xoş günüm yayda getdi,
Tor qurdum, çayda getdi.
Mən günləri sayırdım,
Tez gəldi, ay da getdi.

1786. Əzizim, yada neylim,
Yad oğlu yada neylim.
Görür ahu-naləmi,
Gəlmir imdada, neylim?

1787. Əzizim, hara yazım,
Tükəndi çara, yazım.
Günümün hər vərəqi
Dolubdu, hara yazım?

1788. Gəl məni fağır ağla,
Kimsəm yox, sağır ağla.
Çıx dağların başına,
Adımı çağır, ağla.

1789. Mən olmuşam biçarə,
Biçarəyə nə çarə?
Qapım haxdan bağlanıb,
Kimə gedim açarə.

1790. Eləmi, qovun dərdi,
Bostançı qovun dərdi.
Yığılın el-əqrəba,
Başımdan qovun dərdi.

1791. Getmədin, qaldın, fələk,
Xoş günüm aldın, fələk.
Yanar odun içinə,
Bir məni saldın, fələk.

1792. Eləmi, gözəl kimi,
Baxırsan gözəl kimi.
Dərddən saraldı, düşdü
Ürəyim xəzəl kimi.

1793. Dumanlı dağlar könlüm,
Nisgilli bağlar könlüm.
Nə açılmaz, nə gülməz,
Həmişə ağlar könlüm.

1794. Nə desən, qanıram mən,
Səni el sanıram mən.
Mənə od nə gərəkdi,
Odsuz da yanıram mən.

1795. Eləmi, yaşa məni,
Geyinib yasəməni.
Mən nə deyim fələyə,
Batırıb yasa məni.

1796. Mən aşıq, belə bağlar,
Kəmərin belə bağlar.
Xəzəl tökmür, bar vermir,
Viranə belə bağlar.

1797. Ördək göldə bir üzdü,
Bir çalxandı, bir üzdü.
Üz qoyum üzün üstə,
Görən desin bir üzdü.

1798. Əzizim, ağlamaram,
Sinəmi dağlamaram.
Məni dərdə salana
Daha bel bağlamaram.

1799. Əzizinəm, dağ uca,
Qaya uca, dağ uca.
Qeyrətli oğullarım
Başların tutsun uca.

1800. Əzizim, belə qalmaz,
Haqsızlıq belə qalmaz.
Çəkər bir gün cəzasın
Qatillər, belə qalmaz.

1801. Əzizim, qurban sənə,
Mən özüm qurban sənə.
Şəhid oldum el yolunda,
Gözlərim qurban sənə.

1802. Əzizinəm, haraylar,
Gözü yaşlı haraylar.
Ana tanklar altında
Qalan oğlun haraylar.

1803. Əzizim, oyanıbdı,
Bağda gül oyanıbdı.
Yağıyla döyüşməyə
El hazır dayanıbdı.

1804. Əzizim, yaş əymərəm,
Budağı yaş əymərəm.
Dünyada cavan ölləm,
Namərdə baş əymərəm.

1805. Mən aşıq, qəmə sarı,
Köynək ağ, qəmə sarı.
İstəyirəm gün görəm,
Çəkirlər qəmə sarı.

1806. Qardaş, bacı yaxşıdı,
Başda tacı yaxşıdı.
Elin sözün deməyə
Üç-dörd hacı yaxşıdı.

1807. Əziziyəm, yar adı,
Bağrım başı yaradı.
Torpaq həsrəti qəlbdə
Açıq yara-yaradı.

1808. Mən aşığam, obadan,
Gün aydındı, oba dan.
Candan ol, eldən olma,
Üz döndərmə obadan.

1809. Mən aşiqəm dağlara,
Qar yağıbdı dağlara.
Sinəmi sipər etdim
Çalın-çarpaz dağlara.

1810. Bağında üzüm qara,
Yeməyə üzüm qara.
Gəldim səni görmədim,
Yanında üzüm qara.

1811. Qarabağa yol salın,
Boynuna da qol salın.
Ağac əkib bar dərin,
Budağından xol[46] salın.

1812. Qarabağa gedərəm,
Bağrımı qan edərəm.
Vətənə olan borcu
Qanım ilə ödərəm.

1813. Əzizim, nə şanədir,
Zülfün şanə-şanədir.
Üzündəki göz izi
De, kimdən nişanədir?

[46] Xol – kiçik budaq

1814. Mən aşıq, vərən düzə,
Sən də gəl vərən düzə.
Dedilər, kəklik öldü,
Yayıldı fərəm düzə.

1815. Bağında badamı var,
Əkmişəm, badamı var.
Dar gündə yetiş,
Desinlər, adamı var.

1816. Göydə buluda səni,
Sərəm qurudam səni.
Öləm tabuta girəm,
Bəlkə, unudam səni.

1817. Ayağım yalın idi,
Tikanım qalın idi.
Mən neyləyə biləm?
Cəlladım zalım idi.

1818. Qollarımı burdular,
Dörd yanımda durdular.
Cəlladım zalım idi,
Boynumu daldan vurdular.

1819. Quzuçuyam, quzu məndə,
Quzum töküldü kəndə.
Ay ala gözlü gözəl,
Dəsmalın qaldı məndə.

1820. Dəmir könlüm, könlüm,
Gəldi hicran, qaç könlüm.
Açım dərdimi deyim,
Qəm dəftərin aç, könlüm.

1821. Əziziyəm birdanəsən,
Zirəsən, dürdanəsən.
Mən ölsəm, sənə qurban,
Sən ölmə, bir dənəsən.

1822. Ördək el bərabəri,
Ceyran çöl bərabəri.
Burda bir iyid ölüb,
Tamam el bərabəri.

1823. Ərisin dağların qarı,
Tökülsün çaylara barı.
Çay aşağı, çay yuxarı
Desinnər Novruz hanı?

1824. Arı şana, bu şana.
Arı qonmaz bu şana.
Yeddi evli Bultan durub
Yüz evli Arış hanı?

1825. Lələnin çardağı var,
Gümüşdən bardağı var.
Lələ getdi gəlmədi,
Bəlkə, yolda yağı var.

1826. Zeynəb ağlar, gül ağlar,
Bülbül ağlar, gül ağlar.
Qardaşı ölən bacılar,
Çəpər başına gülağlar.

1827. Hüseyinəm, sınığam,
Gəl, hasarı sınığam.
Könlü şad olan gözüm,
Mən ha könlü sınığam.

1828. Əzizim, Həsənsizəm,
Hüseysizəm, Həsənsizəm.
Yeddi qardaş bacısıyam,
Ölürəm, kəfənsizəm.

1829. Canımın azarı var,
Sızıldar, azarı var.
Canım elə dərdə düşüb,
Nə dərdi, nə dərmanı var.

1830. Əzizim, arabanı,
Bayquş gəzər xarabanı.
Həmişə sən minən canım,
İndi minər arabanı.

1831. Qərənfil qutudadı,
Xumar göz yuxudadı.
Könlüm, nə fikir edirsən?
Murad verən o bir xudadı.

1832. Mən aşiqəm, ay mələr,
Bulud altdan Ay mələr.
Qoç bir quzu doğubdu,
Süd deyibən, ay mələr.

1833. Əzizinəm, sər olar,
Çin kəklik, sər ovlar.
Kül başına tülək tərlan,
Yurdunda sər olar.

1834. Əzizinəm, al məndən,
Qara səndən, al məndən.
Ya dərdimə şərik ol,
Ya bu canı al məndən.

1835. Bülbüləm, yol üstə,
Yuvam var kol üstə.
Əzrayil, alma canımı,
Nişanlıyam toy üstə.

1836. Maral aşdı o gəzdən,
Ovçusan, qoyma gözdən.
Xudam bir iş işləsin,
Çıxaydım görünməzdən.

1837. Görünən qara qandı,
Əzgandı, qaraqandı.
Ovçu vurub balasın,
Tökülən qara qandı.

1838. Könlüm sənin evindi,
Gəl könlümü sevindi.
Əlli yerdən yaram var,
Hərəsi bir ləvindi.

1839. Çıxdım yazılar gördüm,
Qoyun-quzular gördüm.
Nənəsindən ayrılmış
Təzkin quzular gördüm.

1840. Bu kəndin keyxaları,
Qayımdı qovxaları.
Mən gəlmişəm görəm səni,
Neynirsən soyxaları.

1841. Göydən bir gilə düşdü,
Salxımı yerə düşdü.
Biz dedik yasdan çıxaq,
Genə zil-zilə düşdü.

1842. Mən aşiqəm, hər aya,
Quranda var hər aya.
Hüseynin müsibətidi,
Əli gəlsin haraya.

1843. Mən qorxuram qış evdən,
Qarqusu qalmış evdən.
İlan çıxmaz yuvadan,
Necə çıxım qış evdən?

1844. Dağlara qar yağar,
Qar nə hamar yağar.
Qəbri qazan naşıymış,
Qəbrimi dar qazar.

1845. Bu dağda gəzə bilmərəm,
Əhdim var, bəzənmərəm.
Ürəyim yaralıdı,
Çox dərdə dözə bilmərəm.

1846. Yandım-yandım, su varmı?
Xəstə sudan doyarmı?
On iki imam eşqinə,
Bir qədrə su olarmı?

1847. Qızılgül açılanda,
Açılıb saçılanda.
Könlüm səni istər,
Hər səhər açılanda.

1848. Dərədə quş durmaz,
Yaz gələndə qış durmaz.
Oğlan qız qoynunda,
Yüz and içsə, dinc durmaz.

1849. Öldüm yola baxmaqdan,
Sağdan sola baxmaqdan.
Nə sən yoldan əksik ol,
Nə mən yola baxmaqdan.

1850. Əzizinəm, çeşmə məndən,
Çay məndən, çeşmə məndən.
İnanma yad sözünə,
Qəribəm, keçmə məndən.

1851. Arxalığın badamı,
Yoldan eylər adamı.
Əzəlcən özün qurban,
Sora kəndin adamı.

1852. Arxalığın hana qoy,
Dara telin, xına qoy.
Mən özümə yar tapdım,
Sən özünə bina qoy.

1853. Sən düşübsən sorağa,
Telin gəlir darağa.
Mənim yarım körpədi,
Örgətməyin arağa.

1854. Stol üstə vaz nədi?
Yanında kağız nədi?
Sən məni sevirsənsə,
Yanındakı qız nədi?

1855. Arxalığım saldı yar,
Dərdin məni aldı yar.
İkimizin sirr sözümüz,
Qiyamətə qaldı, yar.

1856. Bu dərd məni dəng edər,
Vurar başa, dəng edər.
Nə öldürər, nə diriltməz,
Saraldıb bədrəng edər.

1857. Qızılgüləm, dəstəyəm,
Bülbüləm, qəfəsdəyəm.
Gedin o qıza deyin,
Ölməmişəm, xəstəyəm.

1858. Bu yola yol olaydı,
Karvana qol olaydı.
Öləydi qızlar anası,
Bizə də yol olaydı.

1859. Əslim qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Nə gələn var, nə gedən,
Deyəsən, yollar bağlıdı.

1860. Mən aşiqəm, oyan gül,
Oyan bülbül, oyan gül.
Tez açılıb, tez solan,
Məni mağmun qoyan gül.

1861. Əzizim, elimizdən,
Nə gələr əlimizdən.
Yaşılbaş ördək olub
Uçaram gölünüzdən.

1862. Ay doğdu, aydın oldu,
Doğduxcan aydın oldu.
Mən hələ burduyam, bala,
Gözlərin aydın oldu.

1863. Bilmədim yaz olduğun,
Güllər beyvaz olduğun.
Nə sən bildin, nə də mən
Ömrümün az olduğun.

1864. Gedərəm, gedən olsa,
Yolu örgədən olsa.
Kağız yazaram yollaram,
Yanına gedən olsa.

1865. Ay dağlar, qəmbər göndərim,
Yolunu bəri döndərim.
Gəlirsən özün gəl,
Mən sənə kimi göndərim?

1866. Saxsağan ala deyilmi?
Qanadı qara deyilmi?
Sizin əlinizdən, ay balam,
Mənim günüm qara deyilmi?

1867. Əlində sazın nədi?
Söhbətin-sazın nədi?
İrast ki, köçürsən, bala,
De, görüm, sözün nədi?

1868. Anan da mən oleydim,
Bacın da mən oleydim.
Axır köçün olanda, bala,
Yanında mən oleydim.

1869. Günüm o gün oleydı,
Yaram düyün oleydı.
Sənnən keçirdiyim günün
Biri bu gün oleydı.

1870. Əzizim, anam ağlar,
Oduma yanan ağlar.
Mən ölsəm yad ağlamaz,
Yenə öz anam ağlar.

1871. Əzizim, atdı getdi,
Əbədi yatdı getdi.
Dünyam zülmət içindədi,
Günəşim batdı getdi.

1872. Mağar qurulu qaldı,
Qurulub qurulu qaldı.
Cənabi Zeynəb deyir,
Qasımın toyu qaldı.

1873. Yük üzündə pərdə mən,
Qəfil düşdüm dərdə mən.
Mənim canım yaralıdı,
Necə yatım quru yerdə mən?

1874. Anam, otur yanımda,
Bacım, otur yanımda,
Birin sən de, birin mən,
Dərd qalmasın canımda.

1875. Gələn bulağa gəlsin,
Suya, bulağa gəlsin.
Gəlsin anam ağlasın,
Səsi qulağa gəlsin.

1876. Gələn qapıma gəlsin,
Qadan başıma gəlsin.
Kimin atası, anası qaçıb
Dursun yanıma gəlsin.

1877. Bağında var ağ alma,
Böyrü çürük ağ alma.
Sənə kimlər qarğadı,
Bir dərdə düş, sağalma?

1878. Yağış yağıb ellərə,
Su yığılıb göllərə.
Burdan bir qardaş keçib,
Xəbər getsin ellərə.

1879. Getdi günüm, ağlaram,
Oldu zülüm, ağlaram.
Bir vədəsiz yel əsdi,
Tökdü gülüm, ağlaram.

1880. Boz atın oynağandı,
Çək başın, oynağandı.
Qardaşım ölndən bəri
Qollarım oynağandı.

1881. Bu yolun karvanı yox,
Dəvənin sarvanı yox.
Yaran ölü yarası,
Həkimin dərmanı yox.

1882. Mən aşiq, hara gəlsin?
Taleyi qara gəlsin.
Günümü qaraldanın
Günləri qara gəlsin.

1883. Laylanın qaydası var,
Çalmağa qaydası var.
Biz demirik ölməginən,
Ölməyin qaydası var.

1884. Ay mənim, gün də mənim,
Qoynunda kündə mənim.
Burnumdan elə gəldi
Gördüyüm gün də mənim.

1885. Atasızam, atasız,
Heç qul olmaz xatasız.
Biz fələyə neylədik,
Bizi qoydu atasız.

1886. Bacın deyir, ay qardaş,
Qaşın ucu yay qardaş.
Ölsə bacılar ölsün,
Heç deməsin, “vay, qardaş.”

1887. Sandıq üstə şingilə,
Şingiləni kim bilə.
On iki söz qoşaram
Sənin kimi yüngülə.

1888. Sandığın üstü bəzək,
İçi, həm üstü bəzək.
Oğlan, verək əl-ələ
Bizim elləri gəzək.

1889. Sandığın ağzı açıq,
Kilidsiz, ağzı açıq.
Yarın uca boyuna
Qalıblar ağzı açıq.

1890. Mən aşıq, qara baxdım.
Göy geydi qara baxdım.
Quzeydə lala dərdim,
Güneydə qara baxdım.

1891. Mən aşıq, belə neylər,
Yel əsər, belə neylər.
Çarxı çönmüş fələk,
Axırın beləmi eylər?

1892. Sarı çiçək əlimdə,
Saatım biləyimdə.
Allah, məni öldürmə,
Arzum var ürəyimdə.

1893. Xoruzun ban səsinə,
Bannıyar ban səsinə.
Allah, səni öldürməsin
Mən deyim “can” səsinə.

1894. Buxarı qurum olar,
Od yanar, qurum olar.
Oğlu ölən anaya
Çox yaman zulum olar.

1895. Mən aşıq, gülərdim,
Ağlamazdım, gülərdim.
Cəbrayıl kimi elim olsa,
Qəm çəkməzdim, gülərdim.

1896. Mən aşığam, arxa var,
Belini götür, arxa var.
Qəm yemə, dəli könül,
Həzrət Əli kimi arxa var.

1897. Mən aşğam, ha sanı,
Kətan köynək ha sanı.
Qəmdən ev tikən könlüm,
Ətdən çəkdim hasarı.

1898. Mən aşığam, hər aya,
Quranda var hər ayə.
Vətənin dar günündə
Əli yetsin haraya.

1899. Bərgüşad başa qala,
Getdikcən başa qala.
Bu dünya Süleyman mülküdü,
Bunnan kimlər başa qala?

1900. Bülbül bağdadı, bağda.
Oxur, bağdadı, bağda.
Demə qardaşım itib,
Deyin dardadı, darda.

1901. Bülbül bağda nə gəzir?
Oxur, bağda nə gəzir?
Sənin qardaşın ölüf,
Qardaşın dağda nə gəzir?

1902. Çobanın qoynuna,
Babalım boynuna,
Ya məni evləndir,
Ya da salginan qoynına.

1903. Xoş gördük, dərə, səni,
Xoşnişin dərə səni.
Xoş o kəslərin halına ki,
Bir də gələ, görə səni.

1904. Ay gedən, səninənəm,
Getmə dur, səninənəm.
Bülbül gülnən oynasa da,
Mən elə səninənəm.

1905. Mən aşıq, üzüm bağı,
Nar bağı, üzüm bağı.
Bağa dəhrəli girib
Doğradı bizim bağı.

1906. Savalan buz bağlar,
Yanları yarpız bağlar.
Oğulsuz ataların
Çənəsini qız bağlar.

1907. Dağları gəzdim, gəldim,
Güllərin üzdüm, gəldim
Evimi tərk edəndə
Canımdan bezdim, gəldim.

1908. Dağları gəzən mənəm,
Daşları düzən mənəm.
Cavan balası ölən
Al geyib bəzənmərəm.

1909. Bu dağa dolu düşüb,
Dolunun bolu düşüb.
Nə olar bir gün eşidəm,
Bu səmtə yolun düşüb.

1910. Dağların lalasıynan,
Gülünün lalasıynan.
Burda bir cavan ölüb,
Yanının balasıynan.

1911. Mən aşıq, mey dərdi,
Mey dərdi, qora dərdi.
Bu dünyada sağalmaz,
Aparram gora dərdi.

1912. Gecələr, hay gecələr,
Molla dərsin hecələr.
Mən balamsız dözmərəm
Balam mənsiz necələr?

1913. Mən aşıq, kimlər ağlar?
Kimim var, kimim ağlar?
Sən öldüm, mən ağladım,
Bəs məni kimlər ağlar?

1914. Yeri-yeri, xəstə, yeri,
Xəstəsən, asta yeri.
Xəbər verin ellərə,
Yığılsın xəstə yeri.

1915. Bağın qır, ganal[47] eylə.
Vur boynun, ganal eylə.
Çəkdiyin əziyyətləri
Sən mənə halal eylə.

1916. Günün duran vaxtıdı,
Durub duran vaxtıdı.
Əzrayıl ova çıxıb,
Səni vuran vaxtıdı.

1917. Bayquş mənəm, bayquş mən,
Hər quşdan say quş mən.
Canıma bir od qoymusan,
Hey ağlaram yay-qış mən.

1918. Anam, anam, öz anam!
Qoynu dolu köz anam.
Mən vətəndən getdim,
Gəl bu dərdə döz, anam.

[47] Ganal – tutun şaxı

1919. Toy tutun, məzə tutun,
Gülbəndin təzə tutun.
Yandı anamın canı,
Çiy yerin közə tutun.

1920. Köynəyin alacadı,
Geymisən, alacadı.
Sən də çox ağlama,
Səninki balacadı[48].

1921. Göylə uçan sonalar,
Bir-birinə yan alar.
Qoy sənə qurban olsun,
Balası ölən analar.

1922. Göy bağlar,
Göy bağçalar, göy bağlar.
Dərdi çox olan kəslər
Qara geyər, göy bağlar.

1923. Eləmi, iki yerdən,
Bir yerdən, iki yerdən.
Təzə yara qövr eylər,
Yenə o ilki yerdən.

1924. Bu yola gedən gəlməz,
Bilmirəm nədən gəlməz.
Qırılar qatarınnan,
Çıxar cərgədən, gəlməz.

1925. Mən aşıq, bir az bəri,
Gəncədən bir az bəri.
Könlümün qəmzəsisən,
Dilimin əzbəri.

[48] Söyləyicinin dediyinə görə, bu ağını körpə uşağı ölənə deyirlər.

1926. Aşıq, dərdə nə bağlar,
Gümüş gərdana bağlar.
Gedək dərdli yanına,
Görək dərdə nə bağlar?

1927. Aşıq, sənəm səsinə,
Səs ver sənəm səsinə.
Sümüklərim dincəldi,
Öz kimsənəm səsinə.

1928. Bağında badamı var,
Yeməyə badamı var.
Qoy gəlsin ellərin,
Desinlər, adamı var.

1929. Ürəyimdə yara var,
Üstdə xal var, qara var.
Təbiblər yığışıb gəlsə,
Bəyəm ona çara var?

1930. Dağlara keçi gəldi,
Keçinin üçü gəldi.
Xəbər verin ellərə,
Toysuzun köçü gəldi.

1931. Evləri Çaykeçəndə
Tikilib Çaykeçəndə.
Sənə bir qarğış elrəm,
Günüm ax-vay keçəndə.

1932. Mən aşığam, dam qaldı,
Damlar yeri nəm qaldı.
Qaçdı elim-obam,
Bir quruca dam qaldı.

1933. Gecənin nə qəralı,
Nə səbri, nə qəralı.
Canıma bir od düşüb
Nə sönür, nə qaralır.

1934. Al gəlin, alma gəlin.
Al yerə salma, gəlin.
Dulluq bir pulluluqdur,
Boynuna alma, gəlin.

1935. Əlində var şirazı,
Yerə qoyma şirazı.
Mən qurban, anan qurban,
Görüm olasan razı.

1936. Mən aşıq, Qaradağlı,
Muğanlı, Qaradağlı.
Balası ölən ananın
Ürəyi qara dağlı.

1937. Bu gəlin, saşdı gəlin,
Gədiklər aşdı gəlin.
Bağladığın xonçaları
Özgələr aşdı, gəlin.

1938. Gələn bulağa gəlsin,
Qaynar bulağa gəlsin.
Neçə il xəstə də olsan,
Səsin qulağa gəlsin.

1939. Ay başıma düşübdü,
Gün başıma düşübdü.
Balası ölən anaların
Daş başına düşübdü.

1940. Dədəmin qızı, bacı,
Yandırdın bizi, bacı.
Yardın ciyərimin arasın
Doldurdun duzu, bacı.

1941. Yaylığın yeri bəlli,
Yeri yox, gülü bəlli.
Burda bir oğlan ölüb,
Hər yerdə yeri bəlli.

1942. Yük üstə kilim yandı,
Kilimi zülüm yandı.
Bala-bala deməkdən
Ağzımda dilim yandı.

1943. Kəklik yaldadı, yalda,
Oxur, yaldadı, yalda.
Nə qədər dövlətin olsa,
Bir gün yerin burdadı, burda.

1944. Gün getdi batdı, gəlməz,
Günün yubatdı, gəlməz.
Tərlanım suya endi,
Külək aldatdı, gəlməz.

1945. Qoyunu qoyun gəlsin,
Dərisin soyun, gəlsin.
Ay ora yığışan camaat,
Balamı qoyun gəlsin.

1946. Marallar qoşa gələr,
Bülbüllər cuşa gələr.
Arxayın ol, ay əmi,
Bu əhdin başa gələr.

1947. Sayada bax, sayada,
Torun qurub qayada.
Ay Allah, burda biri ölüb,
Gözü qalıb qayada.

1948. Qar yağıbdı, dizdəndi,
Dərə-təpə düzdəndi.
Çağırdıq övliyaları köməyə,
Övliyalar da gizdəndi.

1949. Əzrayılın bağı var,
Üstündə yarpağı var.
Əzrayıl, mənnən kənar get,
Məndə oğul dağı var.

1950. Yol üstə qoşa qəbir,
Veribdi baş-başa qəbir.
Çağırdım, hay vermədi,
Dönübdü daşa qəbir.

1951. Qardaş, yolunu pusaram,
Gec gələrsən, küsərəm.
Dörd yanın sərin bulaq,
Sənnən yana susaram.

1952. Əldə qəlyan kimi gəz,
Çöldə ceyran kimi gəz.
Sirrin mənlə bir olsun,
Gendə yadlar kimi gəz.

1953. Mən aşiq, haydan keçdi,
Hay vurdu, haydan keçdi.
Daha geri qayıtmaz,
Ox kimi yaydan keçdi.

1954. Köynəyi sarı canım,
Geyibdi sarı canım.
Dost yolu gözləməkdən
Qalmayıb yarı canım.

1955. Mən aşiqəm, ya nəsib,
Ya qismətdi, ya nəsib.
Bir gördüm, bir ayrıldım,
Bir də görsəm, ya nəsib.

1956. Gedən, getmə, dayan, dur.
Sirrim sənə ayandur.
Daş olsam, ərimişdim,
Torpaq idim, dayandım.

1957. Əzizim, oyan, yeri.
Qalx, silkin, oyan, yeri.
Yüz il sel gəlsə, oyammaz,
Bir gün qəm oyan yeri.

1958. Qara at nalı neynir?
Qara qaş xalı neynir?
Sənin kimi yarı olan
Dünyanın malın neynir?

1959. Qartalam, hey qalxaram,
Qanadımı çalxaram.
Desələr, dostun gəlir,
Ölü olsam, qalxaram.

1960. Əzizim, dərdə çarə,
Xəstəyə, dərdə çarə.
Təbibsiz dərdə düşən
Neynəsin bəs biçarə?

1961. Ay doğdu, qəlbiləndi,
Doğduqca qəlbiləndi.
“Quran” gətir, and içim,
Bu qəlb o qəlbiləndi.

1962. Əzizim, göy bağlar,
Göy bağçalar, göy bağlar.
Dostu cavan ölənlər
Qara geyər, göy bağlar.

1963. Mən aşıq, qəm daşıyam,
Od vurdum, qəm daşı, yan.
Kimsə olmaz mənim tək
Qəm çəkib, dərd daşıyan.

1964. Öyüdü ver qanana,
Qulağında qalana.
Allah özü yar olsun
Sizin kimi cavana.

1965. Əzizinəm, köçəndə,
Dağ arana köçəndə.
Ana bəxtəvər olur,
Qızı ərə köçəndə.

1966. Maşın gələr, toz eylər,
Oğlan qıza naz eylər.
Oğlanda günah olmaz,
Hər nə olsa qız eylər.

1967. Maşın gəlir, bərk gəlir,
İçi dolu qənd gəlir.
Biz şirinçay içəndə
Qaynanamıza dərd gəlir.

1968. Sandıq üstə gəzərəm,
Sandığa gül bəzərəm.
Ağır elin qızıyam,
Gəlib burda gəzərəm.

1969. Gədikdən çıxa, qardaş,
Çiynində çuxa, qardaş.
Tez gördüm, gec tanıdım,
Gözlərim çıxa, qardaş.

1970. Bostan əkdim xiyarsız,
Xiyar sənə qıyarsız.
Yatdım, yuxuda gördüm,
Oyandım ixtiyarsız.

1971. Mən aşiqəm, bərdən gəl,
Bərdə yolu bərdən gəl.
Dərmana gedən qardaş,
Xəstən durdu, bərdən gəl.

1972. Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Ayrıldıq, ayrı düşdük,
Gəzdik hər zaman ayrı.

1973. Dağların çiskinidir,
Dumanı, çiskinidir.
Özünü yetir mənə,
Halımın pis günüdür.

1974. Mən aşiq, bayaq gəldim,
Götürdüm ayaq, gəldim,
Ömür der, dövran sürdüm,
Könül der, bayaq gəldim.

1975. Qaşın əyər, amandı,
Gözün əyər, amandı.
Bədnəzər bir ox atar,
Sənə dəyər, amandı.

1976. Mən aşiq, qara dağdı,
Görünən Qara dağdı.
Qardaş qardaş dalında
Dursa, bir qara dağdı.

1977. Mən aşiqəm, qız, getmə,
Çək cilovu, düz getmə.
Yaz-yay qal, qonağım ol,
Payız əylən, qış getmə.

1978. Əzizim, keçmə bizdən,
Qar yağar, olar dizdən.
Gədiklər girvə bağlar,
Səni yad elər bizdən.

1979. Mən aşiqəm, o damlar,
O obalar, o damlar.
Yerlər həmən yerlərdir,
Qalmayıb o adamlar.

1980. Eləmi, buyün burda,
Dağ burda, düyün burda.
Dərdli insan axtarsan,
Taparsan buyün burda.

1981. Şirxan adlı, a kişi!
Şəkərdən dadlı kişi.
Gün kimi şölə verdin,
Ay kimi batdın, ay kişi.

1982. Gedirsən, yolun olsun,
Cənazə qolun olsun.
Ölənlərə salam söylə,
Cənnətdə yerin olsun.

1983. Ağacda var marzılar,
Konlum səni arzular.
Əyil, üzündən öpüm,
Qoy baxsın tamarzılar.

1984. Boz atın boylamasın,
Çək cilovun, oynamasın.
Bizdən sonra çox fikir eləmə,
Ürəyin xarab olmasın.

1985. Yoruldum, yolda qaldım,
Susadım, çöldə qaldım.
Nə bir mənzilə çatdım,
Nə yarı yolda qaldım.

1986. Göydə uçan hacılar,
Bir-birini acılar.
Nakamlara qurban
Qardaşı ölmüş bacılar.

1987. Keçdim Xudapirini,
Yaram eylər irini.
Dərdim artıb, dilim batıb,
Deyim hansı birini?

1988. Dağda maral xoş mələr,
Xoş inildər, xoş mələr.
İtkin balalar gəlsə,
Analara xoş gələr.

1989. Əzizim, həkim dərdi,
Doğrayım, töküm dərdi.
Nə anam var, nə bacım,
Kimlə çəkim bu dərdi?

1990. Şeh düşdü çəmənə,
Nərgizə, yasəmənə.
Mən balama qurbanam,
Balam qurban vətənə.

1991. Gül üstündə yaş oldum,
Ellərə sirdaş oldum.
Qürbətdə xan olunca,
Vətənimdə daş oldum.

1992. Əzizim, ellər gələ,
Çay daşa, sellər gələ.
Bu elin harayına
O birsi ellər gələ.

1993. Əzizim, daş olaydım,
Su vurduqca yaş olaydım.
Yar bulağa gələndə
Yarıma yoldaş olaydım.

1994. Əzizim, alçalar,
Yaşıl çalar, al çalar.
Dərdlərimi yüksəldən
Uça dağlar alçalar.

1995. Laçının boz dağları,
Basıbdı toz dağları.
Eşitsəm Laçın alınır,
Aşaram tez dağları.

1996. Əzizinəm, gül-gülə,
Bülbül gülə, gül gülə.
Laçında bir bağ salmışdım,
Calanmışdı gül gülə.

1997. Gəl məni qoyub getmə,
Nar kimi soyub getmə.
Mənim bəlalı başım var,
Zarıncı qoyub getmə.

1998. Mən aşıq, nəişin[49] ağlar,
Qırılan qoşun ağlar.
Gedən karvan mənimdi,
Çalvadar nəişin ağlar?

1999. Bu dağlar, sənə dağlar,
Göy geymiş sənə dağlar.
Ərizəm yazılı qaldı,
Vermədim sənə, dağlar.

2000. Dağlara bax, dağlara,
Şeh düşür yarpaqlara.
Hayıf sizin gül əndamınız,
Vaxtsız getdi torpaqlara.

2001. Qırxqızın öz dağları,
Tutubdur öz dağları.
Genə yada düşübdür
Qəribin öz dağları.

2002. O sarı, qolbaq sarı,
Zəfərana sıxdım narı.
Bir axşam gəl, bir sabah,
Bir də günorta barı.

2003. Bu dağ o dağa baxır,
Arasından çaylar axır.
Çıxsın mənim gözlərim,
Sənsiz o çaya baxır.

2004. Əzizim, barsız adam,
Heyvasız, narsız adam.
Qalaysız qaba bənzər,
Dünyada yarsız adam.

2005. Əzizim, yara dərin,
Lalanı yara dərim.
Dil yarası çəkməyən,
Anlamaz yara dərin.

2006. Əziziyəm, saç qalar,
Ocaq sönər, sac qalar.
Acın qarnı doysa da,
Gözü doymaz, ac qalar.

2007. Kabab yanar, köz olar,
Nəzər dəyər, göz olar.
Qohumdan qız alanda,
Aralıqda söz olar.

2008. Baş alıb başlı gedər,
Yolları daşlı gedər.
Dünyaya bel bağlayan
Gözləri yaşlı gedər.

2009. Gəmi yükün yan çəkər,
Zəli sorar, qan çəkər.
Yaxşı gündə dost-aşna,
Yaman gündə can çəkər.

[49] Nəişin – nə üçün

2010. Mən aşıq, şanasıdı,
Bu saçın şanasıdı.
Hər işdə kamil olmaq
Kamal nişanasıdı.

2011. Əziziyəm, yaxşı at,
Nişan götür, yaxşı at.
İgidi cavan saxlar
Yaxşı arvad, yaxşı at.

2012. Gözəllik güldən getməz,
Solmasa, əldən getməz.
Dostun bir dil yarası,
Ölüncə dildən getməz.

2013. Ağ at, yalın çürüsün,
Xətti-xalın çürüsün.
Apardın, gətirmədin,
Görüm nalın çürüsün.

2014. Mən aşiqəm, ay divar,
Hörülmüşəm lay divar.
Yarı məndən eylədin,
Dağılasan, ay divar.

2015. Evləri köndələn yar,
Bizə gül göndərən yar.
Gülün yarpıza dönsün,
Məndən üz döndərən yar.

2016. Mən aşıq, çimən yerdə,
Göy yerdə, çimən yerdə.
Yüz min laçın dövr eylər,
Bir sona çimən yerdə.

2017. Mən aşiq, ahın dilər,
Göz yaşım ahın dilər.
Yar ilə keçən günlər,
Olaydı ah indilər.

2018. Mən aşiqəm, göz edə,
Bülbül gülə göz edə.
Sənə də qurban olum,
Səni görən gözə də.

2019. Yaxşı avaz, pür kəlam,
Oxu, gəlsin gur kəlam.
Nə soyuğa tabım var,
Nə pulum var kürk alam.

2020. Dağ başında ağ qaram,
Bağçalarda mən baram.
Günüm ah-vayla keçsə,
Təkcə sənə qarğaram.

2021. Ovçu əlində yay var,
Qismətində bir ay var.
Dərd çəkmə, gözlə məni,
Hələ çox gün, çox ay var.

2022. Ev tikdim, tağlı olsun,
Bağ saldım, bağlı olsun.
Deyirlər, nə vaxt gələr,
Deyirəm, sağlıq olsun.

2023. Ağacda gilə-gilə,
Yığaram gilə-gilə.
Neynim fələk qoymadı,
Mənim də üzüm gülə.

2024. Əzizim, Qarabağda,
Batıbdı qara bağ da.
Mən çəkdiyim həsrəti,
Çəkən yox Qarabağda.

2025. Əzizim, harda qaldı?
İzlərim qarda qaldı.
İtgin düşən övladlar
Bilmirik harda qaldı?

2026. Əzizinəm, qurumaz,
Dağıntı çox, qurum az.
Vətənnən didərginin
Göz yaşları qurumaz.

2027. Əzizim, dura millət,
Düşməni qıra millət.
Sahibsiz dağda-daşda
Batıbdı qara millət.

2028. Əzizim, əldən gedir,
Şəhidlər eldən gedir.
Anaların yaşları
Sifətdən dən-dən gedir.

2029. Əzizim, məni ağlar,
Qoydu erməni ağlar.
Əsir düşən övladı
Dağların çəni ağlar.

2030. Oda saldım özümü,
Kor eylədim gözümü.
Qəribin dərdi çoxdu,
Kimə desin sözünü?

2031. Kəklik gəzir, koldadı,
Çayın suyu qoldadı.
Ümüdümü üzməmişəm,
Hələ gözüm yoldadı.

2032. Aşıq, aranı dağlar,
Peykan aranı dağlar.
Könlüm istər, əl çatmaz,
Kəsibdi aranı dağlar.

2033. Suda balıq yan gedir,
Açma yaram, qan gedir.
Son sözümü deyim sənə,
Əcəl gəlib, can gedir.

2034. Eləmi, fağır-fağır,
Üstümə dərd-qəm yağır.
Xəstəykən çağırmadın,
Barı can üstə çağır.

2035. Mən aşiqəm, yanarsız,
Nə heyvasız, nə narsız.
Ahım dağlara düşdü,
Qaçın, ellər, yanarsız.

2036. Yazı yaza bilmirəm,
Yazıb poza bilmirəm.
Vətən orda, mən burda,
Ayrı dözə bilmirəm.

2037. Qərənfil dəstəsiyəm,
Yığılmış dəstəsiyəm.
Bir qardaşın, bir ananın
Neyniyim, xəstəsiyəm.

2038. Yetim yetərgin olar,
Bitər, bitərgin olar.
Yetimliyin üzünə demiyin,
Gözdən didərgin olar.

2039. Yerişin naza bənzər,
Boyun şahbaza bənzər.
Eşitsəm, sən gəlirsən,
Qışım da yaza bənzər.

2040. Yetimlər yas saxlayır,
Boynun bükür, ağlayır.
Bir baxın yetimlərə
Yaman ürək dağlayır.

2041. Məni bir quş apardı,
Dərdlərə tuş apardı.
Qardaş-qardaş deməkdən
Gözümü yaş apardı.

2042. Eləmi, Kürdən gələr,
Arazdan, Kürdən gələr.
Xəbər verin elimə,
Hamısı birdən gələr.

2043. Eləmi, yağ əridi,
Piltədə yağ əridi.
Dərdimi dağa dedim,
Ahımdan dağ əridi.

2044. Mən bilirdim bu dili,
Quşlar oxur bu dili.
Xocalı dağılannan,
Öyrənmişəm bu dili.

2045. Xəncər üstə qaş gəlir,
Qoşun başabaş gəlir.
Qoşuna qurban olum,
İçində qardaş gəlir.

2046. Bağları əkirəm mən,
Aləmə vəkiləm mən.
Əli qoynunda, boynu çiynində
Həsrətin çəkirəm mən.

2047. Ağ almanı dişlədim,
Dişlədim, gümüşlədim.
Qardaş gəldi, qıymadım,
Yar gəldi, bağışladım.

2048. Əzizinəm, yaxşıdı,
Mərdlik insan naxşıdı,
Danışmıram, dinmirəm,
Baxan namərd baxışıdı.

2049. Aşıq, qaralar məni,
Xalın qaralar məni.
Sənsiz yerə girmirəm,
Yorğan qaralar məni.

2050. Ovçu, ovçu, ha maral,
Ovun getdi, ha maral.
Belə can almaq olmaz,
Can alırsan ha, maral.

2051. Arxalı, bürün dağa,
Ov getdi, sürün dağa,
Ovçu bir ov vurubdur,
Düşübdür bizim bağa.

2052. Mən aşiqəm, yarar gün,
Bulud bağrın yarar gün.
Gün yar ilə xoş keçər,
Yarsız nəyə yarar gün?

2053. Gəlin yalançı olar,
Gözləri ovçu olar.
Gəlinə bel bağlama,
Evə qalançı olar.

2054. Aya belə baxallar,
Günə belə baxallar.
Eşqnən ev tikənin,
Evin belə yıxallar.

2055. Ayın qurbanı ollam,
Günün qurbanı ollam.
Sən boyda, sən buxunda
Görsəm, qurbanı ollam.

2056. Mən aşıq, uymamışam,
Baş yerə qoymamışam,
Sən məndən doymusansa,
Mən səndən doymamışam.

2057. Qərənfiləm, ələmsiz,
Qərarım gəlmir sənsiz.
Qoynuna ilan girsin,
Necə yatırsan mənsiz?

2058. Əziziyəm, nübarı,
Heyvanın ilk nübarı.
Qarşısında ölməyə,
Yarım olaydı, barı.

2059. Əziziyəm, niyə mən?
Vurulmuşam nəyə mən?
Ney də dərdin danışar,
Danışmıram niyə mən?

2060. Əziziyəm, güzgülər,
Dərə gülər, düz gülər.
Sənnən əlim üzülsə,
Bayram edər özgələr.

2061. Qapımın yanı yetim,
Sözümün canı yetim.
Hamı yeyib doyanda,
Deyərlər, hanı yetim?

2062. Kəməri incə belə,
Qurşamış incə belə.
Çıxsın mənim gözlərim
Səni gördükcə belə.

2063. Bülbül hanı, gül hanı?
Bülbül gülün mehmanı.
Bu boyun, bu buxunun,
Danışmağa dil hanı?

2064. Şirvanın şirin narı,
Yemişəm şirin narı.
Sovqatı sizin olsun,
Göndərin bizim narı.

2065. Bəzirgansan, xocasan,
Nağdın verməz vecə sən.
Dərdin ilə dərdimi
Qarşı qoysam, necəsən?

2066. Mən aşıq, keşgə sən,
Min gəmiyə, keş, gəl sən.
Gəldin könlüm bulandı,
Gəlməyəydin keşgə sən.

2067. Dağ başı dolu qaldı,
Yağdıqca dolu qaldı.
İstədim ürəyimi açam,
Ürəyim dolu qaldı.

2068. Evləri dəlmə-dəlmə,
Tikmişəm dəlmə-dəlmə.
Gəl oturaq bir yerdə,
Danışaq kəlmə-kəlmə.

2069. Bu dağlardan daş düşdü,
Qələm üstə qaş düşdü.
İntizaram, qoy gedim,
Yadıma yarım düşdü.

2070. Dəsmalı yudum, apar,
İtirmə, düşmən tapar.
Şənbə, bazar yaxşıdır,
Hər kəs sevdiyin tapar.

2071. Mən aşiqəm, çilovlar,
Çil kəkliklər, çil ovlar.
Tərlan yar özgə malıdır,
Ye, qalmasın çilovlar.

2072. Asta-asta ağlaram,
Olub xəstə, ağlaram.
Götürüb sənin dərdini,
Toyda, yasda ağlaram.

2073. Gəl məni bəd eyləmə,
Qohumam, yad eyləmə.
Mən bir bağa kəfşənəm,
Böyrümdə od eyləmə.

2074. Aldı bu yara məni,
Gətirdi zara məni.
Apar həkim yanına,
Bəlkə, qurtara məni.

2075. Bərdəliyəm, gəncəliyəm,
Dərd əlindən dəliyəm.
Düşmüşəm qəm dəryasına,
Gözləri pərdəliyəm.

2076. Gəl çıxaq dağ başına,
Sürmə çək qaşına.
Biz çıxıb qayıtmışıq,
Siz çıxın dağ başına.

2077. Dağ başında durmuşam,
Kəklikotu yığmışam.
Səsim-küyüm kəsilib,
Yolu başa vurmuşam.

2078. Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Vətənim uca olsun,
Kölgəsində dolanım.

2079. Əzizinəm, gülmə gəl,
Yalan yerə gülmə, gəl.
Yaman yerdə yıxıldım,
Yıxılana gülmə gəl.

2080. Əzizinəm, yaz görüm,
Bahar görüm, yaz görüm.
Dərd mənim, qələm sənin,
Bir kağıza yaz, görüm.

2081. Qoyun otlar görənnər,
Otladıqca görənnər.
Yapalaq ördək alıb,
Laçın görsə, vərəmlər.

2082. Şüşədən başmaq olmaz,
Başmaqdan yaşmaq olmaz.
Bir iş qəzadan gələ,
Qəzadan qaçmaq olmaz.

2083. Bağında gilas dəydi,
Tut dəydi, gilas dəydi.
Güllənə bacın qurban,
Güllən nə rast dəydi.

2084. Sonsuz ay əlindən,
Vur, düşsün yay əlindən.
Cənnətdə çığrışırlar,
Almayın pay əlindən.

2085. Qaşın hilalı, gəlin,
Gözün hilalı, gəlin.
Qarğıyım, ərin ölsün,
Səni dul alım, gəlin.

2086. Qaşın fitin apardı,
Gözün fitin apardı.
Dəmirçi dükanından
Gör bu it nə apardı.

2087. Kəkliyin anasına,
Dən verin balasına.
Həm balama yanıram,
Həm də balasına.

2088. Ördəyin gölə düşdü,
Ceyranım çölə düşdü.
Yol gözlədim, gəlmədi,
Ceyranım ələ düşdü.

2089. Bu dağlar, qəlbi dağlı,
Qayalı, qəlbi dağlı.
Sonamın gözü yaşlı,
Ağamın qəlbi dağlı.

2090. Limonam, soyma məni,
Soyub cibə qoyma məni.
Bir qardaşsız bacıyam,
Qəbirə qoyma məni.

2091. Göydən bir gilə gəldi,
İkisi bilə gəldi.
Qardaşımı tapmadım,
Sümüyüm dilə gəldi.

2092. Ellər dağa gedər,
Qar yağa-yağa gedər.
Məni arançı edər,
Özləri dağa gedər.

2093. Savalanda qara bax,
Boynun əymiş nora bax.
Ağzımı ağu kəsdi,
Dodağımda bara bax.

2094. Ay dağlar, uca dağlar,
Baxdıqca uca dağlar.
Ovçusu cavan ölmüş,
Maralı qoca dağlar.

2095. Ay ev, səni bəzərəm,
Dörd bir yanın gəzərəm.
Gəzib ata tapmasam,
Bəzəyini pozaram.

2096. Sandıq üstə gülü var,
Gülünün dörd üzü var.
Sevən sevənə gedir,
Kimin ona sözü var?

2097. Əzizim, sən gələsən,
Qaş gözə tən gələsən.
Yüz min əzizim olsa,
Qabağa sən gələsən.

2098. Əziziyəm, yad əli,
Ya divanə, ya dəli.
Vurub özün öldürər,
Sənə dəysə yad əli.

2099. Yağış yağdı, çilədi,
Hər bir yeri suladı.
Gəzdim, tapmadım səni,
Könlüm səni dilədi.

2100. Gözlərim məyif oldu,
Qaş getdi, zəyif oldu.
Hitler bir müharibə saldı,
Oğlanlar heyif oldu.

2101. Çay mənim, çeşmə mənim,
Çayımdan keşmə mənim.
Əlimdən neştər alıb
Yaramı deşmə mənim.

2102. Araz arxı budumu?
İçi dolu sudumu?
Etibarlı atanın
Etibarı budumu?

2103. Dəyirman boyu çiçək,
Çin gətir, onu biçək.
Qardaş bir qız sevibdir,
Uzunboy, qarabirçək.

2104. Dağ başı dolu gözlər,
Qar yağar, dolu gözlər.
Yıxdı dədəm evini
Səndəki dolu gözlər.

2105. Biz belə toy eylədik,
Çaldırıb toy eylədik.
Savaşı göz yaşıyla,
Şaxseydən toy eylədik.

2106. Sarı sarını tutsun,
Boya sarını tutsun.
Səndə günah yoxdur,
Ahın taarını tutsun.

2107. Kağızım, ağ kağızım,
Dili yox, lal kağızım.
Gedirsən qardaş yanına,
Dilimcə yalvar, kağızım.

2108. Köynəyi sarı bacı,
Geyibdi sarı bacı.
Aç başından ləçəyi,
Yaramı sarı, bacı.

2109. Vay mənə, vaylar mənə,
İlə dönüb aylar mənə.
Mən ki yandım kül oldum,
Neynəsin çaylar mənə?

2110. Halalar ha, halalar,
Kəklik daşda balalar.
Müsibətinə qurban olsun
Balası ölmüş analar.

2111. Əlimdən bıçağ düşdü,
Bilmədim haçağ düşdü.
Qəflətən dərdə düşdüm,
Həkimim qaçağ düşdü.

2112. Qəlyanı sər qoyarlar,
Çəkərlər, sər qoyarlar.
Uşaqlarını başsız qoyanın,
Adını yasar qoyarlar.

2113. Mən aşiq, didəm qanı,
Xub qanı, didəm qanı.
Ürəyimi qəm çürütdü,
Yaxmalı didəm qanı.

2114. Qarabağa bağ sallam,
Salxımların ağ sallam.
Ya mələrəm, taparam,
Ya gözümə ağ sallam.

2115. Komanın zəmiləri,
Biçmişəm zəmiləri.
Balam yetim qalıbdı,
Axtarmır əmiləri.

2116. Bu yol yolluğa gedər,
Ucu bolluğa gedər.
Qurban olum qardaşa,
Gələr, qulluğa gedər.

2117. Atın daydı, dolanmaz,
Çulu məxmər yaramaz.
Sən çox yaxşı cavan idin,
Sənə quru yer yaramaz.

2118. Səhər açıla, qardaş,
Atını qamçıla, qardaş.
Gəlirsən tezdən gəl,
Ürəyim açıla, qardaş.

2119. Şuşadan çıx, daş götür,
Xocalıdan yaş götür.
Şuşanı əldən versən,
Kürsüdən dur, baş götür.

2120. Gedirəm o ölkəyə,
Gəlirəm bu ölkəyə.
Qarabağı azad eləsin
Azərbaycan, Türkiyə.

2121. Dağlar, səni əndərim,
Üzü bəri döndərim.
Gözümə torpaq lazımdı,
Gətirməyə kimi göndərim?

2122. Dağlarda sənəy olmaz,
Sənəyi yemək olmaz.
Canım bir oda düşdü,
Heç yerdə demək olmaz.

2123. Dağlar, səni sınasan,
Əyiləsən, sınasan.
Mən dedim, şad olasan.
Demədim ki, sınasan.

2124. Anasız qızlar ağlar,
Dərdini gizlər, ağlar.
Analılar dərdin deyər,
Anasızlar gizlər, ağlar.

2125. Lələyəm, deyənim yox,
Al-yaşıl geyənim yox.
Nə qədər əzab çəksəm də,
“Anan ölsün” deyənim yox.

2126. Xocalıdan gəlirəm,
Donum ağdı, məlirəm.
Xocalını yuxumda görəndə
Ayılanda ölürəm.

2127. Qaşların qibləgahdı,
Ucun əymə, günahdı.
Şuşaya duman gəlsə,
Bil ki, mən çəkən ahdı.

2128. Qaşların qibləgahdı,
Ucun əymə, günahdı.
Şuşaya duman gəlsə,
Bil ki, mən çəkən ahdı.

2129. Xoş gördük, dağlar, səni,
Qar yağar, bağlar səni.
Düşmən görsə, şad olar,
Dost görsə, ağlar səni.

2130. Əzizinəm, güvən gəz,
Dağda bitər güvəngəz[50].
Yad eldə bəy olunca,
Öz elinə güvən gəz.

2131. Bu dərə, narınc dərə,
Getdikcən narınc dərə.
Burda bir bağ salaram,
Yar gələr, barın dərə.

2132. Çanaqqala, çaq qala,
Çək belini, toqqala.
Əyyam elə gətirib
Qız gedir ağsaqqala.

2133. Qonağın gəlməyi haqdı,
Gecə qalmağı nahaqdı.
Səhər durub getmirsə,
Deməli, qonaq axmaqdı.

2134. Tərli-tərli su içmə,
Tərli çaydan çox keçmə.
Canın olsun salamat,
Nə azarla, nə də yat.

2135. Yaralarım oyuldu yenə,
Verdi qabıq, soyuldu yenə.
Dərd məndən azalmamış,
Dərdim üstə dərd qoyuldu yenə.

[50] Güvəngəz – bitki növü

2136. Ayrıldım, gülüm, səndən,
Bülbülüm, gülüm, səndən.
Almadım bir halallıq,
Qudurmuş dilim səndən.

2137. Əziziyəm, gül gülə,
Bülbül gülə, gül gülə.
Göz gözdən kamın aldı,
Həsrət qaldı dil dilə.

2138. Əziziyəm, yaş ağacı,
Kəsməzlər yaş ağacı.
Qaralar qəbrim olsun,
Göyçəklər baş ağacım.

2139. İlana bax, ilana,
İlan göydə bulana.
Təzəcə yar sevmişdim,
Göndərirlər İrana.

2140. Bu evlər uzun evlər,
İçində olsun toylar.
Yığışsın qız-gəlinlər,
Oynasın bəstəboylar.

2141. Əmim oğlu Mirağa,
Nöyüt töküb çırağa.
Piltəsin uzun eylə,
İşıq getsin İrağa.

2142. Su gəlir iki haça,
Yar gəlir qaça-qaça.
Əlində qızıl qayçı,
Yaxasın açа-açа.

2143. Sən mənim andım, oğlan,
Şəkərim, qəndim, oğlan.
Necəsən, bir ah çəkim
Olasan bəndim, oğlan!

2144. Oymaqdan gəl, oymaqdan,
Yar gəlir oynamaqdan.
Barmaqlarım yanıbdır
Paprıza od qoymaqdan.

2145. Ağdaşdan gəl, Ağdaşdan,
Ağ gəncə[51] düşdü başdan.
Bacının sənətidir,
Tez ayrılar qardaşdan.

2146. Ay dolanır batmağa,
Yuxum gəlir yatmağa.
Gecə yuxusu şirin,
Qıymıram oyatmağa.

2147. Evləri burda yoxdu,
Köçübdü, yurdu yoxdu.
Getdim pələt[52] ağzına
Dedilər, evdə yoxdu.

2148. Mirvari aldırmışam,
Boynuma saldırmışam.
Bir oğlana getmişəm,
Aləmi yandırmışam.

2149. Qardaş gedib bazara,
Cibində şam qızara.
Qardaşın düşmənləri
Sabah düşər azara.

---

[51] Gəncə – baş örtüyü
[52] Pələt – qapı

2150. Qardaş, sən arayıbsan,
Telini darayıbsan.
Özün alagöz oğlan,
Yarına yarayıbsan.

2151. Lənkəran hacıları,
Başında tacıları.
Qurban olsun qardaşa,
Qoşaca bacıları.

2152. İstilin[53]dalaları,
Kəkliyin balaları.
Qurban olsun qardaşa,
Qoşaca bacıları.

2153. İstilin gül-gülləri,
Oxuyur bülbülləri.
Qurban olsun qardaşa,
Qoşaca bibiləri.

2154. Ləmə çıxdım mən bu gün,
Ləmdən tapdım bir düyün.
Yad oğlu mənim nəyim?
Yadıma düşdü bu gün.

2155. Evləri yaxın yarın,
Boyuna baxın yarın.
Gözəldir, göz götürməz
Nişanın taxın yarın.

2156. Evdən evə zəng olar,
Eşqə düşən dəng olar,
Tutaydın könül quşun,
Göreydin nə rəng olar.

2157. Əmim oğlu bir idi,
Üstü-başı kir idi.
Getdim onu yumağa
Axar sular qurudu.

2158. Şərəfənin o üzü,
Yatışıb qoyun, quzu.
Qurban olsun qardaşa
Hər sürüdən bir quzu.

2159. Kəhər at qaçdı, gəldi,
Yüyənin açdı, gəldi.
Xanımlara muştuluq
Bəylər barışdı, gəldi.

2160. Əlin əlimdə deyil,
Şalın belimdə deyil.
Sənin başının ağrısı
Mənim əlimdə deyil.

2161. Nizami gedir Mərəndə,
Tamaşadı gələndə.
Vay Nizaminin halına
Qaynanası öləndə.

2162. Ay, Nizamın həndi var,
Həndi var, şəhəri var.
Hər qapıda oynasa,
Bir nəlbəki qəndi var.

[53] İstil – süni şəkildə düzəldilən gölməçə və ya su anbarı. İstildən çəltik əkinində istifadə olunarmış.

2163. Mənim yarım kasıbdı,
Üzünü tük basıbdı.
İstədi üzün qırxa,
Qayçısın pas basıbdı.

2164. Mənim balam naşıdı,
Qaşı qələm qaşıdı.
Oturanda bəy kimi,
Duranda yüzbaşıdı.

2165. Sürmə çəkin gözlərə.
Şəkər qatın sözlərə.
Bir damla qanımız var,
O da qurban sizlərə.

2166. Mən aşiq, oyun eylər,
O günlər oyun eylər.
Yar-yara qovuşanda
Bayramın o gün eylər.

2167. İstil üstə pıtrax,
Dövrə vuraq, oturaq.
Bivəfa yar əlindən
Dustaq olaq, oturaq.

2168. Eldən-elə aşıqdı.
Süfrə dolu qaşıqdı.
Bizim oğlan neynəsin?
Sizin qızlar aşıqdı.

2169. O taydan əl eyləmə,
Bağrımı qan eyləmə.
Sən mənimsən, mən sənin,
Özgə xəyal eyləmə.

2170. Gedən alagöz oğlan,
Qoltuğunda saz oğlan.
Al qələmi əlinə,
Mən dedikcə yaz, oğlan.

2171. Yeri-yeri, nişan yar.
Təzə eşqə düşən yar.
Elçiləri qırılmış
Özü elçi düşən yar.

2172. Bu gün yemiş yemişəm,
Yara sözlər demişəm.
Dilim, ağzım qurusun,
Acığımdan demişəm.

2173. Ay getdi, batdı ola,
Gün getdi, batdı ola.
Sənin bu narahat canın
Dincəldi, yatdı ola.

2174. Ayın qədri olmaz,
Günün qədri olmaz.
Uşağın atası-anası olmasa,
Onun qədri olmaz.

2175. Dağların sarı günü,
Ağ günü, sarı günü.
Mən fələyə neynədim?
Görmədim tanrı günü.

2176. Dağlar duman oldu, gəl.
Halımız yaman oldu, gəl.
Aylara vədə verdiz,
İliniz tamam oldu, gəl.

2177. Aşıq, el bərabəri,
Başda tel bərabəri.
Yaxşı övladlarım var,
Tamam el bərabəri.

2178. Bu yoldan yol saleydım,
Karvanımı bol saleydım.
Bilseydim, hardan gəlirsən,
Oradan yol saleydım.

2179. Əzizinəm, yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Yaram çox, sana gəlməz,
Təbib gəlsə, yüz yerdən.

2180. Yaralıyam, yatmaram.
Yaram ağrar, yatmaram.
O qədər dərd məndə var,
Heç kəsin dərdinə qatmaram.

2181. Dağda maral bozdadı,
Tükün göyə tozdadı.
Getmisən, tez qayıt gəl,
Qəm məni yalqızdadı.

2182. Yarım, Ay batdı ola,
Mələk gül atdı ola,
Mənə bəxtəvər deyənnər,
Dincəldi yatdı ola.

2183. Qızım qızlar içində,
Əyrisi var qıçında.
Qızıma elçi gələr
Gələn ayın üçündə.

2184. Mən aşıq, o gün eylər.
Zülfünü dügün eylər.
Haçan qardaşım gələr.
Toyunu o gün eylər.

2185. Araqçının məndədi,
Yumuşam, çəməndədi.
Aləm gözələ dönsə,
Mənim gözüm səndədi.

2186. Dağda maral xoş mələr,
Xoş dayanar, xoş mələr.
Dərdimnən söhbət açsam,
Dağ dayanar, daş mələr.

2187. Sizi qoşa deyərəm,
Coşa-coşa deyərəm.
Ayırmaram bir-birizdən,
Həmişə qoşa deyərəm.

2188. İstil üstü pıtraq,
Məskən tapaq, oturaq.
Bivəfa yar əlinnən
Hara qaçaq qurtaraq?

2189. Çıxdım çini divara,
Baxdım alagöz yara.
Mən baxdım, o baxmadı,
Nəhlət bivəfa yara.

2190. İstil içi pizədi,
Yolu rizə-rizədi.
Atamın cavan oğlu
Naçalnikə mirzədi.

2191. İstil üstə oturmuş,
İpək dəsmal götürmüş.
Mən bir oğlan sevirəm
İnistitutu bitirmiş.

2192. Evdən evə işıqdı,
Sürfə dolu qaşıqdı.
Bizim qızlar neyləsin,
Sizin oğlan aşıqdı.

2193. Əzizinəm, baxtı kəm,
Fərmanı kəm, baxtı kəm.
Sənin yolunda oldum
Üzü dönük, baxtı kəm.

2194. Əzizim, nə şad olsun,
Sürmə çək qaşa, dolsun.
Məni səndən ayıran
Nə gülsün, nə şad olsun.

2195. Mən aşıq, bacınam mən,
Sirr qalmır, açıram mən.
Belə xaraba kənddən
Baş alıb qaçıram mən.

2196. Muğanın göy çəməni,
Göyərib göy çəməni.
Ya gəzərəm taparam,
Ya vurar ovçu məni.

2197. Dəryalar atdı məni,
Naqqalar uddu məni.
Mən fələyə neylədim,
Naləsi tutdu məni?

2198. Mən aşıq, atma məni,
Yüklərə qatma məni.
Sənlə zəhmət çəkmişəm,
Bu gündə atma məni.

2199. Qəribəm, vətənim yox,
Dadıma yetənim yox.
Nə gedən var, nə gələn,
Axtarıb tapanım yox.

2200. Əzizim, vətən sarı,
Geyməyə kətan sarı.
Çıxaydım dağ başına,
Baxaydım vətən sarı.

2201. Əzizim, yazana qaldı,
Qış getdi, yaza nə qaldı?
Mürvət qələmdə deyil,
İnsaf yazana qaldı.

2202. Başıma baş bağlaram,
Ucların boş bağlaram.
Desələr, qardaş gəlir,
Xəstə olsam, qalxaram.

2203. Keşgə bir quş olaydım,
Yola qonmuş olaydım.
Səni vurmuş ovçunun
Qolun tutmuş olaydım.

2204. Mən aşiqəm, yaraşıq,
Kimsə gəzər yaraşıq.
Dolan, tap o zənəni,
Olsun ömrə yaraşıq.

2205. Mən aşiqəm, yarasa,
Fəhmlə uçar yarasa.
El unutmaz bir kəsi,
El dərdinə yarasa.

2206. Ata minən ağadır,
Atın yolu dağadır.
Yaxşı qulaq as, yarım,
Bu bayatı sənədir.

2207. Ay doğdu, gecə oldu,
Gün doğdu, uca oldu.
Bu ayrılıq çox olar,
Halımız necə oldu?

2208. Əlinin babası var,
Belində əbası var.
Özü pis oğlan deyil,
Nə kifir anası var.

2209. Ayı tutdum qaraldı,
Gül bənizim saraldı.
Yarımnan ayrı düşdüm,
Dünya mənə daraldı.

2210. Dərələr buz bağladı,
Ovçular iz bağladı.
Məni bir gəlin vurdu,
Yaramı qız bağladı.

2211. Al xara, yaşıl xara,
Ciyərim para-para.
Mənnən salam aparın
O qara gözlü yara.

2212. Axşamın vaxtı keçdi,
Bir gözəl baxdı, keçdi.
Zülfünü kəmənd edib,
Boynuma taxdı, keçdi.

2213. Mən aşiqəm, qal indi,
Qalmalısan, qal indi.
Mən ki getməli oldum,
Kimə qalırsan, qal indi.

2214. Mən aşiq, ozan olmuşam,
Dərdə dözən olmuşam.
Dərd mənə güclü gəlib,
Kağız yazan olmuşam.

2215. Mən aşiq, abdal olubdur,
Yığmamışam, abdal olubdur.
Gündə oxuyan bülbül
Bu sabah lal olubdur.

2216. Sərinci düz qoyginən,
Plovu süz, qoyginən.
Məni sənə verməzlər,
Papağı düz qoyginən.

2217. Mən aşiq, dua göndərrəm,
Salam-dua göndərrəm.
Özüm gələ bilmədim,
Çox-çox dua göndərrəm.

2218. Mən aşiq, gül biçərəm,
Gülü güldən seçərəm.
Vətənimin yolunda
Gözlərimnən keçərəm.

2219. İstil üstə kücü var,
Kücünün qırx ucu var.
Siz sevdiz, biz gətirdik,
Bizdə bəylər gücü var.

2220. Keçi ağaca çıxdı,
Keçinin qıçı çıxdı.
Yava-yava danışma,
Sözünün pısı çıxdı.

2221. Bu yola bələdəm,
Getməmişəm, bələdəm.
O qədər qəm çəkmişəm,
Qəm gölünə bələdəm.

2222. Atam evindən bar iysi gəlir,
Heyva, nar iysi gəlir.
Atam yox, anam yox,
Mənə zəhirmar iysi gəlir.

2223. Dəryada cecim gördüm,
Cecimin ucun gördüm.
Mən fələyə neynədim?
Fələyin üzün gördüm.

2224. Bir gəmi gəlir Lənkəran üstə,
Birində şabalıd, birində püstə.
Qızım, hər vaxt gəlsən,
Yerin var gözlərim üstə.

2225. Əziziyəm, andın, oğlan,
Şəkərim qəndim, oğlan.
İstərsən, sənə bir ah çəkərəm,
Olarsan bəndim, oğlan.

2226. Oğlan, adına qurban,
Alma, dadına qurban.
Təkcə səni demirəm,
Sevdiyin adaxlına qurban.

2227. Mən aşiqəm, dağlara,
Qulaq verin ağlara.
Əgər məni unutsaz,
Ovçu sallam dağlara!

2228. Mən aşıq, oxla məni,
Ox götür, oxla məni,
Nə atam var, nə anam,
Gəl arada yoxla məni.

2229. Əzizinəm yaz, göndər,
Payız göndər, yaz göndər.
Oğul, məktub tapmasaz,
Yarpaq üstə yaz, göndər.

2230. Əzizim, balam yoxdu,
Hardadı, balam yoxdu.
Demirəm, şad döyüləm,
Şaddığnan aram yoxdu!

2231. Gedirsən, məni apar,
Getmə, qiyamət qopar.
Sabah bazar günüdur,
Hamı öz yarın tapar.

2232. Su üzündə nanəyəm,
Ağ ürmə pərvanəyəm.
Atam muharbədədi,
Dəliyəm, divanəyəm.

2233. Su üstə güllü xalça,
Kim qaldıra, kim aça.
O yara qurban olaram,
Dindirib könlüm aça.

2234. Əzizim, özümnəndi,
Dağlara dözümnəndi.
Ah çəksəm, aləm yanar,
Çəkməsəm, özumnəndi.

2235. Əzizim, sənnən ötrü,
Bimanam sənnən ötrü.
Mən burda qalmaz idim,
Qalmışam sənnən ötru.

2236. Bu dağdan aşaram mən,
Qana bulaşaram mən.
Vəfalı yarım olsa,
Dünyada yaşaram mən.

2237. Uçar gedər yar-yar,
Köçər gedər yar-yar.
Bu evin böyük qızı,
Sabah köçər yar-yar.

2238. Mən aşiq, dolana-dolana,
Dur gəl, dolana-dolana.
Balaların yazıqdı, yatma torpaqda,
Dur gəl, dolana-dolana.

2239. Bu qızın adı nədi?
Şənbədir, adı nədir?
Bala saxladım, böyütdüm,
Bilmədim, dadı nədir.

2240. Dağlara bax, dağlara,
Şeh qonub yarpağlara.
Heyif sənin canınnan,
Qarışdın torpağlara.

2241. Qardaş, dinmə, qan olar,
Yel əsər, tufan olar.
Qardaş, gəzən yollara
Tək bacın qurban olar.

2242. Dağların sarı gülü,
Ağ gülü, sarı gülü.
Fələyə neynəmişəm
Görmədim tarı günü.

2243. Dağların göy çəməni,
Göyərib göy çəməni.
Gəzib taparam səni,
Ya vurar ovçu məni.

2244. Dəryaya atdı məni,
Naqqalar uddu məni.
Fələyə neyləmişdim?
Nalələr tutdu məni.

2245. Mən aşiq, oxusana,
Bülbülüm, oxusana.
Hər gün oxuyan bülbül,
Kim atdı oxu sana?

2246. Getdi, gələ bilməzsən,
Zülfün hörə bilməzsən.
Elə yerdə yatıbdır,
Bir də görə bilməzsən.

2247. Mən aşiq, çaşdım yenə,
Qaynadım, coşdum yenə.
Dərd mənə elə üz verdi,
Kəlməmi çaşdım yenə.

2248. Əlimə saz verdilər,
Sazıma naz verdilər.
Yalvardım təbiblərə,
Dərmanım az verdilər.

2249. Gəl-gəl, gərəyimsən,
Beşiyim, bələyimsən.
Qərib yerdə ölürəm,
İndi gəl, gərəyimsən.

2250. Mən aşiq, bacı, bağlar,
Açar, qıyğacı bağlar.
Bacımın sınıq könlün
Bağlasa, bacı bağlar.

2251. Bağa girməli deyil,
Gülün dərməli deyil.
Gedib bağın bağbanları,
Gəlib görməli deyil.

2252. Yolda maral durmuş oldu,
Boynunu kəc burmuş oldu.
Zalım ovçu sərrast oldu,
Atam oğlun vurmuş oldu.

2253. Yük yığıb, dayanmadı,
Ev tikib qoyammadı.
Ardıycan ağlamağa,
Bir kəsi olammadı.

2254. Aşıq, barat eylədim,
Halım barat eylədim.
Yığdığını, dərdiyini
Kimə barat eylədim?

2255. Aşıq, ozan olmuşam,
Ozanı yozan olmuşam.
Qəm-qüssədən betəri
Bayatı deyən olmuşam.

2256. Mən aşıq, bu xanaya,
Bu qana, bu xanaya.
Kimin belə dərdi var,
Gəlsin bu qəmxanaya.

2257. Mən aşiq, özüm ağlaram,
Özüm deyib, özüm ağlaram.
Dərdimi bilən olmaz,
Özüm deyib, özüm ağlaram.

2258. Tüfəngimin mazı var,
Atmamışam, azı var.
Bala, səni sinidim
İllərcən yaşı var.

2259. Ovçular olmasın,
Caxmağı qo[54] almasın.
Səni vuran ovçular,
Əlləri qo[55] olmasın.

2260. Açıq qoy pəncərəni,
Gözüm görsün gələni.
Qəbrə necə qoyarlar,
Gözü yolda qalanı.

---

[54] Qo – qov
[55] Qo – qoy

2261. Yanaram, mən yanaram,
Göydə ulduz sanaram.
Hər yadıma düşəndə
Balam, onda mən yanaram.

2262. Aşığam, gözdə məni,
Kababam, közdə məni.
Payım qoy paylar üstə,
Gəlirəm, gözdə məni.

2263. Pambıq aralı qaldı,
Başım daralı qaldı.
Hitlerin gözü çıxsın,
Qızlar adaxlı qaldı.

2264. Hitler gəldi, yol qoydu,
Bumaşnikə pul qoydu.
Hitlerin gözü çıxsın,
Gəlinləri dul qoydu.

2265. Ara yaylıq könlündəkin,
Açma qəlbimdəkini.
Mənüm könlüm nə bilsin?
Sənin könlündəkini.

2266. Bağları barlı-barlı,
Bağçada gördüm yarı.
Allah öldürsün, ay qız,
Özgəyə baxan yarı.

2267. Ağ alma allanıbdı,
Budaqdan sallanıbdı.
Xınaya gələn qızın,
Dodağı sallanıbdı.

2268. Ağ almaya al düşər,
Ciyərimə xal düşər.
İstədiyimi almasam,
Ürəyimə xal düşər.

2269. Bu səs meşədən gələr,
İy bənövşədən gələr.
Bənövşə bığlı yarım,
İndi meşədən gələr.

2270. Qızılgül əkdim daşa,
Yetişdi başdan-başa.
Gündə bir məktub gələr,
Yaşa, qardaşım, yaşa.

2271. Ördək uçar düzlərə,
Çox görünər gözlərə.
Səninlə keçən günlər,
Çox görünər gözlərə.

2272. Bu yolun iki qatı,
Asta sürərlər atı.
Heç kimsə sürə bilməz,
Adaxlım sürən atı.

2273. Yola yolçu olaydım,
Yola qurban olaydım.
Yoldan keçən oğlanın,
Sevgilisi olaydım.

2274. Əkin qırağı yovşan,
Əkinə girdi dovşan.
Mən ki gələn deyiləm,
Yaylığı göndər nişan.

2275. Bulaq üstü toz olar,
Dəstə-dəstə qız olar.
Alsan da qız alginən,
Qızlar oyunbaz olar.

2276. Köynəyi çitdi onun,
Yaxası bitdi onun.
Ozü adam balası,
Xatını itdi onun.

2277. Uzun boylu sənəm yar,
Səni sevən mənəm, yar.
Səni sevənlər ölsün,
Sənə qalan mənəm, yar.

2278. Qardaşım, ağa qardaş,
Sallan gir bağa, qardaş.
Bağdakı qızılgüllər,
Sənə sadağa, qardaş.

2279. Bu bağdan göyəm dərdim,
Bilməm kimə göndərdim.
Qardaş yada düşəndə,
Ceyran tək qaçıb gəldim.

2280. Yaylıq yazdım, gəl apar,
İtirmə, düşmən tapar.
Bu gün yaxşı səhərdi,
Aşıq yarını tapar.

2281. Əzizim, qara dağlar,
Qar yağar qara, dağlar.
Hamı deyib-güləndə,
Urəyim yara bağlar.

2282. Əziziyəm, qulam mən,
Ağa sənsən, qulam mən.
Qoymayırlar danışam,
Deyirlər ki, qulam mən.

2283. Əzizim, şəkər canım,
Bu dərdi çəkər canım.
Nə haqqım var, nə muzdum,
Bəylərə nökər canım.

2284. Mən aşiqəm, nə dəm var,
Nə söhbət var, nə dəm var.
Dəyirmana getməyə,
Nə ulaq var, nə dən var.

2285. Əzizim, dalda gəzər,
Gün gedər dalda gəzər.
Mərdlər qabağı gözlər,
Namərdlər dalda gəzər.

2286. Əzizim, kasa dolmaz,
Mərd əli kasad olmaz.
Yüz namərdin çörəyin
Doğrasan, kasa dolmaz.

2287. Mən aşıq, bilən olsa,
Qədrimi bilən olsa.
Birliyi top dağıtmaz,
Ona səs verən olsa.

2288. Dost dost ilə xar olmaz,
Bir tikəylə ac olmaz.
Zəhmət sevən, iş görən,
Özgəyə möhtac olmaz.

2289. Sarı köynək saz məni,
Heykəlinə yaz məni.
Heykəlinə yazmasan,
Heykəlim tutsun səni.

2290. Bir qovağam düzdə mən,
Çəməndə sən, düzdə mən.
Güllər ətrini çəkər,
Qocalaram yüzdə mən.

2291. Könlümü dağ eylərəm,
Əridib yağ eylərəm.
Qərib düşsəm yurdumnan,
Min il sorağ eylərəm.

2292. Əzizim, günüm qara,
Yeməli üzüm qara.
Sənə kağız yazanda,
Deməli sözüm ara.

2293. Səhər-səhər bağ içində,
Yarı gördüm bağ içində.
Dayanıb dəstə bağlar,
Güllü bir bağ içində.

2294. Əzizim, nə tərəzi,
Nə daş var, nə tərəzi.
Evini bərbad eylər,
Arvadın natarazı.

2295. Əzizim, külbaş eylər,
Düyü bişər, aş eylər.
Xatun var ki, heç nədən,
Kişini külbaş eylər.

2296. Çaylarda bilov daşlar,
Gözümnən gələn yaşlar.
Qardaşa yaxşı baxın,
Yanındakı yoldaşlar.

2297. Çay qırağı sarımsaq,
Sarı köynək, canım sağ.
Saxladı atan, anan,
Apardı bir qurumsaq.

2298. Mər daşı, mərmər daşı,
Qızıl üzüyün qaşı.
Qız anadan ayrılsa,
Qurumaz gözünün yaşı.

2299. İstəkanın ağ olsun,
İçi dolu yağ olsun.
Qərib yerə getsən də,
Təki canın sağ olsun.

2300. İstəkanın qanlıdı,
İçmərəm, dərmanlıdı.
Qardaşım sevən qıza,
Özgəsi nişanlıdı.

2301. Bu dağda əkin olmaz,
Əkməsən, əkin olmaz.
Gözüm səni görməsə,
Ürəyim səkin[56] olmaz.

2302. Ay dolandı azbara,
Yem tökərəm qazlara.
Bir göyçək gəlin gəlsin,
Atam tikən anbara.

[56] Səkin – rahat, arxayın

2303. Çıxdım qaya başına,
Ayaq sürtdüm daşına.
Tökülsün qar, yağışı,
Düşmənlərin başına.

2304. Göy yerlər, gülşən yerlər,
Göyərsin gülşən yerlər.
Sənnən yadigar olsun,
Ayağın dəyən yerlər.

2305. Dağların lalasına,
Gün düşər talasına.
Bacılar qurban olsun,
Qardaşın balasına.

2306. Aradan camış baxar,
Ağzından köpük axar.
Biz qızı aparırıq,
Anasına kim baxar?

2307. Aftafa qulpu qara,
Xəbər göndərdim yara.
Dayanmasın, bizə gəlsin,
Könlüm geyibdi qara.

2308. Qara yaylıq qatbaqat,
Birin saxla, birin sat.
Adam adamı yeməz,
Gəl bir gecə bizdə yat.

2309. Gəldilər aparmağa,
Ürəklər qoparmağa.
Yığılın, qohum-qardaş,
Qoymayın aparmağa.

2310. Get, bacım, ağlığına,
Gül apar yağlığına.
Gedə-gələ qalasan,
Dostların sağlığına.

2311. Pəncərələr dərindir,
Su qoymağa sərindir.
Bu igidin bacısı,
Habu evdə gəlindir.

2312. Külək hayandan əsdi?
Kəmər belimi kəsdi.
Məni atıb getmisən,
Demək, sevgi əbəsdi.

2313. Gözüm gözünə baxar,
Məni yandırıb-yaxar.
Bu qaş, bu göz səndə var,
Hər baxışın can alar.

2314. Dərbənd yolu şüşədi,
Dərbəndə gün düşədi.
Dərbənddəki yarımın,
Gözləri bənövşədi.

2315. Su gəlib bəndə dəyər,
Gümüş kəməndə dəyər.
Sənin bir kəlmə sözün,
Cümlə Dərbəndə dəyər.

2316. Dərbənd bizim olaydı,
Daşı qızıl olaydı,
Qardaşım bəy duranda,
Gecə uzun olaydı.

2317. Ay Mirağa, Mirağa,
Nöyüt tökün çırağa.
Saçım sünbülə dönüb,
Barmaqlarım darağa.

2318. Mən aşıq, üzəngini,
Asta bas üzəngini.
Tanrı canım alaydı,
Yardan əl üzən günü.

2319. Baramaqurdu üstə,
Dolanıb durdu üstə.
Atanın oğlu gərək,
Nur salsın yurdu üstə.

2320. Bir yaralı quşam mən,
Yerim yoxdu qaçam mən.
Urək dükan deyil ki,
Hər yetənə açam mən.

2321. Ay qız, bir az bəri gəl,
Əlində saz, bəri gəl.
Könlümün istəklisi,
Dilimin əzbəri, gəl.

2322. Əzizim, yüz il qala,
Yüz il yığ, yüz il qala.
Bədəsil əsil olmaz,
Boyunca qızıl qala.

2323. Abı daraq astana,
Kəklik girib bostana.
Qorxuram, yağış yağa,
Qara tellər istana.

2324. Səhərin sübh əzəni,
Çağır mətləb yazanı.
Ya Tanrım, sən qovuşdur,
İki həsrət gəzəni.

2325. Dəryadan ləpə gələr,
Ağ yağış səpə gələr.
Mənim alovlu yarım,
Atını çapa gələr.

2326. Qəriblik yaman olar,
Sovrulub saman olar.
Qürbətlərdə qalanın,
Dərdi hər zaman olar.

2327. Əmimoğlu Şirin, gəl,
Yapıncıya bürün, gəl.
Qapıdan yol olmasa,
Pəncərədən sürün, gəl.

2328. Biz gəlmişik, gecədi,
Saatınız neçədi?
Qıyavlar[57] xəbərləşır,
Gəlin bacı necədi?

2329. Ağ donun ağlı olsun,
Boxçada bağlı qalsın.
Məni qoyub yar sevdin,
Yarın özgəyə qalsın.

2330. Gəl, bacım, getmə bizdən,
Qar yağır əyri dizdən.
Elçinin boynu sınsın,
Səni ayırdı bizdən.

---

[57] Qıyav – kürəkən

2331. Bu qızı mən biləydim,
Lampasını siləydim.
Adaxlısın görəndə,
Evə qaçıb girəydim.

2332. Bu oğlan bulaq üstə,
Çil papaq qulaq üstə.
Bu oğlanın toyunda,
Cavanlar ayaq üstə.

2333. Ağ damı ağartmışam,
Qolların saraltmışam.
Özüm qarabuğdayı,
Çoxların saraltmışam.

2334. Gedərdim, gedən olsa,
Dərdimi bilən olsa.
Yazıb məktub verərdim,
Aparıb verən olsa.

2335. Bənövşəyəm, bitmişəm,
Kol dibində yatmışam.
Mən sənin həsrətinnən,
Boynumu yan tutmuşam.

2336. Pəncərənin milləri,
Açıb qızılgülləri.
Oğlanı yoldan eylər,
Qızın şirin dilləri.

2337. Eşikdə alma tərək,
Əyib budağını, dərək.
İstədiyini almağa,
Oğlanda ürək gərək.

2338. Aşağıdan maşın gəlir,
Bimirəm neçin gəlir?
Heç bilmirəm, nə işdi,
Şoferdən xoşum gəlir.

2339. Apar, apar bu qızı,
Köynəkləri qırmızı.
Aparannar şad olsun,
Şadlığa saldı bizi.

2340. Yar gedibdi yanımnan,
Yanımnan, imanımnan.
Yar gedən ölkə yansın,
Mənim ahı-zarımnan.

2341. Maşınnar dayanmadı,
Gözüm sənnən doymadı.
Mən səniynən gələrdim,
Atam-anam qoymadı.

2342. Qızılgülü biçmişəm,
Üstündə and içmişəm.
Gözəl qızlar içində
Təkcə səni seçmişəm.

2343. Evlərinin dalı qaya,
Qayadan baxallar Aya.
Sənsiz keçən günlərim,
Gəlməz heç zaman saya.

2344. Köynəyim otdu mənim,
Könlüm buluddu mənim.
Mən bir bəxtəvər qızdım,
Bəxtim qayıtdı mənim.

2345. Yar gedibdi, yanaram,
Gedən günün sanaram.
Gedəndə küsdürmüşdüm,
Gəlsə, könlün alaram.

2346. Alma atdım al, oğlan,
Al cibinə sal, oğlan.
Al diyəndə almadın,
İndi yanıb qal, oğlan.

2347. Qardaşım xandı, xandı,
Dağlarda quş qovandı.
Qardaşımın gəlini,
Uzun saç, qara xaldı.

2348. Tərək iki yerdədi,
Bəhəri yerlərdədi.
İstəyibən yar sevdim,
Qərib ölkələrdədi.

2349. Quzular dayanıbdı,
Xırmanda dayanıbdı.
Yarsız olan oğlanlar,
Pəjmürdə dayanıbdı.

2350. Ay çıxar yana-yana,
Gün çıxar işildana.
Oğlan böyük, qız kiçik,
Qalıbdı yana-yana.

2351. Dağlar dağladı məni,
Görən ağladı məni.
Viran qalsın qəriblik,
İpsiz bağladı məni.

2352. Sarı qovun ərisin,
Saplağından çürüsün.
Məni sənnən ayıran,
Sarı yağ tək ərisin.

2353. Sevgi sevən mərd olar,
Sevməyən namərd olar.
Sevibən almasa o,
Onda ona dərd olar.

2354. Yastıq üzü qırmızı,
Əcəb tanıdıq sizi.
Verəcəyik, deyirdik,
Əcəb allatdıq sizi.

2355. Bu dərə nə dərəydi,
Dərədən səs gələydi.
Qardaşım salan bağda,
Gəlini gül dərəydi.

2356. Şalım ucu var olsun,
İçində məxmər olsun.
Sənsiz keçən günlərim,
Ağu, zəhrimar olsun.

2357. Sən gedərsən o üzə,
Dəxi gəlməzsən bizə.
Sən gəlincə il bitər,
Bağçamızda gül bitər.

2358. Bu dağda maral gəzər,
Əl-ayağın daş əzər.
Mən yara neyləmişəm?
Yar məndən kənar gəzər.

2359. Yar yara sovqat verər,
Gül verər, çiçək verər.
Əgər sovqat tapmasa,
Yarıb ürəyin verər.

2360. Damdan torpaq tökülür,
Taxtaları bükülür.
Ağlama, anam-bacım,
Sürmələrin tökülür.

2361. Qoyun gəzər quzu ilə,
Ayağının tozu ilə.
Mən yardan incimişəm,
Yad qızın sözü ilə.

2362. Çil gəlin, çil-çil gəlin,
Çiyni göyərçin gəlin.
Gözəllər arasında,
Alagöz, çiçək gəlin.

2363. Qədir biləyin, balam,
Nədir diləyin, balam?
Ağ quzu qurban kəsim,
Bitsin diləyin, balam.

2364. Qardaşım handan gələr,
Aylanıb damdan gələr.
Qoltuğunda Quranı,
Molla yanınnan gələr.

2365. Mənim qardaş ağamın,
Cibi dolu abbası.
Məni yaylağa göndər,
Başından sadağası.

2366. Məscidə mədrəsələr,
Qardaş gəldi desələr.
Bir canımı qoymuşam,
Muştuluğa gəlsələr.

2367. A qardaş, ağa qardaş,
Oyan gir bağa, qardaş.
Bağdakı qızılgüllər,
Sənə sadağa, qardaş.

2368. Əzizim, dügün eylər,
Bilmənəm nə gün eylər.
Atalı, analı qız,
Bayramın bu gün eylər.

2369. Gəlinlər gəlsin bizə,
Yaylıqlar versin bizə.
Biz yaylığı neylirik?
Gəlnimiz bəsdi bizə.

2370. Mənim yolum aralı,
İçi ovlu, yaralı.
Mən yarımı tanıram,
Dağıstanın maralı.

2371. Biçinçi biçib gələr,
Çay, suyun içib gələr.
Yar yadıma düşəndə,
Quş kimi uçub gələr.

2372. Gecə uzun, Ay batmaz,
Dərdlilər gecə yatmaz.
Sənin kimi gözəli,
Bir də Allah yaratmaz.

2373. Aşığıyam adının,
Adının, həm sanının.
Çıxaydım qabağına,
Sizə gələn qadının.

2374. Bu qala bir qaladır,
Bürcləri qapqaradır.
Aşna olmaq asandır,
Ayrılmaq bir bəladır.

2375. Eldə elmli kimi gəz,
Göydə tərlan kimi gəz.
Meylin məndə olsun,
Özün ceyran kimi gəz.

2376. Zülflərin ələ gəlməz,
Dərdin canımdan getməz.
Səni görən gözlərim,
Özgə yar qəbul etməz.

2377. Ay doğdu, üzə düşdü,
Qara zülf üzə düşdü.
Fələyin çərxi dönsün,
Ayrılmaq bizə düşdü.

2378. Gün düşdü bu dağlara,
Yayıldı yaylaqlara.
Bu canım qurban olsun,
Saz çalan barmağlara.

2379. Yaz havalar xoş gəlir,
Şirin cana nuş gəlir.
Sən verən gızıl üzük,
Barmağıma boş gəlir.

2380. Qızıl üzük taparam,
Mən dünyaya baxaram.
İki dünya bir olsa,
Sənin xətrin qoymaram.

2381. Bulaq başı olurmu?
İçində daş olurmu?
Ağılsız, cəhil oğlan,
Qıza yoldaş olurmu?

2382. Bu bulaq, oyma bulaq,
Su içən doymaz, bulaq.
Bura gəlinlər gəlsə,
Tutginən, qoyma, bulaq.

2383. Kağızım, ay kağızım,
Dili yox, lal kağızım.
Get qardaşın yanına,
Bir xəbər al, kağızım.

2384. Mahnı hər gün deyərəm,
Üçdən, beşdə neylərəm?
Qardaşın xətri üçün,
Başım qurban eylərəm.

2385. Ay duman, gəl bu dağa,
Sürümü sürən dağa.
Ya ölərəm, ya qalaram,
Dərdi sallam bu dağa.

2386. Durmuşam, özüm yolda,
Dolaşar sözüm yolda.
Yarın sorağındayam,
Qalıbdır gözüm yolda.

2387. Ulduzlar sayrışanda,
Qəlb qəlbə qarışanda.
Çətin olur ayrılmaq,
Göz gözə alışanda.

2388. Bülbül uçar kollarda,
Gül budaqlı kollarda.
Hardasan, yar, hardasan?
Gözüm qaldı yollarda.

2389. Mən aşıq ola-ola,
Dağ üstə qala-qala.
Yar yolunda can verdim,
İntizar qala-qala.

2390. Dərdi dərdimə qatma,
İlqarın var, aldatma.
Qoyub gedirəm səni,
Məni əğyara satma.

2391. Qoltuğumda bağlama,
Mən gedirəm, ağlama.
Gedirəm, yenə gəlləm,
Yadlara bel bağlama.

2392. Tananda vardı qara,
Bilmədim, düşdüm tora.
Bizi ayrı salanı,
Rahat getməsin gora.

2393. Əzizim, nə azandır?
Nə səsdir, nə azandır?
Mollaya bel bağlama,
Molla quyu qazandır.

2394. Əzizim, dağ başıdır,
Dağ üstü dağ başıdır.
Düşmənə bir toy tutdum,
Şabaşı göz yaşıdır.

2395. Mən aşiq, zilə gələr,
Göz yaşım gilə gələr.
Sən yadıma düşəndə,
Sümüyüm dilə gələr.

2396. Mən aşiqəm, Dərbəndə,
Su gəlib, dolub bəndə.
Fələk bir tor qurubdu,
Gül yarım düşüb bəndə.

2397. Elə bir gün olaydı,
Sazla, düyün olaydı.
Sizin kəndin qızları,
Bizə sürgün olaydı.

2398. Ay qız, gəl alım səni,
Bağda gül, alım səni.
Qız vaxtında gəlmədin,
İndi dul alım səni.

2399. Pəncərədə şüşə var,
Sürüşübən düşə var.
O məhlədə bir qız var,
Qardaşıma düşə var.

2400. Əzizinəm, gül sarı,
Bülbül sarı, gül sarı.
Bülbül canın verəndə,
Başın qoyar gül sarı.

2401. Əzizim, sən gərəksən,
Ömrümə tən, gərəksən.
Öləndə qəbrim üstə,
Duamda sən gərəksən.

2402. Tapança gülləleri,
Qızıldır güllələri.
Min-min tütyəyə dəyər,
Yarımın məmələri.

2403. Əzizim, dağ başına,
Örtübdür ağ başına.
Könlü şamama istəyən,
Dolansın tağ başına.

2404. Əzizim, naz öldürür,
Kababı köz öldürür.
İnan, qananı hər vaxt,
Tənəli söz öldürür.

2405. Əzizim, meşələrdə,
Gül suyu şüşələrdə.
Hamısı yar qoynunda,
Mən qaldım küçələrdə.

2406. Əziziyəm, gül əllər,
Gül barmaqlar, gül əllər.
Dəryaca ağlın olsa,
Kasıb olsan, güləllər.

2407. Çay tökdüm yana-yana,
Çayım dönübdü qana.
Oğlan şiə, qız sünnü,
Qalıbdı yana-yana.

2408. Təreqdə[58] sarı kişmiş,
Saralıb yerə düşmüş.
Hansı bəxtəvər olar,
Sevdiyi yerə düşmüş.

2409. Əzizim, bular imiş,
Nə sərin sular imiş.
Əzrayıl bednam olub,
Can alan bular imiş.

2410. Narınca bax, narınca,
Saxlaram saralınca.
Öləydim, qurtaraydım,
Mən bu günə qalınca.

2411. Göyərçinəm, göyərçin,
Ağlaram için-için.
Məni anam niyə doğub,
Göynərəm için-için.

2412. Pərişanam, pərişan,
Halım yoxdu soruşan.
Varmı mənim təki,
Dərdi dərdə qarışan?

2413. Armud ağacı ləli,
Dibində yaşıl xəli.
Burda namaz kim qılar?
Ya Məhəmməd, ya Əli.

2414. Qavalım sındırdılar,
Ürəyim yandırdılar.
Yeddi cavan yığılıb,
Bir cavan öldürdülər.

[58] Təreq – yer adı

2415. Anam-bacım, qız gəlin,
Əli-ayağı düz gəlin.
Yeddi oğlan istərəm,
Bircə dənə qız, gəlin.

2416. Həyətimizdə çinar,
Yarpağı dinar-dinar.
Bizim bir oğlumuz var,
Saxlasın pərvərdigar.

2417. Dağlar başı qaralmış,
Yağdıqca qar, qaralmış.
Bağçamdan bir daş duşmüş,
Od uçuqmış, qaralmış.

2418. Çalqan[59] hündür yerdədi,
Aşiqləri hərdədi.
Heyif, Dərbənd qızları,
Hərəsi bir yerdədi.

2419. Əl atdım, yara dəydi,
Əlim divara dəydi.
Dilim-ağzım qurusun,
Nə dedim, yara dəydi?

2420. Gəl, bacım, getmə bizdən,
Qar yağır əyri dizdən.
Elçini necə söyüm?
Səni ayırır bizdən.

2421. Gəl, bacim, ad eyləmə,
Düşməni şad eyləmə.
Ona gedənnən sonra,
Bizləri yad eyləmə.

2422. Açın pərdə yanını,
Oğlan görsün yarını.
Oğlan görsə yarını,
Qurban eylər malını.

2423. Ağ çarşab başındadı,
On yeddi yaşındadı.
Mirzə, bu qızın qulu,
Əqili başındadır.

2424. Həyətdə qızıl alma,
Qabığın yerə salma.
Qaynatan deyən sözü,
Can qızım, yerə salma.

2425. Quda, gəlmişik sizə,
Hörmət eyləyin bizə.
Əgər elə olmasa,
Bir də gəlmərik sizə.

2426. Qızıl üzüyün taxın,
Əlvan xınasın yaxın.
O bizim əmanətə,
Bir həftə yaxşı baxın.

2427. Göydəki sarı ulduz,
Qoyma mən qalım yalqız.
Sən get anana yalvar,
Qoymasın məni yalqız.

2428. Oğlana bax, oğlana,
Adı dildə dolana.
Qardaşımın sağ qolu,
Dəftər üstə dolana.

[59] Çalqan – yer adı

2429. Gəl gedək bərəsinə,
Çiyələk dərəsinə.
Qızlar aşıq olubdur,
Qardaşımın səsinə.

2430. Pəncərə qopar, qopar,
Get pəncərəni qopar.
Anam sənə qız verməz,
Get əsgərliyi qutar.

2431. Bu evlər uzun olsun,
Az yolu bizim olsun.
Bizə gələn gəminin,
Quyruğu uzun olsun.

2432. Eyvan altda yemişəm,
Mən onu görməmişəm.
Gətir Quran, and içim,
Mən yarı görməmişəm.

2433. Evləri köndələn yar,
Bizə gül göndərən yar.
Gülün yarpıza dönsün,
İlqar verib, dönən yar.

2434. Dam üstədir damımız,
Qarlıdır eyvanımız.
Sən ordan çıx, mən burdan.
Kor olsun düşmanımız.

2435. Mis qazanın içində,
Qurbağa qaz olaydı.
Ata-ana əlinnən,
Qızlar azad olaydı.

2436. Yar-yar demək ayıbdır,
Yarın adı Qəribdir.
Desə, gəlinnər desin,
Qızlar desə, ayıbdır.

2437. Qardaşım bağda gəzər,
Köynəyinə gül düzər.
Sevdiyi gözəl yarı,
Alıb yanıyla gəzər.

2438. Gül atdım, yarı dərman,
Torpağı, yarı dərman.
Yarın kəlmələrinin,
Biri can, biri dərman.

2439. Nəsir kişinin qızı,
Hanı unun baldızı?
Açın oğlan qapısın,
Görsün göylər ulduzu.

2440. Su alaydım kəhrizdən,
Çürüdüm məhlənizdən.
Gündə bir məktub gəlir,
Yıxılmış məhlənizdən.

2441. Gəlin gəldi, düşürün,
Quzu, quyruq bişirin.
Gəlin onnan yeməsə,
Vurun boynun, düşürün.

2442. Get, bacım, yolun olsun.
Ağ mələk donun olsun.
Sən ki belə gedirsən,
Yol sənə uğur olsun.

2443. Armud ağacın buda,
Armudu saxla suda.
Uzaqdan qız diləyib,
Olmuşuq qohum-quda.

2444. Qardaşım, pir olasan,
Pirə nəzir olasan.
Bir dəstə gül içində,
Qızılgülə dolasan.

2445. Qardaşım ala dağlı,
Atı tövlədə bağlı.
Qardaşımın gəlini,
Uzun saç, belibağlı.

2446. Bir çızqı[60] yağış yağırdı,
Bir qız məni çağırdı.
Əl atdım məməsinə,
“Mama” deyib bağırdı.

2447. İrəvanda işlərəm,
Xənçəlimi gümüşlərəm.
Ay qız, belə bir öpərəm səni,
Hərdən də bir dişlərəm.

2448. Bu dərə, uzun dərə,
Getdikcə uzun dərə.
Bu dərəyə bir bağ salın,
Yar gələ, üzüm dərə.

2449. Gəlin gedək çay başına,
Vədə qoyaq ay başına.
Hər kimin yarı çirkindi,
Külü qoyaq onun başına.

2450. Çiyin-çiyinə durduğum yar,,,
Çiyninə çuxa saldığım yar,
Ayağın altı göy çəmən,
Boyuna qurban olduğum yar.

2451. Qara çuxalı oğlan,
Zifaf yaxalı oğlan.
Aç yaxanı, yel döysün,
Mən də baxalı, oğlan.

2452. Bu gedən el yolu olar,
Getdikcə el yolu olar.
Sən yadıma düşdükcə
Yanaqlarım sel yolu olar.

2453. Otlar topar-topar,
Çəkərəm, kökünnən qopar.
Sən yadıma düşdükcə,
Qiyamət o gün qopar.

2454. Əzizinəm, unutmaram,
Gül dərib qurutmaram.
Neçə ki canımda can var,
Mən səni unutmaram.

2455. Bağçanı bardan allam,
Heyvanı nardan allam.
Könlüm səni istəyəndə
Bəs səni hardan allam?

2456. Əzizinəm, bir Aydı,
Bir ulduzdu, bir Aydı.
Gündə gördüyüm qardaşı
Görmürəm bir aydı.

[60] Çızqı – xırda, narın

2457. Əzizinəm, sim bağlar,
Sim bağçalar, sim bağlar.
Köhnə yaram qövr elər,
Təzə yaram sim bağlar.

2458. Əzizinəm, dən-dən oldu,
Laxtalandı, dən-dən oldu.
Bala, səni çağırmaqdan
Ağzımda dilim dən-dən oldu.

2459. Əzizim, duman gəldi,
Çən gəldi, duman gəldi.
Ana, cavan yaşımda,
Əcəlim yaman gəldi.

2460. Əzizinəm, gün düzünə,
Şeh düşdü gül üzünə.
Qurban olum, bala,
Can verən gündüzünə.

2461. Dağların başınnan,
Dibinin xırdaca daşınnan.
Bala, səni gəzirəm,
Bu gözümün yaşınnan.

2462. Sənə quzu qurban, ata,
Əllisi yox, yüzü qurban.
Buna qail olmasan,
Mən balan sənə qurban.

2463. Dərdim çoxdu, yaram az,
Dərdə dərman yaramaz.
Atasına dərd verən
Övladınnan yarımaz.

2464. Mən aşıq, ovundura,
Qarşında ovun dura.
Dərd əlinnən sızlaram,
Kimsəm yox ovundura.

2465. Eləmi, gil ələndi,
Uçqunda gil ələndi.
Tanrıdan pay umduqca,
Göz yaşım gilələndi.

2466. Eləmi, dama-dama,
Köynəyim dama-dama.
Qaçdım ruzi dalınca,
Göz yaşım dama-dama.

2467. Yağan yağış tez kəsə,
O yolu gedəm kəsə.
Fələk sitam verməyib,
Mənim kimi heç kəsə.

2468. Eləmi, nədələli,
Saxladın nədən əli.
Sənə qıyan fələyə,
Nə yalvar, nə də ləli.

2469. Eləmi, dolur dünya,
Boşalır, dolur dünya.
Sənnən kam almadıqca
Gözlərim dolur, dünya.

2470. Eləmi, ağlı dünya,
Qaralı-ağlı dünya.
Güldürüb ağladandı,
Çaşdırıb ağlı dünya.

2471. Eləmi, atdım daşı,
Götürüb atdım daşı.
Öcəşən fələk məni,
Büdrədir addımbaşı.

2472. Pəncərəni bağladım,
İçin-için ağladım.
Taleyimnən küsmüşəm,
Dərdə könül bağladım.

2473. Bacının bacı dərdi,
Yoxdu əlacı, dərdi.
Getdi o şirin günlər,
Qalıbdı acı dərdi.

2474. Əziziyəm, ay bacı,
Qaşı-gözü yay bacı.
Ölsə, bacılar ölsün,
Heç deməsin, vay, bacı.

2475. İti belnən,
Qəbrimi qazın iti belnən.
Gəlib məni sizdən soruşsalar,
Deyərsiz, itib eldən.

2476. Mən getməsəm, yar ağlar,
Səs verər, yara dağlar.
Yarım məni görməsə,
Ağlayanda qan ağlar.

2477. Daşdan mən,
Ağacdan mən, daşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

2478. Oyan, dağlar,
Al qana boyan, dağlar.
Bu yan zülmətxanadı,
De görüm necədi o yan, dağlar?

2479. Çeşmə mənnən,
Ay mənnən, çeşmə mənnən.
Düşmə yaddar evinə,
Yazığam, keçmə mənnən.

2480. Yaram ağrıyır,
Bilmirəm, haram ağrıyır.
Cavan torpağa verəndə,
Gör neçə yaram ağrıyır.

2481. Barmağım beşdi mənim,
Yaşım on beşdi mənim.
Cəfa çəkdim, yar sevdim,
Əməyim heçdi mənim.

2482. Aftafa qum-qum eliyər,
Yar məni qəmgin eliyər.
Mənim balaca yarım
Hökümətə qulluq eliyər.

2483. Əzizim, baxdı yarım,
Baxdımın taxdı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım?

2484. Əzizim, odda yandı,
Şamama tağda yandı.
Arxamı dağa söykədim,
Alışdı, dağ da yandı.

2485. Bu yerdə gülən olsa,
Tərini silən olsa,
Qardaş yaxşı şeydi,
Qədrini bilən olsa.

2486. Su gəlir, lilləndirir,
Bağçanı gülləndirir.
Dərdlini dindirməyin,
Dərd özü dilləndirir.

2487. Balabanı,
Asta çal balabanı.
Hamınn balası gəldi,
Bəs mənim balam hanı?

2488. Əzizinəm, bu dağa,
Yol gedir bu dağa.
Fələk niyə qoymadın?
Bir də çıxam bu dağa.

2489. Hovuza bax, hovuza,
Köynəyi qanouza.
Sevdiyimi ala bilmədim,
Qaldı gələn payıza.

2490. Qoyunnar mələr, gələr,
Dağları dələr, gələr.
Yarın vəfalı olsa,
Gecəni bölər, gələr.

2491. Aşiqəm, izin istə,
İzin ver, izin istə.
İzin ver bircə dəfə
Başımı qoyum dizin üstə.

2492. Əzizinəm, arxa, haray,
Su gələr arxa, haray.
Düşmüşəm qəm gölünə,
Çağırram, arxa, haray.

2493. Əzizinəm, mərdana
Mərd oğlu mərdana.
Bədöy at köhlən doğar,
Mərd oğulu mərd ana.

2494. Əziziyəm, dumandı,
Dağlar başı dumandı.
Ay qardaş, gəl barışaq,
Axır günüm yamandı.

2495. Quzu yanında,
Qoyun quzu yanında.
Anam məni neyləyir?
Oğlu-qızı yanında.

2496. Vətən mülkümdü mənim,
Anam börkümdü[61] mənim.
Düşmənim özüm oldum,
Bəs dostum kimdi mənim?

2497. İlan olmaz,
Evimdə ilan olmaz.
Ağlaram, gülləm özüm,
Dərdimi bilən olmaz.

2498. Göydən uçan quş mənəm,
Yalvarsan da, düşmərəm.
Gör necə yad olmuşam,
Heç yadına düşmərəm.

---

[61]Börk – papaq. Burada namus anlamında işlədilib.

2499. Xırdaca daşlı dağlar,
Sənnən kim aşdı, dağlar?
Qəfil ölən qardaşı
Fəğanla bacı ağlar.

2500. Əzizim, ağ kağızım,
Dili yox, lal kağızım.
Gedirsən qardaş yanına,
Dil aç, yalvar, kağızım.

2501. Ay doğdu mətinnən[62],
Çəkindi zülmətinnən.
Ağzı yanmış qara torpaq
Doymur insan ətinnən.

2502. Əzizinəm, ay ağa,
Yetiş dada, ay ağa.
İllər xəstəsi canım
Yar gəldi, qalx ayağa.

2503. Eldən aralı canım,
Cannan yaralı canım.
Bostanı dolu döymüş
Tağdan yaralı canım.

2504. Dağlarda dumanam mən,
Bağlarda dumanam mən.
Əl vurmayın yarama,
Yarası yamanam mən.

2505. Əzizinəm, nə qaldı?
Nə qovğadı, nə qaldı?
Yaxşılıq gözəl şeydi,
Yaman, sənə nə qaldı?

[62] Mətinnən – üfüqdən

2506. Əzizim, gözlə məni,
Kabab tək közlə məni.
Ölsəm, torpağım ağlar,
Sağ olsam, gözlə məni.

2507. Bülbüləm, ovla məni,
Sal daşa, qovla məni.
Gecə qoynunda saxla,
Gündüz buxovla məni.

2508. Bu yola yolmu deyirsən?
Ceyrana kolmu deyirsən?
Atıb gedirsən məni,
Mənə ölmü deyirsən?

2509. Ağacın bürcü[63] mənəm,
Dil bilməz gürcü mənəm.
Baş qoy dizim üstünə,
Ananam, inciмənəm.

2510. Ağacda xəzəl ağlar,
Dibində gözəl ağlar.
Yardan ayrılan canım,
Sərgərdan gəzər, ağlar.

2511. Dəryada çıraq yanır,
Baxdıqca iraq yanır.
Sevgi şirin şərbətdi,
İçdikcə ürək yanır.

2512. Gəmin bir yana döndü,
Sular ümmana döndü.
Ləbinnən kam alınca
Ürəyim qana döndü.

[63] Bürcü – budağı, şaxəsi

2513. Bağda can alması var,
Kəsib can alması var.
Gözlərin nə oynayır,
Yoxsa can alması var?

2514. Əzizim, yara döndü,
Məlhəmnən yara döndü.
İstədim boynun qucam,
Zülfün şahmara döndü.

2515. Mən aşıq, üzüm qara,
Bağlarda üzüm qara.
Gedirəm dost yanna,
Əlim boş, üzüm qara.

2516. Bu gələn bularımış,
Kükrəyən sularımış.
Əzrayıl, adın bilmirəm,
Can alan bularımış.

2517. Əzizinəm, məndə nal,
Səndə çəkic, məndə nal.
Sinəm əttar dükanı,
Nə istəsən, mənnən al.

2518. Əzizinəm, qar daşı,
Qarlı dağdan qar daşı.
Hərə bir şey istəyər,
Mənim könlüm qardaşı.

2519. Əzizinəm, bir sinim,
Bir siratım[64], bir sinim.
Həsrətinnən əsirəm,
Qoy qoynunda bir isinim.

2520. Dam tiksən, dağlar sənin,
Bağ salsan, bağlar sənin.
Götür, qoynunda saxla,
Ac qalsan, saxlar səni.

2521. Hansını deyim?
Oxuyum, "Yasin"in deyim.
Bir canım var, min dərdim,
Heç bilmirəm hansını deyim?

2522. Ay qabağı,
Buluddu ay qabağı.
Açılmaz yetim üzü,
Gülməz ay qabağı.

2523. Əzizim, nərdivanə,
Ayaq qoy nərdivanə.
Yar qədrini yar bilər,
Nə bilər hər divanə.

2524. Mən aşıq, yazı qəm,
Qışı möhnət, yazı qəm.
Mən getsəm, sənə qurban,
Sən getmə, mən yazığam.

2525. Fələyin qəhri mənə,
Qəzəbi, qəhri mənə.
Doldurdu qəm piyaləsin,
İçirdi zəhri mənə.

2526. Mən aşıq, nədən yana,
Pərvanə nədən yana.
Yaxşı dost yaman gündə
Çəkilir nədən yana?

[64]Sırat – burada: qab, cam mənasında

2527. Gülü gülüstan üstünə,
Gün düşüb bostan üstünə.
Gedin deyin o çaqqala,
Gəlməsin aslan üstünə.

2528. Yasəməni,
Dolan gəl yasəməni.
Çağırırsan, toya çağır.
Çağırma yasa məni.

2529. Dağların başı qardı,
Dibi anbar-anbardı.
Əvvəli şirin dünyanın
Axırı yaman zəhrimardı.

2530. Boz at oynamasın,
Çək cilovun, toylanmasın,
Gələndə elə gəl, get,
Qoy ürəklər oynamasın.

2531. Dağların başı ilə,
Dibinin daşı ilə.
Mən səni axtarıram,
Gözümün yaşı ilə.

2532. Qardaş demə, qan olar,
Dünya tar-mar olar,
Qardaş gedən yollara,
Bacılar qurban olar.

2533. Axşamlar, ay axşamlar,
Şamlar yandı axşamlar.
Evlilər evə getdi,
Qərib harda axşamlar?

2334. Aşığıq, qanı qara,
Dərdli çox, hanı çara?
Tutun, salın qəfəsə,
Göndərin canı yara.

2535. Eləmi, gəmi gəldi,
Su daşdı, gəmi gəldi.
Ağlasana, a gözlərim,
Ayrılıq dəmi gəldi.

2536. Eləmi, birəz bəri,
Gəncədən birəz bəri.
Sən ağzımın tamıydın,
Bu dilimin əzbəri.

## DEYİŞMƏ BAYATILAR

1. ─ Aşıq, elə bir də gəl,
Ceyran, çölə bir də gəl.
Götür cavan yarını,
Bizim elə bir də gəl.

Aşıq, elə gəlmərəm,
Ceyran, çölə gəlmərəm.
Elə yerə gedirəm,
Bir də bura gəlmərəm.

2. ─ Haray, ellilər, haray,
Əli sellilər, haray.
Dəhnəni sel aparır,
Əli bellilər haray.

Haray, elli neyləsin,
Əli belli neyləsin?
Binamız başdan uçub,
Əli belli neyləsin.

3. ─ Haray, ellilər, haray!
Əli bellilər, haray.
Dəhnədən arxım uçub,
Əli bellilər, haray.

Haray, elli neyləsin?
Əli belli neyləsin?
Dəhnədən uçan arxa,
Əli belli neyləsin?

4. ─ Gədikdən aşan gəlin,
Xayati eşən gəlin.
Yarın çirkin, özün gözəl,
Gəl bundan boşan, gəlin.

Gədikdən aşan mənəm,
Xayati eşən mənəm.
Yarım çirkin, özüm gözəl,
Bəxtimdi, boşanmaram.

5. ─ Bu maydan, telli maydan,
Arpası hilli maydan.
Bir belə dərd çəkirsən,
Ay başı küllü, maydan.

Bu maydan, nazlı maydan,
Arpası tozlu maydan.
Niyə ölüb qurtarmırsan?
Ay üzü sözlü, maydan.

6. ─ Sizə yaralı qurban,
Göylü, qaralı qurban.
Sizin təzə yaranıza
Köhnə yaralı qurban.

Gəlibdi yaralılar,
Göylülər, qaralılar.
Ağlasın dərdi olannar,
Dinləsin yaralılar.

7. ─ Aran isdi deyəllər,
Suyu pisdi deyəllər.
Aranda qalannara
Sərfə qusdu deyəllər.

Aran arana qalsın,
Aran viranə qalsın.
Biz aran görməmişik,
Aran görənə qalsın.

— Aranda qaldım naçar,
Sınıq kölün kim açar?
Məni aranda qoyar,
Özü yaylağa qaçar.

8. — At üstə yatan oğlan,
Qan-tərə batan oğlan.
Nişanlını apardım,
Bixəbər yatan oğlan.

At üstə yatmamışam,
Qan-tərə batmamışam.
Nişanlım yamandadır,
Bixəbər yatmamışam.

# HAYLALAR

## HAYLAÇI SƏNƏMİN HAYLALARI[1]

Car yoluna gələsən,
Əsgər paltarı geyəsən.
Kağız yazıb yollaram,
Qum kəndinə gələsən.

Bu dərə uzun dərə,
Yazılıbdır dəftərə.
Burda işim düzəlmir,
Mən gedirəm sərdərə.

Ay doğubdu bizlərə,
Qulaq verin sözlərə.
Bu canım qurban olsun,
Yalqız qalan qızlara.

Aşıqlara, sazlara,
Tamburda qotazlara.
Bu canım qurban olsun,
Gəlinlərə, qızlara.

Quşların cürə-cürə,
Uçar, gedər hündürə.
Qız, mənimlə dostluq et,
Düşmənlər hürə-hürə.

Namaz qıldım sünnətə,
Adam saldım minnətə.
Atanı ilan vursun,
Anan getsin cənnətə.

Oğlan, otur daş üstə,
Yumru papaq baş üstə.
Oğlan deyər: “bir öpüş”,
Qızlar deyər: “baş üstə!”.

Bir cüt quş var gül üstə,
Bir cüt göz var yol üstə.
Allah, məni öldürmə,
Toyum vardır il üstə.

Bu gecə ziyan gecə,
Yar boyun əyən gecə.
Cəsəddə canmı qalar?
Əl-ələ dəyən gecə.

Lampa üstündə şüşə,
Gül üstündə bənövşə.
İlahini yada salaq,
Bəlkə, sevən yar düşə.

Ay qız adın Səlminaz,
Kağız verim, otur yaz.
İkimizin toyu var,
Üstə gələn qara yaz.

Əl yaylığı açılmaz,
Saçaqları saçılmaz.
Bu mənim sönmüş könlüm,
Yar görməsə, açılmaz.

Bu daşdan aşmaq olmaz,
Kağızdan başmaq olmaz.
Küsülü yar ötürdüm,
Daha barışmaq olmaz.

Suya gedən sarı qız,
Sarı köynək, sarı qız.
Gözləri şah alması,
Özü dünya malı qız.

Yarım, gəzmə al gündə,
Çıxıb otur balkonda.
Ömrünə duaçıyam,
Əl götürüb hər gündə.

Yarım, üzündə zərdə,
Düşmüşəm mən bu dərdə.
Vallah, dözə bilmirəm,
Yarım olmayan yerdə.

Dağlarda, meşələrdə,
Şam yanar şüşələrdə.
Sən girdin yar qoynuna,
Mən qaldım guşələrdə.

Dəryalar üzə-üzə,
Üzübən çıxdım düzə.
Bir Allah kömək olsun,
Bu bizim ikimizə.

Mən gedirəm o üzə,
Qayıdaq çıxaq düzə.
Ay quşlar, siz şad olun,
Meşələr qalır sizə.

Yarımın adı Mirzə,
Göndərmişəm Tiflisə.
Sovqatın istəmirəm,
Sağlığı gəlsin bizə.

Tutum bağı şərikə,
Dişlədim, oldu ləkə.
Necə yaman olurmuş
Yar olmayan mərəkə.

Yağış yağır üstümə,
Xəbər apar dostuma.
Əgər məni sevirsə,
Sayə salsın üstümə.

Əlinə, can əlinə,
Tamburun beş telinə.
Aç qolların sarmaşım,
Sənin incə belinə.

Düşdüm dərya dibinə,
Əl uzatdım gülünə.
Gülüm şeytan olubdu,
Bir çatmadım sirrinə.

Gəlinə bax, gəlinə,
Sarmaşaydım belinə.
O qızın incə beli,
Haçan düşər əlimə?

Tambur çalır siminə,
Düşmüşəm həvbəsinə.
Bir neçə hayla deyim,
Yarımın həvəsinə.

O palıdın tirinə,
Bir çatmadım sirrinə.
Qalanla işim yoxdu,
Qurban olum birinə.

Su gəlir qalxa-qalxa,
O qızın adı Zalxa.
Bu gün bir yar sevmişəm,
Qardaşdan qorxa-qorxa.

Ay Sənəm, qalx ayağa!
Su doldur, qalx ayağa.
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa!

Ağac başında qabaq,
Yarpağı tabaq-tabaq.
Sizi kimi şeylərin,
Ağzına bir şapalaq.

Ağacdan kəsdim budaq,
Yerə düşüncə tutaq.
Bundan bizə yar olmaz,
Gəl təzədən yar tutaq.

Dəf çalan nazik barmaq,
Başında qızıl qarmaq.
Qız, sana layiqdimi,
Məni bu dərdə salmaq?

Tambur çalan tək barmaq,
Kəmərin qızıl qarmaq.
Oğlan, sana eyibdi,
Məni sevib, onu almaq.

Bu gecə toy olacaq,
Qız-gəlin oynayacaq.
İlan vurmuş anası,
Qızını qoymayacaq.

Dəryada qızıl balıq,
Üstü göy, altı Qanıq.
Çox istədim, gəlmədin,
Canıma qoydun yanıq.

Ay gedib batan yerdə,
Can-cana qatan yerdə.
Ağ üzündən öpəydim
Sarmaşıb yatan yerdə.

Ay doğdu batan yerdə,
Can-cana qatan yerdə.
Dosta yadigar verdim,
Yaxından ötən yerdə.

Dəryanın o üzündə,
At oynatdım düzündə.
İki muraz istədim,
Biri qaldı gözümdə.

Seyrəcin o üzündə,
Ceyran otlar düzündə.
Qoşa xallar görmüşəm,
Yarımın ağ üzündə.

Xəncərin bağı qasma,
Tasmadan qoyun asma!
Düşmən dili çox olar,
Hər dilə qulaq asma!

Yağış yağar Şirvana,
Gün doğar hər bir yana.
O deyilmi yar gəlir,
Şam kimi yana-yana.

Dağların bulağına,
Köynəyin zolağına.
Məmələrin ağzıma,
Üzün də ki bir yana.

Səhər getdim dükənə,
Sataşdım gül əkənə.
Mənim qorxum ondadı,
Yarsız ömrüm tükənə.

Məsinə, can məsinə,
Ağ qolun düyməsinə.
Bu canım qurban olsun,
Balamın kirvəsinə.

Qaradağın başına,
Qurban olum qaşına.
Qırmızı döşlük olub
Sarılaydım döşünə.

Çıxdım bulaq başına,
Baxdım evin tuşuna.
Bir nişanlı qız gördüm,
Oxşar cənnət quşuna.

Atılar top qoşuna,
Vurular mərd başına.
Nə insafsız zabitdi,
Baxmayır göz yaşına.

Yarımın zülfü qara,
Ağ üzdə zülfü qara.
Hər kim mana eləsə,
Tapşırram zülfüqara.

Çıxdım hündür çinara,
Xəbər yolladım Cara.
Məndən çox salam olsun,
Sevdiyim əziz yara.

Biz hara, bura hara?
Bizi saldılar tora.
Bizi tora salanı
İmansız getsin gora.

Seyrana gedən olsa,
Qızılgül görən olsa,
Yazıb kağız göndərrəm,
Dostuma, gedən olsa.

Tamburun üzü taxta,
İkimiz bir otaqda.
Mən nə çarə eləyim
Allah verməyən baxta!

Haylaya girdim bağa,
Qızılgülü dərmağa.
Qızılgül də bəhanə,
Sevən yarı görmağa.

Tullanıb girdim bağa,
Başım dəydi yarpağa.
Qorxa-qorxa gedirdim
Gözüm sataşdı sağa[65].

[65] Sağa – sənə

Ağac başında qarğa,
Ağzım dolu qovurğa.
Sizin kimin şeyləri
Yolda mana buyurğa.

Əl vuraram qaşığa,
Söz deyərəm aşığa.
Mən səni alacağam,
Evimə yaraşığa.

O qıza bax, o qıza,
Çəpərdən baxır bizə.
O qızı mənə verməsəz,
Axirət olmaz sizə.

Göydəki dan ulduza,
Maraldakı buynuza,
Heyif döyül o şahbaz
"Həsən" deyən donquza?

Mən aşıq, gül alanda,
Gül bitər Gülalanda.
Yarım yadıma düşər
Əlimə gül alanda.

Oturmuşdum binədə,
Tambur çaldım sinədə.
Üç ildən bir görsəm də,
Unutmaram genə də.

Əzizim, gül üzənə,
Gün düşdü Gülüzənə.
Sənəmi görmək istəsən,
Gəlginən Gülüzənə.

Ay qara şalvar oğlan,
Üzündə xal var, oğlan!
Anam sənə qız verməz,
Gəl ona yalvar, oğlan.

Samavar duran yerdə,
Puçunu buran yerdə.
Ət gedir, sümük qalır,
Qocalıq gələn yerdə.

Ay qız, çıxma çəkilə,
İpək köynək sökülə.
Baxmaqnan gözmü doyar
Səndə olan şəkilə?

Sənəm eli çağırır,
Siyah teli çağırır.
Sinəm üstə Əzrayıl
Dilim yarı çağırır.

Keçirəm Kür üstündən,
Min atı, sür üstümdən.
Mən ölürəm qədərsiz,
Ağlama, dur üstümdən.

Tamburun yeddi bəndi,
Bazardan aldım qəndi.
Kor olaydı gözlərim,
Gördü, ürəyim yandı.

Oxuyan Sənəmdimi?
Gözlərindəki nəmdimi?
Görənlərdən xəbər al,
Əvvəlki Sənəmdimi?

Ağ papaq geyən molla,
Dayan, söz deyən molla!
Arzumanın olmasın
Kəbinim kəsən molla!

Dağlar başı dolama,
Bəylər gedir salama.
Yar özü bostançıdı,
Məndən istər şamama.

Aşiqəm Güləndama,
Şeh qonub gül əndama.
Bir tafta köynək olam,
Yapışam gül əndama.

Gün çıxıbdı yoluma,
Kəmər bağla belimə.
Qız, sənin ağ məməni
Alaydım sağ əlimə.

Bazardan aldım kağız,
Papiros qoy yara, qız!
Ox, sana qurban olum,
İncəbel, qarayanız!

Sən mənim ovum, ay qız,
Çaxmağım, qovum, ay qız.
Yoldaşıma gəlsənə
Qurbanın olum, ay qız.

İstol üstə sinimiz,
Birdi, ay qız, dinimiz.
Sevən yar gedir əldən,
Nədi onda günümüz?

Getdim gördüm Qanığı,
Suları bulanığı.
Ölsəm də yaddan çıxmaz,
Əziz yarın yanığı.

Pəncərə ay işığı,
Oldum ellər aşığı.
Gedibdi, gələr tapar
Məhləmin yaraşığı.

Qoyun-quzu qarışdı,
Cavan canım alışdı.
Sən Şəkidə, mən burda
Bu necə ismarışdı?

Yar köynəyi bizdədi,
Düymələri düzdədi.
Getdim yarı görməyə,
Dedilər, Tiflisdədi.

Əlimdəki sazımdı,
Sazım mənə lazımdı.
Gülüm olmayan yerlər
Mənə nəyə lazımdı?

Bu gecə nə gecədi?
Ay Ülkərdən ucadı.
Şeyx olub bir biləydim
Yarın halı necədi?

Arxalığın aldımı?
Qıraqları şaldımı?
Qonşudakı Maşonun
Dodaqları baldımı?

Yol ilən gələn varmı?
Oynayıb gülən varmı?
İtirmişəm yarımı
Yerini bilən varmı?

Üzüm varmı üz kimi?
Göydəki ulduz kimi.
Ay qız, məmən çıxıbdı
Qazaraqlı qoz kimi.

Qara atın yalmanı,
Göyə atdım almanı,
Oynatmaqçın istərəm
Qoynundakı almanı.

Gəldi gülün zamanı,
Ay canımın cananı.
Bircə görmək istərəm
Uzaqdakı cavanı.

Yarım aldatdı məni,
Qürbətə atdı məni.
Ana, yazdığın kağız
Yaman ağlatdı məni.

Qarğı tək oydun məni,
Soğan tək soydun məni.
Nə kölgədə bəslədin,
Nə günə qoydun məni.

Alma tək soydun məni,
Yeməmiş doydun məni.
Nədi günahım mənim,
Yandırıb oydun məni?

Tökərəm qan-yaşını,
Qaraldır qız qaşını.
Bilmirəm ki, hardadı
Gözümüzün işığı.

Arxalığın astarı,
Köynəyin qılasları.
Ol xuda ayırmasın,
Bizi təki dostları.

Gözlərin zil qədəri,
Qaşların mil qədəri.
Hər sabah üzün görsəm,
Açıllam gül qədəri.

Bu yolun iki qatı,
Səllim buraxdım atı.
Çox da baha demərəm,
Yüz manatdı qiyməti.

İstəkanın yarısı,
İçdim, qaldı yarısı.
Bir gecə qonaq saxla,
İnsaf dinin yarısı.

Samavarın sarısı,
İçdim, qaldı yarısı.
Yarıma göz vuranda
Gedir gözüm qarası.

Hayla haylanın başı,
Hayla bilməyən naşı.
Hayla bilmək yaxşıdır,
Qərib yerin yoldaşı.

Yoldaşım, hayla deyək,
Soyub gəmiyin yeyək.
Bizə hamısı birdi,
Sənə hansını deyək?

Qar yağır kürək-kürək,
Damları dirək-dirək.
Qonşuda bir qız gördüm,
Öpməyə ürək gərək.

Bu gün bayram elərik,
Bağda seyran elərik.
Yar bayrama gəlməsə,
Bayramı tərk elərik.

Gəl oturub çay içək,
Göy qılasadan don geyək.
İqrar üstə durmağa
Quran gətir, and içək.

Barmağında bir üzük,
Sağ qolumda bilərzik.
Mən ona qurban olum
Boynumdan nazik beli.

Tamburun teli nazik,
Qol üstə cüt bilərzik.
Yara nişan vermişəm
Qırmızı qaşlı üzük.

Samavar üstə çaynik,
Yarın olsun uryadnik.
Dur, şikayətə gedək,
Divan qursun naçalnik.

Şişədəki nabatam,
Döşündəki saatam.
Yar məni əldən qoymaz,
Mən ayrı bir Nabatam.

Taxt üstündə yatmışam,
Əlimdə şam tutmuşam.
Yadıma yar düşübdür,
Dünyanı unutmuşam.

Ay mənim molla yarım,
Yaylığı yolla, yarım!
Mənə gələ bilmirsən,
Kağız yaz, yolla, yarım.

Bağda bağbanın ollam,
Saxla, bağbanın ollam.
Əgər könlün istəsə,
Gəlib qurbanın ollam.

Xəncərimi bağlaram,
Düşmənləri dağlaram.
Yadıma yar düşəndə,
Tifil kimi ağlaram.

Ay mənim necə yaram,
Sızıldar gecə yaram.
Sən bilmə, Allah bilir,
Mən sənə necə yaram.

Ustulda oturmuşam,
Ağır söz götürmüşəm.
Quran gətir, əl basım,
Yardan əl götürmüşəm.

Zərliyəm, zərd olmuşam,
Qüssədən dərd olmuşam.
Qürbətə gələn gündən
Biyabəngərd olmuşam.

Qara qazan asaydım,
Alta çırpı basaydım.
Sözündən dönən qızı,
Saçlarından asaydım.

Talaha yol salaydım,
Xırmanı bol salaydım.
Mən istəyən gözəlin
Qoynuna əl salaydım.

Qaşları qələm-qələm,
Pulum yox, səni alam.
Səni gürcü aparsın,
Mən gəlib satın alam.

Dağın ətəyindəyəm,
Gülün butağındayam.
Ölsəm də fikir yoxdur,
Yarın otağındayam.

Alma versə, yeyərəm,
İpək versə, boyaram.
Üç gün çörək yeməyib
Səni görsəm, doyaram.

Palıdın yeri mənəm,
Torpaqda çürümənəm.
Gəlsinlər ziyarətə,
Qızların piri mənəm.

Tamburun teli mənəm,
Şirvanın yeli mənəm.
Girəydim yar qoynuna,
Cənnətin gülü mənəm.

Xəncərin dəsti mənəm,
Qaldıran üstə mənəm.
Sevgilim əlimdən getsə,
Dünyanı istəmənəm.

Dağıstan tuncu mənəm,
Gün düşsə, incimənəm.
Sən məndən incisən də,
Mən səndən incimənəm.

Su üstündə üzmənəm,
Hər sitəmə dözmənəm.
Mən sənə bənd olmuşam,
Ölməmiş əl üzmənəm.

Evciyini bəzərəm,
Dörd dövrəsin gəzərəm.
Səni evdə görməsəm,
Qapına daş düzərəm.

Dağdan-dağa gəzərəm,
Quşlara dil yazaram.
Bir quş məni aldatdı,
Daha quşdan bezaram.

Hündür evlər gəzmərəm,
Xırda qablar düzmərəm.
Molla yada düşəndə
Vallah gülər gəzmərəm.

Gedirəm, yol üstəyəm,
Bülbüləm, gül üstəyəm.
Əzrayıl, alma canım
Nişanlı, toy üstəyəm.

Bu yolu yürüyürəm,
Qar kimi əriyirəm.
Yarım, sənin dərdindən
Ölmürəm, çürüyürəm.

İraq yerdən gəlirəm,
Yar, dərdindən ölürəm.
Əgər mənim dostumsan,
Hazırlıq gör, gəlirəm.

Yol uzunu gedirəm,
Bilmirəm nə edirəm.
Ay qız, sənin dərdindən,
Baş götürüb gedirəm.

Getmə-getmə, gəlirəm,
Sən getsən, mən qalıram.
Yarım, sənin dərdindən,
Can üstəyəm, ölürəm.

Yazı yaza bilmirəm,
Qara poza bilmirəm.
Vətən orda, mən burda,
Ayrı dözə bilmirəm.

Ağ almanı ataydım,
Atıb əldə tutaydım.
Ay qız, nikahlın olub,
Bircə ömür yataydım.

Tüfəng olub ataydım,
Bir mənzilə çataydım.
Döşün üstə baş qoyub,
Şirin yuxu yataydım.

Naxırda ağ inəyim,
Ağılda sağ inəyim.
Kömürdən qara yandı,
Kağızdan ağ ürəyim.

Bağa su düşdü, neynim?
Tənək su içdi, neynim?
Allah pay paylayanda
Mənə bu düşdü, neynim?

Tambur saz oldu, neynim?
Ördək qaz oldu, neynim?
Mən bir azara düşdüm,
Səbəb qız oldu, neynim?

Divardan tamburu asdım,
Ay mənim əziz dostum.
Hər nə dedin, sən dedin,
Mən nə dedim, sən küsdün?

Paprusu çəkər dostum,
Dodağı şəkər dostum.
Sən paprusu çəkəndə,
Mən sənə nökər, dostum.

Barmağı üzük yarım,
Qolu bilərzik yarım.
Əyil, üzündən öpüm,
Dodağı nazik yarım.

Bu yoldan işləyəydim,
Xəncəri gümüşləyəydim.
Eşq ilə yarı sevib
Üzündən dişləyəydim.

Zərnə yolun düz gördüm,
Bir qəmzəli qız gördüm.
Saçları üç yüz manat
Hələ mən ucuz gördüm.

Faytonda otur, dostum,
Gözləri lotu dostum.
Mən sənin halalınam,
Farağat otur, dostum!

Barmağından çıxdı qan,
Mən and içdim, sən inan.
Gəlib yadıma düşdü,
Səninlə keçən zaman.

Yolumuz qaratikən,
Kimdir papiros çəkən?
Qara qaşlı olmusan,
Məni yandırıb tökən!

Çəpər basma, ay oğlan!
Yolum kəsmə, ay oğlan!
Mən özgənin malıyam,
Sən tələsmə, ay oğlan.

Fayton gəlir yoluynan,
Bülbül oynar gülüynən.
Allaha barı dostum
Məni saxlar diliynən.

Çöldə tutdum bir ceyran,
Mən sənə oldum heyran.
Əyil, üzündən öpüm,
Hürünün qızı Məryəm.

Mən gəlirəm iraqdan,
Çıxdı gülüm bulaqdan.
Kaş adımı soraydım,
Bal süzülən dodaqdan.

Qızıl kəmər taxarsan,
Öz canına baxarsan.
Bir azca səbir eylə,
O zülümdən çıxarsan.

Ağ almanı soymazsan,
Xalq sözünə uymazsan.
Çox etiqad eylərəm
Sözüm yerdə qoymazsan.

Ay qız, mənim payımsan,
Göy üzündə Ayımsan.
Mən səni çox istərəm,
Yaxşı mənim tayımsan.

Sarayda tütün düzən,
Qələm qaş, gözlər süzən.
Gözüm sənə düşübdü,
Köynəyi çoxlu düzən.

Samavarı qurginan,
Burğusunu burgunan.
Əgər mənim yarımsan,
Gəl qarşımda durgunan.

Su gəlir axmaq ilən,
Qayalar yıxmaq ilən.
Gözəldən gözmü doyar,
Göz ilə baxmaq ilən?

Tambur ilən, saz ilən,
Ördək ilən, qaz ilən.
Bircə gecə yataydım,
Sevdiciyim qız ilən.

Paprusu çəkməginən,
Qutunu əyməginən.
Ay dostum, gəl yaxına,
Yandırıb tökməginən.

Maral çıxdı qamışdan,
Buynuzları gümüşdən.
Əziz dostum, pay saxla,
Qoynundakı yemişdən.

Mən gedirəm Ağdaşdan,
Papağım düşdü başdan.
Səni deyib gəlmişəm,
Oldum qohum-qardaşdan.

Ocağa qazan asım,
Altına odun basım.
Mən burda hayla deyim,
Siz orda qulaq asın.

Əzizim, hara gəlsin,
Zülfünü dara, gəlsin.
Mənsiz bayram eləsən,
Bayramın qara gəlsin.

Boz atın boylamasın,
Çək başın oynamasın.
Gəlirsən səhərdən gəl,
Ürəyim oynamasın.

Paprusu yandırarsan,
Asanca qandırarsan.
Ay incə belli yarım,
Nə məni yandırarsan?

Lampanı alışdırsın,
Şişəni yapışdırsın.
Əziz yarım küsübdü,
Bir Allah barışdırsın.

Bu fayton bizim olsun,
Topları qızıl olsun.
Biz alası qızların
Ömrü uzun olsun.

Tənək əkdik, bağ olsun,
Bağ artırdım, dağ olsun.
Bir neçə hayla dedim,
Eşidənlər sağ olsun.

İstəkanın ağ olsun,
İçi dolu yağ olsun.
Biz burda hayla deyək,
Eşidənlər sağ olsun.

Tamburun qolu uzun,
Qoluna mərcan düzüm.
Yarım var, uzaqdadı,
Mən buna necə dözüm?

Tamburun sapı uzun,
Çantaylar düzüm-düzüm.
Əyil, üzündən öpüm,
Sən mənim qumral gözüm.

Qamış taladan azar,
Yar görüb ağlım azar.
Mən bir gözəl sevmişəm,
Açmamış gülə bənzər.

Əzizim, nədən bağlar,
Pərvanə nədən bağlar.
Əkmə namərd zəmisin,
Nə bitər, nə dən bağlar.

Əziziyəm, baş bağlar,
Başın yuyar, yaş bağlar.
Yarından ayrı düşən
Ürəyinə daş bağlar.

Büzmə köynək büzülsün,
İncə belin üzülsün.
Siftə gedən gecəsi
Yardan əlin üzülsün.

Ağacdakı xurmalar,
Qız, yaxanda düymələr.
Qız, üstündə qan olar,
Qaş-gözün az sürmələ.

Su gəlir bəndər-bəndər,
Dağlardan qarı əndər!
Dərmansız dərdə düşdüm,
Al dərmanı, tez göndər!

Bulaxda beş yaxa var,
Gümüşdən aftafa var.
Maral qızın başında
İpəkdən alafa var.

Ayağında məsi var,
Qoynunda məməsi var.
Əl salıb incitməyin,
Onun da yiyəsi var.

Dərya susuzmu qalar?
Dibi qumsuzmu qalar?
Dünyada sağ adamın
Könlü yarsızmı qalar?

Samavar dolub daşar,
O gül kimə yaraşar?
O gül bizim olmasa,
Tamam dağ-daş ağlaşar.

Aşağıdan su doldurur,
Yuxarıdan bulandırır.
O yanda bir gəlin var,
Vallah, məni yandırır.

Pəncərədə otdu yar,
Yapıncını götdü yar.
Oba qalın, yol iraq
Gör ha yana ötdü yar?

Cara gedən yardılar,
Qızılgülü dərdilər.
Var olsun bu el-oba,
Yarı yara verdilər.

Baxdım iraq görükür,
Çöldə çıraq görükür.
O dostumun köynəyi,
Zolaq-zolaq görükür.

Bostanda yemiş olar,
Yeməmiş dəymiş olar.
Oğlanı dərdə salan,
Qız deyən ölmüş olar.

Yanaşı beş otaqlar,
İçində qızıl taxtlar.
Bir-bir yadıma düşür,
O gəlib keçən vaxtlar.

Dağda maral tək otlar,
Gah səs eylər, gah otlar.
Səndən mənə yar olmaz,
Mənim ürəyim çatlar.

Bu yol yolamı gedər?
Ceyran çöləmi gedər?
On beşinə yetən qız
Evdə yolamı gedər?

Bu yoldan xanım gedər,
Ardınca canım gedər.
Bir yerdə yaralandım,
Min yerdən qanım gedər.

Dostum, başına gələr,
Sürmə qaşına gələr.
Bir neçə hayla desəm,
Sənin xoşuna gələr?

Arxalığı biçərlər,
Qırağından tikərlər.
Mən səndən soruşuram:
Tükü nəylə seçərlər?

Dama buğda sərərlər,
Çıxma, boyun görərlər.
Sənin sünbül saçından,
Heykələ bağ hörərlər.

İstəkana sal şəkər,
İstambul ordu tökər.
Yar yadıma düşəndə,
Ürək yanıb qan tökər.

Zərqala oldu şəhər,
Gəzək biz ayrı təhər.
Üzü qırmızı güldü,
Qoynunun içi gövhər.

Qaşların qaradandı,
Haqq bizi yaradandı.
Qurban olduğum Allah,
Bu sevda haradandı?

Buğdalar köklü nədi?
Yar sevdim, bir dənədi.
Olmuşam yar dəlisi,
Dedilər, divanədi.

Tamburun teli laldı,
Bazardan aldım, baldı.
Qızlara qurban olum,
Gəlinlər ayrı maldı.

Bu yoldan yol ayrılar,
Zülmündən tel ayrılar.
Namərdlə yoldaş olan
Mərddən tez ayrılar.

Gecə keçdi çağırır,
Xoruz çeşti çağırır.
Sinəm üstə Əzrayıl,
Dilim dostu çağırır.

Meşədə dad, şan, gəlin,
Qurşağı qurşan, gəlin.
Ərin xoryaddı sənin,
Gəl ondan boşan, gəlin.

Boz at mindim, boz oldu,
Yorğa sürdüm, toz oldu.
Qız, yaylığın düşmüşdü,
Mən götürdüm, söz oldu.

Buxarı qurum oldu,
Yandıqca qurum oldu.
Yoldaşların içində
O qıza zülüm oldu.

Ağac yandı, köz oldu,
Əyri kösöv düz oldu.
Əziz yara, deyəsən,
Dəyən bircə söz oldu.

Padnosa əl vuruldu,
Carda mizan quruldu.
Yarım ötüb gedəndə,
Tiflisə tel vuruldu.

Cara gedən bir yoldu,
Biri sağ, biri soldu.
İki sinən arası
Damağa gedən yoldu.

Qoruqda qoyun-quzu,
Qoyuna verdim duzu.
Dövlətə susamayın,
İgidə verin qızı.

Bazardan aldım qutu,
İçində kəklikotu.
Dizin üstə baş qoyum
Çimdikləmə, dinc otu.

Hündür dağların düzü,
Canına al bu sözü.
Qərib canı yandırır,
Cavan ölmüşün qızı.

Üstündəki aya bax,
Bu evdəki toya bax.
Toyda yarım oynayır,
Halal olsun, boya bax!

Armud ağacı butaq,
Armud düşüncə tutaq.
Köhnə yardan yar olmaz,
Gəl təzədən dost tutaq.

Ay doğdu, Qadir Allah!
Sevdamız nədi, Allah?
Muraz üstə qalanın
Murazın yetir, Allah!

Ay doğdu bədir, Allah!
Bu sözlər nədir, Allah?
Cavanı cavana yaz
Üstəki Qadir Allah!

Danış, tamburum, danış,
Bir sən mənimlə barış.
Açıban qollarını,
Gəlib boynuma sarış.

Buxarı pis olarmış,
Yandıqca his olarmış.
Özgə dərdlərə şükür,
Yar dərdi pis olarmış.

## MÜXTƏLİF HAYLALAR

Aşıqəm, Leyli ahdır,
Leyli demək günahdır.
O dağdan çıxan duman,
O da mən çəkən ahdır.

Dağıstanın yolları,
Burma-burma yolları,
Siz gələsin bilsəydim,
Süpürərdim yolları.

Ağac başında adam,
Mən bu obada yadam.
Elə danışıb, güldüm,
Düşmənlər bilsin şadam.

Su altında lil oldum,
Yana-yana kül oldum.
Dost-tanışın içində
Bəxti qara qul oldum.

O qızın ağ şalı var,
Ağ şala oxşarı var.
Özü avar balası,
Muğala[66] oxşarı var.

Muxax başı Çardaxlar,
Su dolduran bardaxlar.
Bir-bir yadıma düşür,
O gidi keçən vaxtlar.

[66] Şimal rayonlarımızda yaşayan Dağıstan mənşəli xalqlar Azərbaycan türklərini muğal adlandırırlar – tərtibçi.

Mən aşıq, mərdi-mərdi,
Kim bilir məndəki dərdi?
Yüz əlli molla gəlsə,
Yaza bilməz bu dərdi.

Dünyada dərdimiz qaldı,
Canımız sürgündə qaldı.
Qalmağıma yanmıram,
Vətən düşmanda qaldı.

Aranda tutdan olduq,
Dağda quruddan olduq.
Düşdük düşmən dilinə,
Gözəl vətəndən olduq.

Kortalanın meşəsi,
Qaradır bənövşəsi.
Vətəndən ayrılanın
Ağlamaqdı peşəsi.

Mana bacı neyləsin?
Dərdi kimə söyləsin?
Qaralovu vurdular
Allah rəhmət eyləsin.

Məhlədə qoca balı[67],
Yoxdu canımın halı.
Anası bir şey döyül,
Qızı dünya malı.

[67] Balı – gilas ağacı

Apar yaylığı, apar,
Ucunda mixək tapar.
Məndən yaxşı yar tapsan,
Gəl məni nökər apar.

Dağın ətəyi eniş,
Ətəyi dolu yemiş.
Dedim bir neçə kəlmə,
Tutmadı cavan ölmüş.

Bazardan aldım əti,
Qaytarginən manatı.
Hərlənib bir də gəlləm
Saxlaginən amanatı.

Qara atın qulağı,
Çit köynəyin zolağı.
Gedibdir, gələr yəqin
İki gözün çırağı.

Qaşların qaş-qaş üstə,
Xoş gəldin, can-baş üstə.
Yıxılsın düşmən evi,
Daş qalmasın daş üstə.

Bazardan aldım qəndi,
Damburun yeddi bəndi.
Görüncə, görməyəydim,
Görüb, ürəyim yandı.

Ağacda xəzələ bax,
Dibində gəzənə bax.
Gözəli qoyub eldə,
Çöllərdə gəzənə bax.

Yarını yar ağlasın,
Kəfənin qan bağlasın.
Gəlin yuyub yaylığı,
Yaramı qız bağlasın.

Gəlin gəldi, xan gəldi,
Evləri yıxan gəldi.
Əlində iti ülgüc,
Başları qırxan gəldi.

Əkmişəm günəbaxan,
Əllərə xına yaxan.
Olursa gülən olsun,
Neynirəm yerə baxan.

Dağdağan ağacları,
Bar gətirməz başları.
Oğlanı yoldan eylər,
Qızın qələm qaşları.

Dağ başında quş durmaz,
Yaz gələndə, qış durmaz.
Yavaş-yavaş hayla de,
Yoxsa dilim dinc durmaz.

Mazım çayın haçası,
Bir sirrim var açası.
Balakəndə bir qız var,
Mən götürüb qaçası.

Qanığın o tayında,
Gül əkdim bu tayında.
Yarım qaldı o tayda,
Mən qaldım bu tayında.

Bəkməzi bölməliyik,
Darvaza getməliyik.
Qoy qalsın yadigar,
Əvvəl-axır ölməliyik.

Yurddan yurda köçürsən,
Özünə dost seçirsən.
Mən ölüm, cavan qızları,
Yadigarmı seçirsən?

Dağıstanda dağam mən,
İranda dustağam mən.
Gedin yarıma deyin,
Ölməmişəm, sağam mən.

Qızılgülü dərimmi?
Dərib yerə sərimmi?
Səni sevən qız mənəm,
Sənə tərəf gəlimmi?

Ay lilay deyənim yox,
Al, yaşıl geyənim yox.
On il qürbətdə qalsam,
Gəlmədi deyənim yox.

Arım var arxanada,
Barım var barxanada.
Sən belə cavan ikən
Nəyin var gorxanada?

Aşığam üzə ceyran,
Qaş-gözün süzə ceyran.
Həsrətindən ölürəm,
Gəl gedək bizə, ceyran.

Aşığam, üzüm səni,
Güllərə düzüm səni.
Mən hər yola çıxanda
Axtarır gözüm səni.

Yaz otu, payız otu,
Əlinə yaba götü,
Mən səni alasıyam,
Öydə farağat otu.

Yağış yağar, səsi var,
Gün çıxır, girməsi var.
Anası ölən qızların
Ölənəcən yası var.

Dağlardan belə gəldim,
Oynayıb gülə gəldim.
Oturmuşdum, şad könül,
Nə yaman dilə gəldim.

Dağda bitər kələmlər,
Aləm onu dərərlər.
Yoldaşı ölən gəlinlər
Ölməsə də, vərəmlər.

Buğdanın dənəsiyəm,
Mən sənə gələsiyəm.
Atam-anam verməsə,
Qoşulub gələsiyəm.

Alma atdım oyuza,
Getdi düşdü poyuza.
Sənin xəbərin varmı,
Toyun qaldı payıza?

Aşığam, göyəm yerlər,
Su gəlib döyən yerlər.
Şan-şan olub tökülsün,
Ayağın dəyən yerlər.

Çay daşı, çaylaq daşı,
Çayda qurdum bardaşı.
"Qardaşın ölüb" deyəndə
Yandı ürəyimin başı.

Aşağı ev bizimdi,
Qara salxım üzümdü.
Yığılanlar dağılar,
Yıxılan ev bizimdi.

Bağçanın barı hanı?
Heyvanın narı hanı?
Hamının yarı burda,
Bəs mənim yarım hanı?

Yaralıyam yanımdan,
Quşlar doymaz qanımdan.
Yurdun binə tutmasın
Mənim ahu-zarımdan.

Ay doğar minaradan,
Ölmərəm mən bu yaradan.
Sənə mən qurban olum
Yeri-göyü Yaradan.

Sarı köynək yaxası,
Nə boyun var baxası?
Güldən köynək tikmişəm,
Bənövşədən yaxası.

Qaşların qələm dərir,
Dilin salam göndərir.
Sənin şirin dillərin
Məni muma döndərir.

Qaşların qələm əymə,
Mən ölüm, mənə dəymə.
Mən ölüb, geri qalsan,
Yadlara boyun əymə.

Gül əkdim, bitsin deyib,
Quruyub itsin deyib.
Qız, səni öyrədirlər,
Axırın itsin deyib.

Aşığın harayından,
El yatmaz harayından.
Gündə bir kərpic düşür,
Ömrümün sarayından.

Əsgərlər qatar-qatar,
Əynində sarı paltar.
Əsgərin komandiri,
Oğlumu geri qaytar.

Hayla aralar məni,
Qayğı qaralar məni.
Bu dərdlə gora getsəm,
Qəbir yaralar məni.

Ölürəm, üstümə gəl,
Yanıram, tüstümə gəl.
Bu dərdlə gora getsəm,
Qəbrimin üstünə gəl.

Gedirəm, yolum budur,
Çəkdiyim zülüm budur.
Nişanlım gedir əldən,
Əcəlsiz ölüm budur.

Dağıstan dağ yeridir,
Gürcüstan bağ yeridir.
Gözəl olan Balakən
Qızların bol yeridir.

Dambur çala bilmirəm,
Simini sala bilmirəm,
Mənim yarım gözəldir,
Gözdən qoya bilmirəm.

Bulaq başdan qaradır,
Dibi daşdan qaradır.
Bu mənim sınıq könlüm
Binə başdan qaradır.

Tülünün yollarında,
Yoruldum qollarında.
Qızıl saat olaydım
Yarımın qollarında.

İlxıdan tutdum kürən,
Kimdi yorğanı sürən?
Yatıb yuxuda gördüm
Sənnən oynayıb gülən.

Çöllərdə bafam qaldı,
Çəkmədim, bafam qaldı.
Sənin əzabını çəkdim,
Mənə də cəfan qaldı.

Göylə uçan arıdır,
Qanadları sarıdır.
Allaha qurban olum,
Yönü bizə sarıdır.

Maralım küzdə varmı?
Otlayıb düzdə varmı?
İtirmişəm yarımı,
Bizdə yox, sizdə varmı?

Əzizim, tutdu məni,
Tutdu, qurutdu məni.
"Əzizim" deyən yarım
Nə tez unutdu məni.

Talanın yastı yolu[68],
Su gəlib basdı yolu,
Gedirdim yar görmağa
Düşmanlar kəsdi yolu.

Hayva çiçək açıbdı,
Necə göyçək açıbdı.
Maral Hacının qızı
Qoşuluban qaçıbdı.

Eyvanda otu, Maşu,
Gözləri lotu Maşu.
Mən səni alasıyam,
Arxayın otu, Maşu.

Ay doğdu, batmadımı?
Sevənlər yatmadımı?
Səni yaradan Allah
Məni yaratmadımı?

[68]Zaqatalanın Tala kəndlərində hay-lalara Tala mahnıları deyirlər.

Qanıx daşanda bilər,
Coşub daşanda bilər.
Dost dostun qədrini
Ayrı düşəndə bilər.

Ay doğdu bədir, Allah,
Bu zülüm nədir, Allah?
Ya məni yara yetir,
Ya da ki, öldür, Allah!

Ulduzumun qaşısan,
Nə yumuru Maşusan.
Mən deyəni demədin
Car çeylağın daşısan.

Yuxarı məhləm getdi,
Əlimdə dəhrəm getdi.
Vallah, göyçəksən, Maşu,
Huyundan zəhləm getdi.

Car qalanın əmiri,
Dəmirçi, döy dəmiri.
Beləmi keçəsidi
İkimizin ömürü?

Dağlar dağladı məni,
Qara bağladı məni.
Elə qərib olmuşam,
Görən ağladı məni.

Quşlar vətənə gedər,
Gözü çatana gedər.
Mən dərdimi danışsam,
Adam yatana gedər.

Bu meşə dögü,
Gülü bənövşə dögü.
Yarı görəndə yaxşı,
Ayrılıq peşə dögü.

Mahnıynən deyim səni,
Qıymaram yeyim səni.
Yaxın otur yanıma,
Qoy bir iyniyim səni.

Gəl, qardaş, mahnı diyax,
Almanı soyub yiyax.
Bizə hamısı birdi,
Sizə hansından diyax?

Qanığın o üzündə,
Atı sürdüm düzündə,
Mən yarımı tanırım
Qoşa xal var üzündə.

Dostuma, can dostuma,
Nə durubsan qəsdimə?
Yaddar-yalannar kimi
Torpaq atdın üstümə.

Damburu çala-çala,
Canıma odu sala.
Oh, sana qurban olum,
Gözləri göyçək bala.

Damburun beş bəndinə,
Dost gedibdi kəndinə.
Bu canım qurban olsun,
Yarımın gül rənginə.

Tala yolu kənd oldu,
Bostan əkdim, hənd oldu.
Yarımı gözləməkdən
Gözlərim qanla doldu.

Qardaş qoyuna gedər,
Baxar boyuna gedər.
Qardaşın nişanlısı
Bəylər toyuna gedər.

# VƏSFİ-HALLAR

Əzizim, aydın olsun,
Ay doğsun, aydın olsun.
Yardan xəbər gələcək,
Gözlərin aydın olsun.

Tanrı, məni quş elə,
Qanadı gümüş elə.
Dar yolda, dar küçədə,
Yarı mənə tuş elə.

Gəmi gəldi, yan gəldi,
İçində bir can gəldi.
Yarın həsrətin çəkdim,
Gözlərimə qan gəldi.

Eşq oduna qalannam,
Yar başına dolannam.
Mən səndən ayrı düşsəm,
Yazıq ollam, talannam.

Gülü tökdüm tabağa,
Qoydum qala sabaha.
Yar məni mehman eylər,
Xonça düzər qabağa.

Dolansın göz aramda,
Danış, de söz aramda.
Yar deyir, bir sözüm var,
Səninlə öz aramda.

Gəncənin ocağında,
Şam yanar bucağında,
Allah muradın versin
Ağ oğlan qucağında.

Bir daş atdım tovuza,
Köynəyi qanovuza.
Bu il toyum olmadı,
Qaldı gələn payıza.

Əzizim, arı şanda,
Beçələr arı şanda.
Mələklər şadlıq eylər,
İki yar barışanda.

Oğlan eylədi nala,
Əlində var piyala.
Məndən yaxşısın gördü,
Düşdü özgə xəyala.

Corabımın ağına,
Gül vurmuşam bağına.
Əgər məni sevirsən,
Gəl qonşunun bağına.

Üzərlik dana-dana,
Ocaqdan götür, sana.
Nəzəri bəd olanın,
Gözləri odda yana.

Samavar yana-yana,
Buğlanır yana-yana.
Danışırıq kağızla,
Dil qalır yana-yana.

Gedərəm, gedən olsa,
Yolun öyrədən olsa.
Yara namə yazmışam,
Yanına gedən olsa.

Ağac başında paraq,
Yarın əlində yaraq.
Gəlsin açım qəlbimi,
Bu sövdadan qurtaraq.

Başımda sarı sancaq,
Yarı gül, yarı sancaq.
Məni sənə verməzlər,
Gərək mən qaçım ancaq.

Göz üstə qoyub papaq,
Gəzir elə kefi çağ.
Məndən üzün döndərib,
Ürəyimə çəkib dağ.

Bu dərədən qaz gedə,
Qaqqıldaşa, tez gedə.
Tanrıya rəvadırmı
Dul kişiyə qız gedə?

Çiçək əkdim ləyəndə,
Çiçək boynun əyəndə.
Mən bir qurban kəsərəm,
Əli əlimə dəyəndə.

Yarı gördüm göyəmdə,
Göyəm boynun əyəndə.
Mənim toyum olacaq,
Şamamalar dəyəndə.

Bir oğlan var biçində,
Sarı sünbül içində.
Nola onu görəydim,
Bu həftənin içində.

Yolum düşdü yad elə,
Zülfüm gündə yad elə.
Çuxan sənə yaraşır,
Ya bəzən gəl, ya belə.

Mən aşiq yarımgilə,
Qan qalıb yarım gilə.
Tanrı səbəb salaydı,
Gedərdim yarımgilə.

Oturmuşdum gəlinlə,
Xına yaxdım əlimə.
Yarı yuxuda gördüm,
Bir evdəydi mənimlə.

Dağlar başında lalə,
Əlində var piyalə.
Mən səninəm, ay oğlan,
Düşmə özgə xəyalə.

Dağa yağır qar yenə,
Ov ovlayır sar, yenə.
Bilmirəm niyə məni
Bəyənməyir yar yenə?

Əziziyəm, yar yenə,
Yaralandım, yar, yenə.
Gör nə günə qalmışam,
Məndən qaçır yar, yenə?

Heyranam boz börkünə,
Qonubdu toz börkünə.
Yayın, bədnəzər çoxdu,
Dəyməsin göz bürkünə.

Yar yardan geri qalmaz,
Yarın əhdi pozulmaz.
Heç pərvanə mənimtək
Özünü oda salmaz.

Zülfün qarara etməz,
Dərdin sinəmdən getməz.
Səni görən gözlərim
Özgəyə nəzər etməz.

Dağdan gəldik ikimiz,
Zərli yorğan yükümüz.
Tanrı mətləbin versin,
Bir görüşək ikimiz.

Kağız yazdım qarasız,
Dərdə düşdüm çarasız.
Gərək mənim dilimcə
Siz ona yalvarasız.

Qərənfiləm qələmsiz,
Qərarım gəlmir sənsiz.
Qoynunda qar-buz olsun,
Necə yatırsan mənsiz?

Bostan əkdim xiyarsız,
Gülün dərmərəm yarsız.
Gecə yuxuda gördüm,
Ayıldım ixtiyarsız.

Sərin meh, gözəl ayaz,
Hey əsir gözəl ayaz.
Qələminə mən qurban,
Gözəli gözələ yaz.

Gözüm o gələndədi,
Xəncəri belindədi.
Mən ağlaram, o gülər,
İnsaf öz əlindədi.

Göydə ulduz əllidi,
Əllisi də bəllidi.
Mən yarımı görmüşəm,
Şəvə qara tellidi.

Mənim yarım gedəndi,
Gül üzlü, gül bədəndi.
Deyən məndən küsübdür,
Heç bilmirəm nədəndi?

Boz atı Əli mindi,
Atlandı, Əli mindi.
Könlüm yarı arzular
Yetişmir əlim indi.

Bu dağdan bir can getdi,
Ürəyindən qan getdi.
Qız nə cür ağlamasın,
Sevdiyi oğlan getdi.

Burdan Təbrizə kimi,
Qar yağar dizə kimi.
Bir dözmüsən, bir də döz,
Gələn payıza kimi.

Açılmışam gül kimi,
Oxuram bülbül kimi.
Dəymə mənim könlümə,
Sarallam sünbül kimi.

Yağaram yağış kimi,
Bitərəm qamış kimi.
Yar istər könlüm indi,
Bir təzə yemiş kimi.

Sarı qovun dilimi,
Uçurtma bülbülümü.
Gəl oturaq üz-üzə
Deyim dərdi-dilimi.

Üzdü qilü-qal məni,
Hərdən yada sal məni.
Mən səni mərd bilmişəm,
Namərd olma, al məni!

Yaxanda buz ilməni,
Üstünə düz ilməni.
Vəfalı yar yad olmaz,
Görməsə yüz il məni.

Yar gördü, dedi məni,
Dərd oydu, yedi məni.
Vəfasıza sirr verdim,
Aləmə dedi məni.

Qızdırma tutdu məni,
Tutdu, qurutdu məni.
O ki söz verdi, getdi,
Nə tez unutdu məni?

Əkəydim arpa səni,
At gələ, qırpa səni.
Bilsəydim vəfan budur,
Çəkəydim bərkə səni.

Kərə yağın tortası,
Qızıl kəmər ortası.
Allah muradın versin
Gələn bazar ertəsi.

Bu dağların meşəsi,
İylidir bənövşəsi.
Könülsüz gedən qızın
Ağlamaqdır peşəsi.

Aman fələk, ax fələk!
Çıx bacadan bax, fələk!
Mənə elçi gəlməsə,
Get evini yıx, fələk!

Əzizim, qarmı görək,
Dağlarda qarmı görək?
Özü pis oğlan deyil,
Vəfası varmı görək?

Bağçalarda sarı gül,
Yarı qönçə, yarı gül.
Nişanlın sabah gəlir,
Barı sevin, barı gül.

Dağları aşan mənəm,
Əlimdə yovşan mənəm.
Çox da yarım kasıbdır,
Əhdim var, boşanmaram.

Qara atı bağlaram,
Gül dibinə saxlaram.
Özüm deyən olmasa,
Gecə, gündüz ağlaram.

Naçaram ha, naçaram,
Bağlı qapı açaram.
Yarım cavan olmasa,
Baş götürüb qaçaram.

Çay aşağı getmərəm,
Çadramı yellətmərəm.
Xoruzgöz oğlan gərək,
Dul kişiyə getmərəm.

Gedərəm, oturmaram,
Acı söz götürmərəm.
Yüz il ömürdən getsə,
Səndən əl götürmərəm.

Şərbət versən, içmərəm,
Mən istidən bişmərəm.
Gör bir nə yad olmuşam
Yar yadına düşmərəm.

Al-yaşıl geyinmişəm,
Dağdan düzə enmişəm.
Qohum-qardaş nə lazım
Oğlanı bəyənmişəm.

Arxalığı biçəydim,
Üstündə and içəydim.
İyidlərin içində
Şümal boyun seçəydim.

Su gəldi bağa, neylim?
Dəydi budağa, neylim?
Yarım məndən küsübdür
Gəlmir otağa, neylim?

Yarım yad oldu mənim,
Ömrüm bad oldu mənim.
Yarım özgənin oldu,
Bədnam ad oldu mənim.

Səhəngi mən doldurdum,
Doldurub dala durdum.
Yad oğlundan ötrü mən
Gül rəngimi soldurdum.

Kişmir şalın olaydım,
Üzdə xalın olaydım.
Tanrıdan arzum budur,
Halal malın olaydım.

Bir balaca tənəyəm,
Əl vurma, pərvanəyəm.
Çoxdandır yar görünmür,
Dəliyəm, divanəyəm.

Qara atın nalıyam,
Göyçək qızın xalıyam.
Məni bir oğlan sevir,
Çoxdandır ki, halalıyam.

Uzaq ol söz atandan,
Ceyrana göz atandan.
İstərəm səni görüm,
Qorxuram öz atamdan.

Köynəyi yaşıl oğlan,
Əcəb yaraşır, oğlan.
Səni istədiyimdən
Dilim dolaşır, oğlan.

Dağlarda haramısan,
Saçını daramısan.
Çox da ki varın yoxdu,
Meylimə yaramısan.

Keçirdim məhlənizdən,
Səs gəldi dəhnənizdən.
Gündə bir xəbər gəlir
Dağılmış məhlənizdən.

Gedərəm əlinizdən,
Düşərəm dilinizdən.
Mən bir yaşıl sonayam,
Uçaram gölünüzdən.

Ağ at gəlir yenişdən,
Sinəbəndi gümüşdən.
Bizə də qismət olsun
Heybədəki yemişdən.

Oğlan gəlir yenişdən,
Kəmərbəndi gümüşdən.
Yar ilən mərcimiz var
Mən dondan, o öpüşdən.

Sən narımsan, mən gilən,
Bağçamızda əkilən.
Hər gün divar dalından
Mənəm baxıb çəkilən.

Yer-yemişin yedim mən,
Ürək sözüm dedim mən.
Heç Allaha rəvadır,
Ağsaqqala gedim mən?

Gəzəsən, şən gəzəsən,
Ömrümə tən gələsən.
Əziz gün, əziz gecə,
Qonağım sən gələsən.

Bağa girdim nar deyin,
Qızılgülə xar deyin.
Gecə-gündüz yolunu
Gözləyirəm yar, deyin.

Əlində badya gəlin,
Durubdu çayda gəlin.
Tanrı mətləbin versin
Bu gələn ayda, gəlin.

Qamətin şuxdu sənin,
Əlində oxdu sənin.
Mən səni çox sevirəm,
Xəbərin yoxdu sənin.

Əlimdə qəfəsim var,
Saxlaram, həvəsim var.
Elə səni deyərəm,
Nə qədər həvəsim var.

Getmə, oğlan, yağı var,
Belində belbağı var.
Dul kişiyə getmərəm,
Saqqalında ağı var.

Yol üstündə var çinar,
Yarpağı dinar-dinar.
Bizim bu müşkül işi
Düzəltsin pərvərdigar.

Araz axar, burular,
Suyu daşda durular.
Ürəkdə arzun olsa,
Sənə də toy qurular.

Qəlbimi oxladılar,
Sərpuşda saxladılar.
Sənin kimi gözəli
Kimə adaxladılar?

Göydə ulduz mah gedər,
Gah əylənər, gah gedər.
Oğlan, ürəksiz olma,
Üstüncə Allah gedər.

Bostanı ləklədilər,
Tağını təklədilər.
Düşdüm nadan əlinə,
Nazımı çəkmədilər.

Yağış yağar, nəm çilər,
Gün boylanar, dəm çilər.
Gəl məni tez götür qaç,
Əl çəkməyir elçilər.

Qızılgülü dərərlər,
Məxmər üstə sərərlər.
Xoş o qızın halına
Sevdiyinə verərlər.

Bulud keçər, mah görər,
Gah çəkilər, gah görər.
Əhdindən əl üzmə, qız,
Mətləbin Allah verər.

Qərənfil qutudadır,
Xumar göz yuxudadır.
Qəm yemə, dəli könlüm,
Mətləb verən xudadır.

Arxalığın qaradır,
Bağı, bəndi qaradır.
Kəhər at yəhərlənib,
Yar, səfərin haradır?

Gülümü şaxta vurdu,
Nə yaman vaxta vurdu.
Yarım məni vurmuşdu,
Üstündən xalq da vurdu.

Əmim oğlu qalaydı,
Boy-buxuna dolaydı.
Hörəydim saçlarımı,
Bəlkə, məni alaydı.

Bu yerdə yol yarıdı,
Yolçu yolda qarıdı.
Mən sevdiyim çalpapaq
Başımın sərdarıdı.

Dağda itirdim izi,
Yar qoydu getdi bizi.
Qara duvaqlı qalsın
Yarı öyrədən qızı.

Dolayı gəl, dolayı,
Süpürmüşəm sarayı.
Toyumuza az qalıb,
Gözlərəm təzə ayı.

Dağ başı qar məkanı,
Bağçalar bar məkanı.
Əyilsin uca dağlar,
Görünsün yar məkanı.

Qızıl üzük miyanı,
Durmaz barmağımın qanı.
Bu gün-sabah gələcək
Məhləmizin sultanı.

Araxçının haşımı,
Hara qoyum başımı?
Məni sənə verməzlər,
Tökmə gözün yaşını.

Gəncənin bu dağları,
Gül açmış budaqları.
Ölsəm, sinəmdən getməz
Yarımın bu dağları.

Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Ayrılaq, ayrı düşək,
Gəzək bir zaman ayrı.

Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı.
Qəm çəkmə, gözəl oğlan,
Qız sənindir axırı.

Əzizim, bax çuxaya,
Tökülüb ağ çuxaya.
Məni zorla verdilər
Ağsaqqal, ağ çuxaya.

## SAYAÇI SÖZLƏR

Qoyun baxar dağlara,
Sel tək axar dağlara.
Arandan dönən sürü
Yayda çıxar dağlara.

Saya gəldi gördünüz,
Salam verdi aldınız.
Alnı təpəl quzunu,
Sayaçıya verdiniz.

Gözəl keçsin halınız,
Artsın qara malınız.
Avalınız yox olsun,
Tox gəlsin çobanınız.

Qoyunun üçü gəldi,
Dolandı köçü gəldi.
Sürünün qabağında
Bir ala keçi gəldi.

Qoyunun üzü gəldi,
Dolandı düzü, gəldi.
Çobanın qucağında,
Bir əkiz quzu gəldi.

Tut qoyunun belini,
Ələ gəlmir yelini.
Bir doyunca görəydim
Onu sağan gəlini.

Dağları, dərələri,
Daşları, bərələri.
Oturub qoyun sağın,
Bol olsun kərələri.

Nənəm, a qatar keçi,
Qayada yatar keçi.
Qışı soyuq gələndə,
Balanı atar keçi.

Nənəm, o xallı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında
Tutubdu yallı,keçi.

Altı bulaq içərəm,
Üstü zəmi biçərəm.
Bir şişəyin yolunda
Candan-başdan keçərəm.

Açdım, yazılar gördüm,
Nə tamarzılar gördüm.
Çoban dağdan enəndə
Çoxlu quzular gördüm.

Yerin dağ olsun, çoban,
Kefin çağ olsun, çoban.
Sürünü yaxşı qoru,
Üzün ağ olsun, çoban.

Saya-saya sayadan,
Qoyun gəlir qayadan.
Sayaçıya pay verin,
Damazlığı mayadan.

Örüşdənqoyungəlsin,
Dərisinsoyun,gəlsin.
Əmliyisizinolsun,
Anasınqoyungəlsin.

Kərəsiniqoyunun,
Kürəsiniqoyunun.
Acolandagəzərik
Dövrəsiniqoyunun.

Qoyun gəlir, yol olsun,
Yolun sağısololsun.
Yaxşıotarsürünü,
Südü,yağıbol olsun.

Nənəm qarala qoyun,
Bənzər marala qoyun.
Çoban qoyunu qırxıb,
Basar xarala, qoyun.

Nənəm, boz ala qoyun,
Gəlib cəzana qoyun.
Yiyən sənin ucundan
Gedə qız ala, qoyun.

Nənəm, a şişək qoyun,
Yunu bir döşək, qoyun.
Bulamanı tez yetir,
Qırıldı uşaq, qoyun.

Nənəm, a təkcə qoyun,
Yunu var, göycə qoyun.
Yiyən sənin ucundan,
Sallanar bəycə, qoyun.

Sürüdə var az qoyun,
Kef-damağı saz qoyun.
Çoban qurddan çəkinsə,
Çölə çıxammaz, qoyun.

Nənəm, a qızıl qoyun,
Yollara düzül, qoyun.
Kəsilməsin damazlıq,
Ömr eylə yüz il, qoyun.

Nənəm, a dəli qoyun,
Dolanıb gəli qoyun.
Gəlinlər güzəmindən
Toxuyur xəli, qoyun.

Nənəm, a gəlin qoyun,
Gətirər elin qoyun.
Arxacda səni sağar,
Bir gözəl gəlin, qoyun.

Nənəm, a nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun.

Sürünün gözü qoyun,
Dolan gəl, düzü qoyun.
İldə bir əkiz gətir,
Sevindir bizi, qoyun.

Nənəm, a ağbaş qoyun,
Qarlı dağlar aş, qoyun.
Yağından plov olar,
Quyruğundan aş, qoyun.

Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdü,
Südü ver, barış, qoyun.

Nənəm, yad alı, qoyun.
Qanlı-qadalı, qoyun.
Yiyən sənin ucundan,
Böyük ad alı, qoyun.

Nənəm, a xallı, qoyun,
Məməsi ballı, qoyun.
Sürü dağdan enəndə,
Tuturuq yallı, qoyun.

Nənəm, a sarı, qoyun,
Ayaqla qarı, qoyun.
Qapımda bol eləsin,
Nəslini Tanrı, qoyun.

Toğlu kəssən, ət olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən,
Boz qurda qismət olar.

Xırda-xırda çəpişlər,
Otların başın dişlər.
Gedər yaylağı gəzər,
Gələr aranda qışlar.

Ağ qoyun aya bənzər,
Dağ aşar, çaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurulmuş yaya bənzər.

Qoyun var, kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər dağlarda otlar,
Gələr evləri bəzər.

Qoyun gələr, naz gələr,
Südü nədən az gələr?
Ağartısı bol olsa,
Elin günü saz gələr.

Buynuzuyla yer eşər,
Alın vurar, döyüşər,
Gəzər dağlar döşündə,
Yeyər-yeyər gərnəşər.

Ağ qoyun gələr düşər,
Dağlardan enər, düşər.
Qabağında qoç təkə,
Dalınnan mələr, düşər.

Saya yaxşı sayadır,
Yeri-yurdu qayadır.
Onun gözəl sözləri,
Yatanları oyadır.

Əbrəş sürünün gözü,
Dolandı dağı, düzü.
Bər-bəzəkli xurcunda,
Gəldi bir əmlik quzu.

Nənəm, qoyunun ağı,
Dolanıb gəldi dağı.
Qırpar qaraqiyağı,
İçər sərin bulağı.

Qızlara cehiz ağı,
Çobana çarıq bağı.
Qarılar tutar yağı,
Gəlin yeyər qaymağı.

Əzizim, bahar bağı,
Şirindir bahar bağı.
Kəsmə əmlik quzunu,
Qoy gəlsin bahar, barı.

Nənəm, əlində tası,
Nəhrədə çalxar ması.
Sütün yağlı olmasa,
Xan çoban olar ası.

Nənəm, qoyun qarası,
Qırxar, olar narazı.
Yaz günü dələməsi,
Qış günü qovurması.

Dağları endi qoyun,
Dolandı bəndi, qoyun.
Ağartını bol eylə,
Sevindir kəndi, qoyun.

Dağdan enən suz qoyun,
Ey qoşa buynuz, qoyun.
Əldə badya gözləyir,
Səni gəlin-qız, qoyun.

Ellərin xan çobanı,
Sürünün yan çobanı.
Qoyun yuxuya qalsa,
Oyadar ban çobanı.

# LAYLALAR

Balam gəlir yatmağa,
Böyüyüb boy atmağa.
Sabah yuxusu şirin,
Qıymıram oyatmağa.

Laylası dərin bala,
Yuxusu sərin bala.
Tanrıdan əhdim budur
Toyunu görüm, bala.

Oxunur əzən, bala,
Dur, geyin, bəzən, bala,
Boyuna anan qurban,
Tappatap gəzən, bala.

Lay-lay əməyim, bala,
Duzum, çörəyim, bala.
Gözləyirəm böyü sən
Görüm köməyin, bala.

Lay-lay dedim, yat, bala,
Yuxuna şəkər qat, bala.
Ümidim bircə sənsən,
Boya-başa çat, bala.

Sənə nolubdu, bala,
Rəngin solubdu, bala.
Oyan bir gül yuxundan
Məmən dolubdu, bala.

Yolun gedir dolama,
Gəlir bizə salama.
Obalar qurban olsun,
Mənim bircə balama.

Lay-lay dedim, ağlama,
Ürəyimi dağlama.
Yat, yuxun şirin olsun,
Yuxuma daş bağlama.

Lay-lay dedim adına,
Haqq yetişsin dadına.
Hər vaxt layla deyəndə,
Balam düşər yadıma.

Laylayım el başına,
Sancılsın tel başına.
Səni kim istəməsə,
Qalmasın il başına.

Bağçamızda miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə, balam oyana.

Bir gül əkdim boyunca,
İyləmədim doyunca.
Ömrüm, günüm uzansın
Bu balamın toyunca.

Lay-lay dedim yatınca,
Gözlərəm Ay batınca.
Canım zinhara gəldi
Sən hasilə çatınca.

Evində, eşiyində,
Yat, quzum, beşiyində.
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.

Qurban aran, dağ sənə,
Güllü bağça-bağ sənə.
A lay-lay, oğlum, lay-lay,
Tutmuşam qaymaq sənə.

Lay-lay çaldım həmişə,
Karvan gedər yenişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

Lay-lay de dolan, ölməz,
Hər rəngi solan ölməz.
Sonsuzluq yaman şeydir,
Balası olan ölməz.

Yaxamdan al məməni,
Tutmasın qal məməni.
Ağlama, əziz balam,
Ağzına sal məməni.

Eləmi, sürmə məni,
Çək gözə sürmə, məni.
Uşaq yatmır, ağlayır,
Ağzına sür məməni.

Yurd yox taladan savayı,
Gül yox laladan savayı.
Anaya nə əzizdir
Körpə baladan savayı?

A lay-lay, yenə lay-lay,
Can deyim sənə lay-lay.
Sənə gələn dərd-bəla
Qoy gəlsin mənə lay-lay.

Qızılgül butam, lay-lay,
Ətrinə batam, lay-lay.
Balam ərsəyə gələ
Toyunu tutam, lay-lay.

Lay-lay, hər kəsim lay-lay,
Sənə nər kəsim lay-lay.
Yat yuxun olsun şirin,
Ucalsın səsim, lay-lay.

Lay-lay, maralım, lay-lay,
Səbrim, qəralım, lay-lay.
Böyü, qoç bir igid ol,
Sənə yar alım, lay-lay.

Lay-lay, a balam, lay-lay,
Alınmaz qalam, lay-lay.
Sənə gəc baxanları,
Yandırsın nalam, lay-lay.

Nərgizi üzüm, lay-lay,
Yaxana düzüm, lay-lay.
Sən böyü, mən qocalım,
Toyunda süzüm, lay-lay.

A lay-lay, butam, lay-lay,
Qardaşım, atam, lay-lay.
İntizaram, yatasan,
Mən də bir yatam, lay-lay.

A lay-lay, gülüm, lay-lay,
Gülüm, bülbülüm, lay-lay.
Böyü, sənin sayəndə
Mən də bir gülüm, lay-lay.

Lay-lay, beşiyim, lay-lay,
Evim, eşiyim, lay-lay.
Sən get şirin yuxuya
Çəkim keşiyin, lay-lay.

Bürünüb dona bülbül,
Köç edər sona bülbül.
Balam dil açan günü,
Mat qaldı ana bülbül.

Qoçaqdı, şirdi balam,
Qiblədi, pirdi balam.
Gəl, fələk, qıyma mənə,
Yazığam, birdi balam.

Yaylığı kirli balam,
Qəlbi fikirli balam.
Cahıl-cuhul içində
Mənim şəkilli balam.

Lay-lay, balam, gül balam,
Sən mənim sünbül balam.
Laylayımla yatasan,
Oyatsın bülbül, balam.

Lay-lay, dedim, gül balam,
Gül balam, bülbül balam.
Mən sevindim sənilən,
Sən də sevin, gül, balam!

Lay-lay, balam, can balam,
Mən sənə qurban balam.
Ağlayıban könlümü
Gəl eyləmə qan, balam.

Uyu, balam, yat, balam,
Qızılgülə bat, balam.
Şütük bağın bağlayım,
Şirin-şirin yat, balam.

Yol üstə bulaq ollam,
Axaram, bulaq ollam.
Sən mənim bir dənəmsən,
Özüm göz-qulaq ollam.

Dərya ollam, bulannam,
Sucaq ollam, sulannam.
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam.

Qərənfiləm, qalxaram,
Açılmağa qorxaram.
Gecə cıqqırın çıxsa,
Yerimdən dik qalxaram.

Mən bu dərddən ölmərəm,
Dərdi dərdə bölmərəm.
Əziz canımdan dönsəm,
Bir balamdan dönmərəm.

Balam, gəl soyun görüm,
Sərv tək boyun görüm.
Tanrıdan arzum budur,
Balamın toyun görüm.

Qaya mənəm, dağ mənəm,
Dağ üstə bulaq mənəm.
Arxan yox, köməyin yox,
Sənə göz-qulaq mənəm.

Balama can demişəm,
Ağlama, can demişəm.
Balam dil açan günə
Quzu qurban demişəm.

Lay-lay dedim, yat dedim,
Yastığa baş at, dedim.
Bala, çəkim nazını,
Boya-başa çat dedim.

Mən sənə qalam deyim,
Gül deyim, lalam deyim.
Yat, incitmə ananı,
Sağ olsun balam, deyim.

Əzizim, mən dolanım,
Mən dönüm, mən dolanım.
Tanrı səni saxlasın,
Sayəndə mən dolanım.

Laylayım, sözüm qurban,
Ağlasan, gözüm qurban.
Böyü, boya-başa çat,
Boyuna özüm qurban.

Lay-lay dedim ucadan,
Səsim çıxmır bacadan.
Tanrı səni saxlasın,
Çiçəkdən, qızılcadan.

Gözümün qarasından,
Yaş axar arasından.
Adam da əl çəkərmi,
Öz ciyərparasından?

Lay-lay dedim yatasan,
Dərdi-qəmi atasan.
Qızılgül bağın olsun,
Gül-çiçəyə batasan.

Üzərliksən, havasan,
Hər bir dərdə davasan.
Balama kəc baxanın
Gözlərini ovasan.

Bir səs gəlir ellərdən,
Şirin-şirin dillərdən.
Tanrı, balamı saxla,
Ağır aylar, illərdən.

Balamı tanıram mən,
Hər sözün qanıram mən,
Yuxuda ah çəkəndə
Od tutub yanıram mən.

Lay-lay deyim carçı mən,
Harayçı mən, carçı mən.
Toy günündə olaydım
Küçələrdə carçı mən.

Dərya dolu dilinən,
Balam oynar gülünən.
Aləmə can bağışlar,
Məni saxlar dilinən.

Məni oyaq qoyan sən,
Qızılgülə boyan sən.
Öpüm qara gözündən,
Bəsdir yatdın, oyan sən.

Balamsan, bir dənəsən,
Sədəfsən, dürdənəsən.
Mən ölsəm, sənə qurban,
Sən ölmə, bir dənəsən.

Lay-lay dedim, biləsən,
Düşməyəsən dilə sən.
Boy-buxuna çatıb,
Oynayasan, güləsən.

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən.
Qurban olum o günə
Ayaq tutub gəzəsən.

Evi gül-çiçək olsun,
Yarpağı ləçək olsun.
Bir bala göstərin ki,
Balamdan göyçək olsun.

Bayram bayramın olsun,
Ellər heyranın olsun.
Niyə belə çox yatdın?
Anan qurbanın olsun.

Qızılgül bağın olsun,
Bağlar oylağın olsun.
Tanrıdan arzum budu
At minən çağın olsun.

Bağçamızda bar olsun.
Heyva olsun, nar olsun.
Sən ayaq aç, gəz, dolan,
Düşmən görsün, xar olsun.

Qurbanın quzu olsun,
Quzunun yüzü olsun.
Quzudan qurban olmaz,
Ananın özü olsun.

Bala, ömrün çox olsun,
Könlün, gözün tox olsun.
Sənə layla çağırım,
Düşmənlərin yox olsun.

Bağçalar bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə din, danış,
Ürəyim dağa dönsün.

Əzizim, hay mənimçün,
Verərdin pay mənimçün.
Mən ölsəm, sənə qurban,
Sən ölsən, vay mənimçün.

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Layla deyin balama,
Qoy yatsın, oyatmayın.

Maral gəzir talasın,
Üzər gülün, lalasın.
Mən balamı istərəm,
Balam istər balasın.

Dağ başında qalam var,
Ürəyimdə nalam var.
Xalxın dövləti, varı,
Mənim də bir balam var.

Sözü sözdən alan var,
Zülfün üzə salan var.
Əziz oğlum, tez böyü,
Gözü yolda qalan var.

Dağ başına qar yağar,
Bulud keçər, Ay doğar.
Sənin tək ay parçasın
Analar tək-tək doğar.

Qalalar, ay qalalar,
Laçın orda balalar.
Ana balasın verməz,
Bəlkə, gücə salalar.

Bala demə, qan olar,
El əsər, tufan olar.
Bala gəzən ellərə
Analar qurban olar.

Şan bağlayan arılar,
Qonar gülə, sarılar.
Balama qurban olsun
Yaşı ötmüş qarılar.

Qoxusu güldən gəlir,
Güldən-bülbüldən gəlir.
Balamın gül beşikdə
Yuxusu birdən gəlir.

Göy üzündə Ay mələr,
Bulud altdan say mələr.
Burda bir qoç quzum var,
Acıb, salar hay, mələr.

Dağlara sərin düşər,
Kölgəsi sərin düşər.
Hər vaxt layla deyəndə
Yadıma Pəri düşər.

Bala dadı bal dadır,
Bala adamı aldadır.
Şirin sözün, söhbətin,
Hələ sənin daldadır.

Bu görünən Şirazdır,
Şah mənzili Şirazdır.
Tifilim, sənə qurban,
Məmə kiçik, şir azdır.

Elin dərdi azardır,
Dərddən, qəmdən bezardır.
Yaxşısına mən qurban,
Pisi yenə də bal dadır.

Bağda bülbül oxuyur,
Saça sünbül toxuyur.
Balamı iyləyirəm
Elə bil gül qoxuyur.

Sən gedəli il oldu,
Yandı bağrım, kül oldu.
Səninlə uçan quşlar
Oxudu bülbül oldu.

Ay doğdu, yana döndü,
Ulduzlar sana döndü.
Bala dərdini çəkməkdən
Ürəyim qana döndü.

Qızılgülün çanağı,
Astanalar torpağı.
Kim balamı istəməz,
Gözünə bibər yarpağı.

Balamın əl yaylığı,
Ortası zər yaylığı.
Hərə bir kərə desin
Balama can sağlığı.

Göydən bir ulduz axdı,
Axdı getdi, qonaxdı.
Ana bala ucundan
Canını oda yaxdı.

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Qız gözümün qarası,
Oğlan ürək başıdı.

Lay-lay toyun qurbanı,
Kəsim qoyun qurbanı.
Sən yeri bir, mən baxım,
Olum boyun qurbanı.

Atım, tutum bu balanı,
Şəkərə qatım bu balamı.
Atası evə gələndə
Qabağa tutum bu balamı.

Atın-tutun bu balanı,
Şəkərə qatın bu balanı.
Şəkərdən acı olsa,
Götürün, atın bu balanı.

Lay-lay deyim düz, barı,
Gəl dərdimi üz, barı.
Balama qurban olsun
Yüz dul arvad, yüz qarı.

Əlində var hanası,
Qulağında tanası.
Bir toyunu görəydim,
Olaydım bəy anası.

Canım bala, gül bala,
Ana qədrin bil, bala.
Yaman günün gərəyi,
Çağıranda gəl, bala.

Mən gördüm haçan günü,
Dağlardan qaçan günü.
On iki qurban kəsərəm,
Balam dil açan günü.

Lay-lay bülbülüm, lay-lay,
Sarı sünbülüm, lay-lay.
Bağçalarda gül çoxdur,
Bir qızılgülüm, lay-lay.

Dağlarda lalam sənsən,
Alınmaz qalam sənsən.
Kimim yox, kimsənəm yox,
Bir şirin balam sənsən.

Mən əzziyəm, şonqarı,
Dülgər yonar yonqarı.
Balama qurban olsun
Doqquz qoca, on qarı.

Laylay atam balası,
Ayın-günün parası.
Mən sənə qurban olum,
Gözüm ağı-qarası.

Göyçək balam, a laylay,
Çiçək balam, a laylay.
Qönçə dolu bostansan,
Hər kamına çatasan.
Qızılı şah budağın,
Kölgəsində yatasan.

Ay bala, bəndim laylay,
Şəkərim, qəndim laylay.
Gül dolu taxtın olsun,
Qızıldan baxtın olsun.

Qardaşının toyunda,
Oynayan vaxtın olsun.
Laylay, göyçəyim, laylay,
Gülüm, çiçəyim laylay.

Laylay dedim, yat dedim,
Yastığa baş at dedim.
Bala, çəkim nazını,
Boya-başa çat, dedim.

Balam laylay, a laylay,
Körpəm laylay, a laylay
Sözün, soyun qurbanı,
Yaxşı boyun qurbanı,

Sən yeri, mən bir baxım,
Olum boyun qurbanı.
Balam laylay, a laylay,
Körpəm laylay, a laylay.

Bağçalar bağa dönsün,
Bağın yaylağa dönsün.
Bircə kəlmə din-danış,
Ürəyim dağa dönsün.
Balam, laylay, a laylay,
Gülüm laylay, a laylay.

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yuxudan duranda,
Canımı qurban dedim.
Balam, laylay, a laylay,
Körpəm, laylay, a laylay.

Balama can demişəm,
Ağlama, can demişəm.
Balam dil açan günə,
Quzu qurban demişəm.
Balam, laylay, a laylay,
Körpəm, laylay, a laylay.

Kamalı dərin bala,
Kəlməsi şirin bala.
Allahdan əhdim budur,
Toyunu görüm bala.
Balam, laylay, a laylay,
Körpəm, laylay, a laylay.

Gün çıxanda ay batar,
Ay batanda gün çıxar.
Mənim körpəcə balam,
Şirin yuxuda yatar.

Yuxularm şirindi,
Arzularm dərindi.
Mənim bu qız balamın,
Yeri yaman sərindi.

Arzum, diləyim mənim,
Gülüm, çiçəyim mənim.
Bu dünyada hamıdan,
Sənsən göyçəyim mənim.
Laylay, gülüm, a laylay,
Şirin dilim, a laylay.

Baharım, yazım, laylay,
Söhbətim, sazım laylay.
Sən yat, çəkim keşiyin,
Körpəcə quzum, laylay.
Balam, laylay, a laylay,
Gülüm, laylay, a laylay.

Ayım-günümdü balam,
Şirin dilimdi balam.
Mənim həm yurdum-yuvam,
Həm də elimdi balam.

Laylay dedim, düz barı,
Gəl dərdimi üz barı,
Balama qurban olsun,
Yüz arvad, yüz qarı.

## MÜXTƏLİF MƏRASİMLƏRDƏ OXUNAN BAYATI ŞƏKİLLİ NƏĞMƏLƏR

## NOVRUZ BAYRAMINDA OXUNANLAR

### HALAY OYUNU

Yalelәm, halay çәkin, düzülsün,
Yalelәm, xumar gözlәr süzülsün.
Yalelәm, hәr kәs halay demәsә,
Yalelәm, әli әldәn üzülsün.
Hamı – Yalelәm, halayı döndәr belә.

Yalelәm, qızıl üzük laxladı,
Yalelәm, verdim, anam saxladı.
Yalelәm, anama qurban olum,
Yalelәm, mәni tez adaxladı.
Hamı – Yalelәm, halayı döndәr belә.

Yalelәm, o tayda duran oğlan,
Yalelәm, qoltuğu quran oğlan.
Yalelәm, quranın sәni vursun,
Yalelәm, mәnә göz vuran oğlan.
Hamı – Yalelәm, halayı döndәr belә.

Yalelәm, o tayda quzu gördüm,
Yalelәm, tükün qırmızı gördüm.
Yalelәm, açdım cәnnәt qapısın,
Yalelәm, sevdiyim qızı gördüm.
Hamı – Yalelәm, halayı döndәr belә.

Yalelәm, bu gәlәn bizә gәlir,
Yalelәm, hündürdәn düzә gәlir.
Yalelәm, әmimin çiçәk oğlu,
Yalelәm, nәzәrdәn gözә gәlir.
Hamı – Yalelәm, halayı döndәr belә.

Yaleləm, qızıl iynənin sapı,
Yaleləm, görünür bizim qapı.
Yaleləm, yarı yardan eləyən,
Yaleləm, dolansın qapı-qapı.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, ay astana, ay astana,
Yaleləm, quşlar qondu bostana.
Yaleləm, qorxuram yağış yağa,
Yaleləm, abı donum istana.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, ilana bax, ilana,
Yaleləm, ilan yerdə dolana.
Yaleləm, yenicə yar sevmişdim,
Yaleləm, göndərdilər Gilana.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, qamışa bax, qamışa.
Yaleləm, qamış göydə alışa.
Yaleləm, yenicə yar sevmişdim,
Yaleləm, göndərdilər Talışa.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, qar gəlir külək kimi,
Yaleləm, qız gəlir ipək kimi.
Yaleləm, oğlanlar daldan baxır,
Yaleləm, qudurmuş köpək kimi.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, keçi ocağa çıxdı,
Yaleləm, keçinin qıçı çıxdı.
Yaleləm, sizin kimi qızların,
Yaleləm, sözünün puçu çıxdı.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, bu gələn boz atlıdı,
Yaleləm, dördü də boz atlıdı.
Yaleləm, mən yarımı tanıram,
Yaleləm, daldakı boz atlıdı.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, düşbərəni bükmüşəm,
Yaleləm, isti suya tökmüşəm.
Yaleləm, gəldiyim bir ay deyil,
Yaleləm, qaynanamı döymüşəm.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, balaca barım uçdu,
Yaleləm, yaylığım Kürə düşdü.
Yaleləm, əyildim götürməyə,
Yaleləm, qardaş yadıma düşdü.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, dəmirdən maqam olmaz,
Yaleləm, nadandan adam olmaz.
Yaleləm, hamı dərdlər deyilsə,
Yaleləm, mən dərddə adam olmaz.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, hörüklər, ha hörüklər,
Yaleləm, təndir başın körüklər.
Yaleləm, bu ayamın qızları,
Yaleləm, şit balığa yeriklər.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, dama çıxdım mən bu gün,
Yaleləm, damdan tapdım mən düyün.
Yaleləm, yad oğlu mənim nəyim,
Yaleləm, yadıma düşdü bu gün.
Hamı – Yaleləm, halayı döndər belə.

Yaleləm, o tay bu taya baxır,
Yaleləm, arasından su axır.
Yaleləm, o tayın qız-gəlini,
Yaleləm, bu taya həsrət baxır.
Hamı – Yaleləm, halayı döndər belə.

## YAŞIL YARPAQ, QIZILGÜL

Oymaqdan, ay oymaqdan,
Öldüm xına qoymaqdan.
Barmaqlarım yanıbdı,
Çubuğa od qoymaqdan.
Hamı – Yaşıl yarpaq, qızılgül. (əl çala-çala)

Sandıq üstə gəzərəm,
Xırda şahı düzərəm.
Mən bu elin qızıyam,
Qəriblikdə gəzərəm.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Yük altdan zəli çıxdı,
Zəlinin dili çıxdı.
Qardaş, boyuna qurban
Aldığın dəli çıxdı.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Yeri-yeri eşiginə,
Mən baxım yerişinə.
İpək olum dolanım,
Xəncəlinin gümüşünə.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Yeri-yeri at gətir,
Yügən apar, tut gətir.
O yerin sovqatından,
Bir qutuya tut gətir.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Məcməyidə üzüm var,
Üzüm, səndə gözüm var.
Evdəki üç bacının

Kiçiyində gözüm var.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Köynəyi yaşıl oğlan,
Gey gəl, yaraşır, oğlan.
Anam sənə qız verməz
Götür məni qaçır, oğlan.
Hamı – Yaşıl yarpaq, qızılgül.

İynə-sap mizim üstə,
Ağ köynək dizim üstə.
Satın alsın, göndərsin,
Tikməyi gözüm üstə.
Hamı – Yaşıl yarpaq, qızılgül.

O taydan əl eyləmə,
Könlümü al eyləmə,
Sən mənimsən, mən sənin,
Özgə xəyal eyləmə.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Qızılgülsən, butasan,
Dostu əziz tutasan.
Mən o güldən deyiləm,
İyləyəsən, atasan.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Qızıl quşum göydədi,
Qanadları yerdədi.
Qurban olum yarıma,

Yarım qərib yerdədi.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Gəlinə bax, gəlinə,
Əlin vurub belinə.
Gəlinə söz deməyin,
Qaçıb gedər elinə.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Mənim yarım naşıdı,
Naşıların başıdı.
Atlananda bəy oğlu,
Düşəndə yüzbaşıdı.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Ağac atdım ağaca,
Ağac düşdü yamaca.
Qardaşım bir qız sevib,
Qaşı-gözü balaca.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Süd üstü qaymaq gərək,
Qaymağı yığmaq gərək.
Bəzi-bəzi qızların
Cilovun yığmaq gərək.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Dəyirman üstü çiçək,
Oraq gətir gəl biçək.
Qardaş, adaxlını gördüm,
Uzunboy, qara birçək.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Sandıq üstə gəzərəm,
Sandığa gül bəzərəm.

Özüm müsəlman qızı,
Urusfason gəzərəm.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Miçətkəni qurmuşam,
Daldasında durmuşam,
Burdan keçən ceyranın
Ürəyinə qan vurmuşam.
Hamı – Yaşıl yarpaq, qızılgül.

O tayda binə gəlləm,
Gedərəm, yenə gəlləm,
Bir də yarımı görsəm,
İmana-dinə gəlləm.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Stol üstə vaz nədi,
Üstündə kağız nədi,
Əgər məni sevirsən,
Yanındakı qız nədi.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Sərçələr cəh-cəh edər,
Həyəti palçıq edər,
Nədənsə kiçik bacım,
Hər dəfə acıq edər.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Balaca cib bıçağı,
Oldum yarın naçağı,
Bir səhər gəl, bir axşam,
Bir də günorta çağı.
Hamı – Yaşıl yarpaq, qızılgül.

Yük üstündə bir də mən,
Əcəb düşdüm dərdə mən,
Açılmamış qönçə idim,
Necə yatım yerdə mən.
Hamı – Yaşıl yarpaq, qızılgül.

## HAXIŞTALAR

Oğlan, adın Cümşüddü, haxışta,
Gün dağlara düşübdü, haxışta.
Verdiyin qızıl üzük, haxışta,
Barmağımdan düşübdü, haxışta.

Oğlan, adın Talıbdı, haxışta,
Gün dağları alıbdı, haxışta.
Verdiyin qızıl üzük, haxışta,
Barmağımda qalıbdı, haxışta.

Sancağı, ay sancağı, haxışta,
Su tök, yuyum sancağı, haxışta.
Elə xoşuma gəlir, haxışta,
Oğlanın utancağı, haxışta.

Ləyəni, ay ləyəni, haxışta,
Su tök, yuyum ləyəni, haxışta.
Elə xoşuma gəlir, haxışta,
Oğlanın güləyəni, haxışta.

Qırmızı başmaq yaxşıdı, haxışta,
Divardan aşmaq yaxşıdı, haxışta.
Dımbı-dımbıdan nə çıxar, haxışta,
Qoşulub qaçmaq yaxşıdı, haxışta.

Ağ oymanı ağartdım, haxışta,
Qollarını daraltdım, haxışta.
Özüm bir qız deyiləm, haxışta,
Əllisini saraltdım, haxışta.

Tut ağacı deyiləm, haxışta,
Hər qapıya əyiləm, haxışta.
Əyil üzündən öpüm, haxışta,
Mən özgəsi deyiləm, haxışta.

Ağ at qaçdı deyirlər, haxışta,
Yaldan aşdı deyirlər, haxışta.
Muştuluqçu gəlibdi, haxışta,
Yar barışdı, deyirlər, haxışta.

Qızıl gülsən, butasan, haxışta,
Yarı əziz tutasan, haxışta.
Mən o güldən deyiləm, haxışta,
İyləyəsən, atasan, haxışta.

Ağ at kişnədi, gəldi, haxışta,
Cilov dişlədi, gəldi, haxışta.
Qurban olum qardaşa, haxışta,
Toyun başladı, gəldi, haxışta.

Ordubadın yolları, haxışta,
Qoşa bitib kolları, haxışta.
Yaman xoşuma gəlir, haxışta,
Yarın qulac qolları, haxışta.

Çıxdım aya baxmağa, haxışta,
Qapıya qıfıl taxmağa, haxışta.
Yarım xına göndərib, haxışta,
Mənim əlimə yaxmağa, haxışta.

Sən üzərliksən, havasan, haxışta,
Hər yaraya davasan, haxışta.
Yarımda gözü olanın, haxışta,
Gözlərini ovasan, haxışta.

Tut ağacı buruldu, haxışta,
Dibində su duruldu, haxışta.
Hamının yarı gəldi, haxışta,
Mənim boynum buruldu, haxışta.

Biçini biçər, gələr, haxışta,
Suyunu içər, gələr, haxışta.
Mən yadına düşəndə, haxışta,
Quş kimi uçar, gələr, haxışta.

Arazın üstü buzdu, haxışta,
Qıraqları yarpızdı, haxışta.
Oğlanı dərdə salan, haxışta,
Qonşudakı bu qızdı, haxışta.

Arxalığın öndü, yar, haxışta,
Od qaladım, söndü, yar, haxışta.
Yolunu gözləməkdən, haxışta,
Günüm aya döndü, yar, haxışta.

Arazın o yaxası, haxışta,
Ordan bir qız baxası, haxışta.
Laladan köynək geyib, haxışta,
Qızılgüldən yaxası, haxışta.

Armud ağacı haça, haxışta,
Əlim dolaşdı saça, haxışta.
İgid ona demişəm, haxışta,
Məni götürə qaça, haxışta.

Su gəldi, bəndə dəydi, haxışta,
Kətili kəməndə dəydi, haxışta.
Qardaş bir yar sevibdi, haxışta,
Bütün bu kəndə dəydi, haxışta.

Qardaş, qardaş, at gəti, haxışta,
Yəhər verim, at gəti, haxışta.
Xurcundakı mücrüdə, haxışta,
Bacına sovqat gəti, haxışta.

Qardaş, qardaş, üç qardaş, haxışta,
Xəncəri gümüş qardaş, haxışta.
Mən hayana gedəndə, haxışta,
Gəl yanıma düş, qardaş, haxışta.

Bu yolun o üzləri, haxışta,
Bitibdi nərgizləri, haxışta.
Oğlan qızın dərdindən, haxışta,
İtirib öküzləri, haxışta.

Qaşlarının qarası, haxışta,
Çatma durur arası, haxışta.
Sevdiyim bir qız ola, haxışta,
Bir də dağlar arası, haxışta.

Oturmuşdum səkidə, haxışta,
Ürəyim sək-səkədə, haxışta.
Yardan üç alma gəldi, haxışta,
Bir qızıl nəlbəkidə, haxışta.

Aşıqdı, ay aşıqdı, haxışta,
Süfrə dolu qaşıqdı, haxışta.
Ay xala, mən neyləyim, haxışta,
Oğlun mənə aşıqdı, haxışta.

Həyətimizdən keç, oğlan, haxışta,
Aynabəndi aç, oğlan, haxışta.
Atam-anam yatıbdı, haxışta,
Götür məni qaç, oğlan, haxışta.

Yanan çıraq olaydım, haxışta,
Yoldan iraq olaydım, haxışta.
Yarım biçin biçəndə, haxışta,
Soyuq bulaq olaydım, haxışta.

Oturmuşdum daş üstə, haxışta,
Qələminən qaş üstə, haxışta.
Qız dedi, alma gəlsin, haxışta,
Oğlan dedi, baş üstə, haxışta.

Stol üstə göy daraq, haxışta,
Yarımı gördüm bayaq, haxışta.
Yeridim, çatammadım, haxışta,
Qurusun belə ayaq, haxışta.

Ay mənim Fatma nənəm, haxışta,
Qaşları çatma nənəm, haxışta.
Sevəni sevənə ver, haxışta,
Günüha batma, nənəm, haxışta.

Qapımızda qələmə, haxışta,
Quzu təki mələmə, haxışta.
Məni sənə verməzlər, haxışta,
Özün həlak eləmə, haxışta.

Mis qazanın paxırı, haxışta,
Oğlan, qaytar naxırı, haxışta.
Mən ki səni sevirəm, haxışta,
Nədi sözün axırı, haxışta.

Kərdi-kərdi bağlaram, haxışta,
Kərdiyə su bağlaram, haxışta.
Eşitsəm yar evlənir, haxışta,
Zülüm-zülüm ağlaram, haxışta.

Kisə tikdim, olmadı, haxışta,
Suya saldım, solmadı, haxışta.
Elçi gəldi qapıya, haxışta,
Özüm deyən olmadı, haxışta.

Ay qız, adın Mastana, haxışta,
Girmə bizim bostana, haxışta.
Qorxuram yağış yağa, haxışta,
İpək telin isdana, haxışta.

Salxım üstə üzüm var, haxışta,
Üzüm üstə gözüm var, haxışta.
Gələn bir cüt bacının, haxışta,
Kiçiyində gözüm var, haxışta.

Məcmə dolu gavalı, haxışta,
Yedim, oldum havalı, haxışta.
Qonşuda bir qız sevdim, haxışta,
O da çıxdı davalı, haxışta.

Şaftalıyam, kalam mən, haxışta,
Dilim yoxdu, lalam mən, haxışta.
Qonşuda qız sevmişəm, haxışta,
Pulum yoxdu, alam mən, haxışta.

Araba bizim olaydı, haxışta,
Yükü qızıl olaydı, haxışta.
Yarla keçən günlərin, haxışta,
Gecəsi uzun olaydı, haxışta.

Ayım, ulduzum ay qız, haxışta,
İstiotum, duzum, ay qız, haxışta.
Gəl alım qardaşıma, haxışta,
Olum baldızın, ay qız, haxışta.

Araz qırağı çiçək, haxışta,
Oraq götür, gəl biçək, haxışta.
Qardaş, nişanlın gördüm, haxışta,
Üzündə yumru birçək, haxışta.

## TUNQAY MƏLİK

**I dəstə:** Məhlədə qoç yatıbdı, Tunqay Məlik,
Buynuz-buynuza çatıbdı, Salaməleyküm.

**II dəstə:** Hayıf, qoçun qolları, Tunqay Məlik,
Quru yerdə qalıbdı, Salaməleyküm.

**I dəstə:** Cecimi qoydum yükə, Tunqay Məlik,
Qatını bükə-bükə, Salaməleyküm.

**II dəstə:** İstədiyimə getməsəm, Tunqay Məlik,
Doğrananam tikə-tikə, Salaməleyküm.

**I dəstə:** Kağızın ağına bax, Tunqay Məlik,
Çevirib sağına bax, Salaməleyküm.

**II dəstə:** Mən yadına düşəndə, Tunqay Məlik,
İlisunun dağına bax, Salaməleyküm.

**I dəstə:** Qara atın nalıyam, Tunqay Məlik,
Üstü ipək xalıyam, Salaməleyküm.

**II dəstə:** Dəymə, dolaşma, oğlan, Tunqay Məlik,
Mən özgənin malıyam, Salaməleyküm.

**I dəstə:** Göy mahalda göy bulaq, Tunqay Məlik,
Gəl gedək, su dolduraq, Salaməleyküm.

**II dəstə:** Nahaq sevmişəm səni, Tunqay Məlik,
İndi də gəl ayrılaq, Salaməleyküm.

## ZƏLİ-ZƏLİ

Ay zəli, zəli, zəli,
Vay zəli, zəli, zəli.
Qızılgülün xırmanında
İtirdim nazlı yarı.

Ağa, diləyə gəlmişəm,
Sağa diləyə gəlmişəm,
Qızılgülün xırmanında
Qıza diləyə gəlmişəm.

Bir qız gördüm biçində,
Sarı sünbül içində.
Mən yarımı sevmişəm
On beş yaşın içində.

Ay zəli, zəli, zəli,
Vay zəli, zəli, zəli.
Qızılgülün xırmanında
İtirdim nazlı yarı.

Su gəlir qalxa-qalxa,
Tökülür bizim çarxa.
Xəlvətcə bir yar sevmişəm,
Qardaşdan qorxa-qorxa.

Ay zəli, zəli, zəli,
Vay zəli, zəli, zəli.
Qızılgülün xırmanında
İtirdim nazlı yarı.

## YAR BU MEŞƏNİN ODUNU

Ayım, ulduzum, ay qız.
Yar bu meşənin odunu.
Dibəkdə duzum, ay qız,
Yar bu meşənin odunu.
Gəl alım qardaşıma,
Yar bu meşənin odunu.
Olum baldızın, ay qız,
Yar bu meşənin odunu.
Yar bu meşənin odunu...

# GÜLÜMEYLƏR

## GÜLÜM HEY

Toyçular, vurun toyu, gülüm hey,
Gün qalxdı cida boyu, gülüm hey.
Toyda gözəl çox olur, gülüm hey,
Axtarın əsli, soyu, gülüm hey.

Ay sarı kisə ad oldu, gülüm hey,
Dağıldı, bərbad oldu, gülüm hey.
Bu yar bizə yar olmaz, gülüm hey,
Üstümüzə ad oldu, gülüm hey.

Yaylığım həşdi-hüsdü, gülüm hey,
Həşyəsi yerə düşdü, gülüm hey.
On iki qoçaq içində, gülüm hey,
Gözüm çobana düşdü, gülüm hey.

Arxalığın qədəh, yar, gülüm hey,
Geymə, gələr gödəh, yar, gülüm hey.
Sən get, atın yəhərlə, gülüm hey,
Mən də gəlim, gedəh, yar, gülüm hey.

Bağçamızda nar şirin, gülüm hey,
Heyva şirin, nar şirin, gülüm hey.
Sağ olsun qohum-qardaş, gülüm hey,
Hamısınnan yar şirin, gülüm hey.

Əzizinəm, halalam, gülüm hey,
Dilim yoxdu, ha lalam, gülüm hey.
Hamıya haram olsun, gülüm hey,
Yarım üçün halalam, gülüm hey.

Saçda daraq olaydım, gülüm hey,
Yoldan iraq olaydım, gülüm hey.
Yar içəri girəndə, gülüm hey,
Dönüb çıraq olaydım, gülüm hey.

Arxalığım çim yaşıl, gülüm hey,
Geymə, gözüm qamaşır, gülüm hey.
Eşdə səsin gələndə, gülüm hey,
Evdə dilim dolaşır, gülüm hey,

## YALLIBAŞI MAHNILAR

## AY DÖNƏ-DÖNƏ

Sənəyi götdüm, ana,
Bulağa getdim, ana,
Viran qalmış bulaqda
Yaylığım itdi, ana.
Ay dönə, dönə-dönə,
Yarım yad oldu yenə.

Yaylığın yudum, apar,
İtirmə, ayrısı tapar,
Mənim bu eşqili könlüm,
Axtarar, səni tapar.
Ay dönə, dönə-dönə,
Yarım yad oldu yenə.

Sənəyi götdüm, ana,
Bulağa getdim, ana,
Bir yaylıqdan ötəri,
Nahaq qan etdim, ana.
Ay dönə, dönə-dönə,
Yarım yad oldu yenə.

## BAYATI ÜSTÜNDƏ OXUNAN TOY NƏĞMƏLƏRİ

### SONALAR, SONALAR ...

Bu gün ayın üçüdü,
Girmə, bostan içidi,
Dodaqların xam şəkər,
Dilin badam içidi.
Hamı – Sonlar, sonalar,
Göl üstünə qonalar.

Mənim yarım sarı laçın,
Fələk qoymur, qəddim açım,
Qoy səni götürüm qaçım.
Hamı – Sonlar, sonalar,
Göl üstünə qonalar.

Gələndə bizdən gələsən,
Şirin heyvanı dərəsən,
Sən mənə qurban olasan.
Hamı – Sonlar, sonalar,
Göl üstünə qonalar.

Gələndə sizdən gəlmərəm,
Şirin heyvanı dərmərəm,
Mən sənə qurban olmaram.
Hamı – Sonlar, sonalar,
Göl üstünə qonalar.

Evlərə qatar məni,
Qul eylər, satar məni,
Vəfalı yarım olsa,
Axtarar tapar məni.
Hamı – Sonlar, sonalar,
Göl üstünə qonalar.

Sən mənim gözəl yarım,
Bayramdı, bəzən yarım,
Qızıldan, ya gümüşdən
Nişanı düzən yarım.
Hamı – Sonlar, sonalar,
Göl üstünə qonalar.

## AY OĞLAN

Su atdım, yara dəydi,
Qolum divara dəydi,
Ağzımda dilim yansın,
Nə dedim, yara dəydi.
Toy elə, gəlim toyuna, ay oğlan,
Adaxlın qurban boyuna, ay oğlan.

Gedib gəlmək ilə yolu ağartdım,
Sarı başmaq ilə həsri saraltdım,
Məni aldın, düşmən gözün çıxartdın.
Toy elə, gəlim toyuna, ay oğlan,
Adaxlın qurban boyuna, ay oğlan.

Oturmuşdum səkidə,
Qulağım səksəkidə,
Bir qızıl alma gəldi,
Bir qızıl nəlbəkidə.
Toy elə, gəlim toyuna, ay oğlan,
Adaxlın qurban boyuna, ay oğlan.

## QALMIŞAM

Evləri burda yoxdu,
Köçübdü, burda yoxdu,
Canım necə can versin,
Can alan burda yoxdu.

Pəri-pəri pərvərdigar,
Pərvaz olmuşam.
Əlini ver əlimə,
Dalda qalmışam.

Qardaş gəlir meşədən,
Qəlyanı var şüşədən.
Yarım bir köynək tikib,
Yaxası bənövşədən.

Pəri-pəri pərvərdigar,
Pərvaz olmuşam.
Əlini ver əlimə,
Dalda qalmışam.

Qardaş, başına dönüm,
Qələm qaşına dönüm,
Yalnız səni demirəm,
Gəlin, başına dönüm.

Pəri-pəri pərvərdigar,
Pərvaz olmuşam.
Əlini ver əlimə,
Dalda qalmışam.

## YARPAQLARI

Başına qoyubdu qızıldan teşdi,
Fırlana-fırlana çayları keçdi,
Yarı göyçək olan neylər behişti.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Samavar almışam, o tay malıdı,
Üstünə saldığım tirmə şalıdı.
Qızıma göz dikmə, özgə malıdı.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Qarabağda talan var,
Zülfün üstə salan var,
Gedirsən, tez qayıt gəl,
Gözü yolda qalan var.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Qarabağın üzümü,
Yola tikdim gözümü,
Nə gedən var, nə gələn,
Kimə deyim sözümü?
Basma, basma bağları,
Saraldı yarpaqları.

Pəncərə neçə bənddi,
Sana gör neçə bənddi,
Düşəsən mən tək dərdə,
Görəsən necə dərddi.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Bu gələn yar olaydı,
Əlində nar olaydı.
İkimiz bir köynəkdə,
Yaxası dar olaydı.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Bu gələn yar özüdü,
Gözü ceyran gözüdü.
Bir baxdım, tanımadım,
Bir baxdım, yar özüdü.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Durma qapı dalında,
Gözüm qaldı xalında,
Gedib anama deyim,
Gəlim qalım yanında.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Süpür evin yanını,
Oğlan görsün yarını,
Oğlan yarın görəndə
Versin şirin canını.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Astaradan keçdi yar,
Gör hayana köçdü yar,
Hasar hündür, boy alçaq,
Aralanar işdi, yar.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Dəryada fanaram mən,
Od tutub yanaram mən.
Qaş altdan göz eləmə,
Arifəm, qanaram mən.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Dərya dolu lililən,
Yarım oynar gülilən,
Qurban olum yarıma,
Məni saxlar dil ilən.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Xırmanda şana qaldı,
Sancıldı şana qaldı,
Oğlanın əl dəsmalı
Qızda nişana qaldı.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Qızıl üzük firuzə,
Yalvarıram xoruza,
Bu gecə banlamasın,
Yarım gələcək bizə.
Basma, basma bağları,
Saraldı yarpaqları.

## ADAXLIN HANI?

Evlərə gün düşənə,
Alma qoydum nişana,
Qara yaylıq yaraşır
Yardan ayrı düşənə.
Bağçalar barı,
Heyvalar narı.
Qardaş, başına dönüm,
De, bəs adaxlın hanı?

Sinavarım söküldü,
Çayı yerə töküldü,
Sizin bağın bülbülü
Bizim bağa töküldü.
Bağçalar barı,
Heyvalar narı.
Qardaş, başına dönüm,
De, bəs adaxlın hanı?

Mir Həsənin bağları,
Şaqqıldar yarpaqları,
Şeh düşmüş gülə bənzər
Yarımın dodaqları.
Bağçalar barı,
Heyvalar narı.
Qardaş, başına dönüm,
De, bəs adaxlın hanı?

Atdandı, xan əzizim,
Ardınca qaldı gözüm,
Yolda yoldaşın qurban,
Evə gələndə özüm.
Bağçalar barı,
Heyvalar narı.

Qardaş, başına dönüm,
De, bəs adaxlın hanı?

Sərnici düz qoysana,
Bu yana üz qoysana,
Məni sənə verməzlər,
Dilini düz qoysana.
Bağçalar barı,
Heyvalar narı.
Qardaş, başına dönüm,
De, bəs adaxlın hanı?

İstəkanım bir dəstdi,
Dəsti də mənə basdi,
Sag gözüm yara qurban,
Sol gözüm mənə bəsdi.
Bağçalar barı,
Heyvalar narı.
Qardaş, başına dönüm,
De, bəs adaxlın hanı?

## ULDUZ, AMAN

### I MƏTN

Bu gecə ay doğacaq,
Cavanlar oynayacaq,
Bir yaman qaynanam var,
Yarımı qoymayacaq.
Ulduz, aman, ay aman,
Halım yaman, ay aman!

Qaşların qarasından,
Öpəydim arasından,
Mən səni çox sevirəm,
Məhəbbət barasından.
Ulduz, aman, ay aman,
Halım yaman, ay aman!

Əmim oğlu, sən nəsən,
Sən məni bəyənmisən,
Eləsinə gedərəm,
Sən onun nökərisən.
Ulduz, aman, ay aman,
Halım yaman, ay aman!

Su ilanı olaydım,
Ləkdən-ləkə dolaydım,
Yarım əkən çəltiyin
Sünbülü mən olaydım.
Ulduz, aman, ay aman,
Halım yaman, ay aman!

## II MƏTN

Ulduz, ay aman, ay aman, hay,
Yarım, ay aman, ay aman.
Hay qız gedər gəlin olar,
Ulduz, ay aman, ay aman,
Şeh dəyər sərin olar,
Ulduz, ay aman, ay aman,
Qızın getdiyi yerlər,
Ulduz, ay aman, ay aman,
Boy verməz, dərin olar.
Ulduz, ay aman, ay aman, hay,
Yarım, ay aman, ay aman.

Qardaşın kürən atı,
Ulduz, ay aman, ay aman,
Meydana girən atı,
Ulduz, ay aman, ay aman,
Heç kəs oynada bilməz,
Ulduz, ay aman, ya aman,
Qardaş oynadan atı.
Ulduz, ay aman, ay aman, hay,
Yarım, ay aman, ay aman.

Ləm üstə yatan oğlan,
Ulduz, ay aman, ay aman,
Köynəyin kətan, oğlan,
Ulduz, ay aman, ay aman,
Yarını apardılar,
Ulduz, ay aman, ay aman,
Xəbərsiz yatan oğlan.
Ulduz, ay aman, ay aman, hay,
Yarım, ay aman, ay aman.

Hay qırmaçı şirli yarım,
Ulduz, ay aman, ay aman,
Köyli fikirli yarım,
Ulduz, ay aman, ay aman,
Əyləşmə məclislərdə,
Ulduz, ay aman, ay aman,
Göyçək şəkilli yarım.
Ulduz, ay aman, ay aman, hay.
Yarım, ay aman, ay aman.

Hay qalada top atılır,
Ulduz, ay aman, ay aman,
Hay sinəm üstə çatılır,
Ulduz, ay aman, ay aman,
Hay düşmənə biz tərəfdən,
Ulduz, ay aman, ay aman.
Qoşaca zərbələr atılır.
Ulduz, ay aman, ay aman, hay,
Yarım, ay aman, ay aman.

## MAŞALLAH

Mənim yarım yar deyil,
Tərkini qılsam, ar deyil,
Get başına çarə qıl,
Dünya gendi, dar deyil.
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

Pəncərənin milini çək,
Yandır, onun gülün çək,
Qohuma qız verənin
Əngin ayır, dilin çək.
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

Çıxdım təndir üstünə,
Baxdım yarım şəstinə,
Əlində bir dəstə gül,
Atdı sinəm üstünə.
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

Aya bax, necə gedir,
Günə bax, necə gedir,
Şarfı salıb boynuna,
Yar bax, necə gedir.
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

## MƏLƏK, MƏLƏK, CANIM MƏLƏK

Mən bu küçənin qızıyam,
Yarın nəməkdan duzuyam.
Hər kəsənin baldızıyam.
Gəl bağa, bostana mələk,
Canım mələk, mələk,
Aman mələk, mələk.

Evlərinin dalında
Bənd oldun kollarında.
Qızıl qolbaq oleydim
Yarımın qollarında.
Canım mələk, mələk,
Aman mələk, mələk.

Oğlan adın Mürşüddü.
Gün dağlara düşübdü.
Sən aldığın üzüklər,
Barmağımdan düşübdü.
Canım mələk, mələk,
Aman mələk, mələk.

Mənim çəpərdən aşmağım,
Ağzımdan düşdü yaşmağım.
Əlimdə güllü dəsmalım,
Mələk, mələk, mələk,
Canım mələk, mələk,
Aman mələk, mələk.

Oğlan adın Yağubdu,
Gün dağlara doğubdu.
Sən aldığın üzüklər,
Barmağımı boğubdu.

Canım mələk, mələk,
Aman mələk, mələk.

Gəl gedək eyvan altına
Eyvanın, eyvan altına.
Kəlağayı yorğan altına.
Canım mələk, mələk,
Aman mələk, mələk.

## ƏCƏB ŞALIN GÜLLÜDÜ

Nəqarət

I dəstə: Əcəb şalın güllüdü,
Ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidi.

II dəstə: Əcəb şalın güllüdü,
Ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidi.

I dəstə: Qardaş mənim qardaşım,
Qardaşa qurban başım.
Qardaş evlənmək istər,
Dur ayağa, yoldaşım.

I dəstə: Əcəb şalın güllüdü,
Ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidi.

II dəstə: Qardaş gəlir enişə,
Yükü dönüb gümüşə.
Qardaşa qız tapmışam,
Üzdə xalı bənövşə.

II dəstə: Əcəb şalın güllüdü,
Ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidi.

I dəstə: Qardaş ovuna gedər.
Baxar boyuna gedər.

Bu bayramın xonçası,
Qardaş toyuna gedər.

I dəstə: Əcəb şalın güllüdü,
Ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidi.

II dəstə: Qardaş, adına qurban.
Alma, dadına qurban.
Sənə yalqız demərəm,
Gül adaxlına qurban.

II dəstə: Əcəb şalın güllüdü,
Ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidi.

I dəstə: Əcəb şalın güllüdü,
Ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidi.

## ARXALIĞIN MƏRDANƏ, YAR, HEY ...

I dəstə: Arxalığın mərdanə, yar, hey.
Mərcan düzdüm gərdanə, yar, hey.

II dəstə: Mərcan düzdüm gərdanə, yar, hey.

I dəstə: Sevdin, ala bilmədin yar-yar,
Niyə girdin meydana, yar, hey?

II dəstə: Gül baxçada yolun var, yar-yar,
Anam qoymur gələm, yar-yar, hey.

I dəstə: Anam qoymur gələm, yar-yar, hey.

II dəstə: Demə ki, bifəvasan, yar-yar,
Sənə qurban olum, yar-yar, hey.

## AY NAR, HEY NAR

I dəstə: Göy dəvə düzdə qaldı, ay nar, hey, nar.
Yükü Təbrizdə qaldı, gülü nar, hey.

II dəstə: Yükü Təbrizdə qaldı, gülü nar, hey.

I dəstə: Oğlanı dərd apardı, ay nar, hey, nar,
Dərmanı qızda qaldı, gülü nar, hey.

II dəstə: Qızılgülsən, butasan, ay nar, hey nar,
Dostu əziz tutasan, gülü nar, hey.

I dəstə: Dostu əziz tutasan, gülü nar, hey.

II dəstə: Mən o güldən deyiləm, ay nar, hey, nar,
İyləyəsən, atasan, gülü nar, hey.

## NANAY, NANAY, AY NANAY ...

**Nəqarət**

I dəstə: Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay nanay.

II dəstə: Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay nanay.

I dəstə: Ağacın şirin narı,
Şirin deyərlər yarı.

II dəstə: Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay nanay.

I dəstə: Hamıdan şirin olur,
Kiçik qardaşın yarı.

II dəstə: Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay nanay.

II dəstə: Bağa girdim mən bu gün,
Bağda tapdım bir düyün.

I dəstə: Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay nanay.

II dəstə: Yad oğlu mənim nəyim?
Yadıma düşür hər gün.

I dəstə: Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay nanay.

## NAR, NAR, NARGİLƏ

### I MƏTN

**Nəqarət**

I dəstə: Nar, nar, nargilə.
Durun, gedək yargilə.

II dəstə: Nar, nar, nargilə.
Durun, gedək yargilə.

I dəstə: Pəncərəmiz işıqdı,
Yar əlində qaşıqdı.

II dəstə: Nar, nar, nargilə.
Durun, gedək yargilə.

I dəstə: Bizim qızlar neyləsin?
Sizin oğlan aşıqdı.

II dəstə: Nar, nar, nargilə.
Durun, gedək yargilə.

II dəstə: Bu yerlərdə talan var,
Zülfün üzə salan var.

I dəstə: Nar, nar, nargilə,
Durun, gedək yargilə.

II dəstə: Gedirsən, tez qayıt gəl,
Gözü yolda qalan var.

I dəstə: Nar, nar, nargilə,
Durun gedək yargilə.

## II MƏTN

Nar-nar, nargilə,
Durun gedək yargilə.
**(Döndərmə)**

Narıncı tökdüm tasa,
Yarım düşdü tas-vasa,
Dərdimi yara deyin,
Bəlkə, yar qulaq asa.
**(Döndərmə)**

İynə sancdım divara,
Elçi göndərdim yara,
Elçidən cavab olmaz,
Özüm elçiyəm yara.
**(Döndərmə)**

Məzrədə[69] bostan əkdim,
Bostana çəpər çəkdim,
Sənə uşaqlığımdan,
Bel bağladım, göz dikdim.
**(Döndərmə)**

Busqularda duran yar,
Çöl keçisi vuran yar,
Mən səninəm, andımı,
Gətir içim Quran, yar.
**(Döndərmə)**

Qurbağalar quruldar,
Ləkdə suyu duruldar,

---

[69] Məzrə – yer adı

Ələyim ələnibdir,
Göydə xəlbir fırıldar.
**(Döndərmə)**

Dağlarda gəzdim səni,
Döşümə düzdüm səni,
Sənə bir gül vermədim,
Nahaqdan üzdüm səni.
**(Döndərmə)**

Barzəvidən[70] at gəlir,
Belində sovqat gəlir,
Bir öpüş sat yarına,
Gör neçə manat gəlir.
**(Döndərmə)**

---

[70] Zuvand yaxınlığında dağ

## AĞLAMA, CEYRAN BALASI

**Nəqarət**

I dəstə: Ağlama, ceyran balası, ağlama,
Gedər gözlərin qarası, ağlamey.

II dəstə: Ağlama, ceyran balası, ağlama.
Gedər gözlərin qarası, ağlamey.

I dəstə: Hey, gülü lalə vaxtıdı,
Ağlama, ceyran balası, ağlamey.

II dəstə: Ağlama, ceyran balası, ağlamey.

I dəstə: Doldur, piyalə vaxtıdı,
Ağlama, ceyran balası, ağlamey.

II dəstə: Ağlama, ceyran balası, ağlamey.

I dəstə: Çix eyvana, bax ulduza,
Ağlama, ceyran balası, ağlamey.

II dəstə: Ağlama, ceyran balası, ağlamey.

I dəstə: Gör gecənin nə vaxtıdı?
Ağlama, ceyran balası, ağlamey.

II dəstə: Ağlama, ceyran balası, ağlamey.
Gedər gözlərin qarası, ağlamey.

II dəstə: Ay, Masallı yeddi küçə.
Ağlama, ceyran balası, ağlamey.

I dəstə: Ağlama, ceyran balası, ağlamey.

II dəstə: Ay, yeddi yol, yeddi küçə.
Ağlama, ceyran balası, ağlamey.

I dəstə: Ağlama, ceyran balası, ağlamey.

II dəstə: Ay, qardaşa toy eylərəm,
Ağlama, ceyran balası, ağlamey.

I dəstə: Ağlama, ceyran balası, ağlamey.

II dəstə: Ay, yeddi gün, yeddi gecə.
Ağlama, ceyran balası, ağlamey.
Gedər gözlərin qarası, ağlamey.

I dəstə: Ağlama, ceyran balası, ağlamey.
Gedər gözlərin qarası, ağlamey.

## ƏCƏB SƏFALI DAĞLAR

Ay, əcəb səfalı dağlar,
Əcəb səfalı dağlar,
A, bifəfalı dağlar.
Mənim yarım sizdədir,
Mənəm səfalı dağlar.

Bu gün ayın onudur,
Zərxaradan donudur.
Qurban olum qardaşa,
Bu gün onun toyudur.

Zəmə[71] çıxma damcıdır,
Köynəyin narıncıdır.
Oğlan qızın dərdindən,
Ölməyıb zarıncıdır.

İstil üstə dur, oğlan,
Ördək gəlsə vur, oğlan.
Dünya ölüm-itimdir,
Get adaxlın gör, oğlan.

Evləri Gəncədədir,
Atları yoncadadır.
Qurban olum qardaşa,
Güzgüsü xonçadadır.

Dəyirman boş dolanır,
Suyu sərxoş dolanır.
Qurban olum qardaşa,
Əlində quş dolanır.

---

[71] Zəm – çardaq. Yayda orda yatarlar. Həyətdə 4 sütun üstündə olur.

Gəlir o yandan oğlan,
Donun boyadan oğlan.
Gündə bir xəbər verir,
Bizim obadan oğlan.

İstilin dalaları[72],
Ördəyin balaları.
Qardaşa qurban olsun,
Qoşaca xalaları.

Bu gün ayın beşidir,
Çəpər dibi eşdidir.
Qonşuya qız verməyin,
Səsin adam eşidir.

Həyətimizdə çinar,
Yarpağı dinar-dinar.
Qardaş, toyun başlayıb,
Saxlasın pərvərdigar.

Dam üstə duz sərərlər,
Çıxma, boyun görərlər.
Saçından, saç bağından,
Yelkən bağı[73] hörəllər.

Ləmə çıxdım mən o gün,
Tapdım ordan bir dügün.
Yad oğlu mənim nəyim,
Yadıma düşür bu gün.

Həyətimiz soğanlıq,
Sular gəlir bulannıq.
Qızam, mən buyannığam,
Sabah ollam oyannıq.

---

[72] Dala – istillərdə bitən otdur. Ondan həsir toxuyurlar.
[73] Yelkənbağı çox uzun olur. Yelkən gəmiləri için qızlar tərəfindən hörülür.

## VERİN BİZİM GƏLİNİ

Çəpər basdım, yol açdım,
Qızılgülə dolaşdım.
Bir dəstə dərməmişdim,
Hərami gəldi, qaçdım.

Quşlar çıxhaçıx eylər,
Həyəti palçıq eylər.
Zəhləm o yardan qaçar,
Hərdən bir acıq eylər.

Lampanı yanar qoydum,
Üstünə fənar qoydum.
Burdan gedən oğlanın,
Anasın ağlar qoydum.

Əmimoğlu əl eylər,
Əl eylər, xəyal eylər.
Mən yarı evdə qoyub,
Özgəyə məhəl eylər[74].

Ay, qara at nalı neylər,
Verin bizim gəlini,
Ay, ağ üzdə xalı neylər,
Verin bizim gəlini,
Ay, yarı göyçək olanlar,
Verin bizim gəlini,
Ay, dünyada malı neylər,
Verin bizim gəlini.

Verin bizim gəlini,
Qaynı bağlar belini,

[74] Məhəl eylər – meyl eylər

Ay, qara at nalı neylər,
Verin bizim gəlini,
Qaynı bağlar belini,
Ay, ağ üzdə xalı neylər,
Verin bizim gəlini,
Qaynı bağlar belini.
Ay, yarı göyçək olanlar,
Verin bizim gəlini,
Qaynı bağlar belini.
Ay, dünyada malı neylər,
Verin bizim gəlini,
Qaynı bağlar belini.

Gedirdim arx arası,
Tapdım məxmər parası.
Adaxlanmış qız gördüm,
Üzündə diş yarası.

Məstəmməni göreydim,
Daldasında dureydim.
Burdan gedən oğlanın,
Adaxlısı oleydim.

Simavarım şaqqıldar,
Qaynar-qaynar vaqqıldar.
Zəhləm o yardan gedər,
Gedər, gələr nıqqıldar.

Su gəlir qalxa-qalxa,
Tökülür bizim arxa.
Qonşuda qız sevirəm,
Anamdan qorxa-qorxa.

Oturmuşdum qalada,
Çay, samavar arada.

Öldürdülər düşməni,
Üç gün qaldı arada.

Çəltik əkdim dəşanda
Sünbül onda, baş onda.
Qardaş, adaxlın gördüm,
Qələm onda, qaş onda.

Mənim yarım Əlidir,
Qolları düyməlidir.
Yengi hamamdan çıxmış,
Qoynuna girməlidir.

Mənim yarım Əsməni,
Bağda salar xərməni.
Arpasın atlar yemiş,
Buğdası can dərmanı.

Mənim yarım arx atar,
Gedər bicarda yatar.
İndidən toyumuzçun,
İşdə qan-tərə batar.

Mənim yarım ox imiş,
Ox kamanı yox imiş.
Matişgədən göz çəkmir.
Heç kamalı yox imiş.

## AY YOL AÇIN, GƏLİN GƏLİR

Ay, yol açın, gəlin gəlir,
Şıxı telləri yellənir.
Ay, yollara gül döşüyün,
Yol açın, gəlin gəlir,
Ay, gül olun, güldən geyin,
Yol açın, gəlin gəlir,
Ay, qardaşın gül toyudur,
Yol açın, gəlin gəlir,
Ay, "mübarək olsun" deyin,
Yol açın, gəlin gəlir.

Ay, sandıq üstə gəzərəm,
Yol açın, gəlin gəlir,
Ay, sandığa gül bəzərəm,
Yol açın, gəlin gəlir,
Ağır elin qızıyam,
Yol açın, gəlin gəlir,
Qəriblikdə dözərəm,
Yol açın, gəlin gəlir.

Ay, yük altdan zəli çıxdı,
Ay, yol açın, gəlin gəlir,
Zəlinin dili çıxdı,
Ay, yol açın, gəlin gəlir,
Bacın ölsün, ay qardaş,
Aldığın dəli çıxdı.

Yazdır, gülüşür güllər,
Cəh-cəh vurur bülbüllər.
Qardaşın gül toyudur,
Oxuyur şirin dillər.

Dağların başı bizik,
Dibinin daşı bizik.
Bir gəlin gətiririk,
Dümqara qaşı bizik.

Gəlin lap göy qonçədir,
Göyərçindən incədir,
Masallıdan almışıq
Bir az incə-mincədir.

## BAĞÇASI BARI

Ay bu dağlar bizim dağlar, bağçası barı,
Ay sırayla düzüm dağlar, bağçası barı,
Ay qurbanam qara gözlü, bağçası barı,
Ay yarıma özüm dağlar, bağçası barı,

Bağçası, barı,
Heyvası, narı,
Ha şeydalı
Ha meydalı[75]
Yara dilbarı[76].

Ay bu dağlar bizim dağlar, bağçası barı,
Ay sırayla düzüm dağlar, bağçası barı,
Ay qurbanam qara gözlü, bağçası barı,
Ay yarıma özüm dağlar, bağçası barı.

Bağçası, barı,
Heyvası, narı,
Ha şeydalı,
Ha meydalı,
Yara dılbarı.

Ay nərgizi dərə billəm, bağçası barı,
Ay dərib mən sərə billəm, bağçası barı,
Ay yar bizə gəlmiş olsa, bağçası barı,
Ay dirilləm, bir dəölləm, bağçası barı,

Bağçası, barı,
Heyvası, narı,
Ha seydalı,

---

[75] Meydalı – şeyda meyda deyilməsindəki mənada işlənmişdir.
[76] Dilbarı – dildar sözünün pozulmuş formasıdır.

Ha meydalı,
Yara dilbarı.

Evlərinin yanı quyu,
Quyudan çəkəllər suyu.
Bircə öpüşdən ötəri
Tutubdur yarımın xuyu.

Bağçası, barı,
Heyvası, narı,
Ha şeydalı,
Ha meydalı,
Yara dilbarı.

Bizim xoruz uca banlar,
Onun dilin kimlər anlar,
Yada qızımı vermişəm
Qonşular üzümü danlar.

Evlərində qonaq oldum,
Kefi, damağı çağ oldum,
Kiçik qızı görən kimi
Huşu, başı oynaq oldum.

Kəhər atı nazlaram mən,
Uzaq yola sazlaram mən,
Dilim sizə çatmasa da,
Tez-tez kağız yazaram mən.

Üçdəsəri[77] atdım ovda,
Rədd oldu məndən hər qada.
Bir kəklik qana bulaşdı,
Kəklikciyim düşdü yada.

[77] Üçdəsər – üçatılan tüfəng

## NAR, EY NAR[78]

Gəldi oğlan adamı, hay nar, ey nar,
Oğlan, sındır badamı, gül ireyhan[79].
Sındır qoy dalın[80] qatla, hay nar, ey nar,
Görməsin qız adamı, gül ireyhan.

Ay çıxdı yanı-yanı, hay nar, ey nar,
Ayın bir yanı hanı, gül ireyhan.
Naz balışdan xəbər al, hay nar, ey nar,
Döşək sərdarın hanı, gül ireyhan.

Su gəlir, arxa nə var, hay nar, ey nar,
Çiməndən çarxa nə var, gül ireyhan.
Mən yarla danışıram, hay nar, ey nar,
Bilmirəm xalxa nə var, gül ireyhan.

Suyun bəndinə qurban, hay nar, ey nar,
Yarın kəndinə[81] qurban, gül ireyhan.
Həyətdə at yəhərlər, hay nar, ey nar,
Sinəbəndinə qurban, gül ireyhan.

Samavarın şirinə, hay nar, ey nar,
İstəkanın gülünə, gül ireyhan.
Mən qurban, anam qurban, hay nar, ey nar,
Yarın şirin dilinə, gül ireyhan.

İstəkanın qanlıdır, hay nar, ey nar,
Əl vurma dərmanlıdır, gül ireyhan.
Əslini xəbər alsan, hay nar, ey nar,
Əsli Səmidxanlıdır, gül ireyhan.

---

78 Bu mahnını gəlin üçün şirni xonçası aparanda oxuyardılar.
79 İreyhan – reyhan
80 Dal – budaq
81 Kəndinə – özünə

Çəltiyə basma ayaq, hay nar, ey nar,
Ləkləri birgə sayaq, gül ireyhan.
Belə şirin sevginin, hay nar, ey nar,
Adını biz nə qoyaq, gül ireyhan.

## TOYUN MÜBARƏK OLSUN

Toyun mübarək olsun!
Deyin, mübarək olsun!
Dağları yaylım-yaylım,
Toyun mübarək olsun!
Düzündə necə qalım,
Toyun mübarək olsun!
Görün gözümə bir də,
Toyun mübarək olsun!
Qardaş, qadanı alım,
Toyun mübarək olsun!
Deyin, mübarək olsun!

Lənkəran hacıları,
Toyun mübarək olsun!
Başında tacıları,
Toyun mübarək olsun!
Qardaşa qurban olsun,
Toyun mübarək olsun!
Qoşaca bacıları.
Toyun mübarək olsun!
Deyin, mübarək olsun!

Sıra-sıra söyüdlər,
Toyun mübarək olsun!
Sıraya duran atlar,
Toyun mübarək olsun!
Yüz iyidin içində,
Toyun mübarək olsun!
Qardaşımın adı var.
Toyun mübarək olsun!
Deyin, mübarək olsun!

Evləri gün düşənə,
Toyun mübarək olsun!
Alma qoydum nişana,
Toyun mübarək olsun!
Kətan köynək yaraşır,
Toyun mübarək olsun.
Yardan ayrı düşənə.
Toyun mübarək olsun!
Deyin, mübarək olsun!

Pəncərənin milin çək,
Toyun mübarək olsun!
Yandır-yandır, külün çək,
Toyun mübarək olsun!
Qonşuya qız verənin,
Toyun mübarək olsun!
Cəngin ayır, dilin çək,
Toyun mübarək olsun!
Deyin, mübarək olsun!

## EY LAL-LA[82]

Ey lal-la, bir quş idim, ey lal-la,
Çəpərə qonmuş idim, ey lal-la,
Getdim onu tutmağa, ey lal-la,
Yad oğlu görmüş idi, ey lal-la,
Ey lal-la, ey lal-la, ay lal-la.
Ey lal-la, ey lal-la, ay lal-la.

Çəpərimi əzdilər, ey lal-la,
Faytonuynan gəzdilər, ey lal-la,
Məni burda qoydular, ey lal-la,
Göyçək için gəzdilər.

Dəyirman üstü çiçək, ey lal-la,
Yarpağı ləçək-ləçək, ey lal-la,
Qardaş bir qız sevibdir, ey lal-la,
Uzun boy, qara birçək, ey lal-la.

Eylallanın dağları, ey lal-la,
Sərindi bulağları, ey lal-la,
Gecələr mator səsi, ey lal-la,
Yatmayır qonaqları, ey lal-la.

Bizim dağların qarı, ey lal-la,
Sərindir bulağları, ey lal-la,
Evimizə gəlmirsən, ey lal-la,
Qonşumuza gəl barı, ey lal-la.

Obamızın qucağı, ey lal-la,
Olma yarın qaçağı, ey lal-la,

[82] Bu, lo-lo kimi mahnıarası sözdür.

Bir səhər gəl bir axşam, ey lal-la,
Bir də günorta çağı, ey lal-la.

Qapıdan əl eyləmə, ey lal-la,
Bağrımı qan eyləmə, ey lal-la,
Mən səninəm, sən mənim, ey la-la,
Özgə xəyal eyləmə, ey lal-la.

## APARMAĞA GƏLMİŞİK[83]

Mal almağa gəlmişik,
Yar almağa gəlmişik,
Oğlanın adamıyıq,
Aparmağa gəlmişik.

Qızılgüllər koldadır,
Əl çatmayan qoldadır,
Qız ürəyi döyünür,
Oğlan gözü yoldadır.

Qızın bəxti ağ olsun,
Qohumları sağ olsun,
Qızın getdiyi yollar,
Yansın çilçıraq olsun.

Hər şey Allahinəndir,
Mahalda şahinəndir,
Qızın gəlin getməsi
Dəmi-dəsgahinəndir.

Söyüdlər sirəm-sirəm,
Yarpağıynan əsirəm.
Qızı aparmaq için
Sizə mən də əsirəm.

Qıznızı gəldik gördük,
Saçını yuyub hördük.
Gül əkdik həyətində,
Evin sildik süpürdük.

---

[83] Gəlini ata evindən çıxaran zaman oğlan evindən gələnlər tərəfindən oxunardı.

Oğlanın gümüşü var,
İşində gümüsü var.
İtiynən pişiyiynən,
Qapıda gomuşu[84] var.

Dağlardan gül dərərik,
Yeznözə göndərərik.
Qırx gündən sonra sizə,
Qızuzinən gələrik.

---

[84] Gomuş – camış

## AĞAM XAN OTAĞINDA

Ağam xan otağında,
Mirzəm xan otağında,
Bir dəstə gül açılıb,
Qardaşın otağında.
(Döndərmə oxunur)

Əlimdə var bağlama,
Ağam xan otağında.
Mən gedirəm, ağlama,
Ağam xan otağında.
Gedirəm, genə gəlləm,
Yadlara bel bağlama.
(Döndərmə oxunur)

Yeri-yeri, gəlirəm,
Ağam xan otağında.
Qolumu düyməlirəm,
Ağam xan otağında.
Aç qoynuvu, mən girim
Əsgərlikdən gəlirəm.
(Döndərmə oxunur)

Kəklik qayada yatar,
Ağam xan otağında.
Vurular, qana batar,
Ağam xan otağında.
Xoş qardaşın halına,
Bir gün yarına çatar.
(Döndərmə oxunur)

Samavar qoşa gəldi,
Ağam xan otağında.
Qaynadı, coşa gəldi,

Ağam xan otağında.
Qardaş sənin toy işin,
Nə hasand başa gəldi.
(Döndərmə oxunur)

Oğlan adın Yaqubdur,
Ağam xan otagında.
Gün dağlara doğubdur,
Ağam xan otağında.
Sən yollayan üzüklər,
Barmağımı boğubdur.
(Döndərmə oxunur)

Yeri-yeri, işim var,
Ağam xan otağında.
Zərgərdə gümüşüm var,
Ağam xan otağında.
Evdə qaynanam kimi,
Mürdəşir yumuşum var.
(Döndərmə oxunur)

Qaynatam xoş kişidir,
Ağam xan otağında.
Baldızım lap yaxşıdır,
Ağam xan otağında.
Bir ölmüş qaynanam var,
Gəlinə daş daşıdır.
(Döndərmə oxunur)

Ağan özünə dəyər,
Ağam xan otağında.
Başı gözünə dəyər,
Ağam xan otağında.
Yeriyəndə saqqalı,

Qurşaq dizinə dəyər.
(Döndərmə oxunur)

Əzəldən eşitmişdim,
Ağam xan otağında.
Beləsin görməmişdim,
Ağam xan otağında.
Mən evdə oturmaqdan
Saralıb dərdə düşdüm.
(Döndərmə oxunur)

Yar sevdim, uzaq eldir,
Ağam xan otağında.
Qara göz, qara teldir,
Ağam xan otağında.
Masallının qızları
Uca boy, incə beldir.
(Döndərmə oxunur)

İlan vursun qocanı,
Ağam yar otağında.
Qurtarsın kaftar canı,
Ağam yar otağında.
Cavan canım əlindən
Olub pişik siçanı.
(Döndərmə oxunur)

## ALMANI ALMA, GƏLİN[85]

Almanı alma, gəlin,
Almanı alma, gəlin,
Al, yerə salma gəlin,
Almanı alma, gəlin,
Evlərdə çox söz olar,
Almanı alma, gəlin,
Ürəyinə salma, gəlin,
Almanı alma, gəlin.
Almanı al, almanı al,
Almanı al, almanı alma, gəlin.
(Döndərmə)

Bu yol yolluğa gedər,
Almanı alma, gəlin,
Ucu bolluğa gedər,
Almanı alma, gəlin,
Atdanıb Mirzə qardaş,
Yenə qulluğa gedər.
(Döndərmə)

Su gələr, bəndə dəyər,
Almanı alma, gəlin,
Kəkil kəməndə dəyər,
Almanı alma, gəlin,
Səndəki o zabitə[86],
Həmən bu kəndə dəyər.
(Döndərmə)

Gəlin gəldi, xan gəldı,
Almanı alma, gəlin,
Evləri yıxan gəldi,

---

[85] Gəlin oğlan evinə gələn zaman oxunardı.
[86] Zabitə – vüqar, ciddilik

Almanı alma, gəlin,
Əlində iti ülgüc,
Başımızı qırxan gəldi.
(Döndərmə)

Otur ağır, gəl batman,
Almanı alma, gəlin,
Sənə atarlar katman,
Almanı alma, gəlin,
Gəlin yaman bəladır,
Qonşular deyən zaman.
(Döndərmə)

Deyəllər çox-çox gəlin,
Almanı alma, gəlin,
Hayasızdır çox gəlin,
Almanı alma, gəlin,
Şapatlar qaynanasın,
Sənə dəyməz ox, gəlin.
(Döndərmə)

Ay gəlin, gözüm gəlin,
Almanı alma, gəlin
İşlərəm özüm, gəlin,
Almanı alma, gəlin
Neyləsin qaynanası,
Tənbəldir bizim gəlin.
(Döndərmə)

Gəlin savaşa qoçdur,
Almanı alma, gəlin,
Gəlinə sevinc xoşdur,
Almanı alma, gəlin,
Bir az başdan qovraqdır,
Bir az da dildən boşdur.
(Döndərmə)

## BU GECƏ[87]

Yaxşı yol, yaxşı qıza, bizə qonaqdır,
Burdan köçən nərgizə, yolu iraqdır,
Çox bəxtəvər qızları, bizə qonaqdır,
Köçürtmək düşür bizə, yolu iraqdır,
Bu gecə xanım bacı bizə qonaqdır,
Sabahdan gəlin gedir, yolu iraqdır.

Bildirçin havadadır, bizə qonaqdır,
Əlçatmaz yuvadadır, yolu iraqdır,
Bəxtəvər gəlin köçür, bizə qonaqdır,
Bir əlim duadadır, yolu iraqdır,
Bu gecə xanım bacı bizə qonaqdır,
Sabahdan gəlin köçür, yolu iraqdır.

Bildirçinəm, uçmuşam, bızə qonaqdır,
Yar bağına düşmüşəm, yolu iraqdır,
Uzağa gəlin köçən, bizə qonaqdır,
Gəlinlə dost düşmüşəm, yolu iraqdır,
Bu gecə xanım bacı bizə qonaqdır,
Sabahdan gəlin köçür, yolu iraqdır.

Evləri Alvadıda[88], bizə qonaqdır,
Qızı vermişik yada, yolu iraqdır,
Şirin olsa yad oğlu, bizə qonaqdır,
Nə gərək ana-ata, yolu iraqdır,
Bu gecə xanım bacı bizə qonaqdır,
Sabahdan gəlin gedir, yolu iraqdır.

Gəmilər yola düşür, bizə qonaqdır,
Dost üzlərnən görüşür, yolu iraqdır,
Həmişə sənnən gəzən, bizə qonaqdır,

---

[87] Gəlin oğlan evinə yola salınarkən qız evində oxunan mahnılardan biridir.
[88] Alvadı – Masallıda kənd adıdır.

Qız sənnən ayrı düşür, yolu iraqdır,
Bu gecə xanım bacı bizə qonaqdır,
Sabahdan yola düşür, yolu iraqdır.

Bicarda çəltik göydür, bizə qonaqdır,
On gündür burda toydur, yolu iraqdır,
Bir qəşəng yar sevmişəm, bizə qonaqdır,
İncə bel, uca boydur, yolu iraqdır,
Bu gecə xanım bacı bizə qonaqdır,
Sabahdan gəlin gedir, yolu iraqdır.

## SU GƏLDİ, BÜRÜDÜ YOLLARIN[89]

Toy elə, gəlim toya,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Qurbanam belə boya,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Bu gün gördüyüm yarı,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Dahı görmərəm ola?
Su gəldi, bürüdü yolların, ay gəlin,
Kağızdan ağdır qolların, ay gəlin.
(Döndərmə)

Yarım gedib yaylağa,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Mən qurbanam qaynıma,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Çöldə başı ağrısa,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Yolla gəlsin yanıma.
(Döndərmə)

Əlində cecim[90] tovlar,
Su gəldi, basdı yolların, ay gəlin,
Gördüm yar bulud ovlar,
Su gəldi, basdı yolların, ay gəlin,
Gəlirsən, ertədən gəl,
Su gəldi, basdı yolların, ay gəlin,
Qardaş adam buxovlar.
(Döndərmə)

---

[89] Toyda oxunan mahnılardan biridir.
[90] Cecim – tüksüz xalça, o tirə mal bağlamaq için kəndir də hörürlər.

Ağ dəvənin gözləri,
Su gəldi, basdı yolların, ay gəlin,
Yerə gəlməz dizləri,
Su gəldi, basdı yolların, ay gəlin,
Bu ayamın qızları,
Su gəldi, basdı yolların, ay gəlin,
Kəbin kəsir özləri.
(Döndərmə)

Qar yağar kəpək kimi,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Qız gəzər ipək kimi,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Cahillər gennən baxar,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Leş yemiş köpək kimi.
(Döndərmə)

Ələk ələyə dönsün,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Unlar kəpəyə dönsün,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Var olsun dostlarımız,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Düşmən köpəyə dönsün.
(Döndərmə)

Aya bax necə gedir,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Yorulub gecə gedir,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Qardaşın gül boyuna,
Su gəldi, bürüdü yolların, ay gəlin,
Başlarda xonça gedir.
(Döndərmə )

Aya bax necə gedir,
Yorulub, gecə gedir.
Qurban olum qardaşa,
Yazilən Haca gedir.
(Döndərmə)

## QIZ, KƏMƏRİN BAĞLAMA

Yağış yağar, şarıldar,
Qız, kəmərin bağlama,
Bağçada gül xarıldar,
Qız, kəmərin bağlama,
Qardaş ova çıxanda,
Qız, kəmərin bağlama,
Üzəngisi parıldar,
Qız, kəmərin bağlama,
Qız, kəmərin bağlama,
Yarın gələr, ağlama.
(Döndərmə)

Ay çıxdı, bizə düşdü,
Qız, kəmərin bağlama,
Sürmələr gözə düşdü,
Qız, kəmərin bağlama,
Heç ayrılıq yox idi,
Qız, kəmərin bağlama,
Ayrılıq bizə düşdü,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Yağış yağır, nəm çilər,
Qız, kəmərin bağlama,
Qapıdadır elçilər,
Qız, kəmərin bağlama,
Atam deyir, gəl apar,
Qız, kəmərin bağlama,
Anam deyir, qaç qutar,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Bağça bar üstdən gəlir,
Qız, kəmərin bağlama,
Heyva nar üstdən gəlir,
Qız, kəmərin bağlama,
Bu şoğərib mahnılar,
Qız, kəmərin bağlama,
Hamı yar üstdən gəlir,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Yarın pələməsinə,
Qız, kəmərin bağlama,
Ceyran gəlir səsinə,
Qız, kəmərin bağlama,
Belə həvəsim gəlir,
Qız, kəmərin bağlama,
Çıxam yollar üstünə,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Yağış yağar həmişə,
Qız, kəmərin bağlama,
Quşlar dolar qamışa,
Qız, kəmərin bağlama,
Söndürməyə su tapılmaz,
Qız, kəmərin bağlama,
Yarı için yanmışa,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Qızıl iynənin sapı,
Qız, kəmərin bağlama,
Görükür bizim qapı,
Qız, kəmərin bağlama,
Yarı yardan eyliyən,

Qız, kəmərin bağlama,
Dilənsin qapı-qapı,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Bundan uzaqdır göllər,
Yar, kəmərin bağlama,
Dəstirimə yet ellər,
Qız, kəmərin bağlama,
Dəstirin qara gəlsə,
Qız, kəmərin bağlama,
Genə gəl burdan evlən,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Qara at qaçdı gəldi,
Qız, kəmərin bağlama,
Yüyənin açdı, gəldi,
Qız, kəmərin bağlama,
Xanımlara muştuluq,
Qız, kəmərin bağlama,
Bəylər barışdı gəldi,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Gəl məni burdan al, yar,
Qız, kəmərin bağlama,
Ağır dərtlərdən qurtar,
Qız, kəmərin bağlama,
Sən mənim vəfalımsan,
Qız, kəmərin bağlama,
Vəfasız yarın atar,
Qız, kəmərin bağlama.
(Döndərmə)

Masallıda bağım var,
Qız, kəmərin bağlama,
Bağda göy yaprağım var,
Qız, kəmərin bağlama,
Genə yar bizə gəlir,
Qız, kəmərin bağlama,
Təzə bir sorağım var,
Qız, kəmərin bağlama.
(Döndərmə)

## YAR-YAR

Yadlar öyrətdi səni, yar-yar,
Başa düşmədin məni, yar-yar,
Heç vaxt belə salmayıb, yar-yar,
Dərdə sevən sevəni, yar-yar.

Məni saydın sən naşı, yar-yar,
Oldun toxların başı, yar-yar,
Bir kəlmə sözə satdın, yar-yar,
Alagöz, qələm qaşı, yar-yar,

Bu dağ o dağa çatmaz, yar-yar,
Kölgə budağa çatmaz, yar-yar,
Gül-güldən gözəl olar, yar-yar
Sevən sevəni atmaz, yar-yar,

Bu dağda daş olaydım, yar-yar,
Düşüb xırdaş olaydım, yar-yar,
Ölümümə razıyam, yar-yar,
Sən ilə kaş olaydım, yar-yar,

Ağacda yarpaq olsun, yar-yar,
Dibində torpaq olsun, yar-yar,
Məni sevməsən də sən, yar-yar,
Təkcə canın sağ olsun, yar-yar.

## BAYATILARIN GÖTÜRÜLDÜYÜ QAYNAQLAR

1. Azərbaycan folkloru antologiyası. (Toplayıb tərtib edən: Ə.Axundov). I kitab. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1968

2. Azərbaycan folkloru antologiyası. I cild. Naxçıvan folkloru. (Tərtib edənlər: T.Fərzəliyev, M.Qasımlı). Bakı, "Sabah", 1994

3. Azərbaycan folkloru antologiyası. XII cild. Zəngəzur folkloru. (Toplayanlar: f.e.d.V.Nəbioğlu, f.e.n. M.Kazımoğlu, f.e.n. Ə.Əsgər; tərtib edənlər: M.Kazımoğlu, Ə.Əsgər). Bakı, "Səda", 2005

4. Azərbaycan folkloru antologiyası. XVI cild. Ağdaş folkloru. (Toplayıb tərtib edən: f.e.n. İ.Rüstəmzadə). Bakı, "Səda", 2006

5. Azərbaycan folkloru antologiyası. X cild. İrəvan Çuxuru folkloru. (Toplayıb tərtib edənlər: f.e.n. H.İsmayılov, f.e.n. Əziz Ələkbərli). Bakı, "Səda", 2004

6. Azərbaycan folkloru antologiyası. XIV cild. Dərbənd folkloru. (Topladılar: f.e.d. H.İsmayılov, S.Xurdamiyeva, tərtib edənlər: f.e.d. H.İsmayılov, T.Orucov). Bakı, "Səda", 2006

7. Azərbaycanın aşıq və şair qadınları. (Tərtib edən: Ə.Cəfərzadə). Bakı, Gənclik, 1991

8. Qasımov H. Azərbaycan xalq bayatıları. Bakı, Azərnəşr,1960

9. Masallı folklor örnəkləri. I kitab. (Tərtib edən: F.Bayat (Gözəlov)). Bakı, "Elm və təhsil", 2013

10. Masallı folklor örnəkləri. II kitab. (Tərtib edən: F.Bayat (Gözəlov)). Bakı, "Nurlan", 2013

11. Məmmədli A. Haylada unudulan tariximiz və təmbur. Bakı, "Kitab klubu", 2013

12. Şəki folklor örnəkləri. II kitab. (Toplayıb tərtib edən: fil.ü.f.d. Ləman Vaqifqızı (Süleymanova)). Bakı, "Elm və təhsil", 2014

13. Qarabağ: folklor da bir tarixdir. I kitab (Ağdam, Füzuli, Ağcəbədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Toplayıb tərtib edənlər: fil.ü.f.d. İ.Rüstəmzadə, Z.Fərhadov. Bakı, “Elm və təhsil”, 2012

14. Qarabağ: folklor da bir tarixdir. II kitab (Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri). Toplayıcılar: fil.ü.f.d. Ə.Əsgər, fil.ü.f.d.İ.Rüstəmzadə, fil.ü.f.d. T.Orucov, Z.Fərhadov; tərtib edən: İ.Rüstəmzadə. Bakı, “Elm və təhsil”, 2012

15. Qarabağ: folklor da bir tarixdir. III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri). Tərtib edən: fil.ü.f.d.İ.Rüstəmzadə. Bakı, “Elm və təhsil”, 2012

16. Qarabağ: folklor da bir tarixdir. VI kitab (Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri). Toplayıb tərtib edən: fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Bakı, “Zərdabi LTD” MMC, 2013

17. Qarabağ: folklor da bir tarixdir. VII kitab (Xocavənd rayonundan toplanmış folklor örnəkləri).Toplayıb tərtib edən: fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Bakı, “Zərdabi LTD” MMC, 2014

18. “Tunqay Məlik”, “Yar bu meşənin odunu” və “Zəlizəli” nəğmələri fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova) tərəfindən 2013-cü ildə Qax rayonunun Cəlayir kəndindən toplanmışdır və onun şəxsi arxivindədir.

## MÜNDƏRİCAT

**Ön söz (Ləman Vaqifqızı-Süleymanova)........................3**

**BAYATILAR VƏ AĞILAR...........................................6**
**DEYİŞMƏ BAYATILAR...............................................188**
**HAYLALAR**
Haylaçı Sənəmin haylaları............................................190
Müxtəlif haylalar .......................................................206
**VƏSFİ-HALLAR ..........................................................213**
**SAYAÇI SÖZLƏR.........................................................221**
**LAYLALAR .................................................................225**
**MÜXTƏLİF MƏRASİMLƏRDƏ OXUNAN BAYATI ŞƏKİLLİ NƏĞMƏLƏR**
**Novruz bayramında bayatı üstündə oxunanlar**
Halay oyunu..................................................................234
Yaşıl yarpaq, qızılgül....................................................238
Haxıştalar.....................................................................243
Tunqay Məlik ...............................................................249
Zəli-zəli.........................................................................250
Yar bu meşənin odunu...................................................251
**GÜLÜMEYLƏR**
Gülüm hey ....................................................................252
**YALLIBAŞI MAHNILAR**
Ay dönə-dönə ...............................................................254
**BAYATI ÜSTÜNDƏ OXUNAN TOY NƏĞMƏLƏRİ**
Sonalar, sonalar ...........................................................255
Ay oğlan .......................................................................257
Qalmışam......................................................................258
Yarpaqları.....................................................................259
Adaxlın hanı?................................................................262
Ulduz, aman..................................................................264
Maşallah .......................................................................267
Mələk, mələk, canım mələk..........................................268
Əcəb şalın güllüdü.........................................................270

Arxalığın mərdanə, yar, hey... ......................................272
Ay nar, hey nar ............................................................273
Nanay, nanay, ay nanay ................................................274
Nar, nar, nargilə ..........................................................275
Ağlama, ceyran balası ..................................................278
Əcəb səfalı dağlar .......................................................280
Verin bizim gəlini .........................................................282
Ay yol açın, gəlin gəlir .................................................285
Bağçası, barı ................................................................287
Nar, ey nar ...................................................................289
Toyun mübarək olsun ...................................................291
Ey lal-la .......................................................................293
Aparmağa gəlmişik .......................................................295
Ağam xan otağında .......................................................297
Almanı alma, gəlin .......................................................300
Bu gecə ........................................................................302
Su gəldi, bürüdü yolların ..............................................304
Qız, kəmərin bağlama ...................................................307
Yar-yar .........................................................................311
**Bayatıların götürüldüyü qaynaqlar ..............................312**

**Azərbaycan bayatıları.**
Bakı, Elm və təhsil, 2022

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Səbinə İsayeva**

Kompyuterdə yığdı:
**Ləman Abdulxalıqova**

Korrektor:
**Məhsəti Süleymanova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 316 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.